**BAKI DÖVLƏT UNİVERSİTETİ**
**TARİX FAKÜLTƏSİ**

№1(7) 2023

ISSN: 2708-3934 (Print)
ISSN: 2708-3942 (Online)

# "Türk dünyası gənc tədqiqatçılar dərnəyi"nin Araşdırmaları

## Studies of the Turkic World Young Researchers Association

***Heydər Əliyev - 100***
***Azərbaycan Xalq Cümhuriyyəti - 105***

# 1 (7)

**Bakı - 2023**

*Türk Dünyası Gənc Tədqiqatçılar Dərnəyinin Araşdırmaları*

№1(7) 2023

*Baş redaktor:* Sevinc Ruintən / Sevinj Ruintan
*Bakı Dövlət Universiteti / Baku State University, Azerbaijan*

*Redaktor müavini:* Səidə Quliyeva / Saida Quliyeva
*Bakı Dövlət Universiteti / Baku State University, Azerbaijan*

*Redaksiya heyəti:*

Arzu Məmmədova /Arzu Mammadova
*Bakı Dövlət Universiteti / Baku State University, Azerbaijan*
Cavid Əlisgəndərli / Javid Alisgandarli
*Türk Dünyası gənc tədqiqatçılar dərnəyi / Turkic World Young Researchers Association Azerbaijan*
Elvira Lətifova / Elvira Latifova
*Bakı Dövlət Universiteti / Baku State University, Azerbaijan*
İqbal Ağayev / Igbal Agayev
*Bakı Dövlət Universiteti / Baku State University, Azerbaijan*
Kader Özlem / Kader Ozlem
*Uludağ Universiteti, Bursa, Türkiyə / Uludag University, Bursa, Turkey*
Kəmalə Nəcəfova / Kamala Najafova
*Bakı Dövlət Universiteti / Baku State University, Azerbaijan*
Kərəm Məmmədov / Karam Mammadov
*Bakı Dövlət Universiteti / Baku State University, Azerbaijan*
Qismət Davudov / Qismat Davudov
*Bakı Dövlət Universiteti / Baku State University, Azerbaijan*
Lalə Əliyeva / Lala Aliyeva
*Bakı Dövlət Universiteti / Baku State University, Azerbaijan*
Murat Jane / Murat Jane
*İstanbul Aydın Universiteti, Türkiyə / İstanbul Aydın University, Turkey*
Rövşən Hətəmov / Rovshan Hatamov
*Bakı Dövlət Universiteti / Baku State University, Azerbaijan*
Sevinc Qasımova / Sevinj Qasımova
*Bakı Dövlət Universiteti / Baku State University, Azerbaijan*
Talqat Moldabay / Talqat Moldabay
*L.N.Qumilyov adına Avrasiya Milli Universiteti, Qazaxıstan / L.N.Gumilyov Eurasian National University, Kazakhstan*
Vladimir Redçenko / Vladimir Redchenko
*N.Q.Çernışevski adına Saratov Dövlət Universiteti, Rusiya / Saratov State University, Russia*
Zərifə Nəzirli / Zarifa Nazirli
*Bakı Dövlət Universiteti / Baku State University, Azerbaijan*

© Türk Dünyası Gənc Tədqiqatçılar Dərnəyinin Araşdırmaları, 2017
Bakı Dövlət Universiteti, Azərbaycan

## Redaksiyadan

Bakı Dövlət Universiteti "Türk xalqları tarixi" kafedrasının 25 illik yubileyi münasibətilə 2017-ci ildən nəşrinə başlanmış "Araşdırmalar" kafedranın nəzdində fəaliyyət göstərən "Türk dünyası gənc tədqiqatçılar" dərnəyinin jurnalı olaraq təsis edilmişdir. Türk xalqları tarixi kafedrasının və Tarix fakültəsi Elmi Şurasının qərarları alınmaqla, ildə 1 sayı nəşr olunur. Jurnalda yalnız tələbə məqalələri nəşr edilir. Məqalələr 4 dildə qəbul edilir: Azərbaycan, türk, rus və ingilis dillərində. Jurnalda Türk dünyası gənc tədqiqatçılarının tarix üzrə araşdırmaları ilə bərabər, həm də ümumilikdə gənc tarixçi tələbələrin Türk dünyası ilə bağlı araşdırmaları dərc edilir.

Jurnalın hazırki sayı "Azərbaycan Respublikasında 2023-cü ilin "Heydər Əliyev ili" elan olunması ilə bağlı Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 29 sentyabr tarixli 3494 №-li sərəncamı"ndan irəli gələn tədbirlərin icra edilməsi məqsədilə Bakı Dövlət Universiteti rektorunun 2023-cü il 23 yanvar tarixli R-04 №-li əmri ilə təsdiq edilmiş tədbirlər planına uygun olaraq, Ümummilli lider Heydər Əliyevin anadan olmasının 100-cü, həmçinin Azərbaycan Xalq Cümhuriyyətinin 105-ci ildönümlərinə həsr edilmişdir.

*Redaksiya ilə əlaqə:* txt_kaf@bsu.edu.az
*Jurnalın web-səhifəsi:*http://history.mamedov.co/turk-dunyasi-genc-tedqiqatcilar-derneyi-nin-arasdirmalari

# MÜNDƏRİCAT / CONTENTS

*1813-1826-cı illərdə Rusiya ilə Qacarlar İranı arasında münasibətlər haqqında*
Aynurə Hüseynova (Azərbaycan Universiteti) ........................... 6
*Azərbaycanın istiqlaliyyətini beynəlxalq aləmdə tanıdan diplomat: Əlimərdan bəy Topçubaşov*
Aysel Əliyeva (Bakı Dövlət Universiteti) .................................. 15
*İkinci dünya müharibəsi ərəfəsində SSRİ-də çinlilərin və koreyalıların deportasiyası*
Balamirzə Məmmədli (Bakı Dövlət Universiteti) ...................... 26
*Xürrəmilər hərəkatı.Babəkin başçılığı ilə azadlıq müharibəsi*
Cavid Nəbiyev (Azərbaycan Universiteti) ................................. 47
*Xədicə Əlibəyovanın və "İşıq" qəzetinin maarifçilik tariximizdə rolu*
Eynulla Eynullayev (Bakı Dövlət Universiteti) .......................... 55
*Xəzərin hüquqi status məsələsi haqqında*
Fatimə Şirinova (Bakı Dövlət Universiteti) ................................ 65
*Azərbaycanın tarixi abidələri və erməni vandalizmi*
Fidan Hacıyeva (Azərbaycan Universiteti) ................................. 78
*Ermənilərin azərbaycanlılara qarşı qırğınlarına son qoymaq üçün keçirilmiş 1906-cı il Tiflis sülh konfransı tarixi tədqiqatlarda*
Fuad Xəlilov (Bakı Dövlət Universiteti),
Mərziyə Xudiyeva (Bakı Dövlət Universiteti) ............................ 91
*II Qarabağ müharibəsi dövründə Türkiyə və Rusiya*
Hicran Ələkbərova (Azərbaycan Mühəndislik Universiteti) ...... 107
*Qafqaz-Avropa nəqliyyat-kommunikasiya əlaqələrinin qurulması*
Mələk Cabbarova (Bakı Dövlət Universiteti) ............................. 117
*Qızılbaşlıq: Səfəvi qızılbaş ideologiyası*
Nahid Əliyev (Bakı Dövlət Universiteti) ................................... 125
*Heydər Əliyev irsi arxiv sənədlərində*
Səma Camalova (Bakı Dövlət Universiteti) …………………… 136

*XIX əsrin əvvəllərində Azərbaycanda baş verən hadisələrə Fransa və İngiltərənin münasibəti*
Səriyyə Sadıqova (Azərbaycan Universiteti) .............................. 151
*Şamaxı xanlığının tarixinin öyrənilməsi səviyyəsi haqqında*
Şəhriyar Səməndərov (Bakı Dövlət Universiteti) ....................... 158
*Ekssentrik şəxsiyyət və lider - Müəmmər Əl-Qəddafi*
Tərlan Tahirzadə (Bakı Dövlət Universiteti) .............................. 172
*İslam və türk dünyasını birləşdirmək yolunda Nadir şahın dini islahatı*
Ümid Mikayılov (Bakı Dövlət Universiteti) …………………... 183
*Теоретико-методологические аспекты интеллектуальной миграции*
Зияд Кязимов (Бакинский Государственный Университет).. 194

**UOT 94(479.24); UOT 94**

**AYNURƏ HÜSEYNOVA**
*Azərbaycan Universitetinin II kurs magistrantı*
**huseynovaaynure1999@gmail.com**

# 1813-1826-CI İLLƏRDƏ RUSİYA İLƏ QACARLAR İRANI ARASINDA MÜNASİBƏTLƏR HAQQINDA

*Elmi rəhbər*:
tarix elmləri doktoru Kərim Şükürov

*Məqalədə 1813-1826-ci illərdə Rusiya ilə Qacarlar İranı arasındakı münasibətlər araşdırılmışdır. 1813-cü ildə Gülüstan sülh müqaviləsi bağlanmasına baxmayaraq Qacarlar İranı Cənubi Qafqazda itirdiyi torpaqları geri almaq üçün səy göstərirdi. Fətəli şah İngiltərənin yardımlarına güvənərək daim revanş haqqında düşünür, ordunu müasir tələblərə uyğun yenidən təşkil etmək və silahlandırmaq üçün tədbirlər görürdü. Ona görə də Gülüstan sülh müqaviləsinin ratifikasiyası ilə bağlı danışıqlar uzandı, A.P.Yermalovun və A.S. Menşikovun Tehrana missiyaları nəticəsiz oldu. Bu da 1826-1828-ci illərdə tərəflər arasında yeni qanlı müharibəyə gətirib çıxardı.*

*Açar sözlər:* Qacarlar İranı, Qafqaz uğrunda mübarizə, diplomatik əlaqələr, Rusiyanın maraqları, sülh müqaviləsi.

***Giriş***. Müharibənin rəsmi başa çatmasına və Gülüstan sülh müqaviləsinin imzalanmasına baxmayaraq, Qacarlar İranı və Rusiya arasındakı münasibətlər əvvəlki kimi gərgin olaraq qalırdı. Müqavilənin bəzi bəndlərinin mətni qeyri-müəyyən olduğundan sərhəd məsələləri tam həllini tapmamış və sərhəd yeri də müəyyən edilməmiş olaraq qalırdı. Bu səbəbdən çox vaxt Qacarlar İranından gələn köçəri tayfalar mövsümi köçərilik dövründə heç bir icazə almadan sərhəd xəttini keçirdilər. Hətta oturduqları ərazilərdəki əhalini qarət və xarabalığa məruz qoyurdular. Sadəcə olaraq Rusiya hərbi qarnizonlarının olduğu yerlərdə sərhəd-keçid rejiminə riayət edilirdi. Bu zaman Rusiya "ayrı-ayrı aktı" imzalamaqla Qacarlar İranına mövcud sərhədlərə yenidən baxılmasını və ondan ayrılmış ərazilərin bir hissəsinin geri qaytarılmasını tələb etmək imkanı əldə etmişdi. Buna müqavilənin

yalnız bir ildən sonra Rusiya tərəfindən ratifikasiya edilməsi kömək etdi. Böyük təzyiq altında şah müqaviləni ratifikasiya etməyə məcbur oldu. 1814-cü ilin sentyabrında Tiflisdə Qacar İranının səfiri Mirzə Əbdülhəsən Xan və general N.F.Rtişşev arasında ratifikasiya sənədlərinin mübadiləsi baş verdi. Lakin bundan sonra da, təxmini beş ilə yaxın müddətdə, müqavilə Rusiyada nəşr olunmur. Bu zaman Qacarlar İranı hökuməti Rusiya ilə müqavilə imzalayarkən eyni zamanda ingilislərlə də danışıqlar aparırdı.

Qacarlar İranında ingilis-rus rəqabəti XVIII əsrin sonlarından yaranmağa başladı. Bu dövrdə Rusiya fəal şəkildə Cənubi Qafqaz və Orta Asiyaya doğru irəliləyirdi. İngiltərə isə Yaxın və Orta Şərq dövlətlərini bir-bir ələ keçirməyə və ya öz siyasi təsirinə tabe etməkdə idi. İngilislər Rusiyanın təsirinin Qacarlar İranında möhkəmlənməsinə manə olmaq üçün hər cür səy göstərdilər. Bu dövrdə Gülüstan sülh müqaviləsi, Qacarlar İranı öz maraqlarına tabe etdirməyə çalışan İngiltərənin planlarına çox güclü zərbə oldu. Buna görə də İngiltərə 1814-cü ildə, 1809-cu ildə razılaşdırılmış sənəd əsasında Qacarlar İranı ilə yeni müqavilə bağladı. Müqavilə əslində tam olaraq Rusiyaya qarşı yönəlmişdi. Müqaviləyə əsasən, Qacarlar İranı şahı İngiltərəyə düşmən olan bütün Avropa dövlətləri ilə müqavilə və ittifaqları ləğv etməli idi. Həmçinin, bu dövlətlərin qoşunlarının onun ərazisindən Hindistana keçməsinə imkan verməməli idi. Qacarlar İranı ordusu üçün hərbi təlimləri yalnız İngiltərədən dəvət olunan mütəxəsislər etməli idi. Müqaviləyə əsasən, Qacarlar İranı, hər hansı bir Avropa dövləti tərəfindən Qacarlar İranına hücum ediləcəyi təqdirdə yardım göstərməli, Gülüstan sülh müqaviləsi ilə müəyyən edilmiş Rusiya-Qacarlar İranı sərhədinin yenidən nəzərdən keçirilməsini tələb etmək imkanı yaranırdı.

İngilislər tərəfindən dəstəklənən Qacarlar İranı hökuməti Rusiyaya verilmiş ərazilərin heç olmasa bir hissəsinin Qacarlar İranına qaytarılması ümidi ilə danışıqlar aparmaq üçün öz səfirini Sankt-Peterburqa göndərmək qərarına gəldi [2, s.567].

1815-ci ildə Qacarlar İranı səfiri Mirzə Əbdülhəsən Xan Peterburqa gedir. Onun tələblərini Sankt-Peterburqa xüsusi olaraq bunun

üçün gəlmiş İngiltərənin Qacarlar İranındakı səfiri dəstəkləməli idi. Rusiya Xarici İşlər Nazirliyindən Qacarlar İranına ərazi güzəştlərinin mümkünsüzlüyü barədə məlumat verilir. Qacarlar İranı səfirinə 22 mart 1816-cı il tarixli cavab notasında belə deyilirdi, baş vermiş son müharibəyə səbəb olan Rusiya deyildi. Rusiya öz silahlarını məcbur qalaraq Qafqaza keçirib və insanları ölümlə hədələyən Ağa Məmməd xanın haqsız hücumundan qoruyub. Buna görə də indi də imperator könüllü olaraq Rusiya vətəndaşlığına keçən insanların məskunlaşdığı torpaqların Qacarlar İranına verilməsinə razı ola bilməz.

Gülüstan müqaviləsi tərəflərin ticarətdə hüquqi normalarını müəyyən edərək bunun Rusiya ilk növbədə Qafqaz regionları ilə Qacarlar İranı arasında ticarətin genişləndiriləcəyi nəzərədə tutulmuşdur. Ancaq müqavilədə nəzərdə tutulan bu maddənin tətbiqi gec həyata keçirildi və 1755-ci il tarifi tətbiq olunurdu. Bu tarifə görə Bakı və Həştərxanda ixrac olunan mallar üçün 23 faizlik rüsm alınırdı. Nəhayət Gülüstan müqaviləsinin ticarət üçün nəzərədə tutulan maddəsi 1818-ci ildən tətbiq olundu. Beləliklə Rusiya ilə Qacarlar İranı arasında ticarət genişləndi.

Həmçinin, mübahisəli məsələlərin həlli üçün Qacarlar İranına xüsusi səlahiyyətli səfirin göndəriləcəyi də bildirilib. 29 iyun 1816-cı ildə 1812-ci il Vətən Müharibəsi qəhrəmanı, Əlahiddə Qafqaz Korpusunun komandiri, Gürcüstan, Həştərxan və Qafqaz quberniyalarının baş komandanı general A.P.Yermolov Qacarlar İranına fövqəladə və səlahiyyətli səfir təyin edilir. A.P.Yermolov Rusiya-Qacarlar İranı sərhədi məsələsini həll etməli idi. Həmçinin, Gilan və Astrabadda konsulluqların yaradılmasına icazə almalı, imkan daxilində Qacarlar İranını Türkiyəyə qarşı birgə fəaliyyətə təşviq etməli idi. A.P.Yermolova verilən göstərişdə o da vurğulanırdı ki, əgər Qacarlar İranı bu müharibədə bitərəf qalarsa, Rusiya Qacarlar İranın aparacağı bütün müharibələrdə neytral mövqe tutmağa çalışacaq və dostluq münasibətlərini saxlamaqda maraqlı olacaq. Tapşırıqlar arasında o da var idi ki, İngiltərənin Rusiya Qacarlar İranı ilə münasibətlərinə qarışmasına imkan verilməyəcək [3, s.54].

1817-ci ildə şah A.P.Yermolova xüsusi səfirlik missiyası verir. Generala verilən mühüm tapşırıqlardan biri də Qacarlar İranında daimi diplomatik nümayəndəliyin yaradılması idi. Yermolov Qacarlar İranına gəldikdən sonra Abbas Mirzənin və ya şahın sarayında daimi nümayəndəliyin təşkili ilə bağlı danışıqlar aparmağa başlamışdı. A.P.Yermolov təklif etmişdi ki, missiya müvəqqəti işlər vəkili, katib və fars dilini bilən iki-üç gəncdən ibarət olsun. Beləliklə, 1818-1826-cı illərdə Rusiyanın ilk müvəqqəti işlər vəkili S.İ.Mazaroviç, katib A.S.Qriboyedov olmuşdur.

Rus missiyası 1819-cu ilin yanvarında Qacarlar İranına gəldi. O burada Abbas Mirzə tərəfindən qəbul edildi. 1819-cu il martın 1-də A.P.Yermolov Sultanindəki yay iqamətgahında şah tərəfindən qəbul edildi. Həmin zaman şah istidən uzaqlaşmaq üçün Tehranı tərk etmişdi. Əvvəlcədən səfirliyin Sultaniyyəyə daxil olma qaydası, şahla auditoriyada görüş məsələləri və s. haqqında uzun-uzadı yazışmalar aparılıb, təfərrüatlarına qədər müzakirə olunub. Yermolovun əzmkarlığı gələcəkdə rus elçilərinin qəbulu mərasiminin hazırlanması üçün müsbət nəticələr verdi.

A.P.Yermolovun gətirdiyi I Aleksandrın Fətəli şaha yazdığı məktubunda sülhü qorumaq, sülhü və qonşuluq dostluğunu pozmağa heç vaxt şərait yaratmamaq istəyi vurğulanırdı. Rus imperatriçasından da şahın arvadına xüsusi məktub göndərilmişdi.

Şah, Rusiya ilə bütün sərhəd işləri onun əmri altında olan Abbas Mirzəyə həvalə etdi. Həmçinin onun rəhbərliyi altında Təbrizdəki rus missiyasının yerini təyin etdi. Təbrizdə bu zaman ingilis missiyası da var idi. Mazaroviçin əsas vəzifəsi Gülüstan sülh müqaviləsinin maddələrinə əməl olunmasına nail olmaq və Rusiya-Qacarlar İranı ticarətinin inkişafına kömək etmək, Qacarlar İranında Rusiya təsirinin dirijoruna çevrilmək və mümkün qədər rus düşmənlərinə (ingilisləri nəzərdə tutur) qarşı mübarizə aparmaq idi [4, s.59].

Qafqaza gələn A.P.Yermolov şaha münasibətdə "ehtiyatlı davranmaq" taktikasını seçərək delimitasiya məsələsini həll etməyə tələsmirdi. 1817-ci il yanvarın əvvəlində bütün sərhədlər yoxlanıldı. Yermolov sərhədlərin təsvirini və xəritəni təqdim etdi. Bu zaman Qa-

carlar İranın tələblərinin təmin olunmasına gəlincə isə, A.P.Yermolov belə düşünürdü ki, Qacarlar İranına heç nə verilməməlidir və heç bir güzəşt olmamalıdır. 20 il Rusiyanın himayəsində olduğu üçün Abbas Mirzənin tələb etdiyi kimi Lənkəran xanlığının Azərbaycanın hər hansı bir hissəsinin müqabilində verilməsi fikri ilə razılaşmamışdır.

1821-ci 8 oktyabrda Qacarlar İranında baş konsul vəzifəsinin yaradılması ilə bağlı ən yüksək fərman imzalanmışdır. Konsulluqda baş konsuldan başqa bir katib və iki tələbə olmalı idi. Konsulluqlar "ticarət məsələlərində qəyyumluq etmək və tacirlərin Qacarlar İranı dövlətinə aid şəhərlərdə ticarətlərini etdikləri zaman qarşılaşa biləcəkləri hər hansı çətinlikləri həll etmək" üçün yaradılmışdır. Konsulluğa Y.K.Vatsenko baş konsul təyin edildi. Lakin Rusiya ilə Qacarlar İranı arasında Rusiya konsulluğunun yeri ilə bağlı mübahisələr nəticə vermədiyi üçün o, öz vəzifəsini icra edə bilməmişdi. Bu məsələdə Rusiya hökuməti Qacarlar İranı ilə münasibətləri gərginləşdirməmək üçün güzəştə getməyi və Gilanda konsulluq olması fikrindən daşınmşdır. Bu məqsədlə Rusiya konsulluğunun yaradılması üçün hansısa başqa şəhərin seçilməsi qərara alınmışdı. 1825-ci ildə A.P.Yermolov Təbrizdə konsulluq yaratmağı və nümayəndəliyin Tehrana köçürülməsini təklif etdi.

Birinci Rusiya-İran müharibəsi zamanı hədsiz çox sayda rus əsgəri Qacarlar İranına əsir düşmüşdü. Qacarlar İranında yürüşlər zamanı əsir götürülən yerli Cənubi Qafqaz sakinləri arasında müəyyən sayda Rusiya vətəndaşları da var idi. Gülüstan sülh müqaviləsinin VI maddəsinə əsasən, bütün məhbuslar üç ay ərzində, qaçaq və cinayətkarlar isə özlərinin xahişi ilə geri qaytarılmalı idi. Bu müqavilənin Qacarlar İranı üçün olan mətnində isə bu maddə başqa cür qeyd edilirdi - məhbuslar və qaçaqlar yalnız özlərinin xahişi ilə geri qayıdırlar. Sülh müqaviləsi bağlandıqdan sonra yalnız az sayda bir qrup məhbus dəyişdirildi. Qalan hərbi əsirlər və fərarilər Qacarlar İranında qaldılar. Burada müharibə zamanı onlardan S.Makansevin komandanlığı altında "rus batalyonu" adlanan dəstə yaradıldı. Abbas Mirzə "rus batalyonu"nu Qacarlar İranı ordusunun döyüşə hazır hissəsi he-

sab edirdi. O rus əsgərlərindən təlimatçı kimi istifadə edirdi. Hətta şah taxt-tacı uğrunda mübarizə zamanı onlara arxalanacağına ümid edirdi. O, döyüşə hazır olan bu bölməni heç cürə itirmək istəmirdi. Buna görə də Rusiya nümayəndələrinin məhbusların qaytarılması ilə bağlı heç bir tələbləri Qacarlar İranı tərəfindən müsbət cavab almadı [5, s.305].

Qacarlar İranı ilə uzun illər hərbi əsirlərin problemi ilə bağlı danışıqlar aparıldı. 1819-cu ildə missiyanın katibi A.S.Qriboyedovun müşayiəti ilə cəmi 256 nəfər Tiflisə göndərilə bilindi. Rusiya hakimiyyəti Cənubi Qafqazdan Qacarlar İranına köçmək istəyənlərə problem yaratmadı. Yalnız onların Rusiya-Qacarlar İranı sərhədi boyunca köçürülməsinə etiraz etdi. Qacarlar İranı hərbi əsirlərə gəlincə isə, onların hamısı Qacarlar İranına qayıtmaq imkanı əldə etdilər. Qacarlar İranı hakimiyyəti isə əsir və qaçaq rus əsgərlərinin Rusiyaya qayıtmasının qarşısını almaq, habelə Rusiyanın Cənubi Qafqaza köçmək istəyən erməni və müsəlmanları Qacarlar İranında saxlamaq üçün hər cür maneələr yaradırdı.

Şahsevən tayfası (təxminən iki min ailə) öz xoşları ilə Rusiya imperiyasına köçdü. Lakin onların bir qismi şahın təbəələri olaraq qaldılar və Qacarlar İranı hökumətinin istəyinə uyğun olaraq Rusiyaya keçmiş şahsevənlər arasında Rusiya əleyhinə təbliğat aparır, onlara Qacarlar İranına qayıtmağı təklif edirdilər. Köç zamanı Rusiyada məskunlaşan şahsevən tayfaları yenidən Qacarlar İranına qayıtmışdılar. Bu zaman onlar yol boyu yerli sakinləri qarət etmiş, mal-qara oğurlamışlar. Buna görə də A.P.Yermolov 1821-ci ildə bütün Şahsevənləri, hətta Rusiyada qalmaq istəyənləri də Qacarlar İranına göndərməyi əmr etmişdi. Məhkumların və fərarilərin geri qaytarılması məsələsi isə heç vaxt həll olunmadı. Bu məsələ Türkmənçay sülh müqaviləsi imzalanana qədər mücərrəd qaldı [6, s.51].

Taxta I Nikolayın çəxması barədə məlumat vermək və sərhəd mübahisələrini sülh yolu ilə həll etməyə razı salmaq üçün knyaz A.S.Menşikovun başçılığı ilə Qacarlar İranına fövqəladə səfirlik göndərdi. Abbas Mirzə tərəfindən təstiqini tapmamış 1825-ci il delimitasiya aktı danışıqlar üçün əsas müzakirə mövzusu idi. Əgər Qacarlar

İranı aktda nəzərdə tutulan şərtlərlə razılaşmasa idi, onda I Nikolayın tapşırığına əsaən ona Lənkəran xanlığının bir hissəsini təklif edilməli idi. Əgər bu təklif də qəbul olnmasa idi, o hala Rusiya üçün heç bir ciddi narahatçılığa yol verməyəcək başqa bir ərazini vermək tapşırılmışdı.

Eyni zamanda Qacarlar İranında müharibəyə hazırlıqların ciddi şəkildə gücləndiyi A.S.Menşikovu narahat edirdi. Şah sarayında Rusiyaya ilə müharibə barədə davamlı iclaslar keçirilirdi. Abbas Mirzə sərhəd mübahisələrinin müzakirəsi üçün A.S.Menşikovla danışıqlardan yayındı. Həmçinin, şah da onu qəbul etməkdən imtina etdi. Qısa müddət sonra səfirliyin bütün işçiləri həbs olundu. Qacarlar İranı açıq şəkildə müharibəyə başladı. Qacarlar İranı qoşunları rus qoşunlarının Lənkəran, Qarabağ və bir sıra digər ərzazilərdəki dayaq məntəqələrinə qəfil hücuma keçərək onları darmadağın etdi. Bir sıra yaşayış məntəqələri, o cümlədən Gəncə, Lənkəran, Salyan, Şirvanı ələ keçirildi. Eyni zamanda Bakını mühasirəyə aldılar. Proses zamanı onları bir sıra Azərbaycan xanlıqları xanları da dəstəkləyirdi. Abbas Mirzənin rus ordusuna əsas zərbəni vurmaq niyyətində olduğu Qarabağda Qacarlar İranın hücumu dayandırıldı. 1826-cı ilin sentyabrında sərhədə çəkilən rus qoşunları Qacarlar İranı ordusuna bir sıra məğlubiyyətlər verdi. Oktyabr ayına qədər Lənkəranın bir hissəsi istisna olmaqla, Qacarlar İranın işğal etdiyi bütün ərazi Qacarlar İranı qoşunlarından təmizləndi [2, s.331].

***Nəticə.*** 1826-cı ilin iyun ayında Qacarlar İranı açıq şəkildə müharibəyə başladı. Qacarlar İranı qoşunları rus qoşunlarının Lənkəran, Qarabağ və bir sıra digər ərzazilərdəki dayaq məntəqələrinə qəfil hücuma keçərək onları darmadağın etdi. Bir sıra yaşayış məntəqələri, o cümlədən Gəncə, Lənkəran, Salyan, Şirvanı ələ keçirildi. Eyni zamanda Bakını mühasirəyə aldılar. Proses zamanı onları bir sıra Azərbaycan xanlıqları xanları da dəstəkləyirdi. Abbas Mirzənin rus ordusuna əsas zərbəni vurmaq niyyətində olduğu Qarabağda Qacarlar İranının hücumu dayandırıldı. 1826-cı ilin sentyabrında sərhədə çəkilən rus qoşunları Qacarlar İranı ordusuna bir sıra məğlubiyyətlər verdi. Oktyabr ayına

qədər Lənkəranın bir hissəsi istisna olmaqla, Qacarlar İranının işğal etdiyi bütün ərazi Qacarlar İranı qoşunlarından təmizləndi.

ƏDƏBİYYAT

1. Piriyev V. Azərbaycanın tarixi-siyasi coğrafiyası (Ali məktəblərin tarix fakültələri və tarix üzrə yenidən hazırlanma kursları üçün dərs vəsaiti). Bakı, "Müəllim nəşriyyatı", 2006, 193 s.
2. Акты, собранные Кавказскою археографическою комиссиею / Под редакцией А.П.Берже, т. VI, ч. 2, Тифлис: Типография Главного Управления Наместника Кавказского, 1875, 954 с.
3. Кулагина Л. М. Россия и Иран (XIX - начало XX века). Рос. акад. наук, Ин-т востоковедения [отв. ред. Н. М. Мамедова]. Москва, Ключ-С, 2010, 272 с.
4. Шостакович С.В. Дипломатическая деятельность А.С.Грибоедова. М., Наука, 1960, 295 с.
5. "Русский вестник", 1867, № 3, 744 с.
6. Базиленко И.В. Россия и Иран: военно-политический и культурологический аспекты двусторонних отношений в Новое время // Россия и Восток: феноменология взаимодействия и идентификации в новое время. Коллективная монография. СПб., Изд-во «Студия НП-Принт», 2011, 392 с.

**AYNURA HUSEYNOVA**
*Second year graduate student of Azerbaijan University*

## THE RELATİONS BETWEEN RUSSİA AND KHAJARS-IRAN İN 1813-1826

Despite the conclusion of the Gulistan peace treaty in 1813, Khajars-Iran was trying to regain the lands it had lost in the South Caucasus. Relying on the help of England, Fatali Shah constantly thought about revenge, took measures to reorganize and arm the army according to modern requirements. Therefore, the negotiations with the ratification of the Gulistan peace treaty were prolonged, and

the missions of A.P.Yermalov and A.S.Menshikov to Tehran were fruitless. This led to a new bloody war between the parties in 1826-1828.

*Keywords*: Khajars Iran, struggle for the Caucasus, diplomatic relations, interests of Russia, peace treaty.

*Daxil olma tarixi*: 26.04.2023-cü il.
*Çapa imzalanma tarixi*: 05.05.2023-cü il.

**UOT 94(479.24)**

**AYSEL ƏLİYEVA**
*Bakı Dövlət Universiteti SABAH Qrupları*
*Tarix müəllimliyi ixtisası üzrə IV kurs tələbəsi*
**ae0131311@gmail.com**

# AZƏRBAYCANIN İSTİQLALİYYƏTİNİ BEYNƏLXALQ ALƏMDƏ TANIDAN DİPLOMAT: ƏLİMƏRDAN BƏY TOPÇUBAŞOV

*Elmi rəhbər:*
tarix üzrə fəlsəfə doktoru Sevinc Qasımova

*Tarixi şəxsiyyətlər müəyyən şəraitin təsiri altında və özünün şəxsi keyfiyyətləri hesabına tarix səhnəsinə çıxa bilirlər. XIX əsrin ikinci yarısında Azərbaycan torpaqlarında Çar Rusiyasının müstəmləkə rejimi tüğyan etdiyi dövrdə Azərbaycan torpağı bir çox tarixi şəxsiyyətlər yetişdirmişdir. Bu tarixi şəxsiyyətlər milli şüurun oyanışı, millətin təşəkkülü, Azərbaycan torpaqlarında yenidən dövlətçilik ənənələrinin bərpası üçün yorulmadan mübarizə aparmışdılar. Həmin tarixi şəxsiyyətlərdən biri də Əlimərdan bəy Əliəkbər bəy oğlu Topçubaşov olmuşdur. Məqalədə Ə.M.Topşubaşovun 1918-1920-ci illərdəki diplomatik fəaliyyəti işıqlandırılmışdır. Onun diplomatiya tariximizdə unudulmaz edən cəhətlərdən biri ABŞ prezidenti ilə görüşən ilk azərbaycanlı olmasıdır.*

*Açar sözlər*: Ə.M.Topçubaşov, İstanbul görüşləri, Paris Sülh Konfransı, London və San-Remo konfransları.

***Giriş.*** Azərbaycan diplomatiyası tarixinin banilərindən biri hesab olunan Ə.M.Topçubaşov, sözsüz ki, adını Azərbaycan tarixi səhifələrinə qızıl hərflərlə həkk etdirmişdir. Onun diplomatik fəaliyyəti haqqında müxtəlif araşdırmalar edən tarixçi-tədqiqatçıların əsərlərini, məqalələrini təhlil edərək bu mövzu haqqında kiçik bir araşdırma etmişik. Məqalədə Əlimərdan bəyin diplomatik missiyası üç ayrı istiqamət üzrə təhlil edilmişdir. İlk olaraq, Azərbaycan XİN tərəfindən Ə.M.Topçubaşovun İstanbula fövqəladə səlahiyyətli nazir kimi göndərilməsi, onun burada, təxminən, bir il ərzində ölkələrin rəsmi nü-

mayənədləri ilə görüşlər keçirməsi, bu görüşlərdə Azərbycanla bağlı dünya mətbuatında yaranan yanlış stereotiplərin qırılması üçün əlindən gələni etməsi və d. məsələlər işıqlandırılmışdır. Sonrakı proseslər Parisdə baş verən hadisələr üzrə cərəyan edir. Azərbaycan hökumətinin qarşısında duran əsas məqsəd - Azərbaycan Xalq Cümhuriyyətinin istiqlaliyyətinin beynəlxalq səviyyədə tanınması üçün Əlimərdan bəyin rəhbərlik etdiyi nümayəndə heyəti ilə Parisə gəlməsi, Sülh konfransında iştirak, V.Vilsonla görüş öz əksini tapmışdır. Son olaraq isə Paris Sülh konfrasında həllini tapmayan məsələlərin, xüsusilə, AXC-nin varlığı üçün böyük təhdid olan bolşevik hücumunun qarşısını almaq üçün müttəfiqlərin yardımına nail olmaqdan ötrü London və San-Remo konfranslarındakı iştiraklardan bəhs edir.



***Ə.M.Topçbaşovun İstanbuldakı diplomatik fəaliyyəti.*** 1918-ci il avqust ayının 20-də Osmanlı imperiyası ilə diplomatik əlaqələri bərqərar etmək üçün Azərbaycan hökuməti dövrünün nüfuzlu siyasi xadimlərindən olan, portfelsiz nazir Ə.M.Topçubaşovu fövqəladə səlahiyyətli nazir kimi Osmanlı paytaxtına göndərdi və diplomatik nümayəndə kimi ona bütün hüquq və səlahiyyətlər verildi (2, s.125-126). 1918-ci il sentyabrın 28-də İstanbula gəldi və bir neçə gün sonra həm Osmanlı rəsmiləri, həm də xarici dövlətlərin nümayəndələri ilə rəsmi görüşlərə başladı. O bu görüşlərdə həmin ölkə təmsilçilərinə Azərbaycanla bağlı məlumatlar verir, onların münasibət və yanaşmalarını öyrənirdi (7, s.63). Ə.M.Topçubaşovun əsas qayələrindən biri Avropanın paytaxt şəhərlərində Azərbaycan nümayəndəliklərinin açılmasına nail olmaq idi. Bu, oktyabr ayının 2-də onun Türkiyə XİN-i Əhməd Nəsim bəylə söhbətindən aydın olur. O, əsaslandırdı ki, ermənilərin iştahası çox böyükdür və həm də bu iştahı özgələrinin, ilk növbədə isə bizim hesabımıza doyurmaq istəyirlər. Ona görə də Avropanın əsas paytaxt şəhərlərində nümayəndəliyimizin olması bizim üçün zəruridir. Oktyabr ayının 28-də Azərbaycan Xalq Cümhuriyyətinin səlahiyyətli nümayəndəsi Türkiyə Xalq Maarifi Na-

zirliyində qəbul edildi. Görüşün ən mühüm nəticələrindən biri Ə.M. Topçubaşovun İstanbulda "Azərbaycan mətbuat bürosu" yarada bilməsi oldu. Büronun Azərbaycan haqqında olan materialların toplanması və yayılmasında böyük rolu oldu (3, s.296-301).

Osmanlı imperiyasının oktyabrın 30-da imzaladığı ağır şərtli Mudros barışığının Azərbaycan üçün də ağır nəticələri oldu. Mudros müqaviləsinin şərtlərinə görə, Osmanlı öz qoşunlarını bir həftə ərzində Bakıdan, bir ay ərzində isə Qafqazdan geri çəkməli (11-ci maddə), Tiflis-Bakı dəmir yol xəttinin Antantanın nəzarəti altına keçməsinə mane olmamalı idi (15-ci maddə) (4, s.46). Osmanlı hökumətinin XİN-nin müavini Rişad Hikmət bəy Azərbaycanın etirazına məhəl qoymayraq bildirdi ki, Mudros barışığına görə Osmanlı hökuməti müttəfiqlərin Bakını tutmasına etiraz etməsə də, o ona məxsus olmayan bir şəhəri üçüncü bir tərəfə güzəştə getmir. Ə.M.Topçubaşov təcrübəli hüquqşünas kimi bu maddəni şərh edərək göstərdi ki, bu birbaşa olmasa da, dolayısı yolla o deməkdir ki, "gedin Bakını götürün". Vəziyyətin çıxılmaz olduğunu görən Əlimərdan bəy oktyabrın 31-də Baş nazir F.X.Xoyskiyə yazdığı məktubda təcili surətdə Rəştdə və Ənzəlidə olan ingilislərlə danışığa girməyi və Milli Şuranın çağırılmasını məsləhət gördü (2, s.153). Azərbyacan hökuməti Əlirmərdan bəyin tələblərinə uyğun olaraq lazımi tədbirləri gördülər.

1918-ci dekabrın 26-da yaradılan yeni - III hökumət kabineti ölkəmizin başı üstünü alan xarici müdaxilə təhlükəsini sovuşdurmaq üçün gənc respublikanın beynəlxalq aləmdə tanınmasını əsas vəzifələrdən biri elan etdi. Bununla bağlı olaraq Parlament 1918-ci il dekabrın 28-də Parlamentin sədri Ə.Topçubaşovun başçılığı ilə Paris sülh konfransına xüsusi nümayəndə heyətinin göndərilməsi haqqında qərar qəbul etdi (1, s.44). Bu haqda məlumatı Əlimərdan bəy Parisə getmək üçün Bakıdan İstanbula gəlmiş İranın XİN-i Əliqulu xan Ənsaridən öyrəndi. Əliqulu xan onunla söhbətində bildirdi: “Siz Parisə gedəcək heyətinin rəhbəri seçilmisiniz. Sizin hökumət istefa verib. Baş nazir sizi tutublarmış, amma sonra Fətəli Xan Xoyskini dilə tuta biliblər” (3, s.318). Əlimərdan bəy 1919-cu il yanvarın 6-da “Pera Palas” otelində Rusiya XİN-i S.D.Sazonovla görüşmüşdü. “Vahid və

bölünməz Rusiya" ideyasına qarşı Əlimərdan bəy "5-6 milyon olan azərbaycanlıların Vilson prinsiplərinə uyğun müstəqil həyat qurmaq hüququ var" deyərək, rusların hakimiyyətini qəbul etmədiklərini bildirmişdi (8). Yanvarın 15-də isə yenə eyni oteldə Əlimərdan bəyin İranın XİN-i Mirzə Əliqulu xanla görüşü oldu. Görüş zamanı nazirin "Azərbaycanla bağlı məsələnin ən yaxşı həll yolu İranla ittifaq yaratmaq olardı" iddiasına qarşı, bunun yalnız qarşılıqlı inam və etibar əsasında mümkünlüyünü vurğulamışdı (9). Yanvarın 16-da eyni oteldə Paris sülh konfransına gedəcək erməni nümayəndə heyətinin başçısı Avetis Aqaronyanla görüşdü. Ə.M.Topçubaşov yaratmaq istədiyi Cənubi Qafqaz konfederasiyası haqqında ondan fikirlərini soruşmuşdu. Aqaronyan bunun mürəkkəb məsələ olduğunu, hətta buna Çxenkelinin razı olmadığını bildirmişdi. Əlimərdan bəy isə söhbətə yekun vuraraq hələ də federasiyaya nail olmaq ümidinin olduğunu demişdi (10).

***Azərbaycan nümayəndə heyəti sədrinin Paris missiyası.*** Nəhayət, yanvarın 28-i Paris sülh konfransı işə başladı. Lakin Azərbaycan nümayəndələri ilk günlərdə onlara daha çox "texniki problem" kimi görünən viza məsələsinə görə Parisə getmək üçün 3 aydan çox ləngiməli olmuşdu (12). Ə.M.Topçubaçov isə konfransa getmək üçün səylərini bir an belə dayandırmamışdı. Onun mart ayının 5-də hökumətə göndərdiyi hesabatdan aydın olur ki, gecikmələrin əsl səbəbi siyasi məsələlərlə bağlıdır. Parisə gəlişinə icazə verilən üç nəfərin içində Əlimərdan bəyin adı yox idi (3, s.346). Bu işin içində də erməni yalanları yatırdı. Çünki onlar hələ Ə.M.Topçubaşovun 1915-ci ildə Türkiyənin Şərq vilayətində baş verən hadisələr barəsində ermənilərin qaldırdığı təbliğat kampaniyasının müxtəlif məqsədlərə xidmət etdiyini deməsinə görə onun əlindən yanıqlı idilər. Lakin tezliklə ABŞ prezidenti V.Vilsonun rəsmi şəkildə konfransda Qafqaz məsələsini qoymasına bir neçə gün qalmış Azərbaycan nümayəndələri təcili şəkildə Parisə çağırıldılar (2, s.201-203).

Nəhayət, Əlimərdan bəyin səyləri nəticəsində üç aylıq mübarizədən sonra Parisə getmək üçün viza alan nümayəndə heyəti artıq mayın 13-də konfrans çərçivəsində ilk rəsmi görüşünü keçirmişdi (12). Nümayəndə heyətinin ilk mühüm addımı hələ İstanbulda hazır-

lanmış "Qafqaz Azərbaycanı Respublikasının Paris Sülh konfransına memorandumu" adlı sənədi işləyib Sülh konfransının keçirildiyi hər iki dildə, fransız və ingilis dillərində 50 səhifəlik kitabça halında nəşrə hazırlamaq oldu. Bu memoranduma çox yüksək keyfiyyətlə işlənmiş rəngli xəritə də əlavə edilmişdi. Ümumilikdə 14 bölmədən ibarət olan memorondumun hər bir bəndinin arxasında Azərbaycanın milli maraqları dayanırdı (2, s.215-216). Qeyd etmək lazımdır ki, Ə.M. Topçubaşov Parisə gediləcək günü öyrəndiyi vaxtdan bura gələnə qədər memorondumda çox dəyişikliklər etmişdi.

Ə.Topçubaşovun xüsusi diplomatik səyi nəticəsində 1919-cu il may ayının 28-də-Cümhuriyyətin birinci ildönümü günündə, ABŞ prezidenti V.Vilsonla görüş baş tutdu. Bu görüşdə V.Vildsonun dünyanın kiçik hissələrə bölünməsinin əleyhinə olduğu aydın oldu. Lakin Qafqazda federasiya yaradılması ideyasını dəstəklədiyini və yaradılacaq federasiyanın Millətlər liqasının tapşırığı ilə hər hansı bir dövlətin himayəsinə veriləbiləcəyini də bildirmişdi (4, s.43). Sonda ABŞ Prezidentinə Azərbaycanın müstəqilliyinin tanınması, onun MC-nin üzvlüyünə qəbul edilməsi kimi tələblərin daxil olduğu altı bəndlik tələb təqdim edildi (7, s.67).

May ayının 20-də Dördlər Şurasının iclasında Sovet ordusuna qarşı daha uğurlu olan Kolçak hökumətinin tanınması barəsində razılıq əldə edilmişdi. Bu qərara qarşı birinci etiraz edən Ə.M.Topçubaşov bəyanatında bildirdi ki, Kolçak hökumətinin dağılmış Rusiya imperiyasının bütün ərazisində tanınması, keçmiş Rusiya ərazisindən ayrılmış yeni respublikaların həyati mənafeyinə toxunur. Sonradan yeni yaranmış dövlətlərin nümayəndələri də bu etiraza qoşuldu (2, s.239). Lakin Ə.M.Topçubaşovun hesabatından da aydın olur ki, bu etirazlara heç bir önəm verilmirdi.

1919-cu ilin payızından başlayaraq Əlimərdan bəy dünya siyasətində rolu artan ABŞ ilə əlaqələr qurmağa çalışırdı. Yaranmış tarixi şərait ABŞ-ın da Qafqaza marağını artmışdı. İyulun 5-də Onlar Şurasının iclası Amerika təqdimatı əsasında polkovnik V.Haskeli Ermənistana Ali Komissar təyin etdi. 1919-cu ilin yayında V.Haskel Qafqaza gəldi. Onun gəlişi elə bir dövrə təsadüf edir ki, ermənilərin

Naxçıvan və Şərur-Dərəlyəz bölgələrinə iddiaları artmışdı. Ona görə də polkovnik Hakselin birinci addımı Naxçıvan və Şərur-Dərələyəzdə Amerika general-qubernatorluğunu yaratmaq və bölgəni Azərbaycanın nəzarətindən çıxarıb Ermənistana vermək oldu. Ə.M.Topçubaşov dərhal avqust ayının 19-da Sülh konfransının sədrinə xüsusi etiraz notası təqdim edi. Notada göstərilirdi ki, Azərbaycan nümayəndə heyəti respublikanın müstəqilliyini tanımaq barədə Sülh konfransı qarşısında çıxış edəcəyi günü səbirsizliklə gözlədiyi halda, Qafqaz Azərbaycanının ərazisi zor gücünə dəyişdirilir, əhalisi öz yurdlarından didərgin salınır. Etiraz notalarının və Əlimərdan bəyin Qafqazdan döndükdən sonra Haskellə Parisdə görüşünün bu məsələdə Azərbaycan üçün müsbət nəticəsi oldu. Parisdə verdiyi müsahibələrində Haskel Naxçıvan general-qubernatorluğunun yaradılmasının əhəmiyyətsiz olduğunu bildirdi. İndi o da çıxış yolunu Cənubi Qafqazın mandatının hər hansı bir ölkə tərəfindən götürülməsində gördü (3, s.397-399). Nəhayət, 1919-cu ilin oktyabrında Denikinin məğlubiyyəti, vəziyyətin qırmızıların xeyrinə dəyişməsindən sonra Britaniyanın xarici işlər naziri lord Kerzon Azərbaycan və Gürcüstanın müstəqilliyinin de-fakto tanınmasını təklif edir (13).

Əlimərdan bəy 1919-cu ilin noyabrında Azərbaycanı təbliğ etmək üçün "Limaçe" jurnalının naşiri ilə razılığa gəlmişdi ki, jurnalın bir nömrəsi Azərbaycana həsr edilsin. Bundan sonra "Limaçe" jurnalının 1920-ci il yanvar nömrəsi bütövlükdə Azərbaycana həsr edilmişdi. Jurnal Azərbaycan coğrafiyasını, tarixini, mədəniyyətini, iqtisadiyyatını tanıtdırmaq baxımından əvəzsiz rol oynamışdı (2, s.330, 338).

Əlimərdan bəyin hökumətə göndərdiyi hesabatdan bəlli olur ki, məhz tarixi şəraitlə əlaqədar olaraq meydana çıxmış bir sıra müqəddəm şərtlər: Denikinin ümidsiz vəziyyəti, Almaniyanın Rusiya ilə yaxınlaşmaq planları, Baltik dövlətlərinin bolşeviklərlə sülh bağlamaq cəhdləri, Amerika Senatında Sülh konfransına olan mənfi münasibət və s. Azərbaycan nümayəndə heyətinin ən ali məqsədi olan Cümhuriyyətin müstəqilliyinin tanınması məsələsini gerçəyə çevirdi (2, s.349). Məhz hadisələrin çox sürətlə cərəyan etdiyi bir vaxtda respublikaların müstəqilliyinin tanınması məqsədilə İngiltərənin təşəb-

büsü ilə yanvar ayının 10-da Paris Sülh konfransı Ali Şurasının sessiyası çağırıldı. Yanvarın 11-də Müttəfiqlərin Ali Şurası Kerzonun təklifi üzrə qərar qəbul etdi: "Müttəfiq və birlik ölkələri Azərbaycan və Gürcüstan hökumətlərini birlikdə de-fakto səviyyəsində tanıyırlar". Bununla da Azərbaycanın müstəqilliyi 1920-ci ilin yanvar ayının 11-də de-fakto olaraq Paris Sülh konfransı tərəfindən tanındı. Azərbaycanın istiqlaliyyətinin Paris sülh konfransı tərəfindən tanınması tarixi əhəmiyyətli hadisə idi. Azərbaycanın de-fakto tanınması barədə Paris Sülh konfransının rəsmi qərarı Ə.M.Topçubaşova yanvarın 15-də Fransa XİN-nin binasında təqdim edildi (2, s.359).

***AXC diplomatı kimi London və San-Remo konfranslarında edilən son cəhdlər.*** 1920-ci ilin yanvarında Paris sülh konfransı öz işini başa çatdırdı, Paris öz siyasi əhəmiyyətini itirərək yerini Londona verdi. Azərbaycanın de-fakto tanınmasının təşəbbüskarı kimi İngiltərənin xarici işlər naziri lord Kerzonun çıxış etməsi bu ölkəyə bəslənən ümidləri daha da artırmışdı. Ortada hələlik ilkin müzakirə səviyyəsində başqa bir layihə - müstəqilliyə aparan yoldakı təhlükələrin dəf olunması naminə İranla birlikdə İngiltərə protektoratını qəbul etmək ideyası da vardı. Bütün bunlar Əlimərdan bəyin London səfərini zərurətə çevirirdi. Onun əsas məqsədi İngiltərəni Azərbaycanla daha yaxından maraqlandırmaq, eyni zamanda, de-yure tanınmaq prosesi ilə bağlı ilkin kəşfiyyat aparmaq idi. Lakin Kerzonun başı çox qarışıq olduğu üçün Əlimərdan bəy 1920-ci il martın 1-də XİN-nin binasında onun müavini Ç.Harding ilə görüşmüşdü. Söhbət zamanı Əlimərdan bəy, müttəfiqlərin Sovet Rusiyası ilə iqtisadi əlaqələrinin genişləndiyini vurğulayaraq, Azərbaycanın da bu istiqamətdə addımlar atmasını lazım bilmişdi. Harding Əlimərdan bəyə haqq vermiş və bu işdə sərbəst olduqlarını qeyd etmişdi. Söhbətin davamı isə yenə bir erməni uydurması haqqında idi. Azərbaycan-Türkiyə gizli hərbi sazişinin olduğuna Avropa ictimaiyyətini inandırmaq üçün ermənilər belə məlumatlar yaymışdılar ki, vaxtilə Bakının tutulması əməliyyatına komandanlıq etmiş Nuru paşa guya Qarabağdadır (3, s.386). Harding bu məsələ barəsində Əlimərdan bəydən fikirlərini soruşmuşdu. O isə cavabında demişdi: “Türklərə gəldikdə isə onlarla

hər hansı anlaşmamız yoxdur. Eləcə də guya gənc türklərin görkəmli xadimlərinin ölkəmizdə olması ilə bağlı şayiəni də təkzib edirəm" (11). Əlimərdan bəy tutarlı cavabları ilə daha bir erməni uydurmasını dəf edə bilmişdi.

London konfransında Cənubi Qafqazla bağlı həllini tapmayan məsələlərin müzakirəsi bu dəfə də Ali Şuranın San-Remo konfransında davam etdirildi. Cənubi Qafqaz nümayəndələri arasında kəskin fikir ayrılıqları mövcud olduğu üçün müttəfiqlərin təmsilçiləri onlarla konfransöncəsi müşavirə keçirdilər. Lord Kerzon Cənubi Qafqazdakı vəziyyəti belə dəyərləndirdi: 1. Cənubi Qafqaz respublikaları vəziyyətin düzəldilməsi üçün lazım olan həmrəyliyi göstərmədiyi üçün onların heç bir gələcəyi yoxdur; 2. Bu vəziyyət müttəfiqlərin regiona silah yardımını əngəlləyir; 3. Silahlar çatacağı halda isə qarşılıqlı çəkişmələrin yaranmasından ehtiyat edilirdi. Lord Kerzon müşahidələri belə təsəvvür yaratdı ki, müttəfiqlər sanki söz verdikləri yardımı həyata keçirmək istəmirlər. Əlimərdan bəy həm Azərbaycanın iqtisadi baxımdan gələcək inkişafını, həm də Cənubi Qafqaz respublikalarının ümumilikdə təhlükəsizliyinin təminini nəzərə alaraq iki təklif irəli sürdü: 1.Versal sülh müqaviləsinin 89-cu paraqrafına müvafiq olaraq Azərbaycana Batum limanı vasitəsi ilə dənizə çıxış hüququ təsdiqini tapmalı idi; 2.Mübahisəli ərazilərə Cənubi Qafqaz dövlətləri tərəfindən birgə nəzarət olunmalı idi. Təəssüflər olsun ki, İngiltərə təmsilçisi tərəfindən hələ Parisdəki 13 aprel müşavirəsində "yüksək dövlət adamına layiq ideya" kimi dəyərləndirilən bu fikir erməni və gürcülərin etirazları ilə qarşılaşdı. Ermənilər AXC-nin Batuma iddiasını rədd etdilər. Gürcülər isə əvvəlki mövqelərini təkrarladılar: Batum şəriksiz onlara çatır və qonşu respublikaların limandan istifadə hüququ tanınır.

Azərbaycan nümayəndə heyətinin bütün səylərinə baxmayaq bu konfransdan da lazımi nəticələr əldə olunmadı. Azərbaycan Cümhuriyyətinin müstəqilliyi de-yure tanınmadı. AXC-nin Batum limanından sərbəst surətdə istifadə hüququ tanınması konfransın yeganə müsbət qərarı oldu. Bu qərarın qəbulunda Əlimərdan bəyin xidməti böyük olmuşdur. Konfrans Qafqaz dövlətləri arasındakı sərhəd mübahisələrinin

həll olunmamasını əsas götürərək yardımın göndərilməsinin mümkünsüzlüyünü qeyd etdi. Bu şərtin ilk qurbanı AXC oldu (5, s.208-210).

***Nəticə.*** Azərbaycan milli azadlıq hərəkatının nümayəndələrindən biri, ilk parlamentin sədri, Azərbaycan Xalq Cümhuriyyətinin təməl daşlarını qoyanlardan biri olan Əlimərdan bəy Topçubaşov tarixə vətənə xidmətin nümunəsini həkk etdirmişdir. Osmanlı paytaxtına səlahiyyətli nümayəndə kimi göndərilmiş Əlimərdan bəy qarşıya çıxan problemlərin həll edilməsi üçün çıxış yolu tapmaq bacarığını göstərmişdir. AXC-nin Avropadakı ilk təmsilçisi kimi o, ölkəmizin müttəfiq dövlətlər tərəfindən tanınmasına nail olmuşdur. Yaranması ilə Şərqdə ilklərə imza atan AXC-ni dünya mətbuatında tanıtmaq üçün Avropada sistemli təbliğatın əsasını qoymuşdur. AXC şimaldan bolşevik təhlükəsi ilə üz-üzə qaldıqda müttəfiq dövlətlərin gənc respublikaya yardım etməsi üçün son dərəcə mühüm işlər görmüşdür. Bir tərəfdən, müttəfiqlərin etinasızlığı, digər tərəfdən daxilimizdə bolşeviklərlə əlbir olanların olması vəziyyəti çətinləşdirsə də, Əlimərdan bəy Azərbaycan təhlükəsizliyi üçün son ana qədər diplomatik mübarizə aparmışdır. Bir sözlə, o, Azərbaycanın istiqlalı üçün mümkün olan və olmayan hər şeyi etmişdir. O öz şəxsiyyəti və fəaliyyəti ilə milli sərvətimizin bir parçasıdır.

ƏDƏBİYYAT

1. Azərbaycan Xalq Cümhuriyyəti Ensiklopediyası: I cild. Bakı, “Lider” nəşriyyat, 2004, 440 s. - https://www.ebooks.az/book_iDeYnxc8.html [28.04.2023].
2. Cəmil Həsənli. Azərbaycan Respublikasının diplomatiya tarixi. I cild. Azərbaycan Xalq Cümhuriyyətinin xarici siyasəti (1918-1920) Bakı, “Garısma” MMC, 2009, 576 s. - http://anl.az/el/h/azf-255960.pdf [28.04.2023].
3. Cəmil Həsənli. Tarixi şəxsiyyətin tarixi: Əlimərdan bəy Topçubaşov. Bakı, “Çaşıoğlu” mətbəəsi, 2013, 588 s. - http://anl.az/el/emb/Cumhuriyyet/kitablar_az/Azf-273711.pdf [28.04.2023].

4. Zeynəddin Şabanov. Azərbaycan Xalq Cümhuriyyətinin xarici siyasətində Əlimərdanbəy Topçubaşov Fenomeni // "Elm və innovativ texnologiyalar" Beynəlxalq elmi araşdırmalar jurnalı, 2018, Xüsusi buraxılış: "Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyi", s.39-45. - http://www.ejsr.org/files/ana_seyfe/AXC-100.musabiqe-kitab.pdf [28.04.2023].
5. İsmayıl Musa. Azərbaycanin xarici siyasəti. Üç hissədə. Birinci hissə. Azərbaycan Beynəlxalq Münasibətlər sistemində (mart 1917 - aprel 1920-ci illər). Dərslik. Bakı, "Bakı Universiteti" nəşriyyatı, 2011, 312 s. - https://ebooks.az/book_aXDhRjFK.html [28.04.2023].
6. Nəsib Nəsibzadə. Azərbaycanın Xarici Siyasəti (1918-1920). Bakı, "Ay-Ulduz" nəşriyyatı, 1996, 216 s. - https://www.ebooks.az/book_aCjNkKTz.html [28.04.2023].
7. Nəsiman Yaqublu. Cümhuriyyət Qurucuları. Bakı, "NURLAR" Nəşriyyat-Poliqrafiya Mərkəzi, 2018, 504 s. - https://www.bp.com/content/dam/bp/country-sites/az_az/azerbaijan/home/pdfs/documents/cumhuriyyet-kitab.pdf [28.04.2023].
8. Vilayət Quliyev. Əlimərdan bəy Topçubaşovun İstanbul görüşləri: Rusiya istiqaməti / 525-ci qəzet, 2017, 18 noyabr, №211, s.18-19. - https://www.elibrary.az/docs/qazet/qzt2017_3997.htm [28.04.2023].
9. Vilayət Quliyev. Əlimərdan bəy Topçubaşovun İstanbul görüşləri: İranla çətin dialoq / 525-ci qəzet, 2017, 9 dekabr, №226, s.19. - https://www.elibrary.az/docs/qazet/qzt2017_4365.htm [28.04.2023].
10. https://www.elibrary.az/docs/qazet/qzt2018_159.htm [28.04.2023].
11. Əlimərdan bəy Topçubaşov Londonda. Azərbaycan Xalq Cümhuriyyəti – 100 (Tərcümə: Vilayət Quliyev). / 525-ci qəzet, 2018, 20 yanvar, №12, s.18-19. - https://www.elibrary.az/docs/qazet/qzt2018_326.htm [28.04.2023].
12. Vilayət Quliyev. Azərbaycan Xalq Cümhuriyyəti – 100. Parisə əzablı yol // Azərbaycan, ədəbi-bədii jurnal, №5 2018, s.7-19. - https://www.elibrary.az/docs/jurnal/jrn2018_214.pdf [28.04.2023].

13. Cümhuriyyət – 100. Əsrə bərabər 23 ay / Ekspress, 26-29 may 2018-ci il, s.3, 8. - https://www.elibrary.az/docs/qazet/qzt2018_2927.pdf [28.04.2023].

**AYSEL ALIYEVA**
*Baku State University SABAH Groups*
*4th year student of the speciality of History teacher*

## THE DİPLOMAT WHO RECOGNİZED THE İNDEPENDENCE OF AZERBAİJAN İN THE İNTERNATİONAL WORLD: ALİMARDAN BEY TOPCHUBASHOV

Historical figures can appear on the stage of history under the influence of certain circumstances and due to their personal qualities. In the second half of the 19th century, the colonial regime of Tsarist Russia was raging in the lands of Azerbaijan. It was during this period that the land of Azerbaijan produced many historical figures. These historical figures tirelessly fought for the awakening of national consciousness, the formation of the nation, the formation of the ideology of Azerbaijaniism, and the restoration of statehood traditions in the lands of Azerbaijan, overcoming the difficulties encountered. One of those historical figures is Alimardan bey Aliakbar bey oglu Topchubashov. The diplomatic activity of A.M. Topshubashov in 1918-1920 years is covered in the article. The competencies he showed to successfully complete the diplomatic mission assigned to him by the Ministry of Foreign Affairs of Azerbaijan were reflected. One of the things that made him unforgettable in the history of our diplomacy is that he was the first Azerbaijani to meet the US president.

*Keywords*: A.M. Topchbashov, Istanbul meetings, Paris Peace Conference, London session, San Remo session.

*Daxil olma tarixi*: 28.04.2023-cü il.
*Çapa imzalanma tarixi*: 05.05.2023-cü il.

№1(7) 2023

**UOT 94**

**BALAMİRZƏ MƏMMƏDLİ**
*Bakı Dövlət Universitetinin*
*“Slavyan ölkələri tarixi” ixtisası üzrə II kurs magistrantı*
**balamirza.mammadli@bsu.edu.az**

# İKİNCİ DÜNYA MÜHARİBƏSİ ƏRƏFƏSİNDƏ SSRİ-DƏ ÇİNLİLƏRİN VƏ KOREYALILARIN DEPORTASİYASI

*Elmi rəhbər:*
tarix elmləri doktoru Fazil Baxşəliyev

*İkinci Dünya müharibəsi ərəfəsində və illərində SSRİ-də xalqların deportasiyası problemi hələ də tam tədqiq edilməmişdir və buna görə də hazırda bir çox tarixçilərin tədqiqat obyektidir. Deportasiya probleminin öyrənilməsinə elmi-obyektiv yanaşma və fundamental tədqiqatlar yalnız Sovet İttifaqının süqutundan sonra məxfi arxiv fondlarının açılması sayəsində mümkün olmuşdur. XX əsrin 30-40-cı illərində SSRİ-də müxtəlif xalqların yüz minlərlə nümayəndəsinin kütləvi deportasiyasını Stalin repressiyalarının özünəməxsus formalarından biri kimi xarakterizə etmək olar. İkinci Dünya müharibəsi ərəfəsində bütün dünyada beynəlxalq münasibətlərin gərginləşməsi fonunda SSRİ-də deportasiya olunan xalqlar içərisində koreyalılar və çinlilər diqqəti cəlb edir. Məqalədə İkinci Dünya müharibəsi ərəfəsində SSRİ-nin Uzaq Şərqində yaşayan koreyalı və çinli əhalinin deportasiya edilməsinin səbəbləri, deportasiya əməliyyatının həyata keçirilməsi, habelə deportasiya olunmuş koreyalılar və çinlilərin sonrakı taleyi kimi məsələlər araşdırılır.*

*Açar sözlər:* İkinci Dünya müharibəsi, SSRİ, Uzaq Şərq, koreyalılar, çinlilər, sinofobiya, deportasiya.

***Giriş.*** Deportasiya (latınca *deportatio* – “sürgün edilmə”) və ya məcburi köçürülmə bir dövlətin öz vətəndaşlarına və ya digər dövlətlərin təbəələrinə qarşı güc tətbiq etməklə və ya zorakı yolla həyata keçirdiyi siyasi repressiya formalarından biridir. Deportasiyalar bir çox hallarda deportasiya edilənlərin fiziki məhvinin başlanğıcı və ya daha kompleks repressiya elementi kimi çıxış edir. Məsələn, ailə başçısı fərqli və daha sərt şəkildə repressiyaya (yəni, həbs yaxud güllə-

lənmə cəzası), ailə üzvləri isə deportasiyaya məruz qala bilər və bu hal, daha çox sovet cəza sistemi üçün səciyyəvidir. SSRİ-də stalinist deportasiyaların 3 spesifik xüsusiyyəti onu repressiya adlandırmağa əsas verir:

*Birincisi,* deportasiyalar inzibati, yəni məhkəmədənkənar xarakterə malik olmuşdur. SSRİ-də deportasiya qərarları bir qayda olaraq, partiya və hökumət rəhbərləri tərəfindən, Birləşmiş Dövlət Siyasi İdarəsi – XDİK – DTK orqanlarının təşəbbüsü ilə qəbul edilirdi ki, bu da, deportasiyanı sovet məhkəmə prosesinin səlahiyyətlərindən və hüquqi çərçivəsindən kənara qoyurdu.

*İkincisi,* deportasiyalar kollektiv xarakterə malik olmuşdur. Belə ki, deportasiyalar konkret şəxsə, ayrı-ayrı vətəndaşa deyil, bütöv bir insan qrupuna, etnik qruplara qarşı yönəlmişdir.

Nəhayət, *üçüncüsü,* deportasiyalar kütləvi şəkildə insanları öz yaşayış yerlərindən, yurd-yuvalarından didərgin salaraq onları yeni, əhali üçün qeyri-adi və bir qayda olaraq, yaşamaq üçün riskli mühitdə yerləşdirməyə yönəlmişdir.

***Çinlilərin deportasiyası.*** Sovet İttifaqında, daha dəqiq desək müasir Rusiya ərazisində çinlilərin kütləvi məkunlaşması XIX əsrin ortalarına – Rusiya imperiyası dövrünə gedib çıxır. Belə ki, 1858-ci il Ayqun müqaviləsi və 1860-cı il Pekin müqaviləsinə əsasən Rusiya Çindən Amur çayının şimalındakı və Ussuri çayının şərqindəki torpaqlar aldıqdan sonra bu torpaqlarda müstəmləkəçilik siyasətinə başlamışdı. 1905-ci ildə Yaponiyaya məğlub olduqdan sonra Rusiyanın əldə etdiyi həmin torpaqları özünə birləşdirməsi zərurəti yaranmışdı. Çünki həmin ərazilər yapon ekspansionizminin potensial hədəfinə çevrilmişdi [17, s.35-37]. XX əsrin əvvəllərində çarizmin Çinin şimal-şərq bölgələrindəki fəal müstəmləkəçilik siyasəti nəticəsində Çin fəhlələrinin Uzaq Şərqə axın etməyə başlamışdı. Bununla belə, çinli əhalinin Rusiya imperiyasının Uzaq Şərqində sürətlə artması çarizmi narahat edirdi ki, belə bir hal regionun demoqrafik mənzərəsini ciddi surətdə dəyişə bilər. Nəticədə, çar kökuməti sonradan tezliklə Çin diasporasının təsirini məhdudlaşdırmağa başlamışdı. Sinofobiyanı gücləndirən digər bir səbəb isə o idi ki, Rusiyadakı Çin diasporası

özlərinin adət-ənənələrini tətbiq edərək öz icmalarını yaradırdılar və bu, bəzən etnik iğtişaşlar doğururdu. Bununla yanaşı, rus fəhlələri ilə müqayisədə çinlilər daha ucuz, daha itaətkar və daha məhsuldar idilər ki, bu da onları Rusiyanın biznes sektorunda məşhur edirdi.

XIX əsrin sonları – XX əsrin əvvəllərində çinlilərlə bağlı "Sarı təhlükə" adlanan ifadə ortaya çıxmışdı. Belə ki, digər ölkələrdəki Çin diasporu kimi Rusiyadakı çinlilər də öz ilkin vətənlərinə sadiq idilər ki, bu da onları "təhlükəli" edirdi. Görkəmli Norveç səyyah və tədqiqatçısı Frityof Nansen 1914-cü ildə yazırdı: "*Çinlilər və koreyalılar zəhmətkeş və inadcıldırlar ki, bunu ruslar üçün heç də həmişə şamil etmək olmaz. Bundan başqa "sarı insanlar" mahir sənətkardırlar... Çinli bir biznesmenin hər yerdə rus və ya avropalının uğurlu rəqibi olması yaxşı məlumdur. Və bu keyfiyyətlər, rus yazıçısı Bolxovitinovun təbirincə desək, Çin ordusu və ya donanmasından da təhlükəlidir*" [4, s.1]. 1900-cü ildə Çində xarici müdaxilə və müstəmləkəçilik əleyhinə yönələn "Boksçular üsyanı"ndan (və ya İxetuan üsyanı) sonra Rusiya imperiyasının Amur vilayətinin hərbi qubernatoru K.N.Qribski bölgənin bütün çinli əhalisinin qovulmasını əmr etmişdi. Rus ordusu Blaqoveşensk yaxınlığında 3 mindən çox çinlini mühasirəyə alaraq onları Amur çayına sıxışdırmış, deportasiya edilənlərdən yalnız bir neçə yüz nəfəri sağ qalmışdı. 1911-ci ildə Mancuriyada vəba yayılan zaman çar hakimiyyəti epidemiyaya qarşı mübarizə bəhanəsi altında minlərlə çinlini yenidən deportasiya etmişdi [7, s.53]. Birinci Dünya müharibəsi zamanı Rusiyanın Ali Komandanlığı Almaniyanın Mancuriyadakı çinli casusları özünə cəlb etdiyini elan etdikdən sonra, bir neçə min çinli tacir hərbi nəzarət altında yaşadıqları ərazidən sürgün edildilər. Çin hökumətinin müharibə ilə bağlı neytral mövqeyinə baxmayaraq, çinlilərin Rusiya imperiyasına daxil olması da qadağan edilmişdi [18, s.79]. Lakin, dünya müharibəsi zamanı yaranan çətinliklərdən sonra, 1915-ci ildə çinli miqrantlara qoyulan məhdudiyyətlər aradan qaldırılmış, Rusiya hökuməti çinliləri fəal şəkildə Rusiyada işləmək üçün cəlb etməyə başlamış və nəticədə 400 mindən çox çinli Rusiya imperiyasına axın etmişdi. Lakin, onlar Rusiyada sonrakı vətəndaş müharibəsi zamanı çox vaxt irqi ayrı-seçkili-

yə və repressiyaya məruz qalırdılar. Çin diplomatik sənədlərinə görə, Ağ qvardiya həmin illərdə əsir götürdüyü çinliləri edam etmiş və onların cəsədlərini insanlarda xof yaratmaq məqsədilə ictimaiyyətə nümayiş etdirmişdi. Çinli kişi əhalisi tez-tez həbs və ya birbaşa edam edilirdilər. İntizamsız Qırmızı Ordu əsgərləri isə, etnik çinlilərin yaşadığı kəndləri qarət edir, yandırır, qadınları zorlayır, kişiləri həbs edir və işgəncə verirdilər. Qırmızı Ordunun bir çox kiçik zabitləri rus dilini bilməyən hər kəsi potensial casus və ya xarici agent hesab edirdilər. Bundan əlavə, çinli fəhlələrin əşyalarını tez-tez yoxlanılır, şübhəli bir şey görünərdisə həmin fəhlələr kommunist hesab edilir və sorğu-sual edilmədən güllələnirdilər [9, s.112-113].

Vətəndaş müharibəsindən sonra hakim kommunist partiyası yeni iqtisadi siyasət tətbiq etdi və bu siyasət tezliklə çinli mühacirləri işçi qüvvəsinin az olduğu Rusiyanın Uzaq Şərqinə qaytardı. Sovet hökumətinin 66202 nəfəri Avropadan Uzaq Şərqə köçürməsinə baxmayaraq, çinlilərin sayının artması hələ də yerli iqtisadiyyata böyük təsir göstərirdi [10, s.86]. 1920-ci illərin sonunda Uzaq Şərqdə ticarət məntəqələrinin yarısından çoxuna çinlilər nəzarət edirdilər. Məsələn, onlar ərzaq mağazalarının 48,5%-nə nəzarət edir, ərzaq, içki və tütün məmulatlarının 22,1%-ni satışını həyata keçirirdilər. O zaman Rusiyadakı çinlilərin əksəriyyəti inqilabaqədərki dövrlərdə olduğu kimi Rusiyanın Uzaq Şərqində, xüsusən də Vladivostokda yaşayırdılar. 1926-cı il siyahıyaalınmasına görə, Vladivostokda 43513 çinli yaşayırdı ki, bu da Uzaq Şərqdəki bütün çinli əhalinin 67%-i demək idi [5, s.24]. Sovet hökuməti ilk vaxtlar Çin qəzetlərinin nəşrinə icazə verməklə, çinlilər arasında savadlılığı təşviq etməklə Çin icmasının çiçəklənməsinə çalışır və çinlilərin kommunist inqilabını öz vətənlərinə də yayacaqlarına ümidlər bəsləyirdi. Lakin, 1926-cı ildə SSRİ Xalq Xarici İşlər Komissarlığı çinlilərin və koreyalıları Sovet İttifaqı üçün təhlükəli elementlər hesab edərək hər vəchlə onların ölkə ərazisinə köçünün qarşısını almaq qərarına gəldi. Koreyalılar Uzaq Şərqdən köçürülməyə başlanıldı, çinlilərin sərhəd bölgəsindən sıxışdırıb çıxarılması üçün tədbirlər görüldü [9, s.116-117]. 1928-ci ildə Vladivostokdakı Xalq Xarici İşlər Komissarlığının regional nümayəndəsi

Qeytsman yazırdı ki, Çinin iqtisadi gücü Sovet İttifaqının siyasi nüfuzunu sarsıda bilər [6, s.213-214]. 1928-1932-ci illərdə aparılan kollektivləşmə zamanı irqi gərginlik əhəmiyyətli dərəcədə artmış, kəskin anti-Çin və anti-Koreya əhval-ruhiyyəsi çoxlu sayda çinlilərin və koreyalıların bölgəni kütləvi şəkildə tərk etməsinə gətirib çıxarmışdı [20, s.840].

17 aprel 1936-cı ildə ÜK(b)P MK Siyasi Bürosu Vladivostokda çinlilərin kompakt halda yaşadığı "Millionka" adlı məhəllənin ləğvi haqqında qərar qəbul etdi. Əməliyyat 1936-cı ilin may ayında, Primorsk diyarı üzrə SSRİ Xalq Daxili İşlər Komissarlığının (NKVD) əməkdaşları "Millionka"da qeydiyyatı olmayan kirayənişinlər və digər şəxsləri taparaq həbs etdilər, daha sonra çinli vətəndaşlara məxsus bütün əmlak müsadirə edilməyə başlanıldı [11, s.105]. Çin konsulluqları "Millionka"da Stalin repressiyalarına iki dəfə – 1936-cı ilin may və iyun aylarında müdaxilə etdilər. Çünki, çinlilərin sıx halda yaşadığı bütöv bir məhəllənin SSRİ-də ləğv edilməsi xəbərləri Çinin özündə də əhali arasında panika yaratmışdı. Çin konsulluqlarının müdaxiləsindən sonra, 1936-cı il iyunun 17-də ÜK(b)P MK "Millionka"nın ləğvi məsələsini yenidən müzakirə etdi və Çin diplomatları üçün cavab layihəsi təsdiq edildi: "Çinin separatçı hökumət hesab etdiyi Monqolustan Xalq Respublikası ilə SSRİ arasında bağlanmış qarşılıqlı yardım paktının mənfi təsirini nəzərə alaraq, ÜK(b)P MK Siyasi Bürosu yerli hökumətə əməliyyatın başa çatdırılmasını əmr edir". Beləliklə, 1936-cı ilin sonuna kimi "Millionka" məhəlləsinin ləğvi tam başa çatdırıldı [11, s.105].

Çinin diplomatik sənədlərinə görə, 1935-ci ilin sonundan 1937-ci ilin əvvəlinə qədər Sovet hökuməti bir neçə dəfə çinli əhali qruplarını deportasiya etmişdir. 1937-ci ildə Çin və Yaponiya arasında müharibənin şiddətlənməsindən sonra isə, SSRİ-də Asiya əhalisinin kütləvi deportasiyasına yenidən başlanıldı.

1937-ci ilin oktyabrın 23-də SSRİ XDİK-nın 00693№-li "SSRİ dövlət sərhədini pozanlara qarşı repressiya əməliyyatı haqqında" operativ əmri ilə Harbində yaşayan ruslar da əlavə olaraq polyaklardan, almanlardan və koreyalılardan sonra təmizləmə obyekti siyahısı-

na daxil edildilər [13, s.284-285]. Noyabrın 10-da Çin Respublikasının Çitadakı konsulluğu vasitəsilə Çinin Xarici İşlər Nazirliyinə məlumat verildi ki, Sovet İttifaqı regionda müdafiə qabiliyyətini və iqtisadi quruculuğu gücləndirmək üçün hər ay 30 min avropalını Sibir və Uzaq Şərqdə məskunlaşdırır. Konsulluq həmçinin bildirdi ki, avropalı miqrantların yer əldə etməsi, habelə Çinin və Koreyanın Yaponiya, yaxud onun marionetkası olan Mançjou-Qo ilə sövdələşməsinin qarşısını almaq üçün Sovet hökuməti koreyalıları və çinliləri ölkədən köçürmə siyasətini həyata keçirir. Lakin, Çin hökuməti Yaponiya ilə müharibə apardığı üçün bu məlumatlara o qədər də ciddi əhəmiyyət verməmişdi.



*"Millionka" məhəlləsi, 1920-ci illər*

22 dekabr 1937-ci ildə N.Yejov SSRİ XDİK-nın Uzaq Şərq üzrə sədri Henrix Lyuşkova məqsədi təxribat və ya terror törətmək olan bütün çinlilərin həbs edilməsini əmr etdi [24, s.101]. Lakin, Sovet İttifaqının çinlilərə qarşı ittihamları çox vaxt özünü doğrultmurdu. Belə ki, sovet hakimiyyəti tərəfindən casusluqda ittiham olunanlar arasında kar və kor çinli mədənçinin olması bunu aşkar şəkildə sübut edir. Huanq Nanbo adlı həmin çinli iş adamı rusca danışdığı üçün "casus" hesab edilərək həbs olunmuşdu [10, s.86]. Ertəsi gün N.Yejov "Çinli xainlərin və casusların ələ keçirilməsi planı"nı dərc etdi və çinlilərin gizləniyi bütün ərazilərin ləğv edilməsi, hərtərəfli axtarışların aparılmasını, kirayənişinlərin və torpaq sahiblərinin həbs edilməsini əmr etdi. Antisovet çinliləri, habelə casusluqda, qaçaqmalçılıqda

ittiham olunan çinli cinayətkarları H.Lyuşkovun başçılığı ilə üç nəfərdən ibarət qrup ("NKVD üçlüyü") mühakimə etməli idi. Bütün şübhəli şəxslərin isə Uzaq Şərqdə, o cümlədən Çita və İrkutskda yaşaması qadağan edilirdi [24, s.47]. 1938-ci ilin yanvarın 21-də Xabarovskda Şərqi Çin dəmiryolunun onlarla fəhləsi güllələndi, Vladivostokda və ya sərhəddən 60 mil (təqribən 96,5 km – B.M.) kənarda yaşayan bütün çinlilər ərazidən köçmək məcburiyyətində qaldılar. 1937-ci ilin avqustundan 1938-ci ilin may ayına qədər 11 min çinli həbs edildi, 8 min çinli isə deportasiya edildi [25, s.47]. 31 yanvar 1938-ci ildə Sovet Siyasi Bürosu etnik azlıqların sıxışdırılmasını davam etdirmək qərarına gələrək ayrıca "Çin xətti"ni milli siyasətə əlavə etdi. Nəticədə, çinlilərin kütləvi həbsləri bütün ölkəni bürüdü. Sovet hökuməti belə hesab edirdi ki, Yaponiyanın Kvantun ordusu casusluq məqsədilə Rusiyanın daxilinə nüfuz etmək üçün çoxlu sayda rusdilli çinlilərə təlim keçib. Beləliklə, bölgədə yapon kəşfiyyatını iflic vəziyyətə salmaq üçün çinliləri bölgədən kənarlaşdırmaq zərurəti meydana gəlmişdir.

1938-ci ilin fevralın 22-də Xabarovskdakı Çin konsulluğu ötən gecə yüzlərlə günahsız çinlinin SSRİ XDİK tərəfindən həbs edildiyini və əvvəllər həbs edilmiş çinlilərin bu ucqar, soyuq ərazilərdə işləməyə məcbur edildiyini bildirdi. Martın 2-də Vladivostokdakı Çin konsulluğu məlumat verirdi: "Sovet hakimiyyəti çinliləri gecə-gündüz axtarır, çinliləri hətta iş başında da həbs edir. Sovetlər o qədər aqressivdirlər ki, heç bir güzəştdən söhbət belə gedə bilməz. İndi çinlilərlə 1900-cü ildə çoxlu sayda çinlinin Heyluntszyan çayında boğularaq öldürüldüyü kimi amansız rəftar edilir" 129, s.44-45]. Kütləvi həbslərdən sonra Vladivostokda mindən bir qədər çox çinli qalmışdı. Sovet hakimiyyəti onların axtarış və həbslərini bir ay dayandırsa da, Çin konsulluğuna sığınan çinlilər oranı tərk etdikdən sonra həbslər yenidən başladı. Çin konsulluğu ətrafında nəzarət-buraxılış məntəqələri qurulduğundan çinlilər kömək üçün konsulluğa yenidən qayıda bilmədilər və bu da Vladivostokda demək olar ki, bütün çinlilərin həbsi ilə nəticələndi. İkinci və üçüncü axtarış əməliyyatları zamanı müvafiq olaraq əvvəlcə 2005 nəfər, daha sonra 3082 nəfər çinli həbs edildi. Mayın 7-də Çinin Vladivostokdakı konsulluğu 7-8 min çinli-

nin saxlanıldığını bildirdi. Artıq yerli həbsxanaları çinlilərlə dolub daşırdı. İzdihamlı həbsxanalar və dindirmə zamanı işgəncələr çox vaxt ölüm halları ilə nəticələnirdi. Deportasiya edilən çinlilərin isə çoxu Qazaxıstan vasitəsilə Sintzyana getdilər [10, s.87].

Beləliklə, 1937-ci ilin avqustundan 1938-ci ilin iyununa qədər Rusiyanın Uzaq Şərqində 200-250 min nəfər (bütün yerli əhalinin ən azı 8%-i) repressiyalara məruz qaldı ki, bu da bütövlükdə Sovet İttifaqındakı repressiyalar ilə müqayisədə yüksək göstərici idi [25, s.51]. Çinlilərin və koreyalıların bölgədən sürgün edilməsi kənd təsərrüfatına ağır zərbə vurdu, bölgədə beşillik planın yerinə yetirilməməsinə səbəb oldu. Çünki, çinlilər və koreyalılar bölgənin ən məhsuldar fermerləri idilər.

Çinlilərin deportasiyasının və sinofobiyanın yüksək həddə çatması Çin hökumətinin kəskin reaksiyasına səbəb oldu. 1938-ci il yanvarın 10-da Çin səfirliyinin Moskvadakı nümayəndəsi Yuy Min sovet hakimiyyəti qarşısında çinliləri azad etməyə çağıran vəsatət qaldırdı. Ertəsi gün Çin hökumətinin SSRİ Xalq Xarici İşlər Komissarlığının Uzaq Şərq şöbəsinin müdiri ilə görüşmək xahişi, şöbə müdirinin səhhətində problem olduğunu bildirən bir zabit tərəfindən rədd edildi [12, s.48]. Yanvarın 13-də bəzi çinlilər Vladivostok və Xabarovskdakı Çin konsulluqlarına məlumat verdilər ki, saxlanılan çinlilər aclığa və hətta işgəncələrə məruz qalırlar. Fevralın 6-da sovetlərin çinlilərə qarşı bu mənfi münasibəti Çin nasionalistlərinin rəsmi qəzeti olan "Central Daily News"-un sərlövhəsində yer aldı. Fevralın 14-də Vladivostokdakı Çin konsulluğu Çinin Xarici İşlər Nazirliyinə məlumat verirdi: "Sovetlər hər şeyi, xüsusən də pul və əmlakı talayır, əgər hansısa çinli onları hardasa gizlədərsə o, işgəncə və zorakılığa məruz qalır. Son dərəcə acınacaqlı və həddindən artıq sərt olan belə həbslərdə çoxlu insan həyatını itirir" [12, s.44-45]. Fevralın 17-də Xabarovskdakı Çin konsulluğu dindirilmələr zamanı çinlilərin işgəncələrə məruz qalmasına etiraz edərək Sovet İttifaqını həbs edilmiş çinliləri azad etməyə çağırdı. Fevralın 19-da "Central Daily News" qəzetində SSRİ-nin çinlilərə qarşı pis rəftarına etiraz bildirən növbəti yazı dərc olundu. İki gün sonra, Honq-Konqda çıxan "Kung Sheung Daily

News" qəzeti də SSRİ hakimiyyətinin hərəkətlərindən qəzəbləndiyini bildirərək, çinlilərə qarşı yönəlmiş sovet vəhşiliyi haqqında reportaj hazırlayaraq dərc etdi [16].

3 iyun 1938-ci ildə N.Yejov SSRİ XDİK-nın Uzaq Şərq üzrə sədri H.Lyuşkova çinlilərin Sintzyana köçürülməsi ilə bağlı göstəriş verdi. Göstərişə əsasən:

"Birincisi, nə sovet, nə də Çin pasportu olmayan, Çin təbəəsi olduqlarını iddia edən çinlilər Çin konsulluqları vasitəsilə milli pasportlar alaraq Sintszyana köçürülməli;

İkincisi, Çin təbəələri ilə evli olan, lakin sovet vətəndaşı olan arvadlar sovet vətəndaşlığından çıxmaq haqqında ərizələrini məcburi şəkildə yazaraq ilə ərləri ilə birlikdə Sintszyana göndərilməli;

Üçüncüsü, Sovet vətəndaşı olan kişilərin həyat yoldaşı olan çinli qadınlar ərləri ilə birlikdə Qazaxıstana köçürülməli idilər" [24, s.102].

1938-ci il iyunun 10-da ÜK(b)P MK Siyasi Bürosu "Çinlilərin Uzaq Şərqdən köçürülməsi haqqında" fərman qəbul etdi və bununla da, Uzaq Şərqdə çinlilərə qarşı sovet zorakılığına nəhayət ki, son qoyuldu. Həmin fərmanda deyilirdi:

1. Çinlilərin Uzaq Şərq diyarının hüdudlarından köçürülməsi dayandırılsın, yalnız öz könüllü istəklərini bildirən çinlilərin Sintszyana köçürülməsinə icazə verilsin. Çinlilərin Qazaxıstana köçürülməsi isə, tamamilə dayandırılsın.

2. Sintszyana könüllü getmək istəyən çinlilərə hərtərəfli köməklik göstərilsin (əmlakın daşınmasına köməklik, ən sürətli sənədləşmə işləri, dəmiryol vağzalına yola salınma, müstəsna hallarda maddi yardım və s.).

3. Sintszyana səyahət etmək istəyən çinlilər öz vəsaitləri hesabına oraya göndərilməlidir.

4. Çinlilər – Çin təbəələri və qadağan olunmuş sərhəd zonaları ilə möhkəmləndirilmiş rayonların ərazisində yaşayan sovet vətəndaşları Sintszyana getmək arzusunu ifadə etmədikləri halda bu zonalardan kənarda və diyar ərazisindəki rayonlarda məskunlaşdırılsın.

5. Qazaxıstana deportasiya olunmaq üçün öz ərazisindən çıxarılan, evlərindən məhrum olan və Sintszyana getmək istəməyən bütün çinlilər və onların ailələri, eləcə də Sintszyana yol düşmüş və ya artıq qatarda olan, lakin Uzaq Şərq ərazisində qalmaq istəyən çinlilər qadağan olunmuş sərhəd zonalarından və möhkəmləndirilmiş rayonlardan kənarda olmaq şərti ilə Uzaq Şərq hüdudları daxilində məskunlaşdırılsın.

6. Casusluqda, aktiv diversiyada, terrorda mühakimə olunan və təqsirləndirilənlər istisna olmaqla, həbs edilmiş çinlilər həbsdən azad edilərək ailələri və əmlakları ilə birlikdə Sintszyana köçürülsünlər.

Çinlilərin növbəti kütləvi həbsləri dayandırılsın. Çinlilərin həbsləri onların əksinqilabi və ya cinayət əməllərini təsdiq edən kifayət qədər məlumat olduqda həyata keçirilsin. Həbs edilən çinlilərin işi baxılmaq üçün müvafiq məhkəmə orqanlarına göndərilsin [19, s.539-540].

Beləliklə, Sovet dövlətinin bütün bu fərmanlarından və deportasiyalarından sonra SSRİ-nin Uzaq Şərqində çinlilərin sayı əhəmiyyətli dərəcədə azaldıldı.

***Koreyalıların deportasiyası.*** Koreyalıların Rusiya ərazisinə mühacirəti 1860-cı illərin əvvəllərinə təsadüf edir. Onlar Çoson krallığından qonşu Rusiyanın Uzaq Şərqinə köç etmişdilər. 1880-ci illərdə 28 kazak kəndində 761 ailəni əhatə edən 5300 koreyalı yaşayırdı. 25 iyun 1884-cü ildə imzalanmış Rusiya-Koreya ticarət müqaviləsinin şərtlərinə görə, həmin tarixə qədər Uzaq Şərqdə yaşayan bütün koreyalılara Rusiya İmperiyasında vətəndaşlıq və torpaq verilmiş, lakin 1884-cü ildən sonra gələcək bütün digər koreyalıların iki ildən artıq qalmalarına icazə verilməmişdir. Buna baxmayaraq, koreyalıların köçü Rusiya imperiyasının süqutuna qədər davam etmişdir. Hətta 1917-ci il inqilabları da bu köçü dayandıra bilməmişdir. Xüsusilə, 1910-ci ildə Yaponiyanın Koreyanı işğalı etməsindən sonra çoxlu sayda koreyalı öz ölkəsini tərk edirdi. Onlar daha çox Posyet, Suçan (indiki Partizansk) və Suyfun rayonları boyunca məskunlaşırdılar. Rusiyaya köçmüş koreyalı miqrantlar özlərini "koryo-saram" (yəni, "Koreyadan olan insanlar") adlandırırdılar. Artıq 1920-ci illərdə Pri-

morsk diyarında yüz mindən çox koreyalı yaşayırdı. Torpaqları koreyalılara icarəyə vermək sərfəli olduğu üçün xüsusilə rus kəndliləri miqrasiyadan razı idilər.

1922-ci ilin noyabrında Sovet İttifaqı Uzaq Şərq Respublikasının varlığına son qoyduqdan sonra, koreyalılar da daxil olmaqla orada yaşayan bütün əhalinin sovet vətəndaşları olduğunu bəyan etdi [22, s.98]. Sovet hakimiyyətinin bərqərar olması ilə şərait dəyişməyə başladı. Növbəti immiqrasiyaların qarşısını almaq üçün 1925-ci ildə 700-800 koreyalı Oxotskdan Yaponiya imperiyasına deportasiya edildi. Elə həmin il müzakirə edilən koreyalılara muxtariyyət verəcək Koreya MSSR təklifi sovet hökuməti tərəfindən rədd edildi [20, s.834]. 1926-cı ilin siyahıyaalınmasına görə, həmin ildə Uzaq Şərq diyarında 169 min koreyalı, 77 min çinli və min nəfər yapon yaşayırdı. Rus-yapon müharibəsindən qalan hisslər və imperialist Yaponiyaya qarşı müasir nifrət səbəbindən sovet hakimiyyətində koreyalılara qarşı şübhələr və qəzəb artırdı. Sovet hökuməti qorxurdu ki, koreyalılar yapon imperiyasının sadiq təbəələri olaraq qala və Yaponiya tərəfindən casusluq, yaxud "əks-inqilabi təbliğat" üçün istifadə oluna bilərlər [3, s.28]. Sovet hökuməti həmçinin ehtiyat edirdi ki, koreyalıların SSRİ-də getdikcə artması faktı Yaponiya tərəfindən Koreyanın sərhədlərinin genişləndirilməsinə haqq qazandırmaq üçün istifadə oluna bilər. Buna görə də, 1928-1932-ci illərdə SSRİ-nin Uzaq Şərqində anti-Koreya və anti-Çin zorakılığı artdı və bunun nəticəsində 50 min koreyalı Mançuriya və Koreyaya mühacirət etməli oldu [20, s.840]. 13 aprel 1928-ci ildə təsdiq olunan "Koreyalıların Vladivostokdan Xabarovsk dairəsinə qədər köçürülməsinin məqsədəuyğunluğu haqqında" 307 №-li arayış koreyalıların Sovet-Koreya sərhədindən uzaqlaşdırılmasını və onların yerinə slavyanların yerləşdirilməsini nəzərdə tuturdu. Rəsmi plan "Sovet hakimiyyətinə tam loyallığını və sədaqətini sübut edənlər" istisna olmaqla, Xabarovskdan şimala vətəndaşlığı olmayan 88 min koreyalının köçürülməsini nəzərdə tuturdu [24, s.37-38].

Göründüyü kimi, 20-ci illərin sonlarından etibarən sovet hökuməti koreyalıları Primoryenin sərhədyanı rayonlarından Xabarovsk

diyarının ucqar ərazilərinə köçürməyi planlaşdırırdı. Ali partiya orqanları bu məsələni 1927, 1930, 1932-ci illərdə üç dəfə müzakirə etdilər. Xüsusilə də, 1930-cu ilin fevralın 25-də İ.Stalinin sədrliyi ilə ÜK(b)P MK Siyasi Bürosunda Uzaq Şərq koreyalılarının köçürülməsi məsələsi geniş müzakirə edildi [14]. 1937-ci ilin yazından etibarən mərkəzi mətbuatda Primorye koreyalıları və Yaponiyaya işləyən koreyalı casuslar haqqında məlumatlar dərc olunmağa başladı. Xüsusilə "Pravda" qəzetinin 23 mart 1937-ci il tarixli nömrəsində koreyalı kolxozçu tərəfindən koreyalı casusun saxlanması haqqında yazırdı: "Sovet vətəndaşları olan koreyalılar – düşməni tanımağı öyrəniblər. Koreyalı sovet vətənpərvəri öz xalqının düşmənini lazımi yerə çatdırdı". "İzvestiya" qəzetinin 4 sentyabr 1937-ci il tarixli nömrəsində isə, koreyalılardan ibarət "Mübarizə" («Борьба») kolxozunun sədri Kim İksenin köməyi ilə sərhədçilərin yaponların Mançjou-Qo ərazisindən göndərdiyi koreyalı casusun necə saxladılması haqqında məlumat verirdi [26].

Koreyalıların deportasiyası həyata keçirilməzdən əvvəl SSRİ XDİK koreyalılara qarşı genişmiqyaslı repressiv kampaniya həyata keçirdi ki, bu repressiyalar hətta 1937-ci ildə bütün Sovet İttifaqında repressiyaların pik həddə çatması fonunda da nəzərə çarpırdı. Belə ki, inqilabdan sonrakı illərdə önə çıxan ÜK(b)P-dəki demək olar ki, bütün koreyalı partiya-dövlət xadimləri, kraskomlar (Qırmızı Ordudakı koreyalı zabitlər – B.M.) məhv edildi, Kominternin Koreya bölməsi ləğv edildi, ali təhsilli koreyalıların əksəriyyəti həbs olundu. Artıq deportasiya zamanı SSRİ XDİK təqribən 2,5 min koreyalını həbs etmişdi [26].

1937-ci ilin avqustun 21-də Kremldə SSRİ-nin Uzaq Şərqində ən böyük Asiya etnik qrupu olan koreyalıların deportasiyası ilə bağlı fərman imzalandı. SSRİ XKS-nin sədri V.Molotov və ÜK(b)P MK-nin katibi İ.Stalinin imzaladığı 1428-326ss №-li "Uzaq Şərq diyarının sərhədyanı rayonlarından koreyalı əhalinin köçürülməsi haqqında" fərmanda göstərilirdi ki, deportasiyanın əsas məqsədi Uzaq Şərqdə yapon casusluğunun qarşısını almaqdır. Fərmanda deyilirdi:

“Yapon casusluğunun Uzaq Şərq ərazisinə nüfuz etməsinin qarşısını almaq üçün aşağıdakı tədbirlər görülməlidir:

1. ÜK(b)P Uzaq Şərq vilayət komitəsinə (крайком), Vilayət icraiyyə komitəsinə (крайисполком) və SSRİ XDİK-nın Uzaq Şərq diyarı üzrə idarəsinə (УНКВД Дальневосточного края) təklif edilsin ki, Uzaq Şərq diyarının sərhədyanı rayonlarında yaşayan bütün koreyalı əhali oradan köçürülsünlər və Cənubi Qazaxıstan vilayətində, Aral dənizi və Balxaş rayonlarında, habelə Özbəkistan SSR-də məskunlaşdırılsınlar. Köçürülməyə Posyetski rayonundan və Qrodekovoya bitişik rayonlardan başlanılsın.

2. Köçürülmə dərhal başlasın və 1938-ci il yanvarın 1-dək başa çatdırılsın.

3. Köçürülən koreyalılara özləri ilə əmlak, təsərrüfat alətləri və xırda ev heyvanları götürməyə icazə verilsin.

4. Köçkünlərə qoyub getdikləri daşınar və daşınmaz əmlakın və əkinin dəyəri ödənilsin.

5. Köçürülən koreyalılar ölkəni tərk etmək istəyinə maneələr yaradılmasın, sərhədi keçmək üçün sadələşdirilmiş prosedur tətbiq olunsun.

6. SSRİ Xalq Daxili İşlər Komissarlığı köçürülmə ilə əlaqədar koreyalılar tərəfindən mümkün həddi aşmalara və iğtişaşlar yaradılmasına qarşı tədbirlər görsün.

7. Qazaxıstan SSR və Özbəkistan SSR Xalq Komissarları Sovetlərinə öhdəlik verilir ki, məskunlaşma rayonları və məntəqələri dərhal müəyyən edilsin və köçürülən əhalinin yeni ərazilərdə təsərrüfat vəziyyətini təmin edilsin, onlara lazımi köməklik göstərilməsi üçün tədbirlər müəyyən edilsin.

8. Köçürülən koreyalıların və onların əmlakının Uzaq Şərq ərazisindən Qazaxıstan SSR və Özbəkistan SSR-ə daşınması üçün vaqonların vaxtında verilməsini təmin etmək Uzaq Şərq İcraiyyə Komitəsinin (Далькрайисполком) ərizəsi ilə Xalq Dəmiryolları Komissarlığına tapşırılsın.

9. ÜK(b)P-nin Uzaq Şərq diyar komitəsi (Далькрайком) və Uzaq Şərq diyar icraiyyə komitəsi (Далькрайисполком) köçürülə-

cək təsərrüfatların və insanların sayı barədə üç gün ərzində məlumat verməlidir.

10. Koreyalıların köçürüldüyü ərazilərdə sərhəd mühafizəsini gücləndirmək üçün sərhəd qoşunlarının sayı 3 min nəfər artırılsın.

11. SSRİ Xalq Daxili İşlər Komissarlığına icazə verilsin ki, sərhədçiləri koreyalıların boşaldıldığı ərazilərdə yerləşdirsin" [24, s.83-84].

Fərman avqust ayında imzalansa da, sovet rəsmiləri koreyalıların məhsul yığımını başa çatdırmasını gözləyərək deportasiyanın icrasını 20 gün gec həyata keçirdilər. 1 sentyabr 1937-ci ildə 11807 nəfər koreyalıdan ibarət ilk qrup deportasiya edildi [4, s.155]. Koreyalılar daşınar əmlaklarını yaşadığı ərazidəcə tərk etməli və "mübadilə kvintasiyası" almalı idilər. Mübadilə kvintasiyası – koreyalıların qoyub getdikləri əmlakın pul ilə olan ekvivalent dəyərini ölçürdü. Lakin onlar tələm-tələsik və sanki icbari hüquqi sənədlər deyilmiş kimi doldurulurdu. Üstəlik, sovet hakimiyyəti deportasiya edilmiş koreyalılardan "səyahətlərinin" hər günü üçün 5 rubl alırdı. Köçürülməyə müqavimət göstərməyən koreyalılara 370 rubl mükafat verilirdi [3, s.30].



*Deportasiya olunmaq üçün stansiyalara çağırılan koreyalılar*

SSRİ XDİK orqanlarının nümayəndələri ev-ev gəzərək koreyalıların qapısını döyür və onlara bildirirdilər ki, evdəki bütün lazımi əşyaları, şəxsi sənədləri və ərzaqlarını yarım saatdan az vaxta toplayıb yığışmalıdırlar. Deportasiya barədə onlara əvvəlcədən heç bir xə-

bərdarlıq edilmirdi. Sentyabrın sonuna kimi Spassk, Posyet, Qrodekovo və başqa ərazilərdən 74500 koreyalı deportasiya olundu. 1937-ci il sentyabrın 27-dən başlayan deportasiyanın ikinci mərhələsi Vladivostok, Buryat MSSR, Çita vilayəti və Xabarovsk diyarından olan koreyalılar əhatə edirdi. Onlar dəmir yolu vasitəsilə 124 qatarla daşındı [22, s.99]. Bu zaman əri koreyalı olan özü digər millətlərdən olan sovet qadınları da, ailəsi ilə birgə deportasiyaya məruz qalırdı. Yalnız ər qeyri-koreyalı, arvad isə koreyalı olduğu halda ailə deportasiyadan azad edilirdi. Yük qatarının hər vaqonunda 5-6 ailə (yəni, 25-30 nəfər) yerləşdirilirdi. Vaqonların içərisində sanitariya acınacaqlı vəziyyətdə idi. Belə ki, deportasiya olunan koreyalılar bu vaqonların içərisində yemək hazırlamalı və yeməli, yatmalı və hətta təbii ehtiyaclarını ödəməli idilər [8, s.46]. Belə olan təqdirdə, antisanitariyanın nə dərəcədə olduğunu təsəvvürə gətirmək heç də çətin deyil.

1937-ci il oktyabrın 25-də Xalq Daxili İşlər komissarı N.Yejov koreyalıların deportasiyası ilə bağlı məruzə edir: "Koreyalıların Uzaq Şərq diyarından çıxarılması başa çatdı. Ümumilikdə, 36442 ailədən ibarət 124 eşelon koreyalı, yəni 171781 nəfər köçürüldü. Uzaq Şərq diyarı, Kamçatka, Oxotsk ərazisində yalnız 700-ə qədər "xüsusi köçkün" (спецпереселенец) qalmışdır ki, onlar da 1 noyabr 1937-ci ilə qədər növbəti eşelon ilə çıxarılacaqlar. Özbəkistan SSR-də 16272 ailəni əhatə edən 76525 nəfər, Qazaxıstan SSR-də 20170 ailəni əhatə edən 95256 nəfər koreyalı məskunlaşmışdır. 76 eşelon gəlib çataraq boşaldılmış, 48 eşelon isə, yoldadır. Xalq Dəmiryolları Komissarlığı daşımaların öhdəsindən kifayət qədər yaxşı gəldi, eşelonlar az bir qismi istisna olmaqla, qrafikə uyğun getdilər və gedirlər" [15].

Bir neçə il sonra – 1940-cı ildə daha bir neçə koreyalı bu dəfə SSRİ-nin qəribindən – Murmansk vilayətindən Altay diyarına köçürüldü. Belə ki, SSRİ Xalq Daxili İşlər komissarı L.Beriyanın imzaladığı fərmana əsasən alman, polyak, çinli və koreyalılar da daxil olmaqla, 1743 nəfərdən ibarət 675 ailə sərhəd rayonlarından deportasiya olundu [3, s.36]. Koreyalılara qarşı deportasiyalar nasist Almaniyası ilə müharibə illərində də davam etdi. Belə ki, 10 yanvar 1943-cü ildə Dövlət Müdafiə Komitəsinin qərarı ilə 8 min koreyalı hərbi qul-

luqçu Qırmızı Ordudan tərxis olunaraq Mərkəzi Asiyadakı digər koreyalılarla birgə əmək batalyonlarına göndərildi. Qalan koreyalıların qeyri-nizamlı deportasiyası 1946-cı ilə qədər davam etdi [27, s.79]. Koreyalıların deportasiyalarından sonra Uzaq Şərq regionundakı demək olar ki, bütün rayonlar boş qaldı. Qırmızı Ordunun şəxsi heyəti geridə qalan ən yaxşı binaları əldə etdilər. Lakin, sovet hökuməti köçürülənlərin yerinə 17100 ailənin yerləşdirilməsini planlaşdırsa da, 1939-cu ilə qədər oraya cəmi 3700 ailə köçdü [22, s.101].



*Deportasiyadan sonra tarlada işləyən koreyalılar*

Deportasiya edilən koreyalılara tərk etdikləri əmlaka görə müəyyən qədər təzminat (hər ailəyə orta hesabla 6000 rubl) ödənildi. Deportasiya edilənlərin bəziləri məskunlaşma yerinə çatdıqdan sonra silahlı mühafizəçilərin daimi nəzarəti altında kazarmalara göndərildi. Sovet hökuməti köçürmə prosesinə çox vaxt etinasız yanaşırdı. Belə ki, məsələn, 31 dekabr 1937-ci ildə Qazaxıstanın şimalındakı Kostanay şəhərinə çatmış qatardakı 4000 koreyalı ilə bağlı yerli hakimiyyət orqanları lazımi tədbirlər görmədiyindən onlar soyuq qışda bir həftə boyunca vaqonda qalmalı olmuşdular [1, s.35]. 1938-ci ilin oktyabrına qədər 18649 koreyalı təsərrüfatı birləşdirən 59 kolxoz yaradıldı, 3945 nəfər koreyalı isə bu ərazilərdə artıq mövcud olan 205 kolxoza qoşuldular. Lakin, koreyalılardan bəziləri kolxoz sədrinə məktublar göndərərək aclıq və ya şirin su çatışmazlığı barədə xəbər-

darlıq edirdilər [3, s.33-35]. Onlar həmçinin dərman çatışmazlığı və hətta işsizlik problemi ilə də üzləşmişdilər. Bir çoxları yerli qazaxların və ya özbəklərin xeyirxahlığı sayəsində sağ qalmışdılar. Belə ki, yerli sakinlər özləri məhdud miqdarda qida ehtiyatlarına malik olmalarına baxmayaraq onu köçkünlərlə paylaşmış və onlara sığınacaq vermişdilər. Kolxozlarda məskunlaşan koreyalılar əsasən çəltikçilik, tərəvəzçilik, balıqçılıq və pambıqçılıqla məşğul olurdular. Sovet hökuməti bu qədər köçkün axınını ilk vaxtlar lazımi şəraitlə təmin edə bilməmiş, bəzi ərazilərdə yeni evlərin və ya məktəblərin tikintisi üçün tikinti materiallarının çatışmazlığı problemi yaranmışdı. Məsələn, Daşkənddə deportasiya edilənlər üçün tikilməsi nəzərdə tutulmuş 4151 ikiotaqlı məzildən yalnız 1800-ü 1938-ci ilin sonunda tikilib təhvil verilmişdi ki, bu da bir çoxlarını kazarmalarda, daxmalarda, klublarda və d. yerlərdə yaşamağa məcbur etmişdi [3, s.35].

***Nəticə.*** Beləliklə, deportasiyalardan sonra həm koreyalılarım və çinlilərin yaşadığı ərazilər əhəmiyyətli dərəcədə etnik dəyişikliklərə məruz qaldı və Uzaq Şərq bölgəsinin demoqrafik mənzərəsi dəyişdi. Məsələn, çinlilərin "Millionka" məhəlləsi kabus şəhərinə çevrildi, onların mağazaları və bütün digər ictimai iaşə obyektləri yoxa çıxdı, orada çinlilərin yaşadığına dair heç bir əsər-əlamət qalmadı. SSRİ-nin dağılmasına qədər yarım əsr ərzində Uzaq Şərqdə əsasən qeyri-koreyalı və qeyri-çinli sovet vətəndaşları yaşadı. Hətta 1992-ci ildən sonra çinli fəhlələr və alverçilər həmin ərazilərə gələndə də yenidən irqi gərginliklərlə üzləşdilər. 8 iyun 2010-cu ildə "Millionka"-da Stalin repressiyalarının qurbanları olduğu iddia edilən çinlilərin cəsədləri tapıldı. Hazırda Komi Respublikasındakı bəzi kəndlər 1940-50-ci illərdə orada saxlanılan çinli məhbuslara görə "chinatown" adlanır [2, s.191]. Deportasiya nəticəsində Mərkəzi Asiyada yeni ərazilərdə məskunlaşdırılan bir çox koreyalı ilk illərdə aclıq, müxtəlif xəstəliklər, iqlim dəyişikliyi və digər səbəblərdən həlak oldu. Tif və malyariya kimi yoluxucu xəstəliklər ölüm hallarını artıran əsas səbəblərdən idi. Əhali sayının statistik göstəricilərinə əsaslanan hesablamalara görə, deportasiya edilmiş koreyalılar arasında ölüm

nisbətinin ümumi sayı ən azı 16500-28200 nəfərdən 40 min-50 min nəfərə kimi dəyişir [23, s.105].

## ƏDƏBİYYAT

1. Adams, Margarethe. Steppe Dreams: Time, Mediation, and Post-socialist Celebrations in Kazakhstan. Pittsburgh, "University of Pittsburgh Press", 2020, 232 p.
2. Applebaum, Anne. Gulag: a history. New York, "Anchor eBooks", 2004, 736 p.
3. Bugay, Nikolai. The Deportation of Peoples in the Soviet Union. New York, "Nova Science Publishers", 1996, 217 p.
4. Chang, Jon K. Burnt by the sun: the Koreans of the Russian Far East. Honolulu, "University of Hawaii Press", 2016, 286 p.
5. Чернолуцкая Е.Н. Конец «Миллионки»: ликвидация китайского квартала во Владивостоке (1936 г.) // Россия и АТР, 2008, №4, с.24-31.
6. Fuchs, Marina. The Soviet Far East as a strategic outpost and the regional authorities' nationality policy: the Korean question, 1920-1929 // Sibirica, Volume 4, Issue 2, 2004.
7. Guan, Shu-he; Yang, Cui-hong. Epidemic Prevention or Sinophobe? A Study of the Large-scale Deportation of Chinese from the Russian Far East in 1911. Overseas Chinese History Studies, 2011, No.3, p.50-57.
8. Jo, Ji-Yeon O. Homing: An Affective Topography of Ethnic Korean Return Migration. Honolulu, "University of Hawaii Press", 2017, 248 p.
9. Xie, Qingming. Chinese Workers in Russia after the October Revolution and Related Policies of the Soviet Russia // Jianghan Academic, 2014, No 2, pp.112-118.
10. Xie, Qingming.The Chinese Diaspora Issue in the Soviet Far East in the Early Period of the Anti-Japanese War (1937-1938) // Journal of Guangzhou Institute of Socialism, 2015, No 1, pp. 86-92.

11. Хисамутдинов А.А. Миллионка: Культура, выросшая в подворотне. Владивосток, «Изд-во Дальневосточного университета», 2018, 116 с.
12. Инь, Гуанмин. Историческое исследование решения Советским Союзом китайского вопроса на Дальнем Востоке (1937-1938 гг.). // Современные исследования истории Китая, «Институт современной истории, Академия общественных наук КН», 2016, (2), 41.
13. История сталинского Гулага. Конец 1920-х – первая половина 1950-х годов: Собрание документов в 7-ми томах. Т.1. Москва, «РОССПЭН», 2004, 728 с.
14. Ким Г.Н. Депортация. Стереотипы и новые подходы исследования депортации корейцев 1937 года - http://world.lib.ru/k/kim_o_i/d4rtf.shtml [07.04.2023].
15. Корейцы в России. От депортации до репатриации. - https://www.kommersant.ru/doc/3449161 [08.04.2023].
16. Kung Sheung Daily News (21 February 1938). - https://i.ibb.co/3ypzZY7/image.jpg [01.04.2023].
17. Lin, Yuexin Rachel. Among Ghosts and Tigers: The Chinese in the Russian Far East, 1917-1920 (Doctor of Philosophy thesis). Oxford, "University of Oxford", 2015, 305 p.
18. Lohr, Eric. Russian citizenship: from empire to Soviet Union. Cambridge, Massachusetts, "Harvard University Press", 2012, 288 p.
19. Лубянка. Сталин и Главное управление госбезопасности НКВД. Документы. Под ред. акад. А.Н. Яковлева. Москва, «МФД», 2004, 736 с.
20. Martin, Terry. The Origins of Soviet Ethnic Cleansing // The Journal of Modern History, 1998, 70 (4), pp.813-861.
21. Məmmədli B. II Dünya müharibəsi illərində SSRİ-də çeçen-inquş əhalisinin Mərkəzi Asiyaya deportasiyası // Tarix və onun problemləri, № 1, 2022, s.239-247.
22. Polian, Pavel. Against Their Will: The History and Geography of Forced Migrations in the USSR. New York, "Central European University Press", 2004, 425 p.

23. Saul, Norman E. Historical Dictionary of Russian and Soviet Foreign Policy. Lanham, Maryland: "Rowman & Littlefield", 2014, 526 p.
24. Сталинские депортации 1928-1953. Москва, «МФД: Материк», 2005, 904 с.
25. Stephan, John J. "Cleansing" the Soviet Far East, 1937-1938 // Acta Slavica Iaponica, 1992, (10), pp.43-64.
26. Восточный экспресс. - https://concours.nazaccent.ru/2018/text/2868/ [07.04.2023].
27. Weitz, Eric D. A Century of Genocide: Utopias of Race and Nation. Princeton, "Princeton University Press", 2015, 360 p.

**BALAMIRZA MAMMADLI**
*2nd year master student of Baku State University*
*in the specialty "History of the Slavic countries"*

# DEPORTATION OF KOREANS AND THE CHINESE IN THE USSR ON THE EVE OF WORLD WAR II

The problem of the deportation of peoples in the USSR on the eve and during the Second World War has not yet been fully researched, and therefore is currently the object of research by numerous historians. A scientific-objective approach and fundamental research to the study of the deportation problem became possible only after the dissolution of the Soviet Union, thanks to the opening of secret archive funds. The mass deportation of various nations in the USSR in the 30s and 40s of the XX century can be characterized as one of the unique forms of Stalin's repressions. Against the background of the tension of international relations all over the world, the Koreans and the Chinese attract attention among the peoples deported in the Soviet Union on the eve of the Second World War. The article examines the reasons for the deportation of the Korean and Chinese population living in the Far East of the USSR on the eve of

the Second World War, the implementation of the deportation operation, as well as the subsequent fate of the deported Koreans and Chinese.

*Keywords*: World War II, USSR, Far East, Koreans, the Chinese, Sinophobia, deportation.

*Daxil olma tarixi*: 08.04.2023-cü il.
*Çapa imzalanma tarixi*: 05.05.2023-cü il.

**UOT 94(479.24)**

**CAVİD NƏBİYEV**
*Azərbaycan Universiteti*
*“Azərbaycan qədim və orta əsrlər tarixi” üzrə I kurs magistrantı*
**javid.nabiyev@student.au.edu.az**

# XÜRRƏMİLƏR HƏRƏKATI. BABƏKİN BAŞÇILIĞI İLƏ AZADLIQ MÜHARİBƏSİ

*Elmi rəhbər:*
tarix elmləri doktoru Anar İsgəndərov

*Azərbaycan tarixinin ən keşməkeşli dövrlərindən biri olan IX əsrin I yarısında güneyli-quzeyli Azərbaycan torpaqlarında ərəb militarizminə qarşı alovlanmış milli-azadlıq hərəkatı tarix elmində Xürrəmilər hərəkatı adı ilə tanınmaqdadır. Bu hərəkatın öndəri Babək olmuşdur. Xürrəmilər hərəkatı məğlub olmasına baxmayaraq ərəb xilafətinin sütunlarını zəiflətmişdir.*

*Açar sözlər*: Babək, Xürrəmi, Ərəb xilafəti, Bəzz.

***Giriş.*** Xürrəmilər hərəkatı Azərbaycan tarixini parlaq səhifələrindən olmuşdur. Xürrəmilər hərəkatının birinci mərhələsi üsyanın başlamasından Babəkin üsyana rəhbərlik etməyə başladığı zamana qədərki dövrü əhatə edir. I mərhələdə üsyanın əsas rəhbəri və aparıcı fiqur Azərbaycanın Ərdəbil şəhərindən olan Cavidan Səhrək oğlu olmuşdur. Xürrəmilər hərəkatının I mərhələsində baş verən hadisələr və döyüşlər əsasən Azərbaycan ərazisində olmuş və geniş yayılmamış, üsyan Ərəb Xilafəti üçün o qədər də böyük təhlükə törətməmişdir.

755-ci ildə baş verən və sözsüz ki, xürrəmdinilərin də iştirak etdikləri Sunbad üsyanı nəzərə alınmazsa, mənbələrdə “əl-müxəmmirə” – “qırmızı geyinmişlər” adı ilə məşhur olan xürrəmilərin ilk məlum çıxışı 778-ci ilə aid edilir [1, s.265].

Üsyanın başında “Əbd əl-Qəhhar adlı birisinin” durduğu haqqında xəbər verən ət-Təbəridən fərqli olaraq Nizamülmülk üsyan başçısının Əbu Müslimin oğlu Əbu əl-Qərra olduğunu, üsyançıların “Əbu Müslim sağdır. Məmləkəti tutaq!” şüarı ilə çıxış etdiklərini dəqiqləşdirir. Nizamülmülk üsyançıları “qırmızı geyinmişlər” əvəzinə,

"xürrəmdinilərlə birləşmiş", "qırmızı bayraq (sorxələm) batinilər adlandırır.

Müvəffəqiyyətsizliyə uğrayan bu üsyandan keçən, az qala iyirmi illik nisbi sükutdan sonra mənbələr "qırmızı geyinmişlər"in 796-797-ci ildə baş verən yeni çıxışı haqqında xəbər verir. Ət-Təbəriyə görə, həmin il Curcanda "zındıq" Əmr ibn Məhəmməd əl-Əmrakinin başçılığı ilə baş vermiş üsyan da müvəffəqiyyətsizliklə nəticələnmiş, xəlifə Harun ər-Rəşidin əmri ilə üsyan başçısı öldürülmüşdür. 797-798-ci il hadisələrindən bəhs edən ət-Təbəri həmin il "qırmızı geyinmişlər"in Curcanı tutmaları haqqında məlumat verir.

Xürrəmilərin yeni çıxışını ət-Təbəri 192/808-809-cu ilə aid edir. Nizamülmülk üsyanın "Harun ər-Rəşidin Xorasanda olduğu vaxta" təsadüf etdiyini qeyd edir. Bu dəfə İsfahan, Rey, Həmədan və b. yerləri əhatə edən üsyan, ət-Təbərinin məlumatına görə, Azərbaycanda başlanmış, hər yerdən gələn yüz mindən artıq adam üsyana qoşulmuşdur. Lakin Abbasi üsuli-idarəsinə qarşı yönəldilmiş bu çıxış da uğursuzluqla nəticələnmiş, "saysız adam öldürülmüş", çoxlu əsir tutularaq, Harunun Karmisindəki qərargahına gətirilmiş, onların bir hissəsi məhv edilmiş, qalanları isə Bağdad bazarında satılmışdılar.

Bu hadisədən sonra xürrəmilərin Xilafətə qarşı çıxışlarına ara verildi. Mənbələrdən məlum olur ki, xürrəmilərin rəhbərləri olan Cavidan və Əbu İmran bu zaman ədavətə başlamış, aralarındakı münasibətləri aydınlaşdırmaqla məşğul olmuşdular. Başçılar arasında günü-gündən artan bu çəkişmə onları, habelə onların ardıcıllarını Xilafətə qarşı mübarizədən yayındırırdı. 816-cı ilə qədər xürrəmilər mərkəzi hakimiyyəti yalnız adda-budda çıxışlarla narahat edirdilər.

816-cı ildə Cavidan və Əbu İmran açıq döyüşdə bir-birini öldürdülər. Əbu İmran döyüş meydanında, Cavidan isə aldığı ağır yaradan üç gün sonra həlak oldu. Cavidanın ölümündən sonra xürrəmilərə rəhbərlik etməyə başlayan Babək hərəkatın məcrasını tamamilə Xilafətə qarşı yönəltdi [1, s.266].

Z.Bünyadovun verdiyi məlumatlara əsasən Babəkin dini ziddiyyətli olmuşdur.O yazırdı: "Bəzi mənbələrin verdiyi məlumata görə, Babək guya bir vaxt islamı qəbul edibmiş və onun müsəlman adı

Həsən imiş. Babəkin islama müəyyən münasibətini göstərən bu yeganə məlumat nəzərə alınmazsa, bütün digər mənbələr təsdiq edir ki, Babək ərəblərə və onların dininə nifrət bəsləyirdi, bütün ömrü boyu Xilafətə qarşı mübarizə edirdi və Azərbaycanda islamdan əvvəl mövcud olan qayda-qanunları bərpa etməyə çalışırdı. Birincisi, o özünün müsəlman olmayan Babək (Papak) adını bərpa etdi, ikincisi Allahın insan surətində görünəci (hülul) nəzəriyyəsini elan etdi; üçüncüsü, ruhun bir cisimdən başqa bir cismə köçdüyünə (tənasüx əl-ərvah) inanırdı və dördüncüsü, bu əqidədə idi ki, imamın qeyb olan ruhu çox sonralar qayıdacaqdır (ricət) [6, s.602].

Babəkin hökmdar olması fikri ətrafındakı müzakirələr hələ də cavabını tapmamışdır. Qeyd edilməlidir ki, xürrəmiləri və xürrəmdiniləri ifrat şiə təriqətləri kimi qiymətləndirən müsəlman filosofları içərisində bu təriqətlərin ardıcıllarını "ifrat" şiə baxışlarına çox yaxın olan "batinilər" – ismaililər təriqətinə aid edənlər də vardı. XI əsrdə yaşamış məşhur filosof imam Əbu Hamid əl – Ğəzalı batinilərin səkkiz ləqəbləri sırasında ismaililər və qarmatlarla yanaşı, xürrəmiləri, babəkiləri, müxəmmiriləri də sadalayır. Elə oradaca batiniliyin mənası da açılır: "Quranda və hədislərdə bütün aşkar görünənlərin gizli (batini) mənası var; zahirdə olan yalnız simvoldur, gizlində qalan isə həqiqətə işarədir; gizlini dərk edənin üzərindən dini borclar götürülür" [6, s.278].

Bizə görə, Babəkin hökmdar olduğunu söyləməyə əsas verən daha önəmli mənbə məlumatları onun özünün dilindən söylənən fikirlərin əks olunduğu məlumatlardır. Bizlər üçün Abbasi saray tarixçilərinin yaxud onların məlumatlarını qeydsiz-şərtsiz obyektiv qabul edərək onlara istinad etmiş digər tarix yazarlarının fikirlərindən daha çox Babək Xürrəminin özünü hansı məqamda görməsi mühüm əhəmiyyət kəsb edir. Çünki Abbasilər yox, məhz Babək Xürrəmi bizim tarixi qəhrəmanımız və dahi şəxsiyyətimizdir. Mənbələrdə bununla bağlı bir sıra maraqlı məlumatlara rast gəlinir. Təbərinin "Tərix ər-rüsul və-l-müluk" adlı əsərində Babəkin Bəzz qalasını tərk edib Araz vadisindəki meşəlikdə olduğu zaman oğlundan gələn məktuba verdiyi cavabda bu cümlələrə yer verilib: "Bəlkə də mən bu gündən sonra

çox yaşamadım, amma mən hökmdar adını daşıyıram və mən harda olsam, yaxud mənim barəmdə harada na danışsalar - yena da man hökmdar olaraq qalıram” [6, s.112-113].

Z.Bünyadovda Babəkin bu məktubundakı “hökmdar” kəlməsi “padşah” və “şah” olaraq qeyd olunub [5, s.335].

Babəklə bağlı bu günədək aparılmış tədqiqatlarda diqqətdən demək olar ki kənarda qalmış daha bir fakt Babəkin hərəmxanasının olması faktıdır. Sovet dövründə məlum səbəbdən bu faktın üzərindən sükutla keçilmişdir. Tarixi mənbələr onun arvadlarından ikisi – Bəzz qalasının sahibi olmuş Şəhrək oğlu Cavidanın dul qalmış qadını və Sünik knyazı Vasakın qızı İbnət əl-Kəldaniyya barədə daha ətraflı məlumat verir. S.Nəfisi qeyd edir ki, “Görünür ki, onun (Babəkin) bir neça arvadı var imiş. Yazıldığına görə, Samirəyə aparılan əsirlər içərisində bir neçə qadın varmış ki, Babəkin arvadları hesab olunurdular” [3, s.122].

İmadəddin ibn-Kəsir “Əl-bidaya və-n-nihayət" adlı əsərində Babəkin Afşin tərəfindən ələ keçirilən ailə üzvləri barədə bunu yazır: “Onun (Babəkin) on yeddi oğlu və özü ilə oğullarının arvadlarından iyirmi üç nəfər qadın ələ keçmişdi” [2, s.371].

Ərəb qaynaqlarına görə, 816-cı ildə xürrəmilərin başçısı Cavidanın ölümündən sonra Babək “Azərbaycan vilayətinin Bəzzeyn dağında meydana çıxdı və onun tərəfdarlarının sayı artdı...”. Ərəb müəllifi Əbu Dula- fın yazdığına görə. Abbasilər öz bayraqlarını qara rəngə boyadıqları kimi, xürrəmilər də qırmızı rəngə boyamışdılar. Məsudinin əsərində “Babəkin ölkəsi” dedikdə “Bəzz, Azərbaycan, Arran və Beyləqan” nəzərdə tutulmuşdur.

Xilafət Babəkin başladığı azadlıq müharibəsinin bu qədər geniş miqyas alacağını ilk vaxtlar dərk etmədiyindən ona qarşı Azərbaycanda saxladığı hərbi dəstələrdən və qarnizonlardan istifadə edir, ancaq heç bir uğur qazana bilmirdi. Babəkin qoşunlarının böyük qələbələr hesabına geniş əraziləri ərəblərdən azad etməsi xəlifə Məmunu 819-cu ildə Babəkə qarşı nizami ordu göndərməyə vadar etdi. Ancaq bu ordu əzildi. 822-ci ildə Babəkə qarşı İsa ibn Məhəmmədin başçılığı ilə göndərilmiş ərəb ordusu Bərdə yaxınlığındakı döyüşdə darma-

dağın edildi və ərəb sərkərdəsi öldürüldü. 823/824-cü ildə Babək yeni bir ərəb ordusunu da darmadağın etdi və ordu başçısı Əhmədi əsir götürdü. Bu qələbə nəticəsində Babək Bərdə, Ərdəbil, Naxçıvan, Beyləqan və Şirvanı tamamilə azad edərək öz silahdaşı Rüstəmi Azərbaycanın şimal torpaqlarına - Arana hakim təyin etdi. Babək 829-cu ildə ərəblərin görkəmli sərkərdəsi Məhəmməd ət-Tusinin başçılığı altında olan 150 minlik ordunu hərbi hiylə işlədərək Marağa yaxınlığında Həşdadsər adlanan dağ dərəsinə çəkib, pusqudan ağır zərbələr endirdi. Nəticədə 30 min ərəb döyüşçüsü məhv edildi və sərkərdə öldürüldü. 829/830-cu ildə Babək xilafətin daha bir ordusunu ağır məğlubiyyətə uğratdı. Babək ən böyük qələbəsini 830-cu ildə baş vermiş Həmədan döyüşündə qazandı. Şəhər ələ keçirildi. Abbasilərin paytaxtı Bağdadı Mərkəzi Asiya və Qafqazla bağlayan çox mühüm strateji yol Babəkin əlinə keçdi. Bu qələbə nəticəsində Azərbaycanın bütün torpaqları ərəblərdən təmizləndi və Vətənimiz müvəqqəti də olsa, xilafətin əsarəti altından çıxdı.

Xəlifə ordularının dalbadal ağır məğlubiyyətə uğradılması, Azərbaycan kimi çox mühüm ərazinin itirilməsi, Babəkin qələbələrinin digər bölgələrdə də xalqların azadlıq hərəkatını gücləndirməsi xəlifə Məmunu bərk qorxuya saldı. Məsudi yazırdı: “Babək hərəkatı elə bir əzəmətli həddə çatdı ki, onun təsiri və qoşunlarının sayı o qədər çoxaldı ki, az qaldı Abbasilər səltənəti məhv olsun”. Təsadüfü deyil ki, 833-cü ildə ölüm ayağında olan xəlifə Məmun varisi və qardaşı olan əl-Mötəsimə bütün gücünü xürrəmilərə qarşı yönəltməyi vəsiyyət etmişdi. Vəsiyyətnamədə deyilirdi: “Xürrəmilərə qarşı müharibəyə qətiyyətli və rəhimsiz bir adam göndər, ona səbrlə pul, silah, atlı və piyada qoşunla kömək et. Əgər müharibə uzun çəksə, sən özün yaxın və sadiq adamlarınla onların üstünə get”. Göründüyü kimi, yeni xəlifə Mötəsimin dövlət işlərində birinci dərəcəli vəzifəsi Babəki sıradan çıxartmaqdan ibarət idi. Xəlifə Mötəsim böyük xərc və güc hesabına Babəklə müharibənin gedişində dönüş yarada bildi. 833-cü ildə baş vermiş II Həmədan döyüşündə Babək böyük itki verərək ağır məğlubiyyətə uğradı. Mənbələrdə onun itkisi azı 60 min nəfər göstərilir. Xəlifə Misirdə Bizansla müharibədə ad qazanmış çox

istedadlı sərkərdəsi, türk Afşin Heydər ibn Kavusu Babəkə qarşı vuruşan bütün qoşunların baş komandanı təyin edərək müharibə üçün ondan heç bir vəsaiti əsirgəmədi. Afşin ata mindiyi hər gün üçün 10 min dirhəm, döyüş aparmadığı hər gün üçün isə 5 min dirhəm alırdı. Afşinin ordusu arası kəsilmədən silah-sursatla təmin olunurdu. Mənbələrə görə, təkcə 837-ci ildə xəlifə Babəklə müharibəyə 1 milyon dirhəm pul xərcləmişdi.

Afşin ilk növbədə orduda ciddi intizam yaratdı. Öz qərərgahını Bəzzə yaxın olan Bərzəndə köçürtdü, yolları və Babəkin dağıtdığı qalaları təmir etdirdi. Babəkin qalaları, Bəzzeyn ölkəsinin yolları, dağ keçidləri və hərbi qüvvələri haqqında kəşfiyyat məlumatlarını toplamağa başladı.

Buna baxmayaraq Afşinin əmrindən çıxıb, Babəkə qarşı 836-cı ildə döyüşə girən türk sərkərdəsi Buğa Həşdadsər dağı yaxınlığında ağır məğlubiyyətə uğradı. Buğa qaçmaqla canını qurtara bildi. Xürrəmilər bütün ərəb ordugahını, pul və silahları ələ keçirdilər.

837-ci ildə Babəkin ərəblərlə son döyüşü Bəzzdə baş verdi. Ərəblər od püskürən və mühasirə qurğularından istifadə edərək amansız döyüşlərdən sonra Bəzz şəhərini ələ keçirdilər. İstilaçılar üç gün ərzində şəhərdə nə vardısa, dağıtdılar və yandırdılar. Mənbələrə görə, buradakı nə bir ev, nə bir qala da salamat qalmadı. Bəzz döyüşündən sonra xəlifədən Babəkə aman verilməsi haqqında qızıl möhürlü məktub gəldi. Ancaq Babək bu təklifi qətiyyətlə rədd etdi. Babəkin əsir alınmış böyük oğlu da ona məktub göndərərək atasını aman almaq üçün geri qayıtmağa çağırırdı. Lakin Babək Mötəsimin aman haqqında məktubunu açmadan geri qaytarmış və oğluna belə yazmışdı: "Əgər sən mənim ardımca gəlsəydin, öz sülalənin varisi olardın və vərəsəlik sənə keçərdi... Ola bilər bu gündən sonra mən çox yaşamayım, lakin şah, məlik adı üstümdə qalır… Bircə gün rəhbər (ağa) kimi yaşamaq, 40 il zillətlə qul olmaqdan yaxşıdır".

Babək bir neçə mühafizəçisi, qardaşı və anası ilə birlikdə müttəfiqi olan Bizansdan kömək almaq üçün yolüstü Albaniyanın Şəki vilayətinə gəldi. Ancaq burada Babək köhnə müttəfiqi Səhl ibn Smbat tərəfindən ərəblərə təhvil verildi. Babək onu ərəblərə satmış

Səhlə üzünü tutaraq belə demişdi: “Olmaya sən məni yəhudilərə (ərəblərə) cüzi bir pula satmısan? Pul istəyirdinsə, məndən istəyəydin və mən sənə onlardan da çox pul verərdim”.

Ərəb sərkərdəsi Afşinin Azərbaycan torpağında son istəyin nədir? - sualına Babək “mən öz şəhərimə baxmaq istəyirəm” cavabını verdi. Bəzz şəhəri ilə vidalaşdıqdan sonra Babək Bağdad yaxınlığındakı Səmərra şəhərinə göndərildi. Bütün Xilafəti qorxuya salan Babəkin şəxsiyyətinə xəlifə sarayında maraq o qədər güclü idi ki, mənbələrə görə xəlifə Mötəsim paltarını dəyişmiş halda Babəkin yerləşdiyi qəsrə gəlib ona baxıb geri qayıtmışdı. Xəlifə göstəriş vermişdi ki, Babəki edama apararkən hamının görməsi üçün onu filə mindirsinlər.

Babəkin həyatı və fəaliyyəti kimi onun edam zamanı göstərdiyi dözümlülük və qəhrəmanlıq da hamını heyrətə salmışdı. Maraqlıdır ki, edamdan qabaq xəlifə Mötəsim Babəkə demişdi: “Ey Babək, sən bu vaxtacan heç kəsin görə bilmədiyi bir işi görmüsən. İndi də o qədər dözməlisən ki, indiyədək kimsə elə dözə bilməmişdin”. Həqiqətən də Babək dəhşətli edam zamanı böyük dözümlülük göstərmiş, sağ əli kəsilərkən üzünü ona görə qana boyamışdı ki, qanının axması nəticəsində üzünün saralmasının səbəbini xəlifə qorxması ilə əlaqələndirməsin. Babəkin edam zamanı göstərdiyi dözümlülük və mətanət xəlifəni də heyrətə salmışdı. Xəlifə demişdi: “onun gördüyü işlər (günahlar) bağışlanmalı olsa idi, tək elə bu üstünlüyünə görə yaşamağa layiq olardı”. Edamdan sonra Babəkin başı əhalini qorxutmaq üçün Xorasana göndərilmiş, bədəni isə Səmərrada asılmışdı. Əl- Müqəddəsi yazırdı ki, “Babəkin üzərində qazanılmış qələbə, İslam aləmində ən böyük qələbə idi və onun əsir alındığı gün isə müsəlmanların bayram günü oldu”.

***Nəticə.*** Babəkin başçılığı ilə Xilafətə qarşı aparılmış azadlıq müharibəsi tariximizin ən parlaq səhifələrindən biridir. Babək üç qitədə yerləşən və dünyanın ən güclü dövləti olan Xilafətlə 20 illik savaşda düşmənin 225 mindən çox əsgərini və çoxlu ərəb sərkərdəsini məhv etmişdi. Bu itkilər Xilafəti dərindən sarsıdaraq zəiflətmişdi. Babəkin apardığı savaş IX əsrin II yarısında Azərbaycan torpaqları-

nın Xilafətin əsarətindən qurtulması üçün bir zəmin hazırlamış və siyasi oyanışımıza təkan vermişdi.

## ƏDƏBİYYAT

1. Azərbaycan tarixi. Yeddi cilddə. II cild. Bakı, Elm, 2007, 608 s.
2. Nailə Vəlixanli. Ərəb xilafəti və Azərbaycan. Bakı, Azərnəşr, 1993, 157 s.
3. Nailə Vəlixanlı. IX-XI əsr coğrafiyaşünas-səyyahları Azərbaycan haqqında. Bakı, Elm nəşriyyatı, 1974, 224 s.
4. Orta əsr ərəb mənbələrində Azərbaycan tarixinə aid materiallar. Bakı, "Nurlan", 2005, 336 s.
5. Ziya Bünyadov. Dinlər, təriqətlər, məzhəblər. Bakı, «Şərq-Qərb», 2007, 336 s.
6. Ziya Bünyadov. Azərbaycan VII-IX əsrlərdə. Bakı, "Sərq-Qərb", 2007, 424 s.

**JAVID NABIYEV**
*First year graduate student of Azerbaijan University*

## KHURRAM MOVEMENT. LİBERATİON WAR LED BY BABEK

In the first half of the ninth century, one of the most turbulent periods in the history of Azerbaijan, the national liberation movement that ignited Arab militarism in the lands of southern and northern Azerbaijan is known in history as the Khurram movement. The leader of this movement was Babek. Despite the defeat of the Khurram movement, it weakened the pillars of the Arab caliphate.

*Keywords*: Babek, Khurrami, Arab Caliphate, Bazz.

*Daxil olma tarixi*: 30.04.2023-cü il.
*Çapa imzalanma tarixi*: 05.05.2023-cü il.

**UOT 94(479.24)**

**EYNULLA EYNULLAYEV**
*Bakı Dövlət Universiteti*
*Tarix fakültəsinin tarix müəllimliyi ixtisası üzrə III kurs tələbəsi*
**eynulla2003@mail.ru**

# XƏDİCƏ ƏLİBƏYOVANIN VƏ "İŞIQ" QƏZETİNİN MAARİFÇİLİK TARİXİMİZDƏ ROLU

*Elmi rəhbər:*
Şəbnəm Cəfərova

*Məqalədə Xədicə xanım Əlibəyovanın həyatından və onun maarifçilik fəaliyyətindən bəhs ediləcək. Həmçinin ilk qadın mətbuat orqanı olan "İşıq" qəzetinin yaranmasından və onun maarifçilik tariximizdə roluna toxunulacaq. Məqalədə XX əsrin əvvəllərində qadın maarifçimizlərimizin "İşıq" qəzetində müstəsna xidmətləri haqqında fikirləri təhlil ediləcək. Azərbaycan Cümhuriyyəti süqut etdikdən sonra Xədicə xanım Əlibəyovanın işıqlı mübarizə haqqında məlumat veriləcək.*

*Açar sözlər:* Xədicə Əlibəyova, "İşıq" qəzeti, Mustafa Əlibəyov, Azərbaycan Cümhuriyyəti, "Molla Nəsrəddin" jurnalı.

***Giriş.*** Tarix boyu ölkəmizin qadınları istər dövlət işlərinin idarə olunmasında, istər döyüş meydanlarında, istərsə də maarifçilik hərəkatında fəal mübarizə aparmışdılar. E.ə. 530-cu ildə Araz çayı sahilində massaget hökmdarı Tomris Kiri məğlub etmişdir. XV əsr dövlətçilik tariximizdə önəmli yer tutan Ağqoyunlu dövlətinin əsasını qoyan Uzun Həsənin anası Sara xatun (əsil adı – Saray xatun *–müəl.*) Osmanlı imperatoru Sultan Fateh Mehmetlə diplomatik danışıqlar aparmışdır. Bu o dövr üçün olduqca önəmli hadisə idi. Saray xatun həmçinin Şərqdə ilk diplomat qadın olmuşdur. XIX əsrin ikinci yarısı XX əsrin əvvəllərində qadınlarımızın maarifçilik fəaliyyəti daha çox diqqəti cəlb etmişdir. Bunlara şərqdə ilk qadın baş redaktor olan Xədicə Əlibəyovanı, Milli Mətbuatımızın banisi Həsən bəy Zərdabinin həyat yoldaşı Hənifə Məlikovanı, Cəlil Məmmədquluzadənin həyat yoldaşı və Cavanşirlər sülaləsindən olan Həmidə xanım Cavanşiri,

Şəfiqə Əfəndizadəni, Məryəm xanım Bayraməlibəyovanı və s. qeyd etmək olar. Dünyanın ilk türk-müsəlman qadın jurnalı "Aləm-i Nisvan" Krımda – Bağçasarayda hələ 1906-cı ildən Şəfiqə xanım Qaspıralı tərəfindən, Krım türkcəsində və rusca nəşr edilməkdə idi (1, s.83). Onların fəaliyyətinin hamısını birləşdirən əsas qeyd olunası məqam xalqımızın maariflənməsi uğrunda mübarizə idi.

Adı qadın maarifçilik tariximizdə uzun müddətdir xatırlanan və bundan sonra da şərəfli ömür yoluna hələ çox müraciət olunacaq jurnalist, həkim Xədicə Əlibəyova. O, 1884-cü ildə Tiflisdə ziyalı ailəsində anadan olmuşdur. Atası ruhani olmasına baxmayaraq Xədicə xanım ilk təhsilini rus gimnaziyasında almışdır. Xədicə xanım hələ kiçik yaşlardan elmə, təhsilə böyük marağı ilə seçilirdi. Bu da təbii ki, onun sonrakı həyatında silinməz izlər qoymuşdur. Atası Əlaəddin Sübhanquliyev İslam alimi, ruhani olmasına baxmayaraq elmə, maarifə önəm verən şəxslərdən olmuşdur. Xədicə sözünün mənası ərəbcə birinci, ilkin demək idi. Atanın verdiyi bu adı Xədicə xanım 77 illik ömrü boyu doğrultmuş, ilk qadın ginekoloq həkim, Azərbaycanda ilk qadın mətbuatı yaratmış, Şəkidə xəstəxana yanında ilk doğum şöbəsi yaratmışdı (3). Atası Əlaəddin Sübhanquliyev o dövrdə Tiflisin ziyalı insanlarından hesab olunurdu. Xədicə xanımın atası qızının təhsilini yüksək qiymətləndirdiyi üçün Zaqafqaziya Olqinskaya Mamalıq məktəbində oxudur. Təhsilini artırmaq üçün Xədicə xanım 1905-ci ildə Moskvaya yollanır. Amma 1905-1907-ci il rus inqilabı onun təhsil almasına mane olur və o geri qayıdır. Xədicə xanım təhsilini Tiflisdə yekunlaşdırır. 1907-ci ildə yüksək dərəcəli mama-ginekoloq ixtisasına yiyələnir (1, s.92). Çar rusiyasının tərkibində qadınların elmlə, təhsillə məşğul olması demək olar ki, yasaqlanmışdı. Qadınların məktəbə getməsinə, oxuyub savad almasına imkan verilmirdi. Lakin 1905-1907-ci il inqilabından sonra cəmiyyət həyatında dəyişikliklər baş verdi. Artıq qadınlar mətbuatda məqalələrlə, o dövrdə olan hadisələr haqqında yazılarla çıxış edirdilər. 1903-cü ildə nəşr olunmuş "Şərqi-rus" qəzetində "Bakılı bir xanım", "Gəncəli bir xanım" adlı məqalələr göründü. O illərdə "Şərqi-rus" da qadın mövzusuna dair

34 konseptual məqalə dərc edilmiş, o mühüm yazıların yarıdan çoxunu Məhəmməd ağa Şahtaxtlı yazmışdı (1, s.80).

1903-1909-cu illərdə qadın problemlərini işıqlandıran mətbuat orqanları sırasında "Kaspi", "Həyat", "İrşad", "Tərəqqi", qəzetləri, "Molla Nəsrəddin" və onun davamçısı olan digər satirik mətbuat, "Füyuzat" jurnalı da var idi (2, s.424). 1908-ci ilin oktyabrın 26-da Rübabə Qasımovanın mənzilində 14 ziyalı qadın bir araya toplaşaraq "Nicat" maarif cəmiyyətinin qadın şöbəsini açmaq barədə razılığa gəlmişdilər. Bu qadınların arasında milli mətbuatımızın banisi Həsən bəy Zərdabinin həyat yoldaşı Hənifə Məlikova, Xədicə Əlibəyova, Səkinə xanım Axundova, Ayşə xanım Hacıqasımova, Səriyyə xanım Axundova, Xurşud xanım Vəzirova, Səltənət xanım Xanlarova, Əminə xanım Əfəndiyeva, Rübabə Qasımova, Şərqiyyə xanım Axundova, Sara xanım Vəzirova, Rəhilə xanım Hacıbababəyova, Qəribsultan xanım Xanlarova idi. Bakıda ilk rəsmi qadın cəmiyyəti kimi tarixə düşən bu təsisatın məqsədi təhsil almaq istəyən müsəlman qızlara, eləcə də oğlanlara maddi-mənəvi dəstək vermək idi (1, s.78-79).

Xədicə Əlibəyova özü kimi savadlı, ziyalı, elmə, maarifə üstünlük verən Mustafa Əlibəyov ilə 1907-ci ildə ailə həyatı qurmuşdur. Mustafa bəy Əlibəyov 1872-ci ildə Nuxada bəy ailəsində anadan olmuşdur. Nuxada rus-tatar məktəbində oxumuş, 1892-ci ildə Tiflis gimnaziyasını bitirmişdir. Tiflisdə oxuduğu dövrdə rus və fransız dillərini də öyrənmişdir. Bakı quberniyası dairə məhkəməsində baş müstəntiqin tərcüməçisi və vəkil (1892-1920) işləmişdir (4, s.365). Mustafa bəy Əlibəyov XX əsrin əvvəllərində Hacı Zeynalabdin Tağıyevin sədrliyi ilə yaradılan "Hidayət" xeyriyyə cəmiyyətinin katibi olub. Cəmiyyətin əsas yaradıcıları ziyalılar və ruhanilər olmuşdur. "Hidayət cəmiyyəti" qatillərlə və qoçularla mübarizə aparmağı, fanatizmə qarşı mübarizəni əsas məramı hesab edirdi. "Hidayət" cəmiyyəti dini fanatizm adətlərinə qarşı çıxırdı. Müsəlmanların şaxsey-vaxsey və s. bu kimi xürufat və dini mərasimlərinin insanlara zərərdən başqa bir şey vermədiyini Cəmiyyət camaata olan müraciətnaməsində açıq qeyd edirdi. Müraciət şəhərin əyan və əşrəfi tərəfindən imzalanmışdı. Cəmiyyətin katibi Mustafa bəy Əlibəyov isə bu barədə

"İrşad" qəzetində məqalə ilə çıxış etmişdi. Müraciət şəhərin fanatik dindarları tərəfindən qəzəblə qarşılanmışdı. Hətta qərara gəlmişdilər ki, qazi Mir Məhəmməd Kərimin və Mustafa bəy Əlibəyovun başı kəsilsin. Qəzəblənmiş qara kütlə Məhəmməd Kərimin ev qapısına od vurub yandırırlar. Əlibəyov isə evdən bayıra çıxa bilmirdi (4, s.41).

Mustafa Əlibəyovla Xədicə xanım cəmiyyətdə qadınların təhsil almasına, onların öz hüquq və azadlığını dərk etməsi uğrunda birlikdə mübarizə aparırdılar. Məhz bunun nəticəsində 1911-ci ilin 22 yanvar tarixində "İşıq" qəzeti nəşr olundu. "İşıq" qəzetinin yaradıcısı Xədicə xanım Əlibəyova, naşiri Mustafa bəy Əlibəyov idi. "İşıq" qəzeti təxminən iki ilə yaxın müddətdə fəaliyyət göstərdi. Qəzetin bu müddət ərzində 68 sayı çap olunmuşdur. "İşıq" qəzeti həftənin şənbə günləri çap olunurdu. Qəzet 8, az hallarda 12 səhifə həcmində nəşr edilirdi. Hacı Zeynalabdin Tağıyevin himayəsi ilə təsis edilən "İşıq" qəzetinin məsul katibi də xeyriyyəçinin xanımı Sona Tağıyeva idi (9, s.23).

"İşıq" qəzetinin 1911-ci il nəşrləri Haşım bəy Vəzirovun "Səda" mətbəəsində, 1912-ci il sayları isə Bakı şəhər polis idarəsinin mətbəəsində çap olunmuşdur (1, s.85). "İşıq" təbabət, xəbərlər, elanlar bölməsindən ibarət idi. Qəzetdə məktublar da nəşr olunurdu. Xədicə xanım tibb təhsili aldığı üçün qəzetdə bu mövzulu yazılar da üstünlük təşkil edirdi. Onun "Təzə dünyaya gələn uşağı necə bəsləməli?", "Uşağın bədənini nə sayaq təmizlikdə saxlamaq və yeditmək?", "Uşağı beşikdə və yüyrükdə yırğalamaq", "Süd əmən uşağa əmzik vermək", "Çiçək nədən hasil olur?" adlanan məqalələri tibb maarifçiliyi tariximimizdə ilk addımları sayıla bilər (1, s.88). Fikrimizcə, "İşıq" qəzeti təkcə mətbu orqan olmamış, həm də tibb sahəsində biliyi olmayanların da maariflənməsində çox müstəsna rola malik olmuşdur.

"İşıq" qəzetinin ilk sayında Xədicə Əlibəyovanın "Hüquqmumuz" məqaləsi də qadınların elm və təhsilə cəlb edilməsindən bəhs edirdi. Xədicə xanım yazırdı: "Elm dalına düşüb, övladlarımıza gözəl tərbiyə verib, onları xoşbəxt, eləcə də elm sayəsində evlərimizi hisn idarə etməklə, ərlərimizi xoşnud edib, dünyada asudə və rahət ömür keçi-

rib, axirətimizi mömur və abadan etməliyiz. Vətəndaş bacarıqları ümumiyyət üzrə təlim və tərbiyə yoluna sövq edib, istiqbalımızın səadəti üçün husnak və sövqmənd etməkdə möhtərəmə əməli-qələm bacılarından təkrar rica və təmənna etməklə bu kəmsavat səsinə səs verib, hər xüsusda əfkar eşitdirmək və qandırmaqdan üz döndərməyəcəklər. Atalar sözüdür: "Tək əldən səs çıxmaz" (2, s.426).

"İşıq" qəzetinin nəşri o dövrün bir çox ziyalıları və tələbələri tərəfindən sevinclə qarşılanmışdır. Əhməd Cavad, Hüseyn Cavad, B.Şaxtantinski öz təbrik məktublarını yazmışdılar. Qəzetin ikinci sayında görkəmli Azərbaycan şairi Məhəmməd Hadi təbrik məramını şeir parçası ilə dilə gətirmişdir:

Baxmasaz yaxşı ciyər parələrə
Yazıq olmazmı o biçarələrə.
Tefl bir ainədir əksi nüma
Yaxşı baxsaz olacaq çöhrə nüma.
Biədəb bəsləməyin teflani
Mərifətpərvər edin səbyani (9).

Azərbaycanın qüdrətli publisist-yazıçısı Yusif Vəzir Çəmənzəminli ilk qadın məcmuəsinin çapdan çıxması münasibəti ilə Kiyevdən göndərdiyi təbrik məktubunda yazırdı: "Xanımlar qəzetəsi dedikdə ən əvvəl "arvad məsələsi" yada düşür. "Arvad məsələsi" də insanlar üçün həyati və zəruri bir məsələdir" (5, s.101).

Xədicə xanım Əlibəyova yazırdı ki, millətlərin inkişaf etməsi kişilərin tərəqqisi ilə deyil, qadınların tərəqqisi ilə ölçülür. Məhz buna görə də təlim-tərbiyə ocaqlarının sayını artırıb, övrətləri məktəblərə cəlb etməliyik. "İşıq"ın Gəncə müəlliflərindən biri Xuraman xanım Bəyzadə yazırdı: "Yazıq deyilsinizmi? Gedib birinə cariyə olacaqsınız. Bacılarım, bunu da bilməlisiniz ki, hər şey çoxaldıqca ucuzlaşar, fəqət elm çoxaldıqda bahalanar" (1, s.87).

"İşıq" qəzetinin müəlliflərindən olan maarifçi Həlimə Axundzadə qadınları öz hüququnu başa düşməyə çağırırdı. "Bacılarım, qeyrət vaxtıdır. Dəxi durmaq zamanı keçdi. Bizlərə elm lazımdır. Bundan

ötrü oxuyub, oxudub, tərbiyə alıb tərbiyə vermək lazımdır. Bizlərə elm lazımdır. Elm... Elm... Elm" (1, s.87).

Gördüyümüz kimi, qadınlarmız da cəmiyyəti məktəbə, təhsil almağa, elmə səsləyirdi. O dövrdə bunun müstəsna əhəmiyyəti olduqca böyük idi. Həmin qadınlarımız cəhalətlə vuruşur, milli müstəqilliyi, qadın azadlığını yazılarında və çıxışlarında təbliğ edirdilər. Onlar başa düşürdülər ki, təhsil almağın xüsusilə də qadınların üçün əhəmiyyəti nədir. Qadın savadlı olardısa, övladlarının da oxumasına şərait yaratmış olacaqdır. Hacı Zeynalabdin Tağıyev hesab edirdi ki, "Bir kişi elm alarsa, o ancaq təhsilli bir insan olar. Amma əgər bir qadın təhsil alıbsa, o həm təhsilli qadın, həm də bilikli, savadlı bir anadır. Savadlı anaların isə gələcəkdə cəmiyyətin düzgün qurulmasında əhəmiyyəti böyükdür".

Lakin təəssüflə qeyd etmək lazımdır ki, qəzetin çap olunmasına birmənalı münasibət olmamışdır. "Molla Nəsrəddin" jurnalı, Cəlil Məmmədquluzadə, Ömər Faiq Nemanzadə, Əliqulu Qəmküsar qəzetin çapına tənqidi mövqe ilə yanaşmışdılar. Xədicə xanım Əlibəyova qəzetin ilk saylarının hörmət əlaməti olaraq "Molla Nəsrəddin"nin redaksiyasına da göndərmişdi, lakin qadın azadlığından yazan jurnaldan belə umduğu cavabı ala bilmir, əksinə "Molla Nəsrəddin" eləcə öz atmacaları, karikaturaları ilə "İşıq"a hücum edir, bu mühüm qadın əməyini lağa qoyur, qadın qəzetinin onsuz da zəif mövqeyini bir az daha sarsıdır (1, s.90). Mustafa Əlibəyov cavab məktubunda jurnalın bu mövqeyindən təəccübləndiyini bildirmişdi. Əlbəttə, "Molla Nəsrəddin"nin bu cür mövqeyi "İşıq" qəzetinə böyük təsir göstərir. Onun abunəçiləri azalır. Təbii ki, o dövrdə dini fanatizmi təbliğ edən molların da mövqeyi "İşıq" qəzetinə qarşı aqressiv, qərəzli idi. Mollalara görə qadının qəzet çıxarmasını qiyamət əlaməti hesab edirdilər. Günlərin birində isə məsələ daha qəlizləşdi. Hacı Cavad məscidinin mollası Məhəmməd Əmin Axund məscidin minbərindən buyurdu: "Cəamət! Hər kəs "İşıq" qəzetəsini oxusa, kafirdir. Hər kəsin evində "İşıq" qəzetəsi olsa o ev murdardır. Çünki övrət tayfasının qəzetə yazması və oxuması qiyamətin nişanəsidir" (1, s.94). "İşıq" qəzetinin abunəçilərinin qəzetin çap olunmasına maddi köməyi də az deyildi.

Artıq bu çıxışlardan sonra abunəçilərin sayı kəskin azaldı. Qeyd etməliyik ki, başlanğıcda qəzetə köməklik göstərmiş olan Hacı Zeynalabdin Tağıyev də bu çıxışlardan sonra geri çəkilməyə məcbur olmuşdu. Belə bir məqamda Xədicə xanım "İşıq"ın illik çap olunmuş sayını rus imperatotunun xanımına göndərib kömək etməsi qərarına gəlir. Dövrün protokoluna görə, Xədicə xanım rus çariçaya müraciət etmək üçün öncə Bakı qubernatoruna ərizə yazmalı, qubernator öz növbəsində zadəgan təbəqədən olan təbəənin bu məktubuna əsasən çariçanın dəftərxanasına məktub göndərməli və alınan cavaba uyğun hərəkət etməli idi. Belə də olur, "mərhəmətli imperatiriça" baş redaktor xanımın "İşıq" qadın qəzetinin toplusunu göndərilməsinə izn verir (1, s.97). Xədicə xanım 1911-ci ildə qəzetin çap olunmuş birillik toplusunu Aleksandra Fyodorovna göndərir. Lakin cavab gəlmir. Qəzet 1912-ci ilin sonunda nəşrini dayandırır. Lakin bundan sonra da Xədicə xanım fəaliyyətini dayandırmamışdır.

Xədicə Əlibəyova 1918-ci ildə yaradılan Azərbaycan Cümhuriyyətinin aparıcı qadınlarından biri olmuşdur. Mustafa bəy Cümhuriyyət dövründə fəaliyyət göstərən "Yaşıl qələm" dərnəyinin yaradıcılarından biri idi. Bu cəmiyyət şair və yazıçıları öz ətrafında birləşdirmişdir. Lakin Cümhuriyyət süqut etdikdən sonra bu cəmiyyət də fəaliyyətini dayandırmış oldu. Daha sonralar sovet hakimiyyəti dövründə bu cəmiyyətin üzvləri 30-cu illərin repressiyalarına məruz qaldılar. Xədicə xanımın 20-ci illərdə Şəkidə tibb texnikomunun açılmasında, azərbaycanlı qızların texkinoma cəlb olunmasında Xədicə xanımın zəhməti əvəzsiz olmuşdur. 1920-ci ilin aprelində Cümhuriyyət süqut etdikdən sonra Xədicə xanım həyat yoldaşı ilə birlikdə Şəkiyə köçmüşdülər.

1917-ci ilin mart ayında Şəkidə maarifpərvər insanların köməyi ilə "Hüriyyəti Maarif Cəmiyyəti" təsis olundu. Nuxa «Hürriyyəti Maarif Cəmiyyəti» öz məramını dolğun şəkildə reallaşdırmaq üçün xeyli maliyyə vəsaiti sərf etmişdi. Maliyyə problemləri Şəkinin sahibkarları və ziyalıları tərəfindən şəxsi vəsaitlər hesabına həll edilirdi. O zaman çox yüksək dəyərə malik olan manat hesabı ilə Abdulla Əbdürrəhmanzadə 300 manat, tacir Cəfər Əbdürrəhmanzadənin oğul-

ları 1000 manat, Mustafa Əlibəyov 200 manat, Hacı Məmmədsadıq Əliyevin vəfatı ilə əlaqədar qardaşları ehsan olaraq 200 manat, Süleyman Məmmədzadə, Həmid Qasımoğlu və doktor Əliabbas Əfəndi Qədimov hər biri 100 manat Hürriyyəti Maarif cəmiyyətinə yardım göstərmişlər (7, s.14).

Mustafa bəy Əlibəyova Sovet hakimiyyəti dövründə vəkillik fəaliyyəti ilə məşğul olmaq qadağan edilmişdir. Mustafa bəyin özünün əkdiyi ağaclardan ibarət "Yaşıllıq səltənəti" adlanan bu bağ sonradan "Mustafa bəyin bağı" adı ilə məşhurlaşacaq. Sovet repressiya maşının tüğyan etdiyi 1937-ci ildə Mustafa bəy Əlibəyov "xalq düşməni" adı il həbs olunub Sibirə sürgünə göndərildi. 8 illik sürgündən sonra 1945-ci ildə Mustafa bəy sürgündə vəfat etdi. Onun ölümündən sonra Xədicə xanım çox çalışsa da, məzarını tapa bilmədi. 1920-1961-ci illərdə Xədicə xanım Əlibəyova Şəkidə həkim-ginekoloq kimi fəaliyyət göstərdi. Sovet dövründə belə Şəkidə ziyalı qadınlarla birgə savad kursları, qadın klubı təşkil etdi, son nəfəsinə kimi qadınların savadlanması, təşkilatlanması, maariflənməsi naminə əlindən gələni etdi (1, s.101).

Xədicə xanımla Mustafa bəyin 6 övladı olub. Övladlarından biri Sərvər kiçik yaşlarından dünyasını dəyişmişdir. Beş övladın hamısı ali təhsil almışdır. Qızı Aruziyə Əlibəyova Azərbaycanda ilk iqtisad elmləri doktoru idi (3). Ömrünün sonlarına yaxın Bakıya dönən Xədicə xanım 1961-ci ildə vəfat etdi. "İşıq" qəzeti haqqında 1965-ci ildə "Azərbaycan qadını" jurnalında N.Qafqazlının məqaləsi nəşr olunmuşdur. 2011-ci ildə qəzetin 100 illiyi münasibətilə tarixçi alim, qəzetin araşdırmaçılarından biri olan Amaliya Qasımovanın "Azərbaycanda ilk qadın mətbuatı: "İşıq" qəzeti" kitabı çap olunmuşdur. Bəxtiyar Qaracanın ssenari müəllifliyi ilə "İşığın düşmə bucağı" adlı 2017-ci ildə film çəkilmişdir. "İşıq" Azərbaycan qadınlarının maariflənməsində, elmə, təhsilə cəlb olunmasında mətbuat tariximizdə mühüm rol oynamışdır. Qəzet adı kimi işıqlı fəaliyyət göstərmişdir.

***Nəticə.*** XX əsrin əvvəllərində Azərbaycanda qadınların cəhalətinin hökm sürdüyü bir vaxtda Xədicə Əlibəyovanın "İşıq" qəzetini yaratması və çap olunması maarifçilik tariximizin əhəmiyyətli dövrü-

nü təşkil edir. “İşıq” qəzeti vasitəsilə təkcə qadınlar maariflənmədi, eyni zamanda o dövrün işıqlı qadınlarını bir araya gətirdi. “İşıq” qəzetinin ətrafında birləşən bir çox maarifçi qadınlarımız 1918-ci ildə yaradılan Cümhuriyyətin tərkibində mühüm rol oynadılar. Qəzetin nəşr olunması həm də qadın qəzetlərinin daha sonralar çap olunmasında ilk addım oldu. Xədicə xanımın hərtərəfli fəaliyyəti sayəsində XX əsr tariximizdə çoxlu sayda qadınlarımızın elmə, məktəbə marağı artdı və övladlarının təhsil almasının vacibliyini dərk etdilər.

## ƏDƏBİYYAT

1. Mehriban Vəzir. Cümhuriyyət qadınları: xidmətlər, aqibətlər. Bakı, JekoPrint çap evi, 2020, 151 s.
2. Cümhuriyyətə işıq saçan qadınlar. Bakı, Mimta, 2018, 495 s.
3. Ülkər Hüseynova. “İşıq” hayandan gəlir / 525-ci qəzet, 06 fevral 2023. - https://525.az/news/212853-isiq-hayandan-gelir--ulker-huseynova-yazir [30.04.2023].
4. AXC ensiklopediyası. II cilddə. I cild. Bakı, Lider, 2004, 471 s.
5. Nəsiman Yaqublu. Azərbaycanın ilk qeyri-hökumət təşkilatları. Bakı, “Elm və təhsil”, 2013, 93 s.
6. Akif Aşırlı. Azərbaycan mətbuat tarixi. Bakı, “Elm və təhsil”, 2009, 172 s.
7. Həbibulla Manaflı. Şəki üsyanları. Bakı, 2005, 86 s.
8. “İşıq” qəzeti 1911, 29 yanvar №2.
9. Amaliya Qasımova. Azərbaycanda ilk qadın mətbuatı: “İşıq qəzeti”. Bakı, Adiloğlu, 2011, 55 [1] s.

**EYNULLA EYNULLAYEV**
*3 rd year student of the Faculty of History of Baku State University*

## THE ROLE OF KHADIJA ALIBEYOVA AND “IŞIQ” NEWSPAPER IN OUR HISTORY OF ENLIGHTENMENT

The article will talk about the life of Khadija Alibeyova and her educational activities. It will also be touched on the creation of

the first women's press agency, "Işıq" newspaper, and its role in the history of enlightenment. The article will analyze the opinions of our women educators about the exceptional services of our women educators in the newspaper "Işıq" at the beginning of the 20th century. After the fall of the Azerbaijan Republic, Khadija Alibeyova's enlightened struggle will be reported.

*Keywords:* Khadija Alibeyova, Light newspaper, Mustafa Alibeyov, Respublik of Azerbaijan, "Molla Nasraddin" magazine.

*Daxil olma tarixi*: 30.04.2023-cü il.
*Çapa imzalanma tarixi*: 05.05.2023-cü il.

**UOT 94(479.24); UOT 94**

**FATİMƏ ŞİRİNOVA**
*Bakı Dövlət Universiteti SABAH Qrupları*
*Tarix müəllimliyi ixtisası üzrə IV kurs tələbəsi*
**fatimashirinova02@gmail.com**

# XƏZƏRİN HÜQUQİ STATUSU MƏSƏLƏSİ HAQQINDA

*Elmi rəhbər:*
tarix üzrə fəlsəfə doktoru Sevinc Ruintən

*Dünaynın ən böyük qapalı su hövzəsi hesab olunan Xəzər dənizinin zəngin karbohidrogen ehtiyatlarına malik olması Xəzərin dünya miqyasında yerinin və rolunun kəskin şəkildə artmasına səbəb olmuşdur. Həmçinin, dünyanın ən böyük duzlu gölü olmaqla həm dəniz, həm də göl xüsusiyyətlərinə malikdir. Xəzər dənizinin bu xüsusiyyəti Xəzərin "dəniz" mi, yoxsa "göl" mü olması ilə bağlı yanaşmaların yaranması ilə nəticələnmişdir. Beynəlxalq arenada önəmli rol oynayan Xəzər hövzəsi sahilyanı dövlətlər arasında mübahisə ocağına çevrilmişdir. Xəzərin hüquqi status məsələsi müxtəlif səviyyəli danışıqlarda və zirvə görüşlərində müzakirəyə qaldırılmış, bu istiqamətdə mühüm addımlar atılsa da, bu məsələ hələ də tam həllini tapmamışdır.*

*Açar sözlər:* Xəzər dənizi, Xəzəryanı dövlətlər, Zirvə görüşləri, 2018 Konvensiyası.

***Giriş.*** Bu gün dünyanın müxtəlif güc mərkəzlərinin Avrasiyada geosiyasi maraqlarının kəsişməsindən danışarkən, ilk növbədə enerji resursaları ilə zəngin olan Xəzər dənizi xatırlanır. Xəzər hövzəsi özünün xüsusi geosiyasi, geostrateji və geoiqtisadi vəziyyətinə görə demək olar, dünyanın bütün inkişaf etmiş ölkələrinin diqqətini cəlb etmişdir. Xəzər dənizinin Asiya, Avropa və Yaxın Şərqin kəsişməsində yerləşməsi regionun beynəlxalq əhəmiyyətinin nə dərəcədə böyük olduğunun göstəricisidir. Belə bir strateji əhəmiyyətə sahib olması, təbii sərvətlərinin zənginliyi bölgənin bölüşdürülməsi çətin regiona çevirmişdir. Nəticədə, Xəzərin hüquqi statusu tezi ortaya atılmış, Xəzərin milli sektorlara bölünməsi baş vermişdi.

Xəzərin status problemi ilə bağlı müxtəlif danışıqlar aparılmış, 2002-ci ildən başlayaraq isə bu danışıqlar müəyyən fasilələrlə zirvə görüşləri şəklində təşkil edilmişdir. 2018-ci ildə Qazaxıstanın Aktau şəhərində 5 sahilyanı dövlət tərəfindən Xəzər dənizinin statusu haqqında Konvensiya imzalanması mühüm hadisə hesab edilsə də, bu hələ də regionda qarşılıqlı fəaliyyətlə bağlı bütün məsələlərin aradan qaldırılması demək deyil.

***Xəzər dənizinin əhəmiyyəti.*** XX əsrin son onilliyində və XXI əsrin başlanğıcından dünyada gedən ictimai-siyasi və beynəlxalq əhəmiyyətli hadisələr nəticəsində Xəzər dənizi və Qafqaz regionu yenidən öz əhəmiyyətinə görə dünyada mərkəzi yerlərdən birini tutdu. Planetin artan enerji ehtiyacı və ticarət əlaqələrinin genişləndirilməsi tələbatı qarşısında Xəzər hövzəsi və Cənubi Qafqaz özünün zəngin karbohidrogen ehtiyatları, Şərq-Qərb, Şimal-Cənub əlaqələrində, nəqliyyat-kommunikasiya sahəsindəki imkanları ilə bütün transmilli dünyanın nəzər diqqətini özünə cəlb edərək geoiqtisadi maraqların kəsişmə nöqtəsinə çevrilmişdir (6, s.9).

Bu gün dünyanın müxtəlif güc mərkəzlərinin Avrasiyada geosiyasi maraqlarının kəsişməsindən danışarkən, ilk növbədə enerji resursları ilə zəngin olan Xəzər hövzəsi və Qərb-Şərq, Şimal-Cənub geosiyasi münasibətlərinin, onların iqtisadi-ticarət və digər əlaqələrinin üzərində yerləşən Xəzər-Qara dəniz hövzəsi və Cənubi Qafqaz göz önünə gəlir. Bu bölgə əvvəlki dövrlərdə özünün xüsusi geosiyasi, geostrateji və geoiqtisadi xarakteristikası ilə XVIII əsrin sonu XIX əsrin əvvəllərindən Rusiya imperiyası və Osmanlı dövlətinin, XX əsrin əvvəllərindən Avropa imperiyalarının və ABŞ-ın, SSRI dağılandan sonra - XX əsrin sonlarından bütün transmilli qlobal dünyanın diqqətini cəlb etməyə başlamışdır (6, s.10).

Xəzər dənizinin Asiya, Avropa və Yaxın Şərqin kəsişməsində yerləşməsi regionun beynəlxalq geosiyasət üçün strateji əhəmiyyətini qoruyub saxlamışdır (14, s.1). Dünyanın ən böyük duzlu gölü olmaqla həm dəniz, həm də göl xüsusiyyətlərinə malikdir. Xəzər dənizi qərbdən Azərbaycan və Rusiya, şimal-şərq və şərqdən Qazaxıstan, şərqdən Türkmənistan və cənubdan İranla əhatə olunub. Onun açıq

dənizlərlə əlaqəsi yoxdur. Buna görə də suyun səviyyəsi daim dəyişir (19, s.1).

Xəzər dənizinə 130-dan çox çay axır, onlardan ən böyüyü Volqa, Ural, Terek, Sulak, Samurdur. Dənizin təbii ehtiyatlarına 500-dən çox bitki və 854 balıq növü daxildir ki, onlardan 30-a yaxını kommersiya əhəmiyyətinə malikdir (dünyadakı nərə balıq ehtiyatının təxminən 90%-i). Xəzər dənizinin proqnozlaşdırılan karbohidrogen ehtiyatları (neft və qaz) 18 milyard ton standart yanacaq, təsdiq edilmiş ehtiyatlar isə 4 milyard ton həcmində qiymətləndirilir. Fars körfəzindən sonra ikinci ən böyük neft və qaz ehtiyatıdır. Xəzərdən gələn gəmilər Volqa-Don dəniz kanalının köməyi ilə Azov dənizi vasitəsilə Dünya Okeanına çatır (22, s.2).

Xəzər sahilinin ümumi uzunluğu 7010 km-dir. Qazaxıstan 2340 km, Rusiya Federasiyası 1930 km, Türkmənistan 1200 km, Azərbaycan 800 km və İran 740 km uzunluğunda Xəzər sahilinə malikdir. Yaxın Şərqdə Sibir-Şimal Qütbündən sonra dünyanın üçüncü ən böyük neft və təbii qaz ehtiyatları Xəzər regionunda yerləşir (20, s.4).

Xəzər dənizi regionunda neftin dəyəri və rolu dünya siyasətində və beynəlxalq münasibətlərdə kəskin şəkildə artmış, demək olar ki, dünyanın bütün inkişaf etmiş ölkələrinin diqqətini cəlb etmişdir (1). Xəzər hövzəsində Rusiya və Qərbin mövcud geoiqtisadi maraqları xaricində, həm də digər yerli böyük və kiçik ölkələrin milli maraqları təmsil olunur. Bunların sırasına digər dörd Xəzər hövzəsi ölkələrini - İranı, Azərbaycanı, Qazaxıstanı, Türkmənistanı, həmçinin bölgənin əsas geosiyasi oyunçusu hesab olunan Türkiyəni, bölgədən kənar ölkə hesab olunan Çini və Cənubi Qafqazda xüsusi strateji ərazi xarakteristikası ilə seçilən Gürcüstanı qeyd etmək olar (6, s.12). Ölkələr arasındakı bu mübarizə "böyük yeni oyun" olaraq adlandırılır (2, s.3). Xəzər dənizinin yüzdə 21-i Azərbaycana, yüzdə 16-sı Rusiyaya, yüzdə 14-ü İrana, yüzdə 29-u Qazaxıstana, yüzdə 20-si isə Türkmənistana aiddir (7).

Xəzər regionu SSRİ-nin dağılmasından əvvəl və sonra yeni müstəqillik əldə etmiş ölkələrin regionla sıx əlaqəsi nəticəsində stra-

teji əhəmiyyətinə və təbii sərvətlərinin mövcudluğuna görə bölüşdürülməsi çətin regiona çevrilmişdir (5, s.1).

***Xəzərin statusu ilə bağlı ölkələrin iddiaları.*** *Azərbaycan* iki tezis müdafiə edir: "açıq dəniz" və "sərhəd gölü". Açıq dəniz siyasəti ilə o, 12 mil ərazi sularına, 200 mil və ya daha çox kontinental şelfə və 200 mil eksklüziv iqtisadi zonaya sahib olacaqdır. Sərhəd gölü ilə Xəzər beş milli sektora bölünəcəkdir (3). Xəzərin hüquqi statusunun həlli məsələsində Azərbaycan Respublikasının xarici siyasətinin əsas vəzifəsi beynəlxalq hüquq normalarına və prinsiplərinə söykənərək, mehriban dostluq və qonşuluq münasibətlərinə əsaslanmaqla, dövlətlərin ərazi bütövlüyünə və suverenliyinə hörmət etməklə, Xəzərin zəngin təbii ehtiyatlarından region dövlətlərinin maraqları çərçivəsində, eləcə də dünyanın tələbatı baxımından səmərəli istifadə etməkdən ibarətdir. Tədqiqatçılar hesab edir ki, Azərbaycan beş Xəzəryanı dövlət içərisində Xəzərin statusunun həlli məsələsində ən konstruktiv, ardıcıl və elmi cəhətdən əsaslandırılmış mövqe nümayiş etdirir (8).

*İran.* Xəzəri göl hesab edən İran beş ölkənin Xəzərdən birgə istifadə etməli olduğunu və başqa heç bir ölkənin ondan istifadə etməməsi fikrini müdafiə edir.

*Rusiya.* 1996-cı ildən dənizin bölünməsinin tərəfdarıdır. Hətta Rusiya Qazaxıstanla Xəzər dənizinin dibini bərabər məsafə prinsipinə görə tamamilə bölən və su obyektlərindən istifadəni bərabər şəkildə ayıran bir müqavilə də imzalayıb.

*Türkmənistan.* İran və Rusiya ilə eyni fikirdə olan Türkmənistan tez-tez siyasətini dəyişdirsə də, son olaraq bütün dövlətlər tərəfindən təsdiqlənən Xəzərin statusu ilə bağlı ümumi razılaşma əldə olunana qədər su yatağı və su hövzəsindən birgə istifadənin tərəfdarı olub.

*Qazaxıstan.* Azərbaycanla eyni siyasət yürüdən Qazaxıstan Xəzəri daxili dəniz kimi tanımış və 1982-ci il BMT-nin Müqaviləsinin həyata keçirilməsini tələb etmişdi (3).

***Beynəlxalq hüquqda nəzəri yanaşmalar.*** Xəzərin statusu ilə bağlı problem Xəzərin "qapalı dəniz" mi yoxsa "göl" mü olması məsələsində düyünlənir. Çünki qapalı dəniz ya da göl qəbul edilməsinin

fərqli hüquqi nəticələri olacaqdır. Xəzərin qapalı dəniz və ya göl olması ilə bağlı bu iki yanaşmadan başqa, üçüncü baxış Xəzərin "xüsusi su hövzəsi" olmasıdır.

Xəzərin "qapalı dəniz" olduğuna dair yanaşma: Əgər Xəzər bir "dəniz" olaraq təsnif edilərsə, BMT-nin Dəniz Hüququ Konvensiyasının müddəalarına əsasən, hər bir sahilyanı dövlətin genişliyi on iki mildən artıq olmayan "ərazi suları", 200 mildən artıq olmayan eksklüziv iqtisadi zona və bir kontinental şelf olacaqdır (24). Xəzər istər qapalı, istər yarı-qapalı dəniz olaraq qəbul edilsin, Birləşmiş Millətlər Təşkilatının Dəniz Hüququ haqqında Konvensiyasına görə (Konvensiyaya üzv olan ölkələr baxımından) hər bir sahilyanı dövlətin "ərazi suları, kontinental şelf və eksklüziv iqtisadi zonası" olacaqdı. Ərazi sularından kənarda açıq dəniz statusu tətbiq olunacaqdı.

Xəzərin "göl" olduğuna dair yanaşma: Xəzər göl kimi qəbul edilirsə, paylaşma ilə bağlı iki fikir var. Bunlardan birincisi Xəzər dənizinin ümumi istifadəsi (kondominium), ikincisi isə onun milli sektorlara bölünməsidir (15, s.35). Beynəlxalq göllərin sərhədlərini təyin etmək üçün ən məşhur prinsiplər sahil xətti və orta xəttdir (median). Bu prinsip Xəzər dənizi haqqında konvensiyanın əsasını təşkil etmişdir (24).

Xəzərə "Xüsusi su hövzəsi" olduğuna dair yanaşma: Yuxarıda göstərilən iki yanaşmadan başqa, Xəzərin xüsusi su hövzəsi olduğu və statusu təyin edilərkən təkcə dəniz hüququ prinsiplərinin tətbiqinin və beynəlxalq göllərin bölünməsindəki tətbiqin mümkün olmadığı iddia edilir. Bu yanaşmaya görə, dənizin hər bir ölkənin yurisdiksiyasına daxil olan hissələri istisna olmaqla, Xəzərdə ümumi istifadənin tətbiqi kimi qeyri-ənənəvi üsulların tətbiqi müdafiə olunur (15, s.35).

***Zirvə Görüşləri, 2018 Konvensiyası.*** Xəzər dənizi ilə həmsərhəd ölkələr arasında ən mühüm mübahisə doğuran məsələlərdən biri də Xəzərin hüquqi statusudur. Böyük neft, təbii qaz və balıq ehtiyatlarına malik olan Xəzərin hüquqi statusu regional və qlobal güclər üçün hüquqi razılaşmadan daha çox geosiyasi məsələ olmuşdur (12, s.9). Əvvəlcə Xəzərin taleyini SSRİ/Çar Rusiyası ilə İran arasındakı

müqavilələr müəyyən edirdi. Sonralar SSRİ-nin dağılması və Xəzər sahilində daha üç suveren dövlətin (Azərbaycan, Qazaxıstan və Türkmənistan) yaranması ilə Xəzərlə həmsərhəd olan dövlətlərin sayı 2-dən 5-ə yüksəldi və bu prosesi başdan-başa dəyişdirdi. Xəzər regionunda enerji diplomatiyası başlayandan bəri Xəzərin hüquqi statusu tezisi ortaya atıldı. Təbii ki, bunu edən aktyor SSRİ dağılandan sonra bölgədəki keçmiş nüfuzunu bərpa etməyə çalışan Rusiya idi. Rusiya tarix boyu regionda həmişə hərbi təhlükə yaradıb. Bu potensialdan istifadə edərək, bu günə qədər lazımi siyasətlə digər ölkələrə təzyiq göstərir. Çünki Rusiya hər əməkdaşlıqda özünü görmək istəyərkən, 1994-cü il BTC müqaviləsi onu sıradan çıxardı. Bunu qəbul edə bilməyən Rusiya da Xəzərdə status məsələsini ortaya qoydu (9, s.5).

Bu statusun müəyyənləşdirilməsi bir çox cəhətdən vacib idi. İlk növbədə, dövlətlərin dəniz sərhədlərinin, yəni dəniz ölkələrinin müəyyən edilməsi. İkincisi, Xəzərin istismarı ilə bağlı məsələlərin, yəni balıqçılıq, təbii ehtiyatların kəşfiyyatı və hasilatı və onların təchizatı ilə bağlı məsələlərin tənzimlənməsidir (18, s.13).

Xəzərin statusu ilə bağlı ilk danışıqlar 1996-cı ildə sahilyanı dövlətlərin xarici işlər nazirlərinin müavinləri arasında aparılıb. Xəzərin statusunun həllinə dair bütün görüşlərdə hər yekun qərarın qəbul edilməsinə cəhd göstərilsə də bu, mümkün olmamış məsələnin Zirvə görüşləri səviyyəsində müzakirəsinə zərurət yaranmışdı. 2002-ci ildən etibarən müəyyən fasilələrlə dövlət və hökumət başçıları səviyyəsində zirvə görüşləri keçirilməyə başlandı. 2002-ci il aprel ayının 22-23-də Aşqabadda keçirilmiş toplantı tarixi əhəmiyyətə malik idi. Sammit iki əsas cəhəti ilə diqqəti cəlb edir. Əvvəla, ilk dəfə idi ki, Xəzəryanı ölkələrin dövlət başçıları səviyyəsində bütövlükdə bu məsələ müzakirəyə çıxarılmışdır. İkincisi, Xəzərin statusu digər problemlərlə yanaşı rəsmi görüşlərdə müzakirə obyekti olduğu halda, ilk dəfə Aşqabad sammiti Xəzərin statusu haqqında bütün sahilyanı ölkə başçılarının və rəsmi nümayəndələrin qarşılıqlı kompromis axtarışını özündə əks etdirmişdir. Azərbaycan sammitə öz yığcam və konkret mövqeyi ilə gəlmişdi. Bu mövqeni Azərbaycan prezidenti Heydər Əliyev öz dolğun çıxışı ilə bütün ölkələrin rəhbərlərinə bəyan

etmişdir ki, "Xəzər dənizinin hüquqi statusu məsələsinin Xəzəryanı dövlətlər arasında həlli onların suveren hüquqlarına hörmət, qarşılıqlı surətdə faydalı tərəfdaşlıq ruhunda, dinc vasitələrlə həyata keçirilməlidir" (13, s.1).

Bunun ardınca 2007-ci ildə Tehranda, 2010-cu ildə Bakıda və 2014-cü ildə Həştərxanda görüşlər keçirilib (10, s.2). 2014-cü ildə keçirilən Xəzər sammiti problemin həlli üçün ən konkret addımların atıldığı ilk görüş olub. 15 millik ərazi suları və 10 millik balıqçılıq zonası prinsipləri bu sammitdə razılaşdırılmış məqamlar sırasındadır. Bu sammitdən sonra 2015-ci ildə Qazaxıstan ikitərəfli razılaşmalarla demək olar ki, tənzimləməsini yekunlaşdırdı və sərhədlərini müəyyən etdi (18, s.15).

Nəhayət, 12 avqust 2018-ci ildə Qazaxıstanın Aktau şəhərində 5 sahilyanı dövlət tərəfindən Xəzər dənizinin statusu haqqında Konvensiya imzalanıb. Bu görüşlərdə Qazaxıstan Prezidenti Nursultan Nazarbayev, Rusiya Prezidenti Vladimir Putin, Azərbaycan Prezidenti İlham Əliyev, İran Prezidenti Həsən Ruhani və Türkmənistan Prezidenti Qurbanqulu Berdiməhəmmədov iştirak ediblər (4, s.39). İndiyədək keçirilən 5 sammit və 55 ayrı işçi qrupundan sonra bu konsensus təbii ki, region və dünya üçün vacibdir. Bu müqavilə 24 maddədən ibarətdir. Sazişin adı "Xəzər dənizinin hüquqi statusu haqqında Konvensiya"dır (18, s.19). 12 avqust 2018-ci il tarixində Azərbaycan, fars, qazax, rus, türkmən və ingilis dillərində eyni qüvvədə olan orijinal nüsxə tərtib edilmişdir. Hər hansı bir fikir ayrılığı yaranarsa, tərəflər ingilis dilində olan mətndə razılaşacaqlar (23). Bu hadisə 1996-cı ildən bəri davam edən danışıqların tarixi nəticəsi idi. Qazaxıstan prezidenti Nursultan Nazarbayev hətta imzalanmış sənədi "konstitusiya" ilə müqayisə edib (21).

Birləşmiş Millətlər Təşkilatının Nizamnaməsinin və beynəlxalq hüququn prinsip və qaydalarına bağlı olaraq, tərəflər arasında əməkdaşlıq, mehriban qonşuluq və qarşılıqlı anlaşma mühitini diqqətə alaraq, Xəzər dənizi ilə bağlı problemlərin həllinin, tərəflərin müstəsna səlahiyyətlərinin vacibliyini vurğulayaraq, Xəzər dənizinin siyasi, iqtisadi, sosial və mədəni əhəmiyyətinin tanınması, Xəzər dənizinin

mühafizəsi, Xəzər dənizi regionunda geosiyasi və milli səviyyədə baş verən dəyişiklik və prosesləri nəzərə alaraq, tərəflər arasında mövcud razılaşmaların və bu kontekstdə Xəzər dənizinin hüquqi rejiminin gücləndirilməsinin zəruriliyi və s. nəzərə alınmışdır (16, s.604-605). Konvensiya Trans-Xəzər Boru Kəməri (TCP) kimi yeni layihələrin həyata keçirilməsini asanlaşdırmışdır (17). Nəticədə: Xəzər unikal qapalı dəniz hesab olunur və onun statusu açıqlanır, Xəzərdə sahilyanı sektorlar və ümumi dəniz sahəsi daxil olmaqla ikili struktura əsaslanan bölgü təmin edilir, dövlətlərin Xəzərin öz sektorlarında boru kəməri (bu kontekstdə Trans-Xəzər) layihələri qura biləcəyini və Xəzərin sahilyanı olmayan dövlətlər üçün qapalı olduğunu açıq şəkildə göstərilir (18, s.21). Müqavilə, həmçinin Xəzərin "göl" və ya "dəniz" olması müzakirəsinə son qoymağa imkan verdi (11, s.2).

Rusiya və İran regiona daha çox təhlükəsizlik yönümlü baxır, Azərbaycan, Qazaxıstan və Türkmənistan isə iqtisadiyyatı daha çox ön plana çıxarır deyə bilərik. Əslində, Xəzər dənizi enerji hövzəsində mübarizə razılaşma müddətində Tehran və Moskva ümumən "Xəzərdə heç bir xarici hərbi güc ola bilməz" maddəsi üzərində dayanarkən, üç türk respublikası isə "əvvəllər beş sahilyanı dövlətin də razılığını ehtiva etməsi gözlənilən boru kəməri layihələrinin, ikitərəfli razılaşmalarda həyata keçirilməsi mümkün hala gəlməsi" üçün təkid edirdilər (4, s.48).

Bütün bunlarla bərabər, Konvensiyanın qəbulu hələ regionda qarşılıqlı fəaliyyətlə bağlı bütün məsələlərin aradan qaldırılması demək deyildi (21). İllərdir keçirilən konfranslarda imzalanan sazişlərə baxmayaraq, Xəzərin status məsələsi hələ də öz həllini tapmayıb. Hər beş sahilyanı ölkə özünəməxsus xarici siyasət sərgilədiyi üçün Xəzərin hüquqi statusu ikitərəfli və üçtərəfli sazişlərlə masadan masaya keçsə də, ümumi masaya qoyulmayıb (9, s.5).

***Nəticə.*** Xəzər dənizi karbohidrogen ehitaylarının zənginliyi, regionda neftin rolunun artması nəticəsində dünya siyasətində və beynəlxalq münasibətlərdə geoiqtisadi maraqların kəsişmə nöqtəsinə çevrilmişdir. Xəzər dənizinin milli sektorlara bölünməsi Xəzər dənizi ilə həmsərhəd ölkələr - Azərbaycan, Qazaxıstan, Türkmənistan, İran və

Rusiya arasında ən mühüm mübahisə doğuran məsələ idi. Əvvəllər Xəzər dənizi ilə bağlı məsələlər SSRİ və İran arasındakı anlaşmalarla müəyyən edilmiş, SSRİ çökdükdən sonra isə Xəzər sahilində yeni müstəqil dövlətlər yaranmış və dənizin hüquqi statusunun müəyyən edilməsində yeni bir mərhələ başlamışdır. 2002-ci ildən etibarən müəyyən aralıqlarla danışıqlar zirvə görüşləri səviyyəsində aparılmış və nəhayət, 2018-ci ildə Qazaxıstanın Aktau şəhərində təşkil edilmiş V sammitdə 5 sahilyanı dövlət tərəfindən "Xəzər dənizinin hüquqi statusu haqqında Konvensiya" imzalanmışdır. Bu konvensiya məsələnin həlli istiqamətində mühüm addım kimi dəyərləndirilsə də, Xəzərin status məsələsi hələ də tam həll edilməyib.

## ƏDƏBİYYAT

1. Ardak Kapyshev. Legal status of the Caspian sea: history and present. The Kokshetau University named Abai Myrzakhmetov, Kazakhstan, European Researcher, 2013- https://www.researchgate.net/publication/274059964_Legal_Status_Of_The_Caspian_Sea_History_And_Present [23.04.2023].
2. Aslıhan P. Turan. Hazar havzasi'nda enerji diplomasisi // Bilge Strateji, Cilt 2, Sayı 2, Bahar 2010, 30 s. - https://dergipark.org.tr/tr/download/article-file/43522 [23.04.2023].
3. Beş Ülkenin Anlaştığı Hazar Denizinin Statü Sorunu Nedir / Stratejik ortak, 2018. - https://stratejikortak.com/2018/08/hazar-denizi-statu-sorunu.html [23.04.2023].
4. Burak Çalışkan, Hazar Denizi, Enerji Havzasında Mücadele, Dünya Kriz Bölgeleri 16, İNSAMER 2020, 60 s. - https://www.insamer.com/tr/uploads/pdf/kitap-hazar-denizi-enerji-havzasinda-mucadele.pdf [23.04.2023].
5. Emrah Bozkurt. Soğuk savaş sonrasi Hazar'da politik güç ve statüs oruuna bağli kiyidaş devletlerin görüşleri analiz // Giresun Üniversitesi İktisadi ve İdari Bilimler Fakültesi, 11 s. - https://www.academia.edu/30487389/SO%C4%9EUK_SAVA%C5%9E_SONRASI_HAZARDA_POL%C4%B0T%C4%B0K_G%C3%9C%C

3%87_VE_STAT%C3%9C_SORUNUNA_BA%C4%9ELI_KIYIDA%C5%9E_DEVLETLER%C4%B0N_G%C3%96R%C3%9C%C5%9ELER%C4%B0_ANAL%C4%B0Z%C4%B0 [23.04.2023].
6. Həsənov Ə.M. Xəzər – Qara dəniz hövzəsi və Cənubi Qafqazın geoiqtisadiyyatı: Azərbaycanın enerji siyasəti. Bakı, "Zərdabi LTD" MMC, 2016, 296 s.
7. Orxan Hun. Xəzərin hüquqi statusu tənzimləndi- Tarixi razılaşma / Milli.az, 13 avqust 2018. - https://news.milli.az/politics/676049.html [23.04.2023].
8. Vahid Ömərov. Xəzərin hüquqi statusuna dair Azərbaycan, İran, Türkmənistan və Qərbin mövqeyi / Səs qəzeti, 19 iyun 2013. - https://sesqazeti.az/news/mia/353063.html [23.04.2023].
9. İlqar Qurbanov. Hazar Havzasında Stratejik Oyunlar: Hukuki Statü Sorunu Ve Uluslararası Enerji Politiği // Turan-Sam, Yıl: 2011, Cilt:3, Sayı: 12. S.4-16. - https://www.academia.edu/17526147/%C4%B0lqar_Qurbanov_Hazar_Havzas%C4%B1nda_Stratejik_Oyunlar_Hukuki_Stat%C3%BC_Sorunu_Ve_Uluslararas%C4%B1_Enerji_Politi%C4%9Fi_ [23.04.2023].
10. İrfan Kaya Ülger, Merve Erol. Aktau Hazar Denizinin statüsü sözleşmesi arka plani ve temel hükümleri / Hoca Ahmet Yesevi Uluslararasi Bilimsel Araştirmalar Kongresi. Gölbaşı-Adiyaman. 2019, 16s. - https://www.academia.edu/40239523/AKTAU_HAZAR_DEN%C4%B0Z%C4%B0N%C4%B0N_STAT%C3%9CS%C3%9C_S%C3%96ZLE%C5%9EMES%C4%B0_ARKA_PLANI_VE_TEMEL_H%C3%9CK%C3%9CMLER%C4%B0 [23.04.2023].
11. İsmail Sarı. Hazar Denizi'nin Hukuki Statüsü Konvansiyonu ve Çok Boyutlu Etkileri // İRAM Center | İran Araştırmaları Merkezi, 01.09.2018, 4 s. - https://www.academia.edu/37325773/Hazar_Denizinin_Hukuki_Stat%C3%BCs%C3%BC_Konvansiyonu_ve_%C3%87ok_Boyutlu_Etkileri [23.04.2023].
12. Kenan Aslanlı. Hazar Denizi'nin jeopolitik ve jeoekonomik konumu: enerji, taşımacılık, hukuk ve çevre boyutları // İRAM Center. İran Araştırmaları Merkezi, Ekim 2018, 20 s.-

https://www.researchgate.net/publication/344688296_Hazar_Denizi'nin_Jeopolitik_ve_Jeoekonomik_Konumu_Enerji_Tasimacilik_Hukuk_ve_Cevre_Boyutlari [23.04.2023].
13. Həsənov S.S. Xəzərin statusu zirvə görüşlərinin müzakirəsində (Aşqabad sammiti) // Bakı Universitetinin Xəbərləri. Sosial-siyasi elmlər seriyası 2012, s.26-37. - http://static.bsu.az/w8/Xeberler%20Jurnali/Sosial%20%202012%202/26-37.pdf [23.04.2023].
14. Sohbet Karbuz. The legal status of the Caspian sea: implications on Caspian resources development and transport // Energy Policy Turkey, Second İssue, s.62-69.- https://dergipark.org.tr/tr/download/article-file/344859 [23.04.2023].
15. Süleyman Sırrı Terzioğlu. Hazar'ın statüsü hakkında kıyıdaş devletlerin hukuksal görüşleri // OAK, Cilt:3, Sayı: 5, 2008, s.26-47. - https://www.academia.edu/5245159/HAZARIN_STAT%C3%9CS%C3%9C_HAKKINDA_KIYIDA%C5%9E_DEVLETLER%C4%B0N_HUKUKSAL_G%C3%96R%C3%9C%C5%9ELER%C4%B0_Views_of_Littoral_States_on_Legal_Status_of_the_Caspian [23.04.2023].
16. Şeyda Türkay Kahraman. Hazar Denizinin hukuki statüsüne ilişkin sözleşme // Erciyez Üniversitesi Hukuk Fakültesi Dergisi, Cilt XIV, Sayı 2, 2019, s.604-621. - https://www.academia.edu/41180262/HAZAR_DEN%C4%B0Z%C4%B0N%C4%B0N_HUKUK%C4%B0_STAT%C3%9CS%C3%9CNE_%C4%B0L%C4%B0%C5%9EK%C4%B0N_S%C3%96ZLE%C5%9EME_Convention_on_the_Legal_Status_of_the_Caspian_Sea [23.04.2023].
17. Charles Whitney. The convention on the legal status of the Caspian sea - a sea or not a sea: that is still the question / Norton Rose Fulbright, September 2018. - https://www.nortonrosefulbright.com/en/knowledge/publications/5f222b95/the-convention-on-the-legal-status-of-the-caspian-sea---a-sea-or-not-a-sea-that-is-still-the-question [23.04.2023].
18. Yalçın Sarikaya. Ağustos 2018 Hazar Konvansiyonunun anlami: siyasal ve hukuksal bir inceleme / 2 Uluslararası türk dünyası eğitim

bilimleri ve sosyal bilimler kongresi, 5-ci cilt, Sosyal, Beşeri ve İdari bilimler-1, 2018, s.649-664. - https://www.academia.edu/40913134/A%C4%9EUSTOS_2018_HAZAR_KONVANS%C4%B0YONUNUN_ANLAMI_S%C4%B0YASAL_VE_HUKUKSAL_B%C4%B0R_%C4%B0NCELEME [23.04.2023].
19. Yerkinay Onagarova. Hazar denizi çerçevesinde yapılan tarihsel anlaşmalar // Türk yurdu, 103, sayı 327, 2014, 6 s. - https://www.academia.edu/39795218/Hazar_Denizi_%C3%87er%C3%A7evesinde_Yap%C4%B1lan_Tarihsel_Anla%C5%9Fmalar [23.04.2023].
20. Yerkinay Onagarova. Kazakistanın çok yönlü enerji politikası ve Hazar Denizi // Altınteri Sosyal Bilimler dergisi: 3, s.21- https://dergipark.org.tr/tr/download/article-file/514499 [23.04.2023].
21. Александр Шустов. «Конституция Каспия»: как разделили Каспийское море / Евразия експерт, 14 августа 2018. - https://eurasia.expert/konstitutsiya-kaspiya-kak-razdelili-kaspiyskoe-more/ [23.04.2023].
22. Как поделить море. Рассказываем про документ, призванный положить конец спорам на Каспии / ТАСС, 1 октября 2019, с.6. - https://tass.ru/politika/6949435 [23.04.2023].
23. Конвенция о правовом статусе Каспийского моря, 12 августа 2018-http://www.kremlin.ru/supplement/5328 [23.04.2023].
24. Спор длиной в 21 год: как "каспийской пятерке" удалось договориться / Sputnik Казахстан, 10.01.2018. - https://ru.sputnik.kz/20180110/spor-dlinoj-v-21-god-kak-kaspijskoj-pyaterke-udalos-dogovoritsya-4231951.html [23.04.2023].

**FATİMA SHİRİNOVA**
*Baku State University SABAH Groups*
*4th year student of the speciality of History teacher*

## ABOUT THE QUESTION OF THE LEGAL STATUS OF THE CASPIAN SEA

The fact that the Caspian Sea, which is considered the world's largest closed water basin, has rich hydrocarbon resources which has

led to a sharp increase in the place and role of the Caspian on the world scale. Also, being the world's largest salt lake, it has both sea and lake characteristics. This characteristic of the Caspian Sea resulted in the emergence of approaches regarding whether the Caspian is a "sea" or a "lake". The Caspian basin, which plays an important role in the international arena, has become a source of controversy between the coastal states. The issue of the legal status of the Caspian Sea has been discussed at various levels of negotiations and summit meetings, and although important steps have been taken in this direction, this issue has not been fully resolved.

*Keywords:* Caspian Sea, Caspian littoral states, Summit meetings, 2018 Convention.

*Daxil olma tarixi*: 23.04.2023-cü il.
*Çapa imzalanma tarixi*: 05.05.2023-cü il.

**UOT 94(479.24)**

**FİDAN HACIYEVA**
*Bakı Mühəndislik Universitetinin*
*"Dünya siyasəti ixtisas" üzrə magistrantı*
**fhaciyeva2@std.beu.edu.az**

# AZƏRBAYCANIN TARİXİ ABİDƏLƏRİ VƏ ERMƏNİ VANDALİZMİ

*Elmi rəhbər*:
tarix elmləri doktoru Sevinc Əliyeva

*Məqalədə Ermənistanın Azərbaycana qarşı həyata keçirdiyi vandalizm siyasətinə, mədəni irsimizin dağıdılması,məhv edilməsi kimi proseslərə toxunulmuşdur. Azərbaycan mədəniyyəti və memarlığına dəymiş zərərin ölçüləri tədqiq edilmişdir. İşğal olunmuş torpaqlarda itirdiyimiz təbii ehtiyat potensialımız göstərilmişdir. Ermənistanın həyata keçirdiyi bu vandalizm siyasəti beynəlxalq hüquqda ziddir.*

*Ermənilərin Azərbaycanın tarix və mədəniyyət abidələrilərini talan etməsi, dağıtması Haaqa Konvensiyasının, Mədəni sərvətlərin qeyri-qanuni dövriyyəsi haqqında Paris Konvensiyasının (1970-ci il), Arxeoloji irsin qorunması haqqında Avropa Konvensiyasının (1992-ci il), YUNESKO-nun Ümumdünya mədəni və təbii irsin mühafizəsi haqqında Konvensiyasının müddəalarında öz əksini tapmışdır.*

*Açar sözlər*: Erməni vandalizmi, mədəniyyət abidələri, Haaqa Konvensiyası, Paris Konvensiyası, YUNESKO.

***Giriş.*** Ermənistan təcavüzü nəticəsində Azərbaycan ərazilərinin işğalı zamanı Azərbaycan xalqının milli mədəniyyət abidələri də Erməni vandalizminə məruz qalmış, 1000-ə yaxın tarixi abidələr, məscidlər dağılmışdır. Onların içərisində məscidlər, kitabxanalar və mədəniyyət mərkəzləri vardır. Dağıdılan abidələr işərisində yalnız müsəlmanlara deyil, eyni zamanda yəhudi, xristian və alban məbədlərinin olması bir daha ermənilərin dünya xalqlarının mədəniyyətinidə heçə sayaraq  verdiyi zərəri sübut edir.

Qeyd edilmiş bir sıra məlumatlara görə dövlət qeydiyyatında olmayan abidələrin sayı 1500-dən artıqdır, beynəlxalq əhəmiyyətli abidələrin sayı onlarladır, qəbiristanlıqların sayı 900-dən artıqdır. Qarabağda tarixi-dini abidələrlə yanaşı, yüzlərlə mədəniyyət abidəmiz – kitabxanalarımız, muzeylərimiz, mədəni irsimiz də təcavüzə məruz qalıb. Bütün bu vəhşiliklərə, işğal altında qalan torpaqlarımızdakı insanlıq və mülkiyyət əleyhinə olan cinayətlərə, mədəni irsin dağıdılmasına görə Ermənistan və separatçı Dağlıq Qaradağ rejimi məsuliyyət daşıyır.

***Azərbaycan mədəniyyəti və memarlığına dəymiş zərərin ölçüləri.*** Ermənistan işğalı nəticəsində Azərbaycanın xalqının tarix və mədəniyyət abidələrinin qəddarcasına və misli görülməmiş vəhşiliklə talan edilib, dağıdılması halları Haaqa Konvensiyasının, Mədəni sərvətlərin qeyri-qanuni dövriyyəsi haqqında Paris Konvensiyasının (1970-ci il), Arxeoloji irsin qorunması haqqında Avropa Konvensiyasının (1992-ci il), YUNESKO-nun Ümumdünya mədəni və təbii irsin mühafizəsi haqqında Konvensiyasının müddəalarında öz əksini tapmışdır [1, s.26].

*Şuşa.* İşğala qədər bu şəhərdə bütün SSRİ-də mühüm sanatoriya-kurort kompleksi fəaliyyət göstərirdi. Rayonun iqtisadiyyatında heyvandarlıq mühüm yer tutur. Azərbaycan Pedaqoji İnstitutu, Azərbaycan Neft Kimya İnstitutunun Şuşa filialı, 24 tam orta məktəb, 6 açıq təhsil müəssisəsi, tibb məktəbi, 8 uşaq musiqi və incəsənət məktəbi, peşə məktəbi, musiqi peşə məktəbi, kənd təsərrüfatı peşə məktəbi, texniki peşə məktəbi, meşə sağlamlığı məktəbi,mədəniyyət evi, kinoteatr, 5 muzey, şəkil qalereyası, klub, kitabxana, mərkəzi rayon xəstəxanası, 11 tibb məntəqəsi, sanitar-epidemiologiya stansiyası, uşaq sanatoriyası, təcili tibbi yardım stansiyası, şəhər poliklinikası və stomatoloji poliklinika fəaliyyət göstərmişdir. İşğaldan əvvəl rayonda dövlət tərəfindən qorunan 248 tarixi abidə var idi [6, s.34].

*Xocalı.* İşğaldan əvvəl rayonda 11 tam orta məktəb, 1 ibtidai məktəb, uşaq yaradıcılıq mərkəzi, 3 musiqi məktəbi, tarix-diyarşünaslıq muzeyi, 20 klub, 29 kitabxana, mərkəzi xəstəxana, 13 tibb məntəqəsi, 4 həkim ambulatoriyası fəaliyyət göstərirdi. İşğaldan əv-

vəl XVIII əsrə aid Əsgəran qalası, XIII-XIV əsrlərə aid köhnə memarlıq abidələri, səkkizguşəli günbəz, türbələr və əsasən Son Tunc və Erkən Dəmir dövründən (e.ə. XIV-XIII əsrdən XVIII əsrə qədər) Xocalı rayonu ərazisində tikilmiş abidələr kompleksi - 5 adda 11 nəhəng torpaq kurqan, daş kurqanlar, torpaq daş kurqanlar, Sikloplar (Qalaçalar), nekropollar, menhirlər (5-dən çox olan nəhəng uclu daşlar) 10 ton), daş sist qəbirlər, daş kitabələr və daş qutular olmuşdur [6, s.51].

*Xocavənd.* İşğaldan əvvəl rayonda 20 orta məktəb, 5 məktəbə hazırlıq müəssisəsi, 20 klub, 19 kitabxana, 4 xəstəxana və 7 digər səhiyyə müəssisəsi fəaliyyət göstərirdi. Tarixi-arxeoloji və memarlıq abidələri, qədim Azıx mağarası (təqribən 1,2 milyon il əvvəl), qalalar (I-VIII əsrlər), Alban məbədi (X əsr), məqbərə (XIII əsr) və s. mövcud olmuşdur.

*Laçın.* İşğaldan əvvəl rayonda 101 orta məktəb, 2 məktəb və 5 məktəb, yan tamamlama obyektləri, texniki peşə məktəbi, 85 klub, 119 kitabxana, 5 musiqi məktəbi, 142 səhiyyə müəssisəsi fəaliyyət göstərirdi. Rayon ərazisində memarlıq tikililərindən Alban məbədi (V əsr), türbələr (XIV, XIX əsrlər), qala (XVII əsr), məscid (1718), saray (1716), körpü (XVIII əsr) və s. olmuşdur.

*Kəlbəcər rayonu.* İşğaldan əvvəl rayonda 95 orta məktəb, texniki peşə məktəbi, 44 klub, incəsənət məktəbi, muzey, mərkəzi xəstəxana, poliklinika, uşaq xəstəxanası, 7 kənd xəstəxanası, 75 tibb məntəqəsi, 23 kənd təcili tibbi yardım maşını fəaliyyət göstərirdi. Bir sıra tarixi-memarlıq abidələri, eləcə də Alban məbədləri (XIII-XVIII əsrlər) və s. mövcud olmuşdur.

*Ağdam rayonu.* Ağdam rayonu Azərbaycanın qədim tarixə malik olan ərazilərindən biridir.Rayon 1930-cu ildə yaradılmışdır. Ağdam rayonu 65 yaşayış məntəqəsi ilə əhatə olunmuş, ərazisi isə 1150 kvadrat kilometrdir. Erməni vandalizmi nəticəsində 1993-cü ilin 23 iyulunda rayonun 88%-i işğal edilmişdir.

Ağdam rayonun ərazisində qədim tarixə malik yüzlərlə memarlıq və incəsənət abidələri ermənilər tərəfindən qəddarcasına dağıdılmışdır. Ağdam rayonunda dağıdılmış tarixi abidələrimizə sərdabələr,

kurqanlar, Qutlu Musa oğlu türbəsi (1314-cü ildə inşa edilmiş), Kəngərli kəndində XIV əsrə aid türbə, Xaçındərbətli abidəsi (1314-cü il), Xanoğlu türbəsi (XVIII əsr), Şeyx Nigari türbəsi (XVIII əsr), Uğrulla bəyin türbəsi (XIX əsr), memar Kərbəlayi Səfixan Qarabaği tərəfindən inşa olunmuş məscid (XIX əsr), Ağdam Cümə məscidi (1868-1870-ci illər), Deşikli ocaq piri (ağac), Eşq Abdal piri, Cındırlı piri, Qara Piri ocağı, Əli pəncəsi (daş), Əli pəncəsi ziyarətgahı, Boyəhmədli kəndində daş heykəl, Seyid Lazım Ağanın məqbərəsi, Seyid Manafın qəbri kimi tarixi-dini abidələr və ziyarətgahlar aiddir. Ziyarətgahlar isə həm ermənilər tərəfindən dağıdılmış, həm də təhqirə məruz qoyulmuşdur [6, s.19]. Azərbaycan memarlıq incilərindən sayılan Ağdam Cümə məscidinin erməni təcavüzünün qurbanına çevrilməsi faktı erməni vandalları tərəfindən 1954-cü il qəbul edilmiş "Silahlı münaqişə baş verdikdə mədəni dəyərlərin qorunması haqqında" Haaqa Konvensiyasının açıq şəkildə pozulduğunu bir daha sübut edir.

İşğaldan əvvəl 148 orta məktəb, orta musiqi məktəbi, 24 klub, Dram teatrı, Muğam məktəbi, Çörək muzeyi, şəkil qalereyası, tarix-diyarşünaslıq muzeyi, Qurban Pirimovun ev muzeyi, 69 səhiyyə müəssisəsi fəaliyyət göstərmişdir.

Erməni vandalizminin qurbanı olmuş Ağdam rayon tarixi memarlıq abidələrinə isə Pənah xanın imarəti (XVIII əsr), Karvansara (XVIII əsr), Bürc (XVIII əsr), Sərdabə (XV əsr), Hatəm Məlik qalası (XII əsr) daxildir.

*Ağdərə rayonu.* Ağdərə rayonuda digər bölgələrimiz kimi bir sıra tarixi abidələrlə zəngindir.Bura daha çox İslam istiqamətli abidələrin zənginliyi ilə diqqəti cəlb edirdi. Ağdərə rayonu 1930-cu ildə yaradılmışdır. 44,4 min nəfərə malik rayonun sahəsi 1705 kvadrat kilometrdir. Ağdərə rayonu 1993-cü il 17 iyunda erməni təcavüzü nəticəsində işğala məruz qalmışdır.

Tarixi-dini abidələrin zənginliyi ilə seçilən Ağdərə rayonu, xüsusilə, burada yerləşən "Ulduz təpə" piri ilə daha da tanınmışdır. Ağdərə rayonunda yerləşən ən qədim tarixi-dini abidələrdən biri də məhz Müqəddəs Yelisey monastır kompleksidir [4, s.29]. Monastr XIII-XIV

əsrlərə aid edilir. Müqəddəs Yelisey monastır kompleksi Albaniya hökmdarı Mömin III Vaçaqanın adı ilə sıx bağlıdır. Bu monastrda vaxtilə Albaniya hökmdarı Mömin III Vaçaqanın məzarı olmuş, daha sonra erməni qəsbkarları tərəfindən dağıdılaraq ba.qa yerlərə aparılmışdır.

*Cəbrayıl rayonu.* Cəbrayıl rayonuda Ağdərə rayonu kimi daha çox tarixi-dini abidələrin zənginliyi ilə seçilir. 1049,8 kvadrat kilometr sahəyə malik olan Cəbrayıl rayonu Araz çayının solsahilində yerləşir. 1993-cü il 23 avqustda rayon erməni silahlı qüvvələri tərəfindən təcavüzə məruz qalmış, yaşayış məskənləri ilə yanaşı, tarixi-dini abidələridə amansızlıqlara məhv edilmişdir.

Cəbrayıl rayonu tarixi-dini abidələri, ziyarətgahları və tarixi memarlıq abidələri ilə zəngindir. İşğaldan əvvəl rayon ərazisində çoxlu sayda tarixi-arxeoloji və memarlıq abidələri (köhnə yaşayış məskənləri, kurqanlar, məscidlər, hamamlar, dairəvi və səkkizguşəli türbələr, Xudafərin körpüsü və s.) olmuşdur. Rayonda Mazannənə məqbərəsi (b.e.ə.), orta əsrlərə və XVII və XVIII əsrə malik qəbirstanlıqlar, XVI və XIX əsrlərə aid məscidlər, Səkkizguşəli türbə (XVII əsr), Dairəvi türbə (XVII əsr), Daş məqbərə (1307-1308-ci illər), Şıxbaba (Dairəvi) türbəsi (XIV) əsr, Xırda pir, İspiri ocağı, Zingir ocağı, Hacı Qaraman ocağı, Çaxmaq piri, Müqəddəs Düldül ziyarətgahı, Qarı, Pir Əhməd, Lalə ocağı, Seyid ocağı, Çələbi ocağı, Hacı Qaraman ziyarətgahı, Qara daş ziyarətgahı, Miri evi ziyarətgahı, Düldül ziyarətgahı, Əfəndilər piri, Qərib Seyid ziyarətgahı, Tumas ata ziyarətgahı, Cəbrayıl ata ziyarətgahı, Xubyarlı piri, Qərər piri, Sarı ocaq, Qurbantəpə ziyarətgahı, İncirli piri ziyarətgahı, Qasım Baba piri, Düldül ziyarətgahı, Yel ziyarətgahı, Seyid ziyarətgahı, Qara Molla ziyarətgahı, Qarnıyarıq ziyarətgahı, Dağdağan ocağı, Çomaq ata ziyarətgahı, Düldül ziyarətgahı kimi tarixi-dini abidələr mövcud olmuşdur [1, s.37].

Erməni vandalizminin qurbanı olmuş Cəbrayıl rayon tarixi memarlıq abidələrinə isə Ağoğlan nekropolu (ilk orta əsrlər), Məscidtəpə kurqanı (tunc dövrü), Qız qalası (XII əsr), Qala bürcü (V-VI əsrlər), Canqulu kurqanı (tunc dövrü), Quştəpə kurqanı (tunc dövrü), Karxulu kurqanları və yaşayış yeri (tunc dövrü), Naftalı kurqanları

(son tunc və ilk dəmir dövrü), İmanqazantəpə kurqanı (son tünc dövrü), Qışlaq kurqanları və yaşayış yeri (son tunc və ilk dəmir dövrü), Hovuslu kurqanları (son tunc və ilk dəmir dövrü), Cinlitəpə yaşayış yeri, "Divlər sarayı", Siklop tikililəri (b.e.ə. III minillik), "Şəhərşik qalıqları", "Qışlaq yerləri" (b.e.ə. II minillik), On bir aşırımlı Xudafərin körpüsü (b.e.ə.V əsr), On beş aşırımlı Xudafərin körpüsü (b.e.ə. VII əsr), Kəhrizlər (b.e.ə.I əsr), Başıkəsik günbəz (XIII-XIV əsrlər), Ərəb yazıları ilə qoyun abidəsi (XV əsr), Xanəgah, Xanəgah daxildir.

*Füzuli rayonu.* Füzuli rayonun əsası 1827-ci ildə qoyulmuşdur. Füzuli rayonunun ərazisi 1390 kvadrat kilometrdir. Avqust ayının 23-ü 1993-cü ildə Ermənistan silahlı qüvvələrinin rayon ərazisinə hücumu nəticəsində Füzuli şəhəri daxil olmaqla, 58 kənd işğal olunmuşdur. İşğaldan əvvəl rayonda 86 orta məktəb, 2 texniki peşə məktəbi, 54 uşaq bağçası, 10 musiqi məktəbi, 27 klub, 2 muzey, 90 kitabxana, 13 xəstəxana, 17 tibb məntəqəsi, 48 tibb məntəqəsi fəaliyyət göstərirdi. Burada çoxlu tarixi-arxeoloji və memarlıq abidələri, köhnə yaşayış məskənləri, kurqanlar (yeni daş dövrü, tunc dövrü), türbələr (XIII-XVIII), məscidlər (XVII-XIX əsrlər), karvansaray (1684) və s. var idi [5, s.67].

Füzuli rayonu tarixi-dini abidələrlə, xüsusən də türbələrlə zəngindir. Bu abidələr sırasına rayonun Babı kəndində yerləşən səkkizguşəli Şeyx Babı Yaqub (XIII əsr) türbəsini, Aşağı Veysəlli kəndində XIV əsrə aid Mirəli türbəsini, hmədalılar kəndində orta əsr qəbiristanlığının ərazisində sənduqə formalı qəbirdaşının üzərindəki türbəni, XIX əsrə aid olduğu söylənilən Cəlil türbəsini aid etmək olar.

*Zəngilan.* İşğaldan əvvəl 66 orta məktəb, 4 yeddiillik musiqi məktəbi, tarix-diyarşünaslıq və daş abidələr və Xalqlar dostluğu muzeyləri, mərkəzi kitabxana, uşaq kitabxanası, 65 kənd kitabxanası, mərkəzi rayon xəstəxanası, 4 kənd xəstəxanası, 46 tibb məntəqəsi, 6 həkim təcili yardım maşınları, Mincivan dəmir yolu xəstəxanası və s. fəaliyyət göstərmişdir. Tarixi-memarlıq tikililərindən dairəvi burçlar (XIV əsrdən), türbə (1304-1305-ci illərdən), sərdabələr (XII-XIV əsrlərdən) və s. mövcud olmuşdur.

*Qubadlı.* İşğaldan əvvəl rayonda 62 orta məktəb, kitabxana, klub, 4 xəstəxana və s. fəaliyyət göstərmişdir. Mağara-şapel (IV əsr), qalalar (V əsr), türbələr (XIV - XVII əsrlər), məscid (XIX əsr), körpü (1867) və s. mövcud olmuşdur.

Ermənilərin torpaqlarımıza hərbi hücumu nəticəsində işğal olunmuş torpaqlarda ilk insan məskənlərindən olan məşhur Azıx və Tağlar mağaraları, Qaraköpək və Üzərliktəpə kurqanları II Qarabağ müharibəsinə qədər hərbi məqsədlər üçün istifadə edilərək qəsdən dağıdılırdı. Xocalı, Ağdam, Ağdərə, Füzuli, Cəbrayıl rayonlarında, işğal altında olan Şuşa, Laçın, Kəlbəcər, Füzuli, Qubadlı, Zəngilan, Kubatlı, Zəngilan və Xocalı rayonlarında qəbiristanlıqlar, məqbərələr, türbələr, məscidlər, məbədlər, Qafqaz Albaniya abidələri və digər milli abidələr kurqanlarla birlikdə dağıdılmışdır. Şuşa tarixi memarlıq qoruğunun ərazisində ermənilərin Aşağı və Yuxarı Gövhərağa, Köçərli, Mardin, Cümə məscidləri, dahi bəstəkar Üzeyir Hacıbəyovun, peşəkar vokal sənətinin banisi Bülbülün ev muzeyləri, Xurşudbanu Natəvanın saray kompleksi, Firudin bəy Köçərlinin malikanələri, Zöhrabbəyovların imarətləri, rəssam, akademik Mir Mövsüm Nəvvabın evi, şəhərin şərq memarlıq xüsusiyyətlərini əks etdirən milli üslubda tikilmiş bir çox qəsəbə evləri, adətən dövlət qoruğu, buradakı qədim qəbiristanlıqlar, böyük Azərbaycan şairi, Qarabağ xanının vəziri, M.P.Vaqifin məzarı, Ağdamda Pənah xanın imarətini, Laçın rayonundakı Cümə məscidi, Həmzə Sultan və Sultan Əhməd sarayları, məscidlər, müqəddəs ziyarət və ibadət yerləri, daş heykəllər, köhnə türbələr, kurqanlar, tarixi abidə sayılan yaşayış binaları dağıdılıb, maddi mədəniyyət sərvətləri Ermənistana daşınıb [3, s.26].

İşğal olunmuş rayonlarda maddi-mədəni irsimizin dağıdılması prosesi II Qarabağ müharibəsinə qədər davam etmişdir. İşğalçılar genişmiqyaslı, qeyri-peşəkar arxeoloji qazıntılar aparmış. kurqanlar dağıdılmış və tapıntılar Ermənistana aparılmışdır. Erməni terrorçularının işğal etdiyi qədim Azərbaycan torpaqları olan Dağlıq Qarabağ və ona bitişik rayonlarda dünya üzrə 13 (6 memarlıq və 7 arxeoloji abidə), 292 ölkə əhəmiyyətli (119 memarlıq və 173 arxeoloji) və 330 yerli əhəmiyyətli abidə (270 memarlıq, 22 arxeoloji, 23 üzüm bağla-

rı, parklar, monumental və xatirə abidələri, 15 dekorativ sənət nümunəsi) tarix və mədəniyyət abidələri qalmışdır.

Bunlardan əlavə, işğal olunmuş ərazilərdə 40 mindən çox eksponatın toplandığı 22 muzey, 4,6 milyon kitab fondu olan 927 kitabxana, 808 klub, 4 teatr və 2 konsert obyekti, 8 mədəniyyət və istirahət parkı, 4 şəkil qalereyası, 85 musiqi məktəblər, 103,2 min ədəd mebel avadanlığı, 5640 musiqi aləti, 481 kinoteatr obyekti, 20 kamera, 423 video lent, 5920 milli kişi və qadın geyim dəsti, 40 mürəkkəb səs gücləndirici zəbt edilmişdir.

Azərbaycanın işğal olunmuş ərazilərində çoxlu abidə və məscidlər ermənilər tərəfindən paylanıb və onların ümumi sayı 1000-ə yaxındır. Onların arasında məscidlər, kitabxanalar və mədəniyyət mərkəzləri var idi. Paylanmış abidələr arasında təkcə müsəlmanlara xas olan abidələr deyil, yəhudi, xristian və alban məbədləri də var idi.

Dəyərini müəyyən etmək mümkün olmayan daşınmaz tarixi-mədəni tikililərdən başqa 1994-cü il tarixinə ölkəmizə dəymiş ümumi zərərin ümumi məbləği 23 trilyon 680 milyon manat və ya 6 milyard 71 milyon dollar olmuşdur. İşçi Qrupu Ermənistanın hücumu nəticəsində Azərbaycanın məruz qaldığı təsirləri hesablamaq üçün 26 fevral 2014-cü ildə AR Nazirlər Şurası tərəfindən yaradılmışdır. 04 fevral 2014-cü il tarixində "Müasir Azərbaycanın nadir inkişaf modeli və tarixi erməni hücumunun beynəlxalq qiymətləndirilməsi faktları" mövzusunda konfrans keçirilmişdir. Konfransın yekunu olaraq "MBA LTD" Qiymətləndirmə Şirkətinin sədri, Ermənistanın hücumu nəticəsində Azərbaycana dəyən itkiləri hesablayarkən, "İsçi Group"un üzvü Nüsrət İbrahimov məruzəsində Dağlıq Qarabağın işğalı və onun ətraf rayonlarına 1989-1993-cü illərdə dəymiş ziyanlar (bilavasitə tarix və mədəniyyət abidələrinə, o cümlədən mülki əhaliyə) tədbir iştirakçıların diqqətinə çatdırılmışdır. Tarix və mədəniyyət abidələrinə dəymiş ziyan 177 milyard ABŞ dolları, dövlət əmlakına dəymiş ziyan 55,4 milyard manat təşkil edir. Bundan əlavə, hesablanması çətin olan yerüstü və yeraltı təbii sərvətlərin talanması və məhv edilməsi nəticəsində dəymiş birbaşa və dolayı zərərin 190 milyard ABŞ dollarından çox olacağı şübhəsizdir. Ancaq Prezident Kitabxanasında Pre-

zident Kitabxanasının direktoru Mayıl Əhmədov "Erməni vandalizmi: əsir Azərbaycan abidələri" adlı layihəni təbliğ edərkən bildirdi ki, dağıdılan və yandırılan 927 kitabxanada 4,6 milyon kitab və nadir əlyazma nümunələri məhv edilib [7, s.154]. Ermənistan Silahlı Qüvvələrinin işğalı nəticəsində Azərbaycan iqtisadiyyatına 300 milyard dollardan çox ziyan dəymişdir. 1000-dən çox Azərbaycan yaşayış məntəqəsi, yüzlərlə tarixi-memarlıq abidəsi, karvansaralar, imarətlər, məscidlər, qəbiristanlıqlar dağıdılıb: "XX əsrin əvvəllərində İrəvan quberniyasının ərazisində 310 məscid qeydiyyata alınsa da, bu gün Ermənistanda yalnız bir məscid – "Göy məscidi" qismən salamat qalmışdır ki, o da xarici qonaqlara fars məscidi kimi təqdim olunur.

Azərbaycan Respublikasının işğal olunmuş ərazilərində erməni qəsbkarlarının darmadağın edilməsi, tarix və mədəniyyət abidələrimizin qəsdən dağıdılması və dağıdılması "Silahlı münaqişə zamanı mədəni dəyərlərin qorunması haqqında" 1954-cü il Haaqa Konvensiyası, 1992-ci il "Arxeoloji İrsin Mühafizəsi haqqında" Avropa Konvensiyası, "Ümumdünya Mədəni və Təbii İrs" YUNESKO-nun 1972-ci il tarixli mühafizəsi haqqında Konvensiyasına ziddir.

***İşğal olunmuş torpaqlarda itirdiyimiz təbii ehtiyat potensialımız.*** İşğal olunmuş ərazidə müxtəlif təbiət abidələri, nadir bitki və heyvan növləri yayılmışdır. İşğal altında olan Kiçik Qafqazın dağlıq rayonu Azərbaycanın böyük meşə zonası idi. Bölgənin ümumi meşə sahəsi 246,7 min hektar idi. İşğal altında olan Azərbaycan torpaqlarında təbii landşaftın, nadir bitki və heyvanların qorunub saxlanılması məqsədi ilə bəzi bağlar və sığınacaqlar yaradılmışdır. Bunlardan Basitçay bağı, Laç qadağası və b. göstərilə bilər. İşğal altında olan torpaqlar yeraltı və yerüstü təbii sərvətlər baxımından da çox zəngindir. Ən çox yayılmış minerallar metal filizləri, qızıl, civə, xromit, perlit, əhəng, mərmər, əqiq, mineral sular və s. Bu regionda mühüm mis-sink filizlərinin ehtiyatları Kiçik Qafqazın şərqindəki Mehmana yataqlarında yerləşir. Məhz burada istifadəyə hazır olan yeni metal filizi ehtiyatları öyrənildi. Sənaye əhəmiyyətli civə mənbələri Kəlbəcər mahalında Şorbulak və Ağyatakda yerləşir. Bu yerlər Azərbaycanın sənaye və tikinti materialları ilə çox zəngindir. Belə materialların

böyük yataqları Çobandağda (əhəng ehtiyatı 140 milyon ton və gil ehtiyatı 20 milyon ton), Şahbulakda (25 milyon ton gil), Boyahmetlidə (45 milyon ton gil) və b. [1, s.24]. İri tikinti daş yataqları Xankəndində, mərmər isə Xarovdadır. İşğal olunmuş ərazilərdə böyük müalicəvi əhəmiyyətə malik 120-yə yaxın müxtəlif tərkibli mineral su yatağı vardır.Bunlardan Yuxarı və Aşağı İstisu, Laçın rayonunda İlıqsu; Şuşa rayonunda Turşsu, Sırlan və digər mineral suları diqqəti cəlb edir.Qeyd edək ki, Azərbaycanın mineral sularının ümumi geoloji ehtiyatının 39,6 faizi işğal olunmuş rayonlarda yerləşirdi.

*Basitçay Dövlət Qoruğu.* Azərbaycan hökumətinin 4 iyul 1974-cü il tarixli qərarı ilə Zəngilan rayonunda Bəsitçay Dövlət Qoruğu yaradılmışdır. Sahəsi 107 hektardır. Ərazinin 79,4%-i meşə, 14%-i seyrək meşələrlə örtülüdür. Çinar meşələri Bəsitçay Dövlət Qoruğunun 100 hektar ərazisini əhatə edirdi. Qarışıq sidr ağacları da vardır. Burada yunan qozu, dağ otu, tut, söyüd, qovaq, yemişan, itburnu, murdarça, qaratikan və s. yetişməktədir.

*Qaragöl Dövlət Qoruğu.* Azərbaycan Respublikası Nazirlər Sovetinin 17 noyabr 1987-ci il tarixli qərarı ilə Qaragöl (Sevinc) respublikalararası dövlət qoruğu yaradılmışdır. Qoruğun ümumi sahəsi 240 hektardır. Gölün uzunluğu 1950 metr, maksimum eni 1250 m-dir. Hesablamalara görə, göldə suyun həcmi 10 milyon kubmetrdir. Gölün suyunun şəffaflığı 4,6 metrdir. 68 növ və 27 fəsilədən ibarət qoruqda 102 bitki növü vardır. Gölə heç bir yerdən su axını olmadığı və suyun çox təmiz və şəfalı olduğu məlumdur.

*Laçın Dövlət Qoruğu.* Laçın dövlət qoruğu 1961-ci ilin noyabrında Laçın rayonu ərazisində yaradılmışdır. Məqsəd buradakı heyvanları və quşları qorumaq və artırmaq idi. Qoruq cüyür, qaya keçisi, qaban, ayı və s., quşlardan frankolin, kəklik və s. Laçın dövlət qoruğunun sahəsi 21,4 hektar olub, respublika torpaqlarının 0,25 faizini, respublika qoruqlarının isə 8,8 faizini təşkil edir. 1989-cu ildə burada aparılan tədqiqatlarda: dağ keçisi (Bezoar keçisi) 96, çöl donuzu 360, cüyür 320, ayı 110, heyvan, porsuq, dələ və s. heyvanlar; Qırqovul 200, kəklikotu isə 1500 idi. Qoruğun ərazisində Hacısamlı meşəsində dünyanın ən qiymətli qırmızı palıd (qızıl palıd) ağacları var idi.

*Qubadlı Dövlət Qoruğu.* Bəsitçay Dövlət Qoruğuna aid olan Qubadlı Dövlət Qoruğu 1969-cu ilin iyununda Qubadlı və Laçın rayonları ərazisində yaradılmışdır. Qoruq Qubadlı əyalətinin şimal hissəsini və Laçın rayonunun cənub hissəsini əhatə edir, dağ-çöl ərazilərindən ibarətdir. Torpaq işğal olunmazdan əvvəl apardığımız hesablama nəticəsində məlum oldu ki, qoruqda 101 baş çöl donuzu, 21 baş qonur ayı, 35 baş cüyür, 420 baş dovşan, 25 baş canavar, 310 baş çaqqal və 75 baş porsuq var.Kəklik (560) ən çox yayılmış quş idi. Qırqovul, frankolin, bildirçin, göyərçin bu yerlərin daimi sakinləri olmuşdur.

*Arazboyu Dövlət Qoruğu.* 1993-cü ilin iyun ayında Zəngilan rayonunun İranla sərhədi olan Araz çayının sahilində, Basincay dövlət qoruğuna məxsus ərazidə yaradılmışdır. Uzunluğu 50 km, eni 50-100 metr, bəzi yerlərdə 200-250 metr məsafəni əhatə edən bu qoruq 5 min hektardır. 300 çöl donuzu, 7 qoyun ayısı, 350 tülkü, 300 çaqqal, 15 canavar, 70 porsuq, 12 cüyür var idi. Quşlardan: frankolin, qırqovul, kəklik, bildirçin, mallar ördəyi daimi məskunlaşmışdır.

*Daşaltı qoruğu.* 1988-ci ildə Şuşa və Əsgəran torpaqlarında nadir təbiət komplekslərini qorumaq məqsədilə təşkil edilən bu qoruq 450 hektar ərazini əhatə edirdi. 1992-ci ildən işğal altında olan qoruq hazırda tamamilə dağıdılmışdır.

***Nəticə.*** Ermənilərin həyata keçirdiyi vandalizm siyasəti nəticəsində azərbaycanlılara məxsus maddi-mədəni irs təhqir edilərək məhv edilmişdir. Nəhəyat Müzəffər ordumuz şanlı qələbəsindən sonra hər kəs ermənilərin törətdiyi vandalizm siyasətini açıq-aşkar gördü. Məsiclərin tövlə kimi işlədilməsi, qəbirlərin qazılıb sümüklərinin çıxarılması faktları dünya mediasında da göstərildi. Qarabağda demək olar ki, maddi mədəniyyət abidələrimizin böyük bir qismi məhv edilmiş, bəziləri isə ermənilər tərəfindən erməniləşdirmə prosesinə məruz qalmışdır.

İşğal olunmuş rayonlarda maddi-mədəni irsimizin dağıdılması prosesi II Qarabağ müharibəsinə qədər davam etmişdir. İşğalçılar genişmiqyaslı, qeyri-peşəkar arxeoloji qazıntılar aparmış. kurqanlar dağıdılmış və tapıntılar Ermənistana aparılmışdır. Erməni terrorçuları-

nın işğal etdiyi qədim Azərbaycan torpaqları olan Dağlıq Qarabağ və ona bitişik rayonlarda dünya üzrə 13 (6 memarlıq və 7 arxeoloji abidə), 292 ölkə əhəmiyyətli (119 memarlıq və 173 arxeoloji) və 330 yerli əhəmiyyətli abidə (270 memarlıq, 22 arxeoloji, 23 üzüm bağları, parklar, monumental və xatirə abidələri, 15 dekorativ sənət nümunəsi) tarix və mədəniyyət abidələri qalmışdır [4, s.385].

Bütün cəhdlərinə baxmayaraq, ermənilər tarix yazısını dəyişdirə bilmədilər. Çünki, gerçək tarix yalnız həqiqətdən keçir, həqiqət isə birdir: Qarabağ Azərbaycandır! Müzəffər ordumuzun böyük rəşadətilə ölkəmiz öz ərazi bütövlüyünü bərpa etdi.

Beynəlxalq hüquqa məhəl qoymayan Ermənistanın regionda vurduğu maliyyə itkisinin ümumilikdə 320 milyard dolları ötdüyü təxmin edilir. Erməni vandalizmi nəticəsində dağıdılmış və yenidən restavrasiya edilə biləcək tarixi abidələrimiz üzərində işlər davam etdirilir.

## ƏDƏBİYYAT

1. Hacıyev Q. Qarabağın maddi və mənəvi mədəniyyəti. Bakı, Təhsil, 2010, 152 s.
2. İşğal olunmuş Azərbaycan ərazilərində ətraf mühitə və təbii sərvətlərə dağıdıcı təsiri müəyyənləşdirən Operativ Mərkəzin II Hesabatı. AR Ekologiya və Təbii Sərvətlər Nazirliyi. Bakı, 2006, s.26-27.
3. Qarabağ. Yaddaş. Bakı, MHS, 2010, 192 s.
4. Qarabağda 1600 abide dağıdılıb / Elçi, No.96 (501), 29-30 noyabr 2006.
5. Mahmudov Y.M., Şükürov K.K. Qarabağ: Real tarix, faktlar, sənədlər. Bakı, Təhsil, 2005, 380 s.
6. Nuruqızı S. Azərbaycan abidələrinə qarşı erməni vandalizmi / Mədəniyyət, 2003, No. 28 (298), 2 avqust.
7. War against Azerbaijan Targeting Cultural Heritage. The series of “The true facts about Garabagh”. Baku, Heydar Aliyev Foundation, 2007, 280 s.

**FIDAN HAJIYEVA**

*Master's student of Baku Engineering University, majoring in "World Politics"*

# HISTORICAL MONUMENTS OF AZERBAIJAN AND ARMENIAN VANDALISM

The article touches on the vandalism policy implemented by Armenia against Azerbaijan, processes such as the destruction and destruction of our cultural heritage. The dimensions of the damage caused to the culture and architecture of Azerbaijan were studied. The natural resource potential that we lost in the occupied lands was shown. This policy of vandalism implemented by Armenia is contrary to international law.

The looting and destruction of the historical and cultural monuments of Azerbaijan by the Armenians is a violation of the Hague Convention, the Paris Convention on the Illegal Trafficking in Cultural Resources (1970), the European Convention on the Protection of Archaeological Heritage (1992), UNESCO's World Cultural and Natural Heritage is reflected in the provisions of the Convention on Protection.

*Keywords:* Armenian vandalism, cultural monuments, Hague Convention, Paris Convention, UNESCO.

*Daxil olma tarixi*: 20.04.2023-cü il.
*Çapa imzalanma tarixi*: 05.05.2023-cü il.

**UOT 94(479.24); UOT 94**

**FUAD XƏLİLOV**
*Bakı Dövlət Universiteti Tarix fakültəsi III kurs bakalavr tələbəsi*
**fuadxelilovtarix@gmail.com**

**MƏRZİYƏ XUDİYEVA**
*Bakı Dövlət Universiteti Tarix fakültəsi III kurs bakalavr tələbəsi*
**xudiyeva.marziye@mail.ru**

# ERMƏNİLƏRİN AZƏRBAYCANLILARA QARŞI QIRĞINLARINA SON QOYMAQ ÜÇÜN KEÇİRİLMİŞ 1906-CI İL TİFLİS SÜLH KONFRANSI TARİXİ TƏDQİQATLARDA

*Elmi rəhbər*:
Kəmalə Məmmədova

*XIX əsrdə Azərbaycan Rusiya imperiyasının müstəmləkəsinə çevrilsə də, bununla paraleldə milli özünüdərkə qayıdış prosesi gedirdi. 1875-ci ildə H.Zərdabi tərəfindən "Əkinçi"qəzeti ilə əsası qoyulan milli mətbuatın yaradılması əslində Azərbaycan milli hərəkatının prinsiplərini işləyib hazırladı. Təsadüfi deyil ki, "Əkinçi" "dövləti-Rus bizim vilayəti zəbt edəndən irəli" yazmaqla milli hərəkatımızın konsepsiyasını irəli sürürdü. 1905-1907-ci illər I Rus inqilabının təsiri ilə geniş vüsət alan Milli Hərəkatın sonrakı dönəmlərində də ona rəhbərlik edən ziyalılarımız bu konsepsiyanın həyata keçirilməsi uğrunda mübarizəyə qoşuldular. Xalqı təmsil edən Azərbaycan maarifçiləri və ziyalıları tərəfindən milli birlik fikrinin ortaya atılması fikri rus çarizmini narahat etməyə bilməzdi. Cənubi Qafqazı işğal edən Çar hökuməti bölgədə nüfuzunu daha da genişləndirmək və nüfuzunu gücləndirmək niyyəti ilə həmişə etdiyi kimi milli qırğın siyasətinə əl atdı və ilk kütləvi* ***erməni-azərbaycanlı*** *qanlı münaqişəsinin əsasını qoydu. Hər iki tərəfdən yüzlərlə insanın qətlə yetirdilməsindən sonra Çarizm dayandırıla bilməyən bu qırğın siyasətinin qarşısını almağa çalışdı və 1906-cı ildə Tiflisdə Canişin sarayında Azərbaycan, rus və erməni xalqlarının iştirak etdiyi sülh konfransını çağırmaq qərarına gəldi. Konfransda erməni və rusların "sülh" istəklərinə qarşı Azərbaycan nümayəndə heyətində təmsil olunan Əhməd bəy Ağaoğlu, Əlimərdan bəy Topçubaşov və digər nümayəndələrimiz xalqımızın müdafiəsi uğrunda çalışmışlar.* ***Qırğınla başlayan "Sülh konf-***

***ransı"****nda müzakirə olunan məsələlər və gəlinən nəticələrin əksəriyyəti günümüz reallığında* ***"Həll edilməyən "niyə"lər"*** *olaraq öz əksini tapmaqdadır. Ona görə də, bu məqalədə birbaşa o dövrdə yazılan və müxtəlif illərdə aparılan tədqiqatlar müstəvisində bu mövzuya geniş şəkildə toxunulacaqdır.*

*Açar sözlər:* Milli Azadlıq Hərəkatı, erməni-azərbaycanlı münaqişəsi, Tiflis sülh konfransı, Əhməd bəy Ağaoğlu, Voronstov-Daşkov.

***Giriş.*** Müasir dövrdə Azərbaycan tarixşünaslığında XIX əsrdən başlayaraq Azərbaycan torpaqlarının Rusiya imperiyası tərəfindən işğalı, ermənilərin kütləvi surətdə əzəli Azərbaycan torpaqlarına köçürülməsi, imperiyanın müstəmləkəçilik siyasətində azərbaycanlıların sıxışdırılması, Azərbaycan xalqının milli azadlıq hərəkatı, erməni quldurları tərəfindən xalqımıza qarşı törədilmiş soyqırımı cinayətləri tarixi faktların aşkara çıxarılması və tədqiqata cəlb edilməsi ilə araşdırılır. Tarixşünaslığımızda araşdırılması mühüm olan mövzulardan biri də 1905-1907-ci illərdə Cənubi Qafqazın müxtəlif şəhər və bölgələrində ermənilər tərəfindən azərbaycanlılara qarşı törədilmiş qətliam və soyqırımının araşdırılması və bunların qarşısının alınması ilə bağlı həyata keçirilən tədbirlərin tədqiqata cəlb edilməsidir. Bu məqaləmizdə biz məhz bu məsələlərə qısaca da olsa nəzər salmaq fikrindəyik. Ermənilər tərəfindən azərbaycanlılara qarşı 1905-1906-cı illərdə törədilən soyqırımı cinayətlərinin bölgələr üzrə araşdırılması baxımından İ.Əliyevanın 1905-ci il Tiflis qırğınları (Алиева И. Политическое и социально-экономическое положение азербайджанцев Тифлисской губернии (1846-1917). Баку, 2009), İ.Kazımovun 1905-1906-cı illərdə Naxçıvanda ermənilərin azərbaycanlılara qarşı soyqırımı ("Naxçıvan: Əhalisi, sosial-iqtisadi və siyasi tarixinə dair (1828-1920-ci illər)", Bakı, 2007), eyni zamanda N.Mustafanın Qərbi Azərbaycanda ermənilərin azərbaycanlılara qarşı törətdikləri soyqırımları (Mustafa N. 1905-1906-cı illərdə İrəvan quberniyasında azərbaycanlıların soyqırımı, "Xalq qəzeti", 2005, 27 mart; Ermənilərin 1905-1906-cı illərdə Zəngəzur qəzasında törətdikləri qırğınlar, "Xalq qəzeti", 2013, 31 mart və 4 aprel), M.Qasımlının 1905-ci ilin fevralında Bakıda baş vermiş qırğınlarla bağlı araşdırmaları da

(Qasımlı M. Bakı qırğınları (fevral, 1905-ci il) // "Milli Məclis" jurnalı, 2012, sentyabr-oktyabr, s.62-69) əhəmiyyətlidir. Şərti olaraq "Əkinçi dövrü" adlanan [9, s.102], "1875-1905-ci illər aralığı" Milli Azadlıq hərəkatının başlanğıc dönəmi hesab edilir. Bunun əsas səbəbi isə "Əkinçi qəzeti"nin o dövr üçün böyük yeniliklər sayılan bir sıra ilklərə imza atıb, mövzusundan asılı olmayaraq birbaşa və dolayı yolla insanlara Milli Azadlıq fikirlərini aşılamasıdır. Doğrudur, Rusiya dövləti keçən zamanlardan fəqrli olaraq müəyyən mənada bölgəyə asayiş və dinclik gətirsə də, lakin Həsən bəyin anlamında köləlik asayişi və dincliyi gətirmişdi. Bu baxımdan "Əkinçi" öz səhifəsində "dövləti-Rus bizim vilayəti zəbt edəndən irəli" yazmaqla milli hərəkatımızın konsepsiyasını irəli sürürdü ki, bu konsepsiyadan çıxış edən İsmayıl xan Ziyadxanlı da 1906-cı ildə deputat olaraq iştirak etdiyi Rusiya I Dövlət Dumasındakı nitqində söyləyirdi ki, "Artıq bizim üçün də hərəkət etmək vaxtı çatmış və bundan sonra susmamağı qərara almışıq. Zaqafqaziya bir əsr bundan əvvəl ruslar tərəfindən işğal edilmişdir" [4, s.126].

Çar imperiyasının öz hakimiyyətini möhkəmləndirmək üçün tətbiq etdiyi milli zülm, hökümətə qarşı fəhlə, kəndli və ziyalıların Milli Azadlıq Hərəkatı adı altında birləşməsinə səbəb olmuşdur [19, s.55]. 1905-ci ilin yanvarında başlayan I Rus inqilabı Azərbaycanda milli mübarizənin yeni inkişaf etmiş formasının yaranmasına gətirib çıxardı. Bu inqilabın dönüş nöqtələrindən biri ziyalıların, Cənubi Qafqaz müsəlman icmasının rəhbərliyini öz üzərinə götürməsi olmuşdu [9, s.99. Çıxışın tam mətni: 10, s.333-340]. Etiraz hərəkatı və nümayişlərin Bakıdan bütün Cənubi Qafqaza doğru yayılması 1905-ci ilin fevralında burada hərbi vəziyyətin elan edilməsinə səbəb olmuşdur. Ardınca Çar II Nikolay Zaqafqaziya Baş Canişinliyinin yaradıldığını elan etmiş və İ.İ.Vorontsov-Daşkovu baş canişin təyin etmişdir.

1905-ci il ilin yazında Bakıda başlanan milli hərəkat Azərbaycanın digər şəhərlərinə də yayıldı. Bu dövrdə nəşr olunan Azərbaycan mətbuatında xalqı birliyə, oyanışa çağıran yazılar dərc edilir, bu inqilabdan xalqın haqq və hüquqlarının müdafiəsi uğrunda mübarizə-

də mümkün qədər çox şey əldə etmək lazım olduğu fikri irəli sürülürdü. İnqilaba qədər bütün hüquqlardan məhrum olan Azərbaycan xalqının birdən-birə nailiyyətlər əldə etməsi çar hökumətini narahat etməyə bilməzdi. Bu məqsədlə çar hakim dairələri rus imperiyasının zəiflədiyi bir vaxtda Qafqaz xalqlarını inqilabdan uzaqlaşdırmaq və Qafqaz müsəlmanlarının apardıqları milli azadlıq mübarizəsinin qarşısını almaq üçün tədbir gördü. Çarizm xalqın kütləvi şəkildə etiraz hərəkatlarında iştirakının qarşısını almaq üçün xalqlar arasında milli qırğın siyasətinə əl atdı. Düşünülən tədbir 1905-ci ildə erməniləri müsəlmanlara qarşı qırğına sövq etmək oldu.

Qeyd edək ki, 1878-ci ildə Avropa ölkələrinin səyləri nəticəsində ön plana çıxarılan "Berlin konfransı"nda "Erməni məsələsi" müzakirə olunmuş və bundan sonra Şərqi Anadolu, Cənubi Qafqaz kimi ərazilərdə erməni millətçiliyi geniş şəkildə yayılmağa başlamışdı. İngiltərə və Fransa kimi ölkələrin yardımına güvənən ermənilərə, əsas rəhbərliyi 1887-ci ildə Cenevrədə yaradılmış erməni sosial-demokrat "Hnçak" partiyası və 1890-cı ildə Tiflisdə yaradılmış "Daşnaksutyun" partiyası edirdi. Bu partiyaların yaradılmasından sonra Osmanlı dövlətinin şərq vilayətlərinə qarşı sürdükləri ərazi iddialarından bir nəticə əldə edə bilmədikləri üçün istiqamətlərini Cənubi Qafqazın qərb vilayətlərinə doğru yönəltmişdilər. Ermənilərin XIX əsrdə Şərqi Anadoluda əldə etdikləri təcrübələr azərbaycanlılara qarşı torpaq iddiasına qalxmağa və qırğınlar törətməyinə imkan vermişdi. Osmanlı dövlətində törətdikləri vəhşiliklərdən sonra qaçaraq Qafqaza sığınan Türkiyə erməni hərəkatının başçıları və daşnaklar 1904-cü ildə "Böyük Ermənistan" layihəsinə "Qafqaz Ermənistanı"nı da daxil etmək üçün erməniləri müsəlmanların əleyhinə təhrik etdilər. H.Baykara "Azərbaycan istiqlal mübarizəsi tarixi" əsərində qeyd edir ki, gürcü sosialistlərindən olan Karibi "Qızıl kitabı"nda belə yazır: "Erməni inqilabçılarının, xüsusilə Daşnaksütyun partiyasının yaradılmasına qədər Zaqafqaziyada sülh və dostluq hökm sürürdü. Bu ölkədə türklərlə ermənilər arasında olan qanlı qırğınların kölgəsini belə xatırlayan yoxdu. Ermənilər, türklər və gürcülər əsrlərlə bir yerdə yaşadılar, hətta bu müddət ərzində heç kim millətlərarası ədavət görmədi.

Daşnaklar gəldilər və sıfır ermənilərdən ibarət müstəqil Ermənistan dövləti yaratmaq istədilər. Patriarxal Qafqaz kəndlərinə milli ədavət və qarşılıqlı nifrət hissləri doldu" [4, s.120]. "Rus hakim dairələri Qafqaz türklərini inqilabın bəxş etdiyi azadlıq nemətlərindən məhrum etmək üçün belə bir vəziyyətdən istifadə etməyi qərara aldılar" [4, s.126]. Bu isə o dövrdən başlayaraq hər iki tərəfdən minlərlə insanın ölümü ilə nəticələnəcək ***"erməni-azərbaycanlı qırğınları"***nın başlanmasına, sonrakı dövrlərdə 1918-ci ildə türk-müsəlman əhalisinə qarşı soyqırıma, 1992-ci ildə Xocalıda azərbaycanlıların soyqırımına səbəb olacaqdı. ***"Sülh konfransı"nın qırğınla başlama*** (- *müəlliflər*) təməli isə məhz bu cür atılmış oldu.

***1905-1907-ci illərdə ermənilərin azərbaycanlılara qarşı törətdikləri qətliamlar.*** 1905-1907-ci illər qətliamlarına qədər ermənilərlə azərbaycanlılar arasında elə də ciddi bir qarşıdurma yaranmamışdı. ABŞ tarixçisi Tadueş Svyetoxovski bu haqda maraqlı bir məsələyə diqqət yetirir: "Uzun müddətdən bəri iki etnik qrup (azərbaycanlılar və ermənilər nəzərdə tutulur – *müəlliflər*) arasında artmaqda olan barışmaz ziddiyyətlər bu dəfə mədəni və dini fərqlər sərhədini ötüb keçdi. Eyni fərqlər azərbayacanlılar və gürcülər arasında da mövcüd idi, lakin onların arasında heç bir antaqonizm yox idi" [21, s.52]. Məşhur mühacir ziyalılarımızdan olan Hüseyn Baykara isə öz fikirlərini haqlı olaraq "Erməni inqilabçılarının, bilavasitə Daşnaksutyun firqəsinin doğuşuna qədər Qafqazda sülh və dostluq hökm sürürdü…" deyə qeyd edirdi [4, s.132]. Məhz daşnakların təxribatları nəticəsində Cənubi Qafqazda sosial narazılıqlar milli münaqişəyə, erməni-azərbaycanlı qarşıdurmasına çevrilir. Bakı, Gəncə, Qarabağ, Naxçıvan, Qazax, İrəvan, Zəngəzur, Pəmbək, Tiflis və Borçalıtək azərbaycanlıların yaşadığı bölgələrdə imperiya hakim dairələrinin gözü qarşısında minlərlə günahsız insan erməni silahlıları tərəfindən xüsusi amansızlıq və qəddarlıqla qətlə yetirilir. Milli zəmində ilk kütləvi toqquşmalar 1905-ci ilin fevral ayında Bakıda və İrəvanda, daha sonra Naxçıvanda, Şuşada, Gəncədə və digər yerlərdə baş verir [12, s.37].

Zaqafqaziyaya baş canişini İ.Vorontsov-Daşkov, Şuşa general-qubernatoru V.N.Qoloşapov, Naxçıvan qəzasının polis rəisi A.Enkel kimi Çar Rusiyasının yerlərdəki məmur, əsgər və zabitlərinin milli qırğın məsələsində yeri gəldikdə səssiz qalması, hətta müəyyən rüşvət qarşılığında erməni silahlılarına yardım etməsi onların da bu işdə payının olduğuna sübut idi. Bunlarla bağlı Mir Möhsün Nəvvabın [17], Məmməd Səid Ordubadinin [18] o dövrdə qələmə aldığı əsərlərindən, ziyalılarımızın “Kaspi”, “İrşad” kimi qəzetlərin səhifələrində dərc olunmuş məqalələrindən [1; 3; 8], həmçinin arxiv sənədlərindən [14] məlumat əldə edə bilərik. Hətta Qafqaz canişinin keçmiş köməkçisi Sultan Krım-Girey etiraf etmişdi ki, Qafqazdakı qırğınlar hakimiyyətin təhriki ilə təşkil olunmuşdu [13, s.105]. Milli ruhlu sənətkar, XX əsr Azərbaycan dramaturgiyasının korifeylərindən olan Cəfər Cabbarlı “1905-ci ildə” əsərində “Atan kazaklardır” ifadəsi ilə təşkilatlanma işində Çar Rusiyasının iştirakını sətiraltı olaraq vurğulamışdır. Bu qətliamların davamı olan 1918-ci ilin mart qırğınları, Bakı şəhərini vəhşi erməni-daşnak və Birinci Dünya müharibəsində iştirak edən çar Rusiyasının əsgərlərindən xilas etmək uğrunda gedən döyüşlər onun “Bakı müharibəsi” pyesində əks etdirilmişdir [6]. Fərhad Cabbarov “Qarabağda və Zəngəzurda ilk erməni-azərbaycanlı münaqişəsi (1905-1906)” əsərində bu dövrün hadisələrini “münaqişə” kimi qələmə verir və qətliama hazırlıqla bağlı yazır: “Ermənilər müxtəlif yollarla bu münaqişəyə əvvəlcədən hazırlaşırdılar. Belə ki, XIX yüzilliyin sonlarından ermənilər İrandan, Culfa və Yevlaxa gətirilən silahları Bakı, Qarabağ, Naxçıvan, İrəvan və Zəngəzur bölgələrinə daşımaqla silah qaçaqmalçılığı ilə məşğul olurdular [5, s.17]. Daşınan bu silahlar isə əsasən erməni kilsələrində mühafizə edilirdi. 1905-ci ilin 6 fevralında başlayan münaqişədən əvvəl ermənilərin bəzi bölgələrdə baş qaldırması ilə bağlı Rusiya Dövlət Bankının İrəvan şöbəsinin, milliyətcə erməni olan müdirinin 16 yanvar 1905-ci ildə verdiyi məlumata əsasən ermənilərin törətdikləri iğtişaşlar səbəbindən şəhərdə yaşamağın mümkünsüzlüyü bildirilirdi [16, s.106]. Qətliamın başlaması ilə bağlı isə “1905-ci il 6-9 fevral Bakı qırğını haqqında Bakı qubernatorunun məruzəsi və şahid ifadələrinin protokol-

ları" adlı arxiv sənədində "Fevralın 6-da, gündüz saat 12-yə yaxın, şəhərin mərkəzində, ibadət keçirilən erməni kilsəsinin yaxınlığında, "Parapet" adlanan yerdə zəngin və nüfuzlu müsəlman, Bakıda daimi yaşayan, Sabunçu kəndinin sakini, böyük nəslə malik Ağarza Babayevin ermənilər tərəfindən qətlə yetirilməsi" haqqında deyilir [14, s.5, 58]. Sənədlərdən də məlum olduğu kimi ilk atəşi ermənilər açmış, bunun ardınca isə azərbaycanlılar meyitin təhqir olunduğunu görüb ermənilərdən qisas almaq məqsədi ilə hücum etmişdilər. Bakıda 3 gün davam edən bu qətliamın tarixşünaslıqda necə adlandırılması məsələsində yekdil bir fikir mövcud deyildir. Dövrün rus dilində olan yazışmalarında bu hadisələr "армяно-татарская столкновения" (erməni-tatar toqquşması - *müəliflər*), "армяно-татарский резня" (erməni-tatar qırğını - *müəlliflər*), "армяно-татарская смута" (erməni-tatar iğtişaşı - *müəlliflər*) kimi adlandırılmışdır. Mir Möhsün Nəvvabın bu hadisələrdən bəhs edən əsərini "Erməni-müsəlman davası" adlandırılmasından sonra bu ifadədən istifadə edilmişdir. Məmməd Səid Ordubadinin "Qanlı illər" əsərində bu hadisələr "nəcib islam milləti ilə qədim erməni milləti arasında iğtişaş" [18, s.5] adlandırılır. Biz isə bu hadisələri daha çox *"Ermənilərin azərbaycanlılara qarşı qətliamları"* adlandırmağa üstünlük veririk, çünki bu qırğınlar ermənilər tərəfindən özünü müdafiə etmək imkanı olmayan müsəlman türklərin (azərbaycanlıların – *müəlliflər*) əleyhinə çevrilmişdi. Fevralın 9-da müəyyən qədər sakitlik yaransa da, tezliklə yenidən Bakıda və Azərbaycanın digər bölgələrində azərbaycanlılara qarşı qanlı qətliamlar baş götürüb getməyə başladı. Məmməd Səid Ordubadi "Qanlı sənələr" əsərində ermənilərin "Bizim əlimizin üstündə Qafqazda gərək əl olmasın" - deyərək qətliamı qızışdırma səbəbini açıqlamışdır [18, s.28]. Ermənilər qırğın törətdikləri ərazilərdə "Əllərinə düşən kitablara və Qurani-Kərimə od vurub yandırırdılar. Qoca qadın və kişilərə, eləcə də, uşaqlara etdikləri zülmü isə qələmə almaq çox çətindir" [17, s.21]. Hökümət qüvvələri də bəzən bu iğtişaşları yatırmaqda aciz qalırdılar. Yelizavetpol Dairə məhkəməsi prokurorunun Tiflis Məhkəmə palatası prokuroruna 1906-ci il 5 yanvar tarixli təqdimatında yazılır: "Xüsusilə əhalisi tamamilə ermənilərdən ibarət elə ərazilər

var ki, oralara hökümət artıq çoxdandır ki, ayaq basa bilmir, pristavlar bu ərazilərdən qaçmışlar. Ermənilər özləri üçün yalnız özlərinin hesaba aldıqları idarəedicilər seçmişlər, sözdə "xumb" adlanan, hökümətdən heç kəsi yaxın məsafəyə buraxmayaraq, adətən hamını atəşlə qarşılayan ordularının yerləşdiyi böyük istehkamlar tikmişlər" [14, s.24, 484]. 1905-ci ildə ermənilər tərəfindən azərbaycanlılara qarşı törədilmiş kütləvi qırğınlar Tiflis quberniyasından da yan ötmür. Bu ərəfədə yerli azərbaycanlı ziyalılar bütün ermənilərin katolikosunun Tiflisdə olmasından istifadə edərək qarşılıqlı etimadın gücləndirilməsi istiqamətində tədbirlər hazırlanması üçün hər iki xalqın ziyalı və ruhani zümrəsinin iştirakı ilə yığıncaq keçirməyə çalışsalar da, Tiflis şəhəri həmin dövrdə erməni millətçiliyinin mərkəzi olduğu üçün erməni təxribatlarının qarşısını almaq mümkün olmur. 1905-ci il noyabrın 22-də ermənilər tərəfindən azərbaycanlılara qarşı başlanan qətliamlar həmin ilin dekabr ayının 1-dək - şəhərin azərbaycanlı və erməni icmaları arasında barışıq əldə olunanadək davam edir. 1905-1907-ci illərdə ermənilərin azərbaycanlılara qarşı törətdikləri qətliamlarla bağlı həqiqətlərin üzə çıxarılması baxımından Tiflis quberniyasında azərbaycanlılara qarşı kütləvi qırğınlara və Borçalıda xalq hərəkatına dair faktların araşdırılması son dərəcə vacibdir [12, s.5].

Qafqaz canişini general-adyutant qraf İ.İ.Vorontsov-Daşkov Peterburqa imperatorun ünvanına göndərdiyi rəsmi teleqramda Tiflisdə milli zəmində qırğının ermənilər tərəfindən törədildiyini bildirirdi [12, s.41].

***İlk sülh cəhdləri.*** Xalqların ziyalı nümayəndələri, nüfuzlu din xadimləri küçə-küçə gəzərək hər iki tərəfi sakitləşdirməyə, qan tökülməsinə son qoymağa çağırırdı. Xüsusən, Azərbaycan ziyalıları mətbuatdakı yazılarında və çar məmurlarına müraciətlərində bu hadisələrə son qoyulmasına, əks-halda qanlı münaqişənin daha da qızışacağı haqqında xəbərdarlıq edirdilər. Burada xüsusilə fərqlənən Əhməd bəy Ağaoğlu, münaqişəni dayandırmaq üçün Bakı şəhər başçısı K.A.İretskiyə 7 və 9 fevral 1905-ci il tarixlərində 2 dəfə məktub yollamışdır [daha ətraflı bax: 1, s.135-137]. Bakı şəhər duması isə 1905-ci ilin iyun ayında Əhalini Sakitləşdirmə Komitəsini yaradaraq bu yolda ilk

təşəbbüsünü göstərmiş oldu. Tərkibində erməni, rus və azərbaycanlıların olduğu 38 nəfərlik bu komitənin əsas məqsədi yeni yaranan münaqişə ocaqlarının qarşısının dərhal alınması idi. Bu məqsədlə, hətta Bakı şəhəri 12 sahəyə bölünərək hər sahəyə tanınmış ziyalılar yerləşdirilirdi [1, s.49]. Həmçinin, mətbuatda da bu etnik münaqişəyə son qoyulması üçün çağırışlar dərc olunur, hər sülh təşəbbüsü alqışlanırdı. "Həyat" qəzetinin 11 sentyabr 1905-ci il tarixli 63 saylı nömrəsində, 10 sentyabrda Bakı şəhər general-qubernatorunun təşəbbüsü ilə ermənilər və azərbaycanlılar arasında sülh razılaşmasının əldə olunması və həmin razılaşmaya görə hər hansısa bir tərəfdən ölən ya da yaralanan olduğu təqdirdə günahkar tərəfin tapılaraq cəza verilməsi üçün dövlətə təhvil verilərək əvəzində mükafat alınması haqqında bir yazı dərc olunmuşdu [daha ətraflı bax: 8, s.29]. Ancaq Mir Möhsün Nəvvabın qeyd etdiyi kimi, ermənilərin sülh məramına bel bağlamaq olmazdı. Çünki, neçə dəfə sülh təşəbbüsü ilə məsciddə, kilsədə və başqa yerlərdə nüfuzlu şəxslər tərəfindən razılaşma əldə olunmuş, lakin nəticəsi yenə mənasız olmuşdur. Belə ki, ermənilər yenə də razılaşmanı pozub xalqı qırğına məruz qoymuşdular.

***Tiflis sülh konfransı.*** Çar hakimiyyəti və onun Qafqazdakı nümayəndəsi bu hadisələrin uzanmasından narahat olmuş və bu hadisələrə son qoymaq üçün hər iki tərəfdən danışıqların keçirilməsini qərara almışdı. İndiyə qədər tarixşünaslıqda belə bir fikir mövcud idi ki, hər iki tərəfin nüfuzlu nümayəndələrindən təşkil olunacaq bir sülh konfransını çağırmaq təşəbbüsü ilk dəfə Qafqaz canişini Vorontsov-Daşkov tərəfindən irəli sürülmüşdür. Lakin, məşhur tarixçi-alim Fərhad Cabbarovun tədqiqatı nəticəsində məlum olmuşdur ki, bu barədə ilk təşəbbüs Əhməd bəy Ağaoğluna aiddir. Əhməd bəy 8 sentyabr 1905-ci il "Həyat" qəzetinin 60 nömrəli sayında dərc olunan "Bir əlac" adlı məqaləsində canişin Vorontsov-Daşkov tərəfindən Tiflisdə, hər iki millətin öz iddia və xahişlərini səsləndirən seçilmiş nümayəndə və vəkillərdən ibarət olan "məclisi-ümumi"nin təşkil olunmasını qeyd edirdi [daha ətraflı bax: 1, s.86]. Əhməd bəyin bu istəyi 1906-cı ilin fevralında nəzərə alınmışdı. 1906-cı il fevralın 20-dən martın 7-dək Tiflisdə Qafqazın canişini Voronsov-Daşkovun sarayın-

da erməni-müsəlman toqquşmalarına son qoymaq məqsədilə sülh konfransı keçirilir. Konfransın ilk iclası 15 fevrala təyin olunsa da, erməni nümayəndələr gec gəldiyi üçün konfransın ilk iclası 1906-cı il 20 fevralda Tiflisdə Canişin sarayının "Yaşıl zalı"ında keçirildi. Tarixi ədəbiyyatda Tiflis Sülh konfransı, "Barışdırıcı qurultay", o dövrün mətbuatında "Erməni-müsəlman qurultayı" adlandırılan həmin konfransın əsas məqsədi iki xalq arasında barışığa nail olmaq, gələcəkdə bu cür hadisələrin qarşısını ala bilmək və hökuməti lazımi tədbirlər görməsi üçün məcbur etmək idi. Lakin, əsas nümayəndələrdən olan Əlimərdan bəy Topçubaşovun qeyd etdiyi kimi, bu tədbir əslində təxribat xarakteri daşıyır və bilavasitə pozuculuq məqsədlərinə xidmət edirdi [13, s.132]. Sülh konfransında hökumət nümayəndələrindən Qafqaz canişini Vorontsov-Daşkov və onun müavinləri, köməkçisi Sultan Krım-Girey, Tiflis, İrəvan və Gəncə qubernatorları, general Malama və general Şirnikin, kargüzar Peterson təmsil olunurdular. Qafqaz canişininin rəhbərliyi altında keçirilən qurultayda Bakı, Tiflis, İrəvan, Naxçıvan, Şamaxı, Gəncə və Şuşadan, eləcə də Zəngəzur, Sürməli, Nuxa, Ərəş, Qazax, Axılkələk, Borçalı qəzalarından seçilmiş 29 müsəlman nümayəndə iştirak edirdi. Erməniləri isə qurultayda Tiflis, Bakı, İrəvan, Şuşa, Gəncə, Naxçıvan, Qars, Borçalı qəzası, Qazax qəzası, Batum, Gümrü və Nuxadan seçilmiş nümayəndələr təmsil edirdi. Azərbaycanın 29 nəfərlik nümayəndə heyətinin tərkibində tanınmış ziyalılardan Əhməd bəy Ağaoğlu, Əlimərdan bəy Topçubaşov, Qarabəy Qarabəyov, Adil xan Ziyadxanov, Kərbalayı İsrafil Hacıyev, Məhəmməd bəy Vəkilov, Əliəkbər bəy Xasməmmədov və digərləri təmsil olunurdu. 28 nəfərlik erməni nümayəndə heyətinin tərkibində "Müşak" qəzetinin redaktoru Kalantar, Xatisovlar (bir Tiflisdən, digəri isə Bakıdan nümayəndə idi), Samson Artyunov, Muşeksyan, Ter-Avanesov, Arximandrit Muradyan, Arakelyan və s. ilə qarşılaşırıq. Onlarla yanaşı, iki müsəlman qazisi və iki erməni yepiskopu da konfransda iştirak edirdi.

İlk iclası giriş nitqi ilə açan canişin Vorontsov-Daşkov müzakirələrdə keçmişdən danışmadan əsasən ümumi bir razılığa gəlməyi təvəqqe edirdi və nitqini bitirdikdən sonra, konfransa sədrliyi general Malamaya verərək zalı tərk etmişdir. K.İ.Hacıyev isə razılığa gəlmənin düşmənliyi ziyadələşdirən əsas bir amil kimi görərək bu fikrə etiraz etmişdir [8, s.54]. Azərbaycan tərəfinin müzakirəsində çıxış edən Adil xan Ziyadxanov bildirirdi ki, bizim başımızın üstündə "Domokl qılıncı" kimi asılan bu qanlı hadisələrə son qoyulmadan hər hansı ümumdemokratik tələblərdən danışmaq mümkün deyildir [13, s.133].



*1906-ci il Tiflis sülh konfransından xatirə şəkli. Tiflis canişin sarayı. (Fərhad Cabbarovun kolleksiyasından), Gürcüstan Milli Arxivi.*

Tiflis Konfransında əsasən müsəlman və erməni nümayəndələrin təqdim etdiyi və hər biri 12 maddədən ibarət olan proqramlar geniş müzakirə olunur. Aparılan müzakirələrdə Əlimərdan bəy Topçubaşov, Əhməd bəy Ağayev, Məmməd ağa Şahtaxtinski, Qarabəy Qarabəyov, Məhəmməd bəy Şahmalıyev, Adilxan Ziyadxanov, Hüseyn bəy Yadigarov, İbrahim ağa Vəkilov, milyonçu Kərbəlayı İsrafil Hacıyev kimi tanınmış ictimai xadimlərin və ziyalıların kəskin nitqləri, eləcə də qətiyyətli mövqeləri nəticəsində ermənilərin destruktiv fəaliyyəti və törətdikləri qırğınlar siyasi cəhətdən ifşa olunur. Konfransda müzakirə olunan iki əsas məsələdən biri Azərbaycan əhalisinin yaylaqlara köçürülməsi, digəri isə erməni qatil dəstələrinin fəaliyyətinə son qoyulması idi. Erməni Kalantar köçəri həyat tərzi keçirən

müsəlmanların öz torpaqlarından köçürdülüb yaylaqlara yerləşdirilməsi, bununla guya həm də azərbaycanlıları “qorumaq” niyyətini səsləndirdikdən sonra Əhməd bəy buna kəskin şəkildə etiraz etmişdir. Bu çıxışı zamanı qəflətən Əhməd bəy özünü itirir və digər otaqda həkim müayinə etdikdən sonra yenidən iclas otağına qayıdır. M.S. Ordubadi çox doğru olaraq yazır ki, “Cənab Əhməd bəy Ağayevin milləti uğrunda bu qədər ciddi-cəhdlə çalışdığını görüncə onun nə dərəcədə millətsevər olduğu hamıya məlum olur”. Ümumilikdə, Tiflis sülh konfransında 8 iclas keçirilmişdir ki, zərər çəkən əhalinin zərərinin ödənilməsi, cinayətkarların təhvil verilməsi, əhalidən silahların yığışdırılması kimi prinsipal məsələlər öz həllini tapa bilmədi (günümüzün tanış mənzərəsidir...). Bununla birlikdə, Azərbaycan köçəri əhalisinin yurd-yuvasından köçürülməsinin qarşısı alınmış, ilk dəfə olaraq azərbaycanlılar və ermənilər qismən olsalar da, konsensusa gəlməyi bacarmışdılar. Sülh konfransının martın 6-dakı son iclasında canişin Vorontsov-Daşkov real tədbirlərin görülməməsindən narazılığını bildirmişdir [1, s.100]. Dövrün gürcü mətbuatı olan Mdivaninin baş redaktor olduğu “Napovorote” qəzeti toplantının nəticələrinə həsr etdiyi məqalədə bildirirdi ki, hər iki tərəfin nümayəndələri Çar hökümətini bu qırğınlarda günahlandırsalar da, yenə də onlardan kömək gözləyirdilər [22]. Sülh konfransı fəaliyyətini yekunlaşdırsa da, ondan sonra yaradılan Məşvərət Məclisi də (Əlimərdan bəy Topçubaşov bu məclisin üzvü idi – *müəliflər*) real nəticələr əldə edə bilmədi. Müəyyən tədbirlərin görülməsinə baxmayaraq, sülh konfransı regionda gərginliyin azaldılması istiqamətində istənilən nəticəni vermir və etnik münaqişə 1907-ci ilə qədər davam edir.

***Nəticə.*** Beləliklə, 1905-1907-ci illərdə Cənubi Qafqazın müxtəlif şəhər və bölgələrində baş vermiş erməni-azərbaycanlı qətliamları XX əsrdə bu regionda milli zəmində ilk qanlı qarşıdurma olmaqla yanaşı, sonrakı dövrlərdə də təkrarlanmış erməni-azərbaycanlı soyqırımlarının əsasını qoymuşdur. Ümummilli lider Heydər Əliyevin 1998-ci il martın 26-da “Azərbaycanlıların soyqırımı haqqında” imzaladığı fərmanda ermənilərin son iki yüz ildə məqsədyönlü və mərhələli şəkildə azərbaycanlılara qarşı həyata keçirilmiş soyqırım cina-

yətlərinə siyasi qiymət verilir. Fərmanda "Böyük Ermənistan" yaratmaq xülyasından ruhlanan erməni qəsbkarlarının 1905-1907-ci illərdə azərbaycanlılara qarşı açıq şəkildə geniş miqyaslı qanlı hadisələr həyata keçirdiyi qeyd olunur: "Ermənilərin Bakıdan başlanan vəhşilikləri Azərbaycanı və indiki Ermənistan ərazisindəki azərbaycanlı kəndlərini əhatə etdi. Yüzlərlə yaşayış məntəqəsi dağıdılıb yerlə yeksan edildi, minlərlə azərbaycanlı vəhşicəsinə qətlə yetirildi. Bu hadisələrin təşkilatçıları məsələnin mahiyyətinin açılmasına, ona düzgün hüquqi-siyasi qiymət verilməsinə maneəçilik törədərək Azərbaycanlıların mənfi obrazını yaratmış, özlərinin avantürist torpaq iddialarını pərdələmişlər" [2]. Bizə bir daha aydın olur ki, ***"Erməni-azərbaycanlı qətliamı"*** bu günümüzə qədər tariximizdə ***"Həll edilməyən "niyə"lər"*** olaraq qalmaqdadır. İstər 1918-1920-ci illər aralığında keçirilən Qafqaz konfranslarında, istər 1990-cı illərdəki sülh danışıqlarında, istərsə də yaşadığımız 2023-cü ildə davam edən sülh danışıqlarında 1906-cı il Tiflis sülh konfransı kimi əsas prinsipal məsələlərdə ortaq nəticəyə gəlinə bilinməmişdir. 1906-cı ilin payızında ermənilərin terroruna cavab olaraq yaradılmış "Difai" partiyası, Əhməd bəyin konfransdan əldə edə bilmədiyi nəticənin "məhsulu" idi. ***"Difai-daşnak münaqişəsi"***ndə təşəbbüsü öz əlinə almaq üçün göstərdiyi bu cəhd uğurlu olsa da yetəri qədər öz həllini tapmamışdı. Burda təbii ki, əsas səbəblərdən biri kimi ermənilərin sözdə sülh istəmələri, əməldə isə daim müharibə və qan ocağı yaratmaq xislətləri dururdu. Ancaq, bununla yanaşı ermənilərin arxasında duran dövlətlər 1905-1906-cı illərdə olduğu kimi onlara maliyyə yardımı etməklə münaqişəni daha da dərinləşdirir lakin, sözdə bütün dünyaya iki xalq arasında sülhün əldə olunmasını car çəkirlər. Necə deyərlər, 1905-ci ildən bu günə qədər üslub həmin üslub, iftira həmin iftiradır... [22].

## ƏDƏBİYYAT

1.Ağaoğlu Ə. Qafqazda milli məsələ. Məqalələr və sənədlər toplusu (tərtib edən, ön söz, qeyd və şərhlərin müəllifi F.R.Cabbarov). Bakı, Mütərcim, 2019, 278 s.

2. "Azərbaycanlıların soyqırımı haqqında" Azərbaycan Respublikası Prezidentinin Fərmanı. 26 mart 1998-ci il // "Azərbaycan" qəzeti, 27 mart 1998-ci il.
3. Balayev A. Əhməd bəy Ağaoğlu. Bakı, Altub kitab, 2021, 160 s.
4. Baykara H. Azerbaycan istiklal mücadelesi tarihi. İstanbul, Gençlik Basımevi, 1975, 343 s.
5. Cabbarov F. Qarabağda və Zəngəzurda ilk erməni-azərbaycanlı münaqişəsi (1905-1906). Bakı, "Təhsil", 2022, 200 s.
6. Cəfər Cabbarlı haqqında məlumat. - https://tehsil.com.az/cefer-cabbarli-haqqinda-melumat [06.04.2023].
7. Əliqızı S. Türk dünyasının mübariz mütəfəkkiri. Bakı, "Elm və Təhsil", 2019, 296 s.
8. Əlimərdan Topçubaşov Azərbaycan mətbuatı səhifələrində. Bakı, Elm, 2005, 156 s.
9. Əliyarlı S. Tariximiz açıqlanmamış mövzuları ilə. Bakı, Mütərcim, 2012, 560 s.
10. Əziz B. Cümhuriyyətə gedən yol: milli azadlıq hərəkatının aktuallığı, mənbələri, dövrləri və cərəyanları. Bakı, "Çapar yayınları", 2020, 360 s.
11. Əzizov E. "Difai": XX əsrin əvvəllərində erməni-azərbaycanlı münaqişəsinin ilkin tarixi şərtləri və səbəbləri. Bakı, 2009, 360 s.
12. Hacıyev F.V. Azərbaycan xalqının XIX əsr - XX əsrin əvvəllərində yadelli işğallarına və ermənilərin törətdikləri soyqırımı cinayətlərinə qarşı mübarizəsi tarixindən (Borçalı və ətrafdakı bölgələrə aid materiallar əsasında. Tarix üzrə elmlər doktoru elmi dərəcəsi almaq üçün təqdim olunmuş dissertasiyanın avtoreferatı. Bakı, 2016.
13. Həsənli C. Tarixi şəxsiyyətin tarixi. Əlimərdan bəy Topçubaşov. Bakı, "Azərbaycan Diplomatik Akademiyası", 2013, 588 s.
14. Qafqazda "erməni məsələsi". Rusiya arxiv sənədləri və nəşrləri üzrə (ön söz: T.K.Heydərov. Tərtibçi-müəlliflər: T.K.Heydərov, T.R.Bağıyev, K.K.Şükürov). Üç clilddə. İkinci cild. 1905-1906. Bakı, "Elm" nəşriyyatı, 2010, VIII+616 s.
15. Сеидзаде Д. Азербайджанские депутаты в государственный думе России. Баку, Азернешр, 1991, 139 с.

16. Mustafa N. Ermənilərin İrəvan quberniyasında və Zəngəzur qəzasında törətdikləri terror və qırğınlar (1905-1906). Bakı, "Elm və Təhsil", 2022, 400 s.
17. Nəvvab M.M. 1905-1906-cı illərdə erməni-müsəlman davası. Bakı, "Azərbaycan" nəşriyyatı. 1993, 128 s.
18. Ordubadi M.S. Qanlı Sənələr. Bakı, Qanun nəşriyyatı, 2019, 192 s.
19. Seyidzadə D. Azərbaycan XX əsrin əvvəllərində: müstəqilliyə aparan yollar. Bakı, 2004, Oka ofset, 348 s.
20. Swietochowski T. Müslüman cemaetten ulusal kimliğe. Rus Azerbaycanı 1905-1920. Ankara, Bağlam yayıncıları, 1988, 295 s.
21. Svyatoxovski T. Rusiya və Azərbaycan: Sərhədyanı bölgə keçid dövründə.Bakı, Xəzər Universiteti nəşriyyatı, 2000, 374 s.
22. Turan A. Erməni məkrinə qarşı yüz il diri qalan düşüncə - Əli bəy Hüseynzadə örnəyi. Ədəbiyyat qəzeti, 2020, 7 noyabr, S.4. - http://www.anl.az/down/meqale/edebiyyat/2020/noyabr/728208.htm [25.04.2023].

**FUAD KHALİLOV**
*Baku State University faculty of History III course bachelor's student*

**MARZİYA KHUDİYEVA**
*Baku State University faculty of History III course bachelor's student*

## THE ARMENİAN-AZERBAİJANİ CONFLİCT AND THE FİRST TALKS TO END İT WERE THE TBİLİSİ PEACE CONFERENCE İN 1906

In the 19th century, Azerbaijan became a colony of the Russian Empire, but in parallel, it was a process of returning to national self-determination, led by our visitors, leaders of the National Liberation Movement. The role of the "Akinchi" Newspaper, published in 1875, is also undeniable in the beginning of the National Liberation Movement, which was expanded by the first Russian Revolution from 1905-1907. Seeing that the vast majority of the people were involved in protest movements, the Czar's government had always pursued a

policy of national destruction, thus establishing the foundation for the first mass Armenian-Azerbaijani bloody conflict. After hundreds of people were killed on both sides, Charles Taze Russell tried to prevent the massacre and in 1906, he decided to call a peace conference attended by Azerbaijani, Russian, and Armenian peoples at the Palace of Janishin in Tbilisi. Ahmed bek Agoglu, Alimardan bek Topchubashov, and other representatives of the Azerbaijani delegation, represented by the Azerbaijani delegation against the "peace" wishes of the Armenians and Russians at the conference, worked for the protection of our people. Most of the issues discussed at the Peace Conference, which began with the massacre, are reflected in the "why" that are not resolved in today's reality. Therefore, this article will address this topic extensively in the fields of research that were written directly at that time and that have been conducted over the years.

*Keywords:* National Liberation Movement, Armenian-azerbaijani Conflict, Tbilisi Peace Conference, Ahmed bek Agoglu, Voronstov-Daskov.

*Daxil olma tarixi*: 30.04.2023-cü il.
*Çapa imzalanma tarixi*: 05.05.2023-cü il.

**UOT 94; UOT 94(479.24)** **HİCRAN ƏLƏKBƏROVA**
*Bakı Mühəndislik Universitetinin magistrantı,*
*İqtisadiyyat və İdarəetmə/Beynəlxalq Münasibətlər və diplomatiya*
**helekberova@std.beu.edu.az**

# II QARABAĞ MÜHARİBƏSİ DÖVRÜNDƏ TÜRKİYƏ VƏ RUSİYA

*Elmi rəhbər:*
siyasi elmlər üzrə fəlsəfə doktoru Natiq Abdullayev

*Türkiyə-Rusiya münasibətləri son dövrlərdə qlobal və regional çərçivədə çətin problemlərdən keçmişdir. Onlardan biri çoxölçülü və çox aktorlu quruluşu ilə "dondurulmuş problem" olan Qarabağ problemidir. Qarabağ problemi xüsusi daxili və xarici dəyişikliklərlə birlikdə Türk və Rus münasibətlərində digər aktorların davranışları da daxil olmaqla, II. Qarabağ müharibəsi prosesi və nəticələrə təsirlərini açmağa çalışır. Türkiyə ilə Rusiya arasında münasibətlərin 2016-ci ildən sonra müsbət dinamikası Azərbaycan və Ermənistan arasındakı Qarabağ münaqişəsinin həlli yolunda ən mühüm amillərdən biridir. Hər iki ölkə regionda sülh və təhlükəsizliyin təmin olunması üçün II Qarabağ müharibəsinin həllində yaxından iştirak etmişdir. Həm müharibənin sonlanması üçün sülh sazişinin imzalanmasında, həm də Qarabağda birgə əmin-amanlıq şəraitində sülhün təmin olunmasında çalışmışlar.*

*Açar sözlər:* Türkiyə, Türkiyə-Rusiya münasibətləri, Azərbaycan, II Qarabağ müharibəsi.

***Giriş***. Regiondakı münaqişələr və mübahisələr nəticəsində Ermənistan 30 ilə yaxındır ki, Azərbaycanla müharibə şəraitindədir. Türkiyə ilə sərhədləri bağlı vəziyyətdədir. Rusiya ilə münasibətdə isə siyasi, iqtisadi və hərbi baxımdan tamamilə asılıdır. Ermənistanın Rusiya kimi böyük dövlətin himayəsi altına keçməsi və sığınmasını bildirmək daha da asanlaşır (7, s.195). Ermənistan KTMT üzvü kimi Rusiya ilə təhlükəsizlik əlaqələrini gücləndirmişdir. Rusiya onun silah tədarükçüsüdür. Münasibətlərin iqtisadi ölçüsü də nəzərdən qaçmamalıdır. Telekommunikasiya, enerji, nəqliyyat və iri sənaye ob-

yektlərinə önəmli təsiri, İrəvanın Moskvaya bağlılığını artıran digər faktorlardan biridir. Bu kontekstdə Ermənistan Rusiyanın regionda strateji müttəfiqi olmağa məcburdur (7, s.183-203).

Rusiya ilə Ermənistan arasındakı münasibətlərin gərginləşməsinin səbəblərindən biri Rusiyanın Azərbaycana silah satışı etməsidir. Ermənistan bu silah satışından narahat olmuş və bu silah sistemlərinin cəbhə xəttində yerləşdiyini iddia edərək, rəsmi kanallar vasitəsilə Rusiyaya çatdırmışdır (5).

II Qarabağ müharibəsindən əvvəl və ya müharibə vaxtı müharibənin gedişatına təsir edən, sonrasına təsir edəcək və təyin edəcək ən mühüm amillərdən biri, iki güc mərkəzi kimi Rusiya ilə Türkiyə arasında münasibətlərdə son illərdə olan yeni tendensiyalardır. Qeyd edək ki, beynəlxalq sistemin çoxqütblü quruluşu Rusiya ilə Türkiyə arasında münasibətlərin yeni ölçüsünü formalaşdırmağa imkan yaratmışdır. Türkiyənin Qarabağ probleminin həlli prosesində iştirakı Rusiyanın Ermənistanda nüfuzunu artırmaq üçün imkan və təsir dairələrini artırmışdır. Qarabağ problemini Türkiyə ilə həll etmək üçün addımlar atan Rusiya II Qarabağ müharibəsi nəticəsində qalib gələnlərin tərəfində olmuşdur (1).

Azərbaycanın regional geosiyasətdəki yeri və əhəmiyyəti Ermənistanla müqayisə olunmazdır. Bu kontekstdə Azərbaycanın Cənubi Qafqazdakı proseslərin mərkəzində olmasını şərtləndirən amil onun geosiyasi gücüdür. Rusiyanın II Qarabağ müharibəsində Ermənistanın xeyrinə müdaxilə etməsinə mane olan amillərdən biri də Azərbaycan kimi getdikcə daha güclü olan regional aktoru itirmək istəməməsidir (7, s.202).

27 sentyabr 2020-ci ildə Azərbaycanın Vətən Müharibəsi, Ermənistan baxımından "yeni torpaqlar uğrunda yeni müharibə" Ermənistanın intensiv atəşi ilə başladı. Hücumdan əvvəl 29 iyul və 10 avqust tarixləri arasında quru və bu ünsürlərlə bağlı xüsusi təyinatlı qüvvələrin, hava qüvvələrinin qoşulması ilə ilə Azərbaycan hərbi qüvvələrinin koordinasiyası və döyüş təlimlərinə hazırlıq işləri həyata keçirilib (8). Bu təlimlərin qazancı daha sonra sahəyə əks olunacaq, TSQ istər öz sərhədləri daxilində, istərsə də hüdudlarından kə-

narda hər cür relyef şəraitində inkişaf etdirdiyi əməliyyat imkanları və təcrübələrini Azərbaycan ordusu ilə paylaşmış, Türk müdafiə sənayesinin məhsullarından olan Bayraktar TB2 SİHA-lar, ağıllı döyüş sursatları, elektron döyüş sistemləri və raketlər təcrübə və kəşfiyyatla birləşdikdə müharibənin təyinedicisi olmuşdur (3).

İHA və SİHA kimi hava platformaları müxtəlif təyyarələrdən ibarət hava qüvvələrinə alternativ olmayaraq düşmənin həm ön, həm də cəbhə arxasındakı komanda idarəetmə mərkəzlərini logistika və təchizat obyektlərini və silah sistemlərini yaxın hava dəstəyi şəklində zərərsizləşdirmək və bu vəzifələri təyyarələrə görə daha sərfəli qiymətə yerinə yetirmələri seçilmə səbəblərindən biridir. Bu üstünlüklər II Qarabağ müharibəsində meydana əks olunmuş Bayraktar İHA və SİHA-lar əməliyyatın gedişatını dəyişərək Azərbaycan ordusu üçün güc çarpanlarına çevrildi (6, s.117).

Əvvəla, Türkiyənin Xarici İşlər Nazirliyinin və müxtəlif rəsmi şəxslərin açıqlamaları Azərbaycanın əks-hücumundan dərhal sonra Azərbaycan və Türkiyənin ciddi hazırlıq və planlar apardığını bildirdi. Türkiyədə edilən açıqlamalarda açıq və aydın şəkildə Azərbaycanın erməni hücumlarına qarşılıq özünümüdafiə hüququndan irəli gəldiyi bildirildi. Türkiyənin bu qətiyyətli rəftarı davam edərkən, digər mühüm aktor olan Rusiyanın II Qarabağ müharibəsindəki münasibəti şübhəsiz müharibənin gedişatını və istiqamətini, o cümlədən müharibənin nəticəsini müəyyən etdi. Unutmaq olmaz ki; Rusiyanın I Qarabağ müharibəsindəki münasibəti və davranışı problemin həll olunmamasının əsas amillərindən biridir. Belə ki, 1992-ci ilin mayında MDB rəsmisi Yevgeni Şapoşnikovun Türkiyəyə mümkün müdaxiləsinin "Üçüncü dünya müharibəsi" ola biləcəyini bəyan etmişdi.

Müharibə zonasındakı vəziyyəti ümumiləşdirsək Azərbaycan qüvvələri ilk növbədə şimal və şərq cəbhələrində cəmləşərək, Murov dağı kimi strateji ərazini ələ keçirmişdir. Murov əsas nöqtə kimi ələ keçirildi. Hücum edən qüvvə üçün çətinlik yaradacaq hərbi əməliyyatın öhdəsindən gəlindikdən sonra əməliyyat üçün ən uyğun ərazi olan cənub-şərq cəbhəsində əməliyyat davam etdirilib və irəliləyiş əldə edilib. Qızğın toqquşmalar zamanı Azərbaycanın sürətini azaldan

atəşkəs cəhdləri olsada Ermənistanın bu müvəqqəti atəşkəsləri, cəbhəboyu danışıqlar və vaxt udmaq üçün istifadə etdiyi qısa zamanda başa düşüldü. Ermənistan oktyabrın 9-da Moskvada elan olunmuş atəşkəsi pozaraq, elan olunmuş humanitar atəşkəsi təhrik edərcəsinə oktyabrın 11-də Gəncə şəhərinə raket zərbəsi endirdi.

Müharibə dövründə regional aktorlardan biri olan İranın sərhəddən Ermənistana tırlarla yardım göndərilməsi xəbərlərdə yer alırdı. Bu mübahisəli məsələlərlə yanaşı, Türkiyə Azərbaycana etdiyi hər cür dəstəyi açıq şəkildə bildirirdi. Türkiyənin xarici işlər naziri qərb ölkələrinin ziddiyyətli mövqelərini əks etdirən tənqidlər edib və oktyabrın 13-də belə bir bəyanatla çıxış etdi: “Krım və Ukrayna torpaqları və ya Gürcüstan ərazisinə gəldikdə, ATƏT daxil hamımız deyirik: “Rusiya və ya digər ünsürlər oradan çəkilsin, amma Qarabağa gələndə eyni çağırışı etmirik” (4).

Cəbhədə Azərbaycan Ordusu irəliləməkdə davam edirdi: Füzuli, Cəbrayıl, Qubadlı, Zəngilan istiqamətində, Laçın, Xocavənd, Tərtər və Xocalıdakı kiçik qəsəbələrdə daxil bir çox rayon işğaldan azad edilmişdi (8, s.217).

Artıq Azərbaycanın öz torpaqlarını xilas etmək iradəsi və Türkiyənin yardımı tam reallaşarkən, diplomatiya sahəsində fəaliyyətsiz olan ATƏT-Minsk qrupundan başqa, Rusiya və Türkiyənin birgə təşəbbüsləri ilə reallaşacağı üzə çıxırdı. İlk növbədə Azərbaycanın işğal altında olan bir neçə mühüm rayonları da azad edilməli idi. Bu çərçivədə noyabrın 7-də Xocalının bir neçə kəndinə girildi. Daha sonra strateji əhəmiyyətli yol ayrıcında olan və onun ələ keçirilməsi Azərbaycan cəmiyyəti üçün az qala psixoloji hədd olan Şuşa 8 noyabr 2020-ci ildə, Azərbaycan prezidenti İ.Əliyevin açıqladığı kimi, işğaldan azad edildi.

Həmin gün Türkiyə və Rusiya prezidentləri arasında telefon danışığı olub və Xarici işlər nazirlərinə Birgə İşçi Qrupun yaradılması ilə bağlı tapşırıqlar verilib, daha sonra Çavuşoğlu ilə Lavrov arasında görüş baş tutub. Aydındır ki, yeni format və yeni təkliflər masada olacaqdı. Ankara və Moskvanın Qarabağ problemi ilə bağlı yol xəritəsi noyabrın 9-da əsas xətləri ilə aydın oldu.

Azərbaycan prezidenti İlham Əliyev və Ermənistanın baş naziri Nikol Paşinyan arasında Rusiya prezidenti Vladimir Putinin vasitəçiliyi ilə imzalanmış Moskva atəşkəs sazişi və ya üçtərəfli saziş noyabrın 10-da gecə saat 00:00-da qüvvəyə minmişdir. Azərbaycanın əksər tələblərini yerinə yetirən müqaviləyə əsasən; ilk növbədə tərəflər arasında atəşkəsə əməl olunacaq, tərəflər nəzarət etdikləri ərazidə qalacaqlar, Ermənistan silahlı qüvvələri dekabrın 1-dək Laçın, Kəlbəcər və Ağdamdan geri çəkiləcədir. Ərazinin təhlükəsizlik qüvvələri: 1960 əsgər, 90 zirehli döyüş maşınından ibarət Rusiya Sülhməramlı qüvvələri təmin edəcək. Rusiya sülhməramlı qüvvələrinin mandatı ilk növbədə beş il olacaq. Dağlıq Qarabağı Ermənistanla birləşdirən Laçın dəhlizi 3 il Rusiya təhlükəsizlik qüvvələrinin nəzarətində olacaq, daha sonra alternativ yol çəkiləcəkdir. Azərbaycan hər iki istiqamətdə Laçın dəhlizinin təhlükəsizliyinə cavabdeh olacaq, BMT-nin Qaçqınlar üzrə Ali Komissarlığının nəzarəti və vasitəçiliyi ilə qaçqınlar Dağlıq Qarabağ və onun ətraf ərazilərində yerləşdiriləcəkdir. Naxçıvan Muxtar Respublikası ilə Azərbaycanı birləşdirən nəqliyyat dəhlizi açılacaq, Rusiya Sərhəd Təhlükəsizliyi Xidməti dəhlizlərdə yoxlama və təhlükəsizliyi təmin edəcəkdir.

Bəyannamə nəticəsində Rusiya regionun və regiondakı kritik nəqliyyat dəhlizlərinin təhlükəsizlik məsuliyyətinə nail olmaqla bərabər, eyni zamanda Dağlıq Qarabağda erməni əhalisinin mövcudluğunu qorumaq məqsədinə nail olub. Rusiya hərbi qüvvələri Azərbaycan ərazisində neytrallıq prinsipi ilə hərəkət etmək məcburiyyətindədir. Üçtərəfli bəyannaməyə uyğun olaraq regionda məskunlaşdıqdan sonra rus sülhməramlıları erməni silahlı qüvvələrinin Kəlbəcər, Ağdam və Laçından təmizləmək cəhdləri də diqqətdən kənarda qalmayıb. Rusiya hakimiyyətinin Dağlıq Qarabağ məsələsi ilə bağlı verdiyi bəyanatlar Azərbaycanın Dağlıq Qarabağ məsələsi ilə bağlı narahatlığını həll etmək xarakteri daşıyır. Rusiya rəsmisi Peskov problemin həllində separatçı hökumətin statusunun olmadığını, həmsöhbətlərin Azərbaycan və Ermənistan olduğunu bəyan edib. Rusiya prezidenti V.Putin bəyanatında "Beynəlxalq hüquqa görə, Dağlıq Qarabağ Azərbaycan ərazisidir" deyib (2).

Üçtərəfli bəyannamənin 5-ci maddəsində Türkiyə və Rusiya əsgərlərindən ibarət Atəşkəs Nəzarət Mərkəzinin yaradılacağı nəzərdə tutulur. Nəzarət vəzifəsini yerinə yetirəcək bu mərkəzdə türk və rus əsgərləri, generalları və zabitləri bərabər sayda olacaq, mərkəzin qərargahı Azərbaycanda yerləşəcək, texniki vasitələrdən istifadə etməklə məsafədən müşahidələr vasitəsilə tərəflərin şəhadətnamənin şərtlərinə uyğun olub-olmaması yoxlanılacaqdır. Atəşkəsə Nəzarət Mərkəzinin vəzifələrində ən kritik məqam silahlı erməni birləşmələrinin meydandan çıxarılmasına nəzarət tapşırığıdır. Əvvəlcə bəzi ekspertlər öz qiymətləndirmələrində Türkiyənin Dağlıq Qarabağda missiyasının olmamasını çatışmazlıq kimi qiymətləndirsələr də, təftiş mərkəzinə verilən məsuliyyəti nəzərə alsaq bu Türkiyə üçün nailiyyətdir. Türk və Rus ortaq fəaliyyətlərindən və uzlaşmalardan Rusiyanın Türkiyəni Cənubi Qafqazda tam aktiv aktor olaraq görmək istəmədiyi fikrini söyləmək mümkündür.

Üçlü bəyanatın ən mühüm məqamlarından biri: Dağlıq Qarabağın statusu məsələsi idi. Həsən Ünal atəşkəs sazişinin yaxşı təhlil edilməli olduğunu, müqavilədə Qarabağın gələcək vəziyyətinin qeyd olunmadığını, müqavilədə Dağlıq Qarabağ ermənilərinin əvəzinə Ermənistan kimi göstərildiyini, Dağlıq Qarabağın muxtariyyəti ilə bağlı sazişə heç bir ifadənin daxil edilməməsinin vacibliyini vurğulayaraq, Azərbaycanın daha bir diplomatik nailiyyətinin gələcəkdə özünü beynəlxalq miqyasda heç bir mətnin və ya bəlgəyə  mövzu olmamasını vurğulayır.

Doqquz bənddən ibarət razılaşmada bölgəyə çıxışı təmin edən dəhlizlərin əhəmiyyəti və vəziyyəti nəzərə alınaraq bu daşınma və təhlükəsizliyin necə təmin ediləcəyi bildirilib. Bu dəhlizlərdən birincisi Dağlıq Qarabağla Ermənistanı birləşdirən Laçın dəhlizidir. İkincisi, bir çox gələcək inkişafın qapısı olacaq Naxçıvan Muxtar Vilayətini Azərbaycanla birləşdirəcək dolayısla Türkiyəni regiona və onun hüdudlarından kənara aparacaq dəhlizdir. Zəngəzur dəhlizi və ya "Turan dəhlizi" də adlandırılan bu dəhliz; proses müvafiq dövlətlər tərəfindən yaxşı idarə olunarsa, regionun inkişafına və Ermənistan da daxil olmaqla region ölkələrinin əməkdaşlığına qapı olmaq potensia-

lına malikdir. Nəqliyyatın təhlükəsizliyi və nəzarəti Rusiyanın Sərhəd Mühafizə Xidməti tərəfindən təmin ediləcək. Azərbaycan prezidenti İ.Əliyev bildirib ki, Paşinyanla Brüsseldə keçirilən görüşdə dəhlizin infrastruktur işləri ilə açılması barədə razılığa gəliblər (9).

Bu atəşkəs şərtlərinin bölgədə gətirdiyi dəyişikliklər və inkişaflar, şübhəsiz ki, regional güclərin münasibətlərinə təsir göstərəcək. Region üçün əməkdaşlıq formatlarından biri də 3+3 formalaşdırılmasıdır. Azərbaycan, Gürcüstan və Ermənistan kimi Cənubi Qafqaz dövlətlərini və Türkiyə, Rusiya və İran kimi regional dövlətləri özündə birləşdirən Astana kimi gələcəyə hesablanmış institutsionallaşma ola bilər. Gələcəyə yönəlik bir çox perspektivli nəticələrin mümkün olduğu Qarabağ müharibəsi və onun nəticələri, şübhəsiz ki, bir çox regional və qeyri-regional hadisələrin səbəbi olacaqdır. Səbəb və nəticələrin bundan sonra ən azı regionun sabitliyi və sülh üçün ümidverici olduğu deyilə bilər.

***Nəticə.*** 30 ilə yaxındır davam edən mühüm regional problemdə qeyd etdiyimiz amillərin köməyi və təsiri ilə Türkiyə və Azərbaycan bir çox konkret nəticələrə, ilk növbədə Azərbaycanın ərazi bütövlüyünə nail olmuş, Rusiya isə regionda öz gücünü möhkəmləndirmişdir və regionda Rusiya gerçəyini regional və beynəlxalq aktyorlara xatırlatmışdır. Ermənistan haqsız və qanunsuz olaraq davam etdirməyə çalışdığı davamlı işğala hər iki tərəfdən insan itkisi verərək son qoymalı oldu və uduzanlar sırasında birinci oldu.

II Qarabağ müharibəsinin nəticələrinə görə qalib kimi xarakterizə edilən Türkiyə ilə Rusiya arasında münasibətlərin 2016-ci ildən sonra müsbət dinamikası Azərbaycan və Ermənistan arasında çoxölçülü və mürəkkəb Qarabağ münaqişəsinin həlli yoluna çıxarılmasında ən mühüm amillərdən biridir.

II Qarabağ müharibəsinə təsir edən xarici və daxili dinamikanı ümumiləşdirərək, qlobal miqyasda nəzərdən keçirsək, Türkiyə və Rusiya çoxqütblü beynəlxalq sistemin strukturuna görə uyğun konyukturaya düşüblər, hər zaman çoxqütblülüyü vurğulayan Rusiya üçün Türkiyə və Azərbaycan Ermənistanla müqayisə oluna bilməz və demək olar ki, əvəzolunmazdır. Rusiya qərbyönümlü hesab etdiyi Er-

mənistan idarəçiliyini kənarlaşdırıb və cəzalandırmışdır. Rusiya və Türkiyə bilərəkdən regional aktorları prosesdən kənarlaşdırmağa çalışıblar və bunda uğur qazanmışlar. Rusiya və Türkiyənin müsbət inkişaf edən siyasi, ticari-iqtisadi, hərbi və mədəni əlaqələri, II Qarabağ müharibəsi və onun nəticəsi Azərbaycanın xeyrinə olmuşdur. Türkiyənin Azərbaycana qeyd-şərtsiz dəstəyi Azərbaycanın uğrunda ən mühüm amillərdən biridir. Qarabağ məsələsinin son mərhələsini şərtləndirən daxili amillərin başlanğıcında Azərbaycan Ordusunun cəbhədəki böyük uğurları, həmçinin Azərbaycan Prezidenti İ.Əliyevin həyata keçirdiyi uğurlu diplomatiya durur. Rusiya və region ölkələri ilə Bakı mərkəzli əlaqələrlə yanaşı, qlobal miqyasda çoxşaxəli xarici siyasətin uğuru da nəticənin Azərbaycan üçün müsbət olmasının əsas səbəblərindən biridir. Azərbaycan beynəlxalq sistemin çoxqütblü quruluşunun yaratdığı yeni şərtlərə uyğun, qlobal və regional geosiyasi dəyişikliklərə uyğun siyasətlər hazırlayıb buna uyğun hərəkət edərkən, problemin digər aktoru olan Ermənistan isə köhnə arqumentlər çərçivəsində hərəkət edib və yeni dəyişikliklər və inkişafları, yeni şərtlər üçün xarici siyasətini inkişaf etdirə bilmədi.

## ƏDƏBİYYAT

1. Ataman M., Pirinççi F. Karabağ Sorunu, Dondurulmuş Yapaylıktan Kaçınılmaz Çözüme Doğru, s.17-37. - "Çıkmazdan Çözüme Karabağ Sorunu". Editörler: M.Ataman, F.Pirinççi. İstanbul: SETA, 2021, 383 s.
2. Putin'den Dağlık Karabağ çıkışı: Azerbaycan'ın ayrılmaz bir parçasıdır / Cumhuriyet, 23.11.2020. - https://www.cumhuriyet.com.tr/haber/putinden-daglik-karabag-cikisi-azerbaycanin-ayrilmaz-bir-parcasidir-1793105 [29.04.2023].
3. Mustafa Çalkaya. Savunma sanayimiz bütün tecrübe, teknoloji ve Kabiliyetleriyle her zaman Azerbaycan'ın emrindedir / Anadolu Ajansı, 17.07.2020. - https://www.aa.com.tr/tr/turkiye/tecrube-teknoloji-ve-kabiliyetleriyle-her-zaman-azerbaycanin-emrindedir/1913553 [29.04.2023].

4. Dışişleri Bakanı Çavuşoğlu'ndan İsveçli mevkidaşına eleştiri: İtirazımız çifte standarda / Euronews, 13/10/2020. - https://tr.euronews.com/2020/10/13/d-sisleri-bakan-cavusoglu-ndan-isvecli-mevkidas-na-elestiri-itiraz-m-z-cifte-standarda [29.04.2023].
5. Ermenistan'dan Rusya'ya silah Protestosu / Euronews, 14/04/2016. - https://tr.euronews.com/2016/04/14/ermenistan-dan-rusya-ya-silah-protestosu [29.04.2023].
6. Salih Gamsız, Ali Poyyraz Gürson. Yeni Konsept Savaş. Ankara, Nobel Akademik Yayıncılık, 2022, 342 s.
7. Mammadli M. Azerbaycanın Değişen Paradiğması, s.183-203. - **"Çıkmazdan Çözüme Karabağ Sorunu"**. Editörler: M.Ataman, F.Pirinççi. İstanbul: SETA, 2021, 383 s.
8. Prinççi F., Güler M.Ç. Azerbaycan'ın Stratejik sabrının sonu ve Karabağ'da Yeni Denklem, s. 205-228. - **"Çıkmazdan Çözüme Karabağ Sorunu"**. Editörler: M.Ataman, F.Pirinççi. İstanbul: SETA, 2021, 383 s.
9. Ruslan Rehimov. İlham Aliyev, Ermenistan'la Zengezur Koridoru Konusunda anlaştıklarını açıkladı / Anadolu Ajansı, 24.05.2022. - https://www.aa.com.tr/tr/dunya/ilham-aliyev-ermenistanla-zengezur-koridoru-konusunda-anlastiklarini-acikladi/2595839 [29.04.2023].

**HIJRAN ALAKBAROVA**
*Graduate student of Baku Engineering University, Economics and Management/International Relations and Diplomacy*

# TURKEY AND RUSSİA DURİNG THE SECOND KARABAKH WAR

Turkey-Russia relations have recently gone through difficult problems in the global and regional framework. One of them is the Karabakh problem, which is a "frozen problem" with its multidimensional and multi-actor structure. The Karabakh problem, along with special internal and external changes, including the behavior of other actors in Turkish and Russian relations, II. He tries to reveal the ef-

fects of the Karabakh war process and results. The positive dynamics of relations between Turkey and Russia after 2016 is one of the most important factors in resolving the Karabakh conflict between Azerbaijan and Armenia. Both countries were closely involved in the settlement of the Second Karabakh war in order to ensure peace and security in the region. They worked both in signing the peace agreement for the end of the war and in ensuring peace in Karabakh under peaceful conditions.

*Keywords*: Turkey, Turkey-Russia relations, Azerbaijan, II Karabakh war.

*Daxil olma tarixi*: 30.04.2023-cü il.
*Çapa imzalanma tarixi*: 05.05.2023-cü il.

№1(7) 2023

**UOT 94**

**MƏLƏK CABBAROVA**
*Bakı Dövlət Universiteti*
*Qafqaz xalqlarının tarixi ixtisası üzrə magistrant*
**malaksurxay@gmail.com**

# QAFQAZ-AVROPA NƏQLİYYAT-KOMMUNİKASİYA ƏLAQƏLƏRİNİN QURULMASI

*Elmi rəhbər:*
tarix elmləri doktoru Qabil Əliyev

*Təqdim edilmiş məqalədə 1990-cı illərin əvvəllərində Qafqazda müstəqil dövlətlərin yaranmasından sonra region ölkələrinin Avropa Birliyi ilə iqtisadi, nəqliyyat-kommunikasiya əlaqələrinin qurulmasından bəhs edilmişdir. TASİS, TRASEKA proqramlarının reallaşması istiqamətində atılan addımlara xüsusi diqqət yetirilmişdir.*

*Açar sözlər:* Avropa, Qafqaz, Asiya, TASİS, TRASEKA.

***Giriş.*** SSRİ-nin parçalanması Qafqaz-Avropa münasibətlərində yeni bir mərhələnin başlanğıcı oldu. Cənubi Qafqazda üç dövlətin – Azərbaycan, Gürcüstan və Ermənistanın yenidən müstəqilliklərini əldə etməsi və hər birinin ayrı-ayrılıqda özlərini regiondakı iqtisadi, siyasi və mədəni layihələrin subyekti kimi görmək istəmələri Avropa Birliyinin buraya nüfuz etməsini daha da asanlaşdırdı. Avropa Birliyi Rusiyanın postsovet məkanında yenidən güc mərkəzinə çevrilməsi cəhdlərinin qarşısını almaq, Şərqlə Qərb arasında körpü rolu oynayan və zəngin enerji qaynaqlarına malik olan Qafqaz regionu və Xəzər hövzəsində öz mövqelərini möhkəmləndirmək üçün bu respublikalarla müxtəlif sahələrdə əməkdaşlığa başladı.

Cənubi Qafqaz respublikaları ilə Avropa arasındakı əlaqələr Avropa Birliyi tərəfindən dəstəklənən və MDB ölkələrinə Texniki Yardım, yəni TASİS (Technical Assistance for the Commonwealth of Independent States) adlanan proqram çərçivəsində 1991-ci ildən etibarən həyata keçirilməyə başlanmışdır [11, s.514]. 1991-ci ildə 400 milyon ABŞ dolları, növbəti il isə 450 milyon dollar vəsait ayrılan və 11

MDB dövlətinə istiqamətlənmiş bu proqram öz dövrünə görə ən böyük yardım layihəsi hesab olunurdu. 1991-ci ildə qəbul edilmiş qərara görə ilk Texniki Yardım 5 əsas sahə üzrə həyata keçirilməli idi:

- Enerji – 115 milyon ekyü (İngilis dilində *European Currency Unit (ECU)*) — Avropa ölkələri tərəfindən yaradılmış kollektiv Avropa valyuta (hesab) vahidi)
- Təlimlər – 103 milyon ekyü
- Qida paylanması – 74 milyon ekyü
- Nəqliyyat – 45.8 milyon ekyü
- Maliyyə xidmətləri – 37.5 ekyü [4].

Qafqaz regionu nəqliyyat-kommunikasiya baxımından xüsusi əhəmiyyət daşıdığına görə nəqliyyat sahəsinə diqqətin növbəti illərdə daha da artdığını müşahidə edirik. Bu istiqamətdə atılan addımlar 1993-cü ilin mayında Brüssel şəhərində baş tutan eyni adlı konfransda üçü Cənubi Qafqaz respublikası olmaqla 8 postsovet dövlətinin iştirakı ilə TRASEKA (İngilis dilində *Transport Corridor Europe-Caucasus-Asia* (*TRACECA)* – Avropa-Qafqaz-Asiya Nəqliyyat Dəhlizi), proqramının reallaşması ilə nəticələndi. TRASEKA proqramının reallaşması tarixi e.ə. II əsrə gedib çıxan qədim İpək yolunun yenidən canlanması, beləliklə də, Mərkəzi Asiya, Qafqaz və Avropa dövlətləri arasında daha səmərəli nəqliyyat-kommunikasiya sisteminin istifadəyə verilməsini mümkün etmişdir [7, s.368].

TRASEKA proqramı dəmir və avtomobil yolu, dəniz nəqliyyatı və ümumilikdə kommunikasiyanın daha da inkişafı üçün nəzərdə tutulmuş proqramdır. Bu məqsədlə ilkin olaraq regionda ticarət və nəqliyyat axınlarının şaxələndirilməsi və Qərbə ticarət yollarının açılmasını təmin etmək üçün TRASEKA proqramına 15 milyon avro (€, euro) maliyyə vəsaiti ayrılmışdır [6]. Növbəti mərhələlərdə isə proqramın həyata keçirilməsi üçün Avropa Yenidənqurma və İnkişaf Bankı (AYİB), Beynəlxalq Valyuta Fondu (BVF), Küveyt İqtisadi İnkişaf Fondu, Dünya Bankı və İslam İnkişaf Bankı donor təşkilatlar kimi maliyyə yardımı göstərmişdilər. Dünya Bankı proqram çərçivəsində Ermənistan və Gürcüstanda yolların əsaslı təmiri üçün 40 milyon dollar, AYİB isə Avropa-Qafqaz-Asiya nəqliyyat dəhlizi boyu

avtomobil və dəmir yollarının tikintisinə 200 milyon dollar məbləğində vəsait cəlb etmişdir [5, s.73].

TRASEKA layihəsinin reallaşması istiqamətində 1995-ci ilin mayında Almatıda təşkil edilən konfransda ticarət, dəniz nəqliyyatı, avtomobil və dəmir yollarının müasir strukturda qurulması və inkişafını həyata keçirmək üçün layihələr müzakirə edilmişdir. Həmin ilin oktyabr ayında Vyana konfransında isə reabilitasiya işlərinin TASİS proqramına uyğun olaraq maliyyələşdirilməsi qərara alınmışdı. 1996-cı ilin mart ayında Venesiyada, oktyabr ayında isə Afinada üzv ölkələrinin iştirakı ilə konfranslar təşkil edildi. Afina konfransında Ukrayna və Moldova sözügedən layihənin tam hüquqlu üzvlərinə çevrildilər. 1997-ci ilin aprel ayında Tbilisidə keçirilən konfransda isə yalnız TRASEKA üzv ölkələri deyil, həmçinin Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının (ing.BSEC) da nümayəndələri iştirak etmişdirlər. Qeyd edək ki, Tbilisidə keçirilən bu konfrans TRASEKA-nın Beynəlxalq Komitəsinin yaradılması ilə də əlamətdar olmuşdu. 1998-ci ilin may ayında Tbilisidə üzv ölkələr arasında təşkil olunan iclasda TRASEKA yollarının, nəqliyyat sistemlərinin inkişafı, beynəlxalq maliyyə insitutları ilə əlaqə, idarəetmə və xilasetmə nəqliyyatı və ətraf mühit problemlərinin həlli istiqamətində 14 yeni sənəd imzalandı [3].

Avropa-Qafqaz-Asiya nəqliyyat dəhlizinin fəaliyyətinin inkişafı istiqamətində atılmış daha bir uğurlu addım 1996-cı ilin may ayında Türkmənistanın Sərəxs şəhərində Azərbaycan, Gürcüstan, Özbəkistan və Türkmənistan dövlət rəhbərlərinin iştirakı ilə tranzit daşımalarının daha sürətli və güzəştli çatdırılması haqqında sazişin imzalanması oldu. Növbəti illərdə bu sazişə digər dövlətlər də daxil oldular. Saziş nəticəsində yüklərin sadə gömrük qaydaları ilə təhlükəsiz formada müəyyən edilmiş məntəqələrə çatdırılması təmin olundu. Tranzit daşımalarının sadələşdirilməsi Avropa və Asiya arasında mal mübadiləsini təxminən 10 dəfə artırmışdı [2].

Beş il (1993-1998) ərzində proqramın həyata keçirilməsi istiqamətində uğurlu addımların atılması, Avropa Birliyi Komissiyası və üzv ölkələrin birgə əməkdaşlığının müsbət nəticələri layihənin daha geniş miqyasda həyata keçirilməsinə imkan yaradırdı. Bu məqsədlə

1998-ci ilin 8 sentyabr tarixində Bakıda Avropa Birliyi Komissiyası və TRASEKA üzv ölkələrinin iştirakı ilə "Böyük İpək Yolunun bərpası" adlı beynəlxalq konfrans öz işinə başladı [1, s.45].

Konfransda giriş nitqini ev sahibi olan Azərbaycan Respublikasının Prezidenti, Ümummilli lider Heydər Əliyev söylədi. H.Əliyev öz nitqində TRASEKA-nın yaranma tarixi, əhəmiyyəti, bu istiqamətdə görülmüş işlərə nəzər salaraq, ilk növbədə TRASEKA işçi qrupuna, beynəlxalq əməkdaşlığın inkişafına verdiyi töhfəyə və MDB dövlətlərinə yardım üçün ayırdığı böyük məbləğdə maliyyə vəsaitinə görə Avropa Birliyi Komissiyasına dərin təşəkkürünü bildirdi [1, s.48].

Konfransda "Bakı bəyənnaməsi", "Avropa-Qafqaz-Asiya dəhlizinin inkişafı üzrə beynəlxalq nəqliyyat haqqında əsas çoxtərəfli saziş" və tarixi İpək yolunun bərpası üzrə konfransın yekun sənədi imzalandı. Bakı beynəlxalq konfransında qəbul edilmiş qərarlar və imzalanmış sənədlər Asiya, Qafqaz və Avropa dövlətləri arasında tranzit daşımaların səmərəli şəkildə təşkil edilməsi, bununla da iqtisadi və mədəni əməkdaşlığın daha yüksək səviyyədə təmin olunması üçün mühüm əhəmiyyət kəsb etmişdir [7, s.484].

2000-ci ilin mart ayında Tbilisi şəhərində TRASEKA-nın hökumətlərarası konfransı keçirilmişdi. Konfransda sərhəd-gömrük məsələlərinin həllində yarana biləcək hər hansı problemli halı aradan qaldırmaq məqsədilə vahid qanunvericilik layihəsi nəzərdən keçirildi. Həmin ilin may ayında Odessa şəhərində TRASEKA-nın işçi qrupunun iclası təşkil olundu və iclasda TRASEKA layihələrinin, xüsusilə də dəmir yolu nəqliyyatının inkişafı nəzərdən keçirildi.

TRASEKA layihəsi reallığa çevrilsə də, ilk dövrlər yükdaşımaların səviyyəsi gözləniləndən aşağı idi, çünki sözügedən layihə Şimal-Cənub nəqliyyat dəhlizinə alternativ, daha da dəqiqləşdirsək, rəqib hesab olunurdu. Avropa-Qafqaz-Asiya nəqliyyat marşrutundan kənarda qalan İran və Rusiya 2000-ci ilin avqust ayında Hindistanla birlikdə İran körfəzi və Cənubi Asiya ölkələrini Avropa ölkələri ilə əlaqələndirən Şimal-Cənub nəqliyyat dəhlizinin yaradılması haqqında müqavilə imzaladılar. Geostrateji baxımdan şimalla cənubu, şərqlə qərbi birləşdirən Azərbaycan isə soyuq siyasi münasibətlər səbə-

bindən bu layihədən kənarda qalmışdı. 2001-ci ildən etibarən siyasi münasibətlərin normallaşması nəqliyyat-kommunikasiya sisteminə də öz təsirini göstərdi. Beləliklə, Azərbaycan Şimal-Cənub nəqliyyat dəhlizinin bir hissəsinə çevrildi. 3 ölkənin (Azərbaycan, Rusiya və İran) dəmir yolu xəttlərini birləşdirmək məqsədi ilə Astara-Rəşt dəmir yolu xəttinin çəkilməsi barədə tərəflər arasında razılaşma əldə olundu. Son günlər İran tərəfinin Azərbaycana qarşı nümayiş etdirdiyi qeyri-adekvat mövqe bu dəmiryolu xəttinin də gələcəyini sual altına qoyur [8].

2001-ci il 21 fevral tarixində Bakıda TRASEKA Hökumətlərarası Komissiyası Daimi Katibliyinin ofisinin açılış mərasimi oldu. Açılış mərasimində Azərbaycan Respublikasının prezidenti H.Əliyev, Avropa İttifaqına sədrlik edən ölkənin (İsveçin) təmsilçisi Anna Lind, İsveçin Xarici İşlər Naziri, Avropa İttifaqı Şurasının Baş Katibi, Avropa Komissiyasının Xarici əlaqələr üzrə Komissarı Kristofer Patten, Ümumi Xarici və Təhlükəsizlik üzrə Ali Nümayəndə Havyer Solona iştirak etmişdilər. Heydər Əliyev açılış mərasimindəki çıxışında TRASEKA proqramının həyata keçirilməsi üçün görülən tədbirləri yüksək qiymətləndirərək, bütün bunların gələcək işlərin başlanğıcı olduğunu qeyd etmişdi [6]. Qeyd edək ki, daimi katibliyin ofisinin yaradılması Böyük İpək Yolu boyunca daşınan beynəlxalq yüklərin hərəkətinin tənzimlənməsi və Əsas sazişə qoşulan ölkələrdə hüquqi və iqtisadi məsələlərin həll edilməsi kimi mühüm məqsədlərə xidmət edirdi [9, s.344]

TRASEKA layihəsi çərçivəsində dəmir yolu xəttinin inkişafı istiqamətində atılmış ən böyük addımlardan biri də Bakı-Tbilisi-Qars dəmir yolu xəttinin çəkilib istifadəyə verilməsidir. Qeyd edək ki, BTQ-nin tikintisinə 2005-ci ildə başlamaq nəzərdə tutulmuşdu, lakin həm maliyyə sıxıntıları, həm də ABŞ və Avropa İttifaqının haqqsız narazılıqları tikintinin başladılmasını yubatdı. Tərəflər Bakı-Tbilisi-Qars dəmir yolu xəttinin himayə etdikləri ölkənin – Ermənistanın sərhədlərindən kənar keçdiyini əsas gətirərək, layihəni maliyyələşdirməkdən imtina etdiklərini bildirdilər. ABŞ və Aİ yeni dəmir yolu xətti çəkməyi deyil, Qars-Gümrü-Tbilisi xəttini yenidən istifadəyə

verməyi tələb etdilər. Lakin həmin dövrdə Azərbaycan və Ermənistan arasında Dağlıq Qarabağ münaqişəsi davam etdiyinə görə birinci tərəf bu tələbin qəbul olunmasının mümkünsüzlüyünü bildirdi.

Bakı-Tbilisi-Qars dəmir yolunun təməlqoyma mərasimi 21 noyabr 2007-ci ildə Azərbaycan, Gürcüstan və Türkiyə rəhbərlərinin iştirakı ilə Gürcüstanın Marabda məntəqəsində keçirilmişdi. İqtisadi baxımdan yüksək nəticələri gözlənilən bu layihənin maliyyə dəyəri 1.1 milyard dollardan artıq idi. Türkiyə hökuməti öz ərazisindəki 75.6 km uzunluğunda tikiləcək xətt üçün 345 milyon dollar vəsait ayıra bilsə də, Gürcüstan tərəfi layihənin maliyyələşdirilməsində öz üzərinə düşən 775 milyon dolları qarşılaya bilmirdi. Proqramın reallaşmasında hər hansı gecikmə olmaması üçün Azərbaycan Dövlət Neft Fondu bu məbləği Tranş A üzrə illik 1% 25 il müddətinə 220 milyon dollar, Tranş B üzrə illik 5% 575 milyon dollar olmaqla Gürcüstan hökumətinə kredit olaraq vermişdi. BTQ dəmir yolunun rəsmi açılış mərasimi 2017-ci il 30 oktyabr tarixində Azərbaycan, Gürcüstan və Türkiyə dövlət başçılarının iştirakı ilə keçirildi. 2034-cü ildə Bakı-Tbilisi-Qars dəmir yolu xətti ilə 3 milyon sərnişin, 7 milyon ton yük daşına biləcəyi gözlənilir [10].

***Nəticə.*** TRASEKA layihəsi çərçivəsində Tarixi Böyük İpək Yolunun yenidən canlanması Avropa-Qafqaz-Asiya nəqliyyat dəhlizi boyu dövlətlərin bir-biri ilə sıx əməkdaşlıq və inteqrasiya etmələrinə səbəb olmuşdur. Əlbəttə ki, proqram regiona müsbət iqtisadi üstünlüklər gətirməklə bərabər, ciddi siyasi nəticələr doğurmuşdur. Belə ki, proqramın reallığa çevrilməsi yenicə müstəqillik əldə etmiş postsovet dövlətlərinin yenidən özünü Sovet İttifaqının varisi sayan Rusiyanın çətiri altında toplanmasının qarşısını almış və Avropa dövlətləri ilə münasibətlərin sağlam təməlini qoymuşdur.

## ƏDƏBİYYAT

1. Bakı-Brüssel (Azərbaycan-Avropa İttifaqı münasibətləri) // Heydər Əliyev irsini araşdırma mərkəzi // Bakı, Polycraphic production, 2011, 404 s.

2. Bakıda TRASEKA-ya üzv dövlətlərin nəqliyyat nazirlərinin yubiley konfransı keçirilmişdir, AzərTac, Bakı, 2008, 5 dekabr. - http://www.anl.az/down/meqale/azerbaycan/azerbaycan_dekabr2008/63663.htm [28.04.2023].
3. Bagaturia G., Gorshkov T. TRACECA - the new silk roud as a part of world public policy, 2001, january. - https://www.researchgate.net/publication/288450521_TRACECA-Restoration_of_Silk_Route [28.04.2023].
4. EC technical assistance to the commonwealth of independent states of Georgia: the TACIS programme, 14 september, 1992. - https://ec.europa.eu/commission/presscorner/detail/en/MEMO_92_54 [28.04.2023].
5. Əmrahov M. Böyük İpək Yolu. Bakı, Mürtəcim, 2011, 84 s.
6. History of TRACECA, 25 august 2022. - http://www.traceca-org.org/en/about-traceca/history-of-traceca/ [28.04.2023].
7. Hüseynova İ. Heydər Əliyev və Qafqazda sülh prosesi. Bakı, Çaşıoğlu, 2008, 672 s.
8. Qarayeva G. Azərbaycanın tranzit potensialı və beynəlxalq tranzit mövqeyinin qiymətləndirilməsi. - http://unec.edu.az/application/uploads/2016/07/Gunel-Qarayeva.pdf [28.04.2023].
9. Qurbanov İ. Azərbaycan-Avropa İttifaqı münasibətləri. - "Azərbaycan Respublikasının xarici siyasətinin əsas istiqamətləri (1991-2016)". Məqalələr toplusu. Bakı, "Poliart" MMC, 2017, 904 s.
10. Süleymanov E. Bakı-Tbilisi-Qars dəmiryolu xəttinin Azərbaycanın və regionun geoiqtisadiyyatına təsiri / Bakı Mühəndislik Universiteti, Beynəlxalq elmi-praktiki konfrans:"Azərbaycan beynəlxalq nəqliyyat sistemində: hədəflər və perspektivlər. Bakı, 2018. - https://www.academia.edu/37539555/BAKI_TBILISI_QARS_D%C6%8FMIRYOLU_X%C6%8FTTININ_AZ%C6%8FRBAYCAN_V%C6%8F_REGIONUN_GEOIQTISADIYYATINA_T%C6%8FSIRI [28.04.2023].
11. Yaşar Pınar Özmen, Ruziye Tali. Avrupa Birliğinin Güney Kafkasya politikasının ana hatları // "Soğuk savaş sonrası sosyal, ekono-

mik ve siyasal gelişmeler bağlamında Güney Kafkasya. İzmir, İksad yayın evi, 2021, s.511-533.

**MELEK JABBAROVA**
*Master's student at Baku State University*
*majoring in history of the Caucasian peoples*

## CAUCASUS-EUROPE TRANSPORT COMMUNİCATİON ESTABLİSHİNG RELATİONSHİPS

The presented article talks about the establishment of economic, transport and communication relations between the countries of the region and the European Union after the establishment of independent states in the Caucasus in the early 1990s. Special attention was paid to the steps taken towards the realization of TACIS and TRACECA programs.

*Keywords*: Europe, Caucasus, Asia, TACIS, TRACECA.

*Daxil olma tarixi*: 28.04.2023-cü il.
*Çapa imzalanma tarixi*: 05.05.2023-cü il.

№1(7) 2023

**UOT 94(479.24)**

**NAHİD ƏLİYEV**
*Bakı Dövlət Universiteti*
*tarix müəllimliyi ixtisası üzrə II kurs tələbəsi*
**nahid0432003@gmail.com**

# QIZILBAŞLIQ: SƏFƏVİ QIZILBAŞ İDEOLOGİYASI

*Elmi rəhbər*:
tarix üzrə fəlsəfə doktoru Bəymirzə Şabiyev

*Orta əsr Azərbaycanın dövlətçilik tarixində böyük rol oynamış Səfəvilər dövləti Cənubi Qafqaz, Anadolu, İran və digər əraziləri əhatə etmişdir. Şah I İsmayıl tərəfindən əsası qoyulan və təxminən 236 il mövcud olan bu dövlətin aparıcı qüvvələri olan Qızılbaşlar türkman şiə təməyyülü qruplar idi. Şeyx Səfiəddindən başlayaraq Səfəvi təriqət hərakatına rəhbərlik etmiş mürşidi-kamillərin hər birinin ayrılıqda Azərbaycanın ictimai fikir tarixində özünəməxsus rolunun olması tədqiqatlarla ortaya qoyula bilən məsələlərdəndir. 1300-cü ildə Şeyx Zahid Gilanin ölümündən sonra Ərdəbilə qayıdan Şeyx Səfiəddin tərəfindən əsası qoyulmuş "Səfəviyyə" ordeni, Şeyx Heydərin dövründən başlayaraq "Qızılbaşlar" adlanmağa başladılar. Səfəvi mürid və əsgərlərinin geydikləri külah və tacların qızılı rəngdə olması şübhəsiz ki, "Qızılbaş" ideologiyasının daşıyıcıları olmalarından irəli gəlmişdir. Qeyd etməyək lazımdır ki, Səfəvilər dövləti teokratik dövlət olduğundan şah eyni zamanda dünyəvi və ruhani hakimiyyəti özündə cəmləşdirən bir lider olaraq xarakterizə edilir. Məqalədə toxunulacaq mövzular aşağıdakılardır: Qızılbaşlıq ideologiyasının meydana gəlməsi; Səfəvi təriqət hərakatının nə üçün siyasi məzmun kəsb etməsi zərurəti; hərəkatın sosial -ictimai dayaqları.*

*Açar sözlər*: Səfəviyyə, Şeyx Səfiəddin, Xoca Əli, Şeyx Cüneyd, Qızılbaşlıq.

***Giriş.*** Sufi-dərviş cəmiyyətinin əsası Şeyx Səfiəddin tərəfindən qoyulduğuna görə ona "Səfəviyyə" adı verilmişdir. O, Gilan şeyxi Zahid Gilaninin mürid və kürəkəni idi. Sufi araşdırıcılarından Massion Səfəviyyə cəmiyyətini "Söhrəverdiyyə" dərviş cəmiyyətinin

Azərbaycan qolu hesab edir. Özülü Sufizm və onun hürufilik kimi təriqətləri ilə bağlı olan Səfəviyyə hərəkatı eyni zamanda əxilər, usta şagirdlərinin gizli təşkilatları, Osmanlıda XV əsrin əvvəllərində ortaya çıxan Simavilər hərəkatı ilə əlaqədar idi. Təriqətin əsasını Zahid Gilaninin ölümündən sonra Ərdəbilə qayıdan Şeyx Səfiəddin qoymuşdur. Təriqət artıq XIII əsrin sonu – XIV əsrdə daha da möhkəmlənməklə müridlərin sayı artmışdı. Şeyx Səfiəddin dövründə Azərbaycanın hər tərəfindən, hətta İraq və Anadoludan hər ay xeyli adam onu ziyarət etməyə gəlirdilər. Təbriz-Marağa yolu ilə Ərdəbilə Anadolu və İraqdan 3 ayda 300 min nəfər gəlmişdi. Onun ölümündən sonra təriqətə varsiləri: Şeyx Sədrəddin (1334-1392), Şeyx Xoca Əli (1392-1427), Şeyx İbrahim (1427-1447), Şeyx Cüneyd (1447-1460), Şeyx Heydər (1460-1488), Şeyx Sultanəli (1488-1494), Şeyx İsmayıl (1494-1501) başçılıq etmişlər.

Ankara döyüşündən (1402) qayıdan Teymur Ərdəbildə Şeyx Xoca Əli ilə görüşmüş və ondan nəyə ehtiyacı olduğunu soruşmuşdur. O, Teymurdan Ankara döyüşü zamanı tutulmuş əsirlərin sərbəst buraxılmasını xahiş etmişdi. Şeyxin xahişi ilə azad edilən əsirlərin çoxu geri qayıtmadılar. Şeyx Xoca Əli vətənlərinə qayıtmayanları Ərdəbildə xüsusi bir məhəllədə yerləşdirdi. Sonralar onları Sufiyanirumlu, yəni Anadolu sufiləri adlandırırdılar. Teymur da Səfəviyyə ordeninə vəqf olaraq xeyli əmlak bağışlamışdır. Şeyx Xoca Əli dövründə ordenin tərəfdarlarının sayı artmaqla bərabər vəqf torpaqları da genişlənir. Ancaq o, hələlik Ərdəbil mahalının tam irsi hakimi deyildi. Şeyx İbrahim isə artıq Ərdəbilin feodal hakimi oldu [2, s.9-12]. Şeyx İbrahim zamanında Ərdəbil təkkəsinə gələnlərin sayı o qədər artmışdı ki, Şeyxin hüzuruna qəbul olunmaq onların hər birinə nəsib deyildi [12, s.16].

Şeyx Cuneyd isə sultan unvanını qəbul etmiş və hakimiyyət iddiasında olub, Mustafa dinini qüvvətləndirib Mürtəza Həzrət Əlinin ideyalarını yaymağa çalışırdı [2, s.12].

İ.P.Petruşevskinin yazdığına görə, Şeyx Cüneyd dövründə Ərdəbil müstəqil bir dövlət şəklini alır. Talış sıra dağlarının hər iki ətəyi boyu, Qaradağ və Muğanın bir hissəsi Ərdəbilin ətraf bölgələri Səfə-

vi şeyxlərinin dini dünyəvi hakimiyyətinə tabe olub Baharlı sülaləsinin hakimiyyəti altında olsalar da, müstəqil fəaliyyət göstərməyə cəhd edirdilər [1, s.51].

Şeyx Heydəri (1460-1488) əvvəlcə Şamlı, Talış və Qaracadağ sakinləri müdafiə edirdilər. 1488-ci ilin yazında, Dağıstana sonuncu yürüşü zamanında isə onun qoşununda şamlı tayfası da var idi [10, s.40].

***Kimdir qızılbaşlar?*** Məlum olduğu kimi Qızılbaşlıq Azərbaycanda yaranmış və Qızılbaş dövləti əvvəlcə Azərbaycanda qurulmuş, sonra isə indiki İran, İraq, Şərqi Anadolu və Gürcüstanı əhatə etmişdir. Qızılbaşlığın mənası haqqında müxtəlif fikirlər mövcuddur. Türkiyə alimi Enver Behnan Şapolyo yazır ki, Məhəmməd peyğəmbər Uhud müharibəsində məkkəlilər tərəfindən yaralanır, başından axan qan onun başını qızılı rəngə boyayır və bundan sonra Həzrəti Əli başında qırmızı tac ilə müharibələrdə iştirak etmişdir [11, s.3]. Bu rəvayətə görə qızılbaşlar bu adı burdan almışlar. Digər bir rəvayətə görə isə, Şah İsmayıl II Bəyazid ilə bir müqavilə bağlamış, öz əsgərlərini Anadoludan Suriyaya keçirmiş ki, bu əsgərlərin də başında qırmızı təkkələr (incə materialdan olan baş örtüyü) varmış. Bundan sonra şiələrə qızılbaş deməyə başladılar. Bu səbəblə Anadolu ələviləri də qızılbaş adını almışlardır. Şapolyoya görə bu rəvayətlər həqiqətə uyğun deyildir. Əsl həqiqət budur ki, ələviliyi qəbul edən türkmənlərin müsəlmanlıqdan öncə dinləri şamanlıq olmuşdur. Türk şamanları başlarına qırmızı bir külah (konus şəkilli qədim baş örtüyü) geyərlərdi. Dini ayinləri onlar idarə edərlərdi. Türkmənlərin din böyüklərinə dədə yaxud seyid dədə deyərlərdi. Bu dədələr başlarına qırmızı külah geyərək ələvilərin dərnəklərini idarə edərlərdi. Bu səbəbə görə Anadolu ələvilərinə qızılbaş demək adət oldu. Türk alimi Faruk Sümerin fikrincə, XIII və XIV əsrlərdə Anadoludakı köçəri türklər qızıl börk (yeniçərilərin baş örtüyü) geyirmişlər. Buna görə də Səfəvi mürid və əsgərlərinin geydikləri külah və tacların qızıl rəngdə olmasının bununla əlaqəsi vardır [11, s.3-4]. Türk alimi Fuat Köprülü Qızılbaşları kənd Bəktaşiləri adlandırmışdır [11, s.4]. Digər türk müəllifi Abdulqədir Sezgin Qızılbaş sözünün əski türklərin sarı qırmızılı baş ör-

tüyü geyməsindən qaynaqlandığını və kənd Bəktaşiləri mənasında da istifadə olunduğunu bildirir [11, s.4]. Alman alimi Brokelmana görə isə, atasının ölümündən sonra şeyx Heydər öz təriqətinə yeni bir şəkil verdi ki, bu da öz ifadəsini yeni bir baş örtüyündə tapmışdır. Bu qırmızı başlıq 12 imama işarət edən 12 dilimli bir Heydəri baş örtüyü idi. Səfəviyyə cəmiyyəti müridlərinin və tərəfdarlarının şeyx Heydərin zamanında qırmızı zolaqlı baş örtüyü geyməyə başlayır və bundan sonra da onlar Qızılbaş adlandırılır [3, s.335]. Bu fikri İ.P.Petruşevski də, S.Triminqem təsdiqləyirlər. Qızılbaşların Azərbaycan və şərqi Anadoluda yaşamış türkdilli tayfaların birliyindən yaranmış olması fikri daha doğrudur. Qızılbaşlar əvvəlcə şamlı, rumlu, ustaclı, təkəli, əfşar, qacar, zülqədər, varsaq, qaradağlı (Qaradağ sufiləri), sonralar isə bayat, qaramanlı, baharlı, alpaut, ərəşli, qazaxlı və başqa türkdilli tayfaları birləşdirirdi. Qızılbaşlar 12 şiə imamı şərəfinə 12 qırmızı zolaqlı çalma bağladıqlarına görə belə adlanırdılar. Talışlar qızılbaşların tərkibində yeganə irandilli xalq idi [11, s.4].

***Xürrəmilikdən sufiliyə, sufilikdən hürufiliyə, hürufilikdən qızılbaşlığa...*** "Qızılbaş" sözünə ilk dəfə XV-XVI yüzilliklərdə rast gəlinir. Tarixçi Əbülxeyr Fəzullah ibn Ruzbehanın "Tarixi Aləm arayi-Əmini" əsərində aydın yazılıb ki, qızılbaşlara başçılıq edən Şeyx Heydər babəkiliyin davamçısı idi. Əgər babəkilik xürrəmilik idisə, xürrəmiliyin xəzərlərin dostu olan məzdəkilikdən qaynaqlandığı qeyd edilirsə, deməli burada orta halqanı, yəni babəkilikdən qızılbaşlığa gedən yolu tapmaq lazımdır. Əslində, simvolika eynidir – qırmızı bayraq və qızıl papaq, yəni qırmızı çalma. Ortada sufilik və hürufiliyi mütləq qeyd etmək lazımdır. Yəni, məzdəkilikdən xürrəmilik yaranıbsa, xürrəmilikdən sufilik, sufilikdən hürufilik, hürufilikdən isə qızılbaşlıq yaranmışdır.

Babəkilik təkcə qızılbaşlıq üçün bir mənbə deyil, eyni zamanda, tariximizin ayrılmaz hissəsidir.

Yəni, qızılbaşlıq cərəyanı təkcə mənəvi qaynaqla əlaqəli deyil, həm də tarixi miras olaraq babəkilikdən yaranmışdır [6].

***Şeyx Səfi Şafi məzhəbinə mənsub idimi?*** Bir sıra müəlliflər Şeyx Səfini şafii məzhəbinə bağlı olan sünnə şeyxi hesab etmiş və

səfəvilərin şiəliyi sonradan qəbul etdiyini irəli sürmüşlər. "Aləmara"-ya görə, hələ Firuzşah zamanında Azərbaycanın əksər bölgələrinin, xüsusən də Muğanın əhalisi əsasən sünni idi və sayca az olan şiə icmaları gizli fəaliyyətə üstünlük verirdilər. Buna baxmayaraq, anonim müəllifin təsvirinə əsasən, Şeyx Səfinin başçılıq etdiyi sufi təriqətinin içində şiə qrupları fəaliyyət göstərirdilər, lakin ümumi kütlə ilə müqayisədə onların sayı məhdud idi. Onlar on nəfərlik, iyirmi nəfərlik qruplar halında Ərdəbil şəhərində zirzəmilərə yığışar və söhbətlər edərdilər. "Səfvətüs-səfa"nı tədqiq edən M.Abbaslı da eyni qənaətə gəlmişdir. Onun yazdığına görə, Şeyx Səfinin müridlərinin çoxu şafii və hənəfilərdən ibarət sünnələr olsalar da, onların arasında bir çox şiələr (xüsusən də İsna-əşərilər və İsmaililər) və arifanə məslək tərəfdarları mövcud idi. Ümumiyyətlə, Şeyx Səfi özü hər hansı bir konkret məzhəbin çərçivəsinə bağlı qalmamış, məzhəblər üstündə bir təsəvvüf şeyxi və hər kəsin qəbul edəcəyi bir arif olmuşdur [9, s.94].

***Niyə məhz qızılbaşlıq?*** İlk Səfəvi şeyxlərinin islamın sünnəlik məzhəbinə etiqad etməsi heç bir şübhə doğurmur. Onların nə vaxtdan etibarən və hansı zərurətdən şiəlik məzhəbinə keçməsi geniş araşdırma predmetinə çevrilməmişdir. Bununla belə, bəzi tarixi ədəbiyyatlarda Şeyx Cüneyd dövründən başlayaraq səfəvilərin əvvəlcə gizli, sonra isə açıq şəkildə şiəlik təbliğatına başladıqları göstərilmişdir. Müəyyən mənada bu mülahizə ilə razılaşmaq mümkündür. Məlum olduğu kimi, İbrahim Şeyxşahın vəfatından sonra oğlu Şeyx Cüneyd rəsmi varis olsa da, 1449-cu ildə o, Baharlı hökmdarı Cahanşahın dəstəyi ilə əmisi Şeyx Cəfər tərəfindən Ərdəbildən qovulmuşdur. Məhz bu zamandan etibarən əmisi Şeyx Cəfərə qarşı müxalif mövqeyə keçən Şeyx Cüneyd sünnə məzhəb mövqedə olan əmisinə qarşı mübarizədə tərəfdar toplamaq üçün şiəliyə keçməyi qərara almışdır. Şeyx Cüneydin dini orientasiyanı dəyişməyi birdən-birə baş verməmiş, həmçinin bu amil onun sünnə məzhəb bayandurlularla yaxınlaşmasına da əngəl olmamışdır.

Digər tərəfdən, XV əsrin ikinci yarısında tarixi Azərbaycan torpaqlarının əksər hissəsini idarə edən bayandurlular, həmçinin Şirvan hökmdarları da sünnəlik təriqətinə etiqad edirdilər. Bayandurlu Hə-

sən padşahın ölümündən sonra başlamış hakimiyyət uğurunda çəkişmələr XV əsrin 90-cı illərində daha da qızışmışdır. Bayandurlu şahzadələri və onları dəstəkləyən əmirlər nüfuzlu əmirlər arasındakı aramsız savaşlar əhalinin sosial-iqtisadi durumunu dözülməz hala gətirmiş, geniş xalq kütlələri arasında iqtidarın nüfuzu sarsılmış, mövcud rejimə qarşı ciddi narazılıqlar baş qaldırmışdı. Belə bir zamanda hakimiyyət uğrunda mübarizəyə başlamış Səfəvi şeyxləri yaranmış ağır vəziyyətin, dözülməz sosial-iqtisadi durumun səbəbini məmləkətdə sünnə məzhəb hökmdarların rəhbərlik etməsi ilə əlaqələndirirdilər. Səfəvi şeyxləri belə bir zamanda şiəlik təbliğatına başlayaraq hakimiyyətə şiə məzhəb iqtidarın gələcəyi təqdirdə əhaliyə Xəlifə Əli dövrünün sosial ədalətini vəd edirdilər.

Səfəvi şeyxlərinin şiəliyə keçməsində islam dinin şiə ideologiyasında geniş intişar tapmış bir rəvayətin də özünəməxsus rolu olmuşdu. Həmin rəvayətə görə, on ikinci şiə imamı Mehdi sahib əz-zaman kiçik yaşlarında qeybə çəkilmişdir. Onun yenidən zühur etməsi özbaşınalığın baş alıb getdiyi, əhalinin sosial-iqtisadi durumunun ağırlaşdığı, ədalətsizliyin tüğyan etdiyi bir dövrə təsadüf edəcək və sahib əz-zaman zühur etməklə yer üzündə bütün ədalətsizliklərə son qoymaqla, sosial ədaləti bərpa ediləcəkdir. Rəvayətə görə, imam sahib əz-zaman ağ niqabla, ağ atın belində, ağ libasda zühur edərək bəşəriyyəti ağ günə çıxaracaqdır. 1499-cu ildə Lahicanı tərk edərək hakimiyyət uğrunda mübarizəyə başlayan gənc İsmayıl da məhz bu qiyafədə siyasi hərəkata başlamışdı [2, s.20-23].

***Şeyx Cüneydə qədər təriqət "Səfəvi" adı ilə tanınırdı, Şeyx Cüneyddən sonra niyə Qızılbaş adı istifadə olunmağa başladı?*** Tədqiqatçılar bu məsələni daha çox ideoloji məzmunla, mənbələr isə Səfəvi təriqət tərəfdarlarının baş geyiminin dəyişməsini ilahi məqamlarla bağlamağa çalışırlar. Məsələn, "Tarix-i aləmara-yi Abbasi" əsərində bu barədə belə yazılmışdır: "[Sultan Heydər] bir gecə yuxuda (röyada) gördü ki, qeyb aləminin xəbərçiləri ona əmr etdilər ki, qıpqırmızı [parçadan] on iki imama inanma əlaməti olan on iki yarıqlı bir tac düzəldib, özünə tabe olanların başlarını o tacla bəzəsin. Sultan bu yuxunu görəndə başına şənlik papağı qoyub, o zamankı adət üzrə iş-

lənən türkman taqiyəsini şadlıq gətirən on iki yarıqlı Heydəri tacı ilə əvəz etdi. [Onun] yaxın adamları o həzrətin etdiyini təkrar etdilər. Bu xanədana bağlı olan bütün [adamlar] bu şərəfli tac vasitəsilə başqa camaatdan seçildilər. Buna görə də o yüksək şanlı təbəqə "qızılbaş" adı ilə məşhur oldu" [8, s.67].

"Aləmara-yi Şah İsmayıl"da isə Sultan Heydərin yuxusuna İmam Əlinin girməsi və qızılbaş papağının da məhz onun tərəfindən məsləhət bilinməsi iddia edilir. Bu mənbənin məlumatına görə, Həzrət Əli ona bildirdi ki, yaxınlarda sənin övladın dünyaya gələcək və qiyam edərək dünyanı küfrdən təmizləyəcəkdir. Həzrət Əli eyni zamanda təriqət əhli üçün məsləhət bildiyi papağın formasını və hazırlanma qaydasını ona göstərdi. Sultan Heydər də yuxudan ayılandan sonra yaxınlarını başına toplayıb yuxusunu onlara danışdı və sonra da yuxuda ona tövsiyə edilən papaqların hazırlanmasına göstəriş verdi. Bu papaqlar qırmızı rəngli keçədən olmaqla yuxarısı dairəvi və ensiz şiş ucluqla tamamlanırdı. Onun üstünə isə ağ və bəzən də yaşıl parça əmmamə kimi dolandırılırdı. Papağın aşağısından yuxarısına qırmızı rəngdə 12 dilim olmalı idi ki, bu dilimlər şiə imamlarının simvolik rəmzi idi. Bu zolaqlar bir barmaq qalınlığında qırmızı rəngdə olduqları üçün həmin rənglərə görə də papağa ad vermişdilər. Bu papaqdan istifadə edənlər sonradan "qızılbaş" adlandırıldı [8, s.67].

***Şeyx Heydər dövründə Anadoluda təriqət tərəfdarlarının artmasına səbəb nə idi?*** Çağdaş tarixçi Fəzlullah Ruzbihanın sözlərinə görə, Osmanlı hökmdarı II Bəyazid qüvvətli bir orduya, geniş bir ölkəyə sahib olduğu halda getdikcə sayı artan Heydərin müridlərinin qarışıqlıq çıxartmalarından çəkinirdi. Həqiqətən, təriqətin Anadoluda bu qədər genişlənməsində Bəyazidin idarəsinin mühüm bir rolu olmuşdur. Onun bacarıqsızlığı üzündən Anadoludakı şiə məzhəb əhali bir qırağa qalsın, sünnələrə belə təzyiq edilməkdə idi. Xülasə, təriqətin Anadoluda yayılmasında II Bəyazidin yeritdiyi səriştəsiz siyasətin böyük rolu olmuşdur [5, s.12-13].

Şeyx Heydər 1488-ci ildə Şirvanşahların və Ağqoyunluların birləşmiş qüvvələri ilə döyüşdə öldürülür. Bu hadisə Osmanlı Hökuməti tərəfindən sevinclə qarşılanır. Heydərin ölüm xəbərini Sultan

Yaqub Osmanlı sultanı II Bəyazidə (1481-1512) yazdığı məktubla birbaşa özü çatdırmışdır. Məktubda, həmçinin deyilirdi ki, "Səfəviyyə təriqəti bizim ədalətimiz altına alınmışdır". Sultan Bəyazidin cavab məktubunda isə deyilirdi ki, "sənin bu zəfərin Şam və Ruma sevinc gətirmişdir" [4, s.216]. Qızılbaşların Osmanlı sarayında nə qədər arzuedilməz olduqlarını Sultan Yaqubla Bəyazid arasında Şeyx Heydər üzərindəki qələbə ilə əlaqədar göndərilmiş həmin bu məktublaşmalara baxdığımız zaman da görə bilərik. Məktubda II Bəyazid Səfəviyyə təriqətinin müridləri üçün "azğın qızılbaş topluluğu" ifadəsini işlədir [7, s.11]. Bu məktublaşma, əslində, səfəviyyə təriqətinin həmin zaman üçün nə qədər güclü olduğunun göstəricisi idi.

***Qızılbaşlığın sosial bazası.*** Sözün əsl mənasında bu dövlətin yaranmasına arxa olan sosial zümrələr çox idi. Onlar yalnız say baxımından deyil, həm də sosial baxımdan çoxçeşidli bir kütlə yaratmışdılar. Xətainin aşağıdakı beyti deyilənlərə örnək ola bilər: "Şahın övladına iqrar edənlər əxilər, qazilər, abdallar oldu" [13, s.368].

XV-XVI əsrlərdə Azərbaycan siyasi həyatında əxi icmaları fütuvvə (sufi) təşkilatına qovuşmaqda idi. Şeyx Səfiəddin çağından bəri səfəvi müridləri içərisində "əxi" adı daşıyan bir çox iş adamları bəllidir. Bunların sıralarında zərgərlər, toxucular, sabun bişirənlər, bəzzazlar, xarratlar və başqaları vardı. Şah I İsmayılın fərmanı ilə bütün dərvişlər müxtəlif sənətkar birilliklərinə təhkim edildi. Bunun nəticəsində əxi sənətkar icmaları ilə sufi-dərviş (abdal-qələndər və b.) zümrəsi yaxınlaşıb bir-birinə qovuşdular.

Gənc dövlətin dirəyi olan ikinci zümrə qazilər adlanırdı. "Qazi" anlayışı hərfən "qəzaya çıxan kişi", "kafirə qarşı savaş döyüşçüsü" mənasını bildirir. "Ərənlər asimanın dirəyidir" deyən Xətaiyə görə, ərən müqəddəslik, mürşidlik, qazi (mürid) başçısı olan bir şəxsiyyətdir. XV-XVI əsrlər boyu birliklər bir növ "dərvişləşmə" yolu keçib sufiliyə qovuşdular. Türklərdəki "ər, ərən", "alp ərən" əsgəri ad daşıyan döyüşçülər isə xilafət çağında "alp-ğazi", "ğazi-ərən" ünvanı alaraq sonralar "qaziləşmə" yolu keçdilər [13, s.369-370].

XVI əsrin tarixçisi Zeynalabdin Əli Əbdibəy "Təkmilat ül-əxbər" əsərində Fərrux Yasar üzərində qələbəni məhz qazilərin işi kimi

təsvir edərək yazırdı. "Heydər (Qızılbaş) təriqətin ğaziləri... Əlinin qüdrətli qılıncı ilə Sasani soyundan olan Şirvan yezidlərini məhv etdilər" [13, s.370].

Xətainin ölümündən 10 il sonra da rəsmi saray ritualında qazilərə böyük ehtiram göstərilməkdə idi. Holştin elçiliyinin katibi Adam Oleariusun yazdığına görə, İsfahan sarayında saat yarımlıq qonaqlığın bitdiyini şahın eşik ağası bu sözlərlə bildirmişdi: "süfrə haqqına, şahın dövlətinə, qazilərin qüvvətinə - Allah deyəlim".

Yeni dövlətin dirəklərindən biri kimi adı çəkilən abdallar Qafqaza və Ön Asiyaya gələn əski türk boylarından biri olmuşdur. VI əsrdə yaşamış suriyalı Zaxari Ritor onların Dağıstan hüdudlarında yaşadığını bildirir [13, s.370]. Abdal boyunun türklərinin tərkibində olduğunu A.Bakıxanov da ayrıca qeyd etmişdi. Bununla yanaşı, abdallar qazilər təriqət qurumuna çoxlu qazi verən Anadolu bölgələrində də ("Urum abdalları", "Abdalani-Rum") yaşayırdılar. Orta çağlarda yaxın və orta şərq ölkələrində həm də abdal adlı sufi-dərviş icması yarandı. Ola bilsin ki, əski hun "abdal" soy adı burada "əbdal" (ərəbcədən "bədəl" sözünün cəmindən alınması ehtimal olunur ) sufi-dərviş anlamı ilə çulğalaşıq bir sintez keçmiş, sonra isə əski "abdal" soy adı təsəvvüf yosunu ilə hörülüb "dərvişləşmişdir". Nəsimi və Xətai yaşayan yüzilliklərdə əbdal artıq təriqətə təmənnasız xidmət edən sufi, gəzəri dərviş-qələndərdir [13, s.370].

***Nəticə.*** XV əsrdə yaranan "Qızılbaşlıq" sözü Hürufilikdən bəhrələnmişdir. Türk tayfaları arasında yayılmış qızılbaşlığın köklər Şeyx Səfiəddin tərəfindən əsası qoyulan "Səfəviyyə" və Şeyx Zahid Gilani tərəfindən əsası qoyulan "Zahidiyyə" təriqətləri ilə bağlıdır. Şeyx Heydər dövründən başlayaraq qızılbaş adlandırılan Səfəviyyə təriqətinin nümayəndələri şiə məzhəbinə mənsub olmuş və onlarda imam Əliyə və 12 imama pərəstiş əsas yer tutmuşdur. Qızılbaş ideologiyasının mahiyyəti Şah I İsmayılın divanında öz geniş əksini tapmışdır. XV və XVI əsrlərdə Azərbaycanda baş verən siyasi hadisələrlə bağlı olaraq qızılbaşlıq geniş şəkildə yayılmışdır. Eyni zamanda, Səfəvi şeyxlərinin göndərdikləri təbliğatçılar və II Bəyazidin əhalini sıxışdırması ilə əlaqədar olaraq bu təriqətin Anadolu türkləri ara-

sında da geniş şəkildə yayılmasına gətirib çıxarmışdır. Nəticədə bu təriqətin tərəfdarları Gürcüstan, İran, Anadolu, İraq və s. əraziləri əhatə edən Səfəvilər dövlətini əsasını qoymuşlar. Şah I İsmayılın varisləri dövründə isə qızılbaşların mövqeyi müəyyən qədər sarsılsa da, qızılbaşlıq tamamilə itməmişdir. Müəyyən mənada aparıcı qüvvəyə malik olmuşlar.

ƏDƏBİYYAT

1. Bayramlı Z.H. "Silsilətün-nəsəbi Səfəviyyə" əsəri Azərbaycan tarixinin mənbəyi kimi. Bakı, "AVROPA" nəşriyyatı, 2019, 106 s.
2. Bayramlı Z. H, Şabiyev B.Ş. Azərbaycan Səfəvi Dövləti (XVI - XVII əsrlər). Bakı, "AVROPA" nəşriyyatı, 2016, 344 s.
3. C.Brockelmann. İslam milletleri ve devletleri tarihi. Çeviri: Doç. Dr Neşet Çağatay. Ankara, Örnek matbaası, 1954, 441 s.
4. Dedeyev B. Safevi tarikatı ve Osmanlı devleti İlişkileri // Uluslararası Sosyal Araştırmalar Dergisi (The Journal of International Social Research), 2008, Vol.1/5, s.205-225.
5. F.Sümer. Safevi devletinin kuruluşu ve gelişmesinde Anadolu türklerinin rolü. (Şah İsmail ile Halefleri ve Anadolu Türkleri). Ankara, Güven matbaası, 1976, s.265.
6. Qızılbaşlıq – türk islamının simvolu / Axar, Operativ xəbər portalı, 12.06.2016. - https://axar.az/news/toplum/97493.html [30.04.2023].
7. Kaplan D. Buyruğa göre Kızılbaşlık: İlahiyat doktoru. ... dok. Tezi. Konya, 2008, s.247.
8. Mehman Süleymanov. Şah İsmayıl Səfəvi. Bakı, Elm və təhsil, 2018, 824 s. https://ebooks.az/book_q76wQvG4.html [30.04.2023].
9. Musalı N.S. I Şah İsmayılın hakimiyyəti ("Tarix-i aləmara-yi Şah İsmayıl" əsəri əsasında). Bakı: "Nurlan", 2011, 481 s.
10. Oqtay Əfəndiyev Azərbaycan Səfəvilər dövləti. Bakı, "Şərq-Qərb", 2007, 344 s. +8s.(iillüst)
11. Sadiq Nağıyev. Qızılbaşlıq haqqında. Bakı, "Əbilov, Zeynalov nəşriyyatı", 1997, 32 s.
12. Savory R.M. Iran under the Safavids. Cambridge, Cambridge University press, 1980, p.270.

13. Süleyman Əliyarlı. Azərbaycan tarixi (uzaq keçmişdən 1870-ci ilə qədər). Bakı, "Çıraq", 2009, 872 s.

**NAHİD ALİYEV**
*Second year student of Baku State University majoring in history teaching*

## QIZILBASH: SAFAVI GIZILBASH IDEOLOGY

The Safavid state, which played a major role in the history of medieval Azerbaijan, covered the South Caucasus, Anatolia, Iran and other territories. The leading forces of this state, which was founded by Shah Ismail I and existed for about 236 years, were the Qizilbash groups of Turkmen Shiite origin. The fact that each of the murshidis-kamils who led the Safavi sect movement, starting with Sheikh Safieddin, has a unique role in the history of public opinion of Azerbaijan is one of the issues that can be revealed through research. After the death of Sheikh Zahid Gilan in 1300, the "Safawiyya" order, which was founded by Sheikh Safieddin, who returned to Ardabil, began to be called "Qizilbash" from the time of Sheikh Heydar. The fact that the caps and crowns worn by the Safavid disciples and soldiers are of a golden color undoubtedly came from the fact that they were the bearers of the "Gizilbash" ideology. It should not be mentioned that since the Safavid state was a theocratic state, the shah is characterized as a leader who combines secular and spiritual power at the same time. The topics to be touched upon in the article are the following: the emergence of the ideology of the Qizilbash; The necessity of the Safavi sect movement to have a political content; social foundations of the movement.

*Keywords:* Safaviyya, Sheikh Safieddin, Khoja Ali, Sheikh Junayd, Qizilbashlig.

*Daxil olma tarixi*: 30.04.2023-cü il.
*Çapa imzalanma tarixi*: 05.05.2023-cü il.

**UOT 94(479.24)**

**SƏMA CAMALOVA**
*Bakı Dövlət Universitetinin*
*Tarix ixtisası üzrə III kurs tələbəsi*
**samajamal1919@gmail.com**

# HEYDƏR ƏLİYEVİN HƏYATI VƏ FƏALİYYƏTİ ARXİV SƏNƏDLƏRİNDƏ

*Elmi rəhbər*:
tarix üzrə fəlsəfə doktoru Mətanət Məmmədova

*Bu gün arxivlər milli irsin,milli mövcudluğun qorunmasının əsas təminatçısı kimi çıxış edirlər. Onlar özlərində səs yazısı, foto, video, yazılı sənəd kimi bir sıra materialları cəmləşdirirlər. Bütün bunlar müxtəlif dövrlərin tarixi hadisələrinə, şəxsiyyətlərinə nəzər salmaqda bizlərə kömək edir və həmin dövrə işıq tutur. Bəzi şəxsiyyətlər vardır ki,bir sıra arxivlərdə onlar haqqında məlumat tapa bilirik. Belə şəxslərdən biri də Ulu öndər Heydər Əliyevdir. Bütün bunlar onun həyat yolunu işıqlandırmaqla, həmçinin əvzəsiz xidmətlərinin ən əsas göstəriciləridir.*

*Açar sözlər:* Heydər Əliyev, Ulu öndər, Azərbaycan arxivləri, arxiv sənədləri.

***Giriş.*** Elə şəxsiyyətlər vardır ki, bəşəriyyətin inkişafına verdikləri töhfələr ilə mənsub olduqları xalqın yaddaşında əbədi həkk olurlar. Onlar keçdikləri şərəfli və ləyaqətli ömür yolu ilə bütov bir nəslə nümunə olmaqla əzəmətli bir simvola çevrilir, tarixin ucsuz-bucaqsız səhifələrində öz layiqli yerini alırlar. Belə görkəmli şəxslərdən biri də Azərbaycan xalqının övladı - Ümummilli lider Heydər Əliyevdir. Yüz il bundan öncə Naxçıvan torpağında dünyaya gözünü açan bu şəxs öz parlaq zəkası, uzaqgörənliyi və əməlləri ilə dövlətçilik salnaməmizdə dərin izlər qoymuş,bizlərə suvərən bir dövlət bəxş etmişdir. O, hər zaman azərbaycanlı olması ilə fəxr etmiş, təsadüfü deyildir ki, bütün dünyada Azərbaycanın rəmzinə çevrilmişdir. Həmçinin türk dünyasının fəxri olan Heydər Əliyev bütün türklərin ideoloji lideri kimi formalaşmış, hətta tarixi proseslərin gedişinə təsir etmək iqtidarında olmuşdur. Belə bir lider öz xalqı üçün misilsiz işlər görmüş,

hüquqi-demokratik dövlətin özəyini qoymuşdur. O, müasir və müstəqil Azərbaycanın qurucusu olmaqla öz uzaqgörənliyi ilə zamanın irəlisində işlər görmüş, uğurlu inkişaf strategiyasını tətbiq etmişdir. Beləliklə, onun təhsil, elm, mədəniyyət, səhiyyə və digər sahələrdə gördüyü işlər bu gün də öz bəhrəsini verir. Atdığı hər addım gələcəyə yönümlü olmuş, bu günün möhkəm təməllərini əmələ gətirmişdir.

Bir sıra sahələrlə yanaşı Heydər Əliyevin xüsusi diqqət yetirdiyi sahələrdən biri də arxiv işi idi. Belə ki, arxiv işinin təşkili mühüm əhəmiyyət kəsb etməklə bir xalqın milli irsini, milli varlığını ifadə edir. Heydər Əliyev hər daim milli mövcudluq, milli irs məsələlərini özünün əsas qayəsinə çevirmiş və bu yolda durmadan çalışmışdır. Ona görə ki, milli irsi bir xalqın tarixinin əsas göstəricisidir və onun qorunub-saxlanması xalqın taleyində mühüm rol oynayır. Beləliklə, dövlət idarəçiliyində zəngin təcrübəyə malik olan H.Əliyev arxiv işinin mühüm əhəmiyyətini anlamış və onun layiqincə qiymətləndirmişdir. Sonralar H.Əliyev SSRİ Nazirlər Soveti sədrinin birinci müavini işləyərkən arxiv işi haqqında bu sözləri qeyd etmişdir: "Arxiv işlərinə gərək çox ciddi fikir verək. Bir tərəfdən ona görə ki, bu, xalqımızın tarixini əks etdirən yeganə mənbədir. İkincisi də ona görə ki, tariximizi təhrif edənlərin qarşısını almaq üçün çox mühüm amildir". Ulu öndərin də qeyd etdiyi kimi, arxiv sənədləri bir xalqın tarixinə tutulmuş güzgüdür və biz onlar sayəsində keçmişə nəzər sala bilirik. Belə olan halda həmin sənədlərin qorunub saxlanılaraq gələcək nəsillərə ötürülməsi dövlətçilik tarixində mühüm əhəmiyyət kəsb edir. H.Əliyevin bu sahədəki addımları təsadüfi deyildi. O, hələ 18 yaşında ikən, yəni 1941-ci ildə Naxçıvan Xalq Daxili İşlər Komissarlığında məxfi sənədlərə nəzarəti həyatə keçirir və qısa müddət sonra arxiv müdiri kimin təyin olunur [2]. Çox gənc yaşlarından qazanılan bu təcrübə ona respublikada arxiv işi sahəsində əməli addımlar atmağa kömək edir. Bütün bunlar gələcək uğurlar üçün zəmin yaratdı.

1994-cü il martın ayının 11-də Azərbaycan Respublikası Nazirlər Kabineti yanında Baş Arxiv İdərsinin əsasnaməsi hazırlanaraq təsdiq olundu [12, s.17]. Daha sonra, 1999-cu il 22 iyunda Milli Arxiv Fondu haqqında Azərbaycan Respublikasının qanunu qəbul edil-

di. Nəhayət, Ulu öndərin 27 iyul 1999-cu ildə "Milli arxiv fondu haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" verdiyi fərmanla Nazirlər Kabineti və digər icra strukturlarına konkret tapşırıqlar verildi. 22 iyun tarixli qanun 31 iyul 1999-cu ildə "Azərbaycan" qəzətində nəşr olundu. Bu qanun 5 fəsil, 23 maddədən ibarət olmaqla müsair arxiv işinin fəaliyyətini formalaşdırdı [12, s.17]. Beləliklə, bu qanun bu gün arxivin fəaliyyətini tənzimləyir, dövlətin arxiv sahəsində vəzifələrini müəyyən edir, ən əsası da milli mövcudluğumuzun əsas təminatçısına çevrilir. Bütün bunlar dövlətçiliyimizin möhkəmlənməsində təməl addımları təşkil edir, həmçinin H.Əliyevin yeritdiyi siyasətin uzaqgörənliyi və müdrikliyini bir daha sübut edir. 2002-ci il 2 dekabr tarixli "Azərbaycan Respublikasında arxiv işinin təkmilləşdirilməsi" haqqında qəbul edilən fərman xalqımızın əvəzsiz sərvəti olan arxiv sənədlərinin maddi-texniki bazasının yaxşılaşdırılmasında mühüm rol oynadı [8]. Bu fərman 3 dekabr "Azərbaycan" qəzetində dərc edildi. Bütün bunlar bu gün fəaliyyət göstərən 7 respublika dövlət arxivi, onların 15 filialı, Naxçıvan MR-nın və 56 rayonun dövlət arxivinin fəaliyyətinin əsas tənzimləyicisi olmaqla, respublikada arxiv xidmətinin necə geniş şəbəkəyə malik olmasının bariz nümunəsidir [8]. Eyni zamanda, 2 dekabr 816-No-li bu fərmanla Azərbaycan Respublikası Nazirlər Kabineti yanında Baş Arxiv İdarəsinin bazasında mərkəzi icra hakimiyyəti orqanı statusunda Azərbaycan Respublikasının Milli Arxiv İdarəsi yaradıldı. Bunlar respublikada arxiv işi sahəsində yeni imkanlar açdı, həmçinin arxivin elmi-texniki bazasının möhkəmlənməsində öz töhfəsini verdi. Bu bir sıra idarə, təşkilat və qurumların informasiya tələbatının ödənilməsində, dərslik, monoqrafiyaların yazılmasında, onlardan radio-televiziya verilişlərinin hazırlanmasında, yəni müxtəlif məqsədlər üçün istifadəsində yeni imkanlar yaratdı. Həmçinin Ulu öndərin 27 sentyabr 2003-cü ildə verdiyi 934 nömrəli fərmanla "Azərbaycan Respublikasının Mill Arxiv İdarəsi haqqında əsasnamə" təsdiq edildi [12, s.18]. Bu arxiv işi sahəsində dövlətin siyasətinin formalaşdırılmasında Milli Arxiv İdarəsinin vəzifə, öhdəlik və funksiyalarını müəyyən etdi. Beləliklə, Ümummilli liderin düşünülmüş və strateji

addımları arxiv işinin normativ-hüquqi bazasını təşkil etməklə bu gün bizlərə həmin sənədlərdən daha rahat şəkildə istifadəni, həmçinin onun cəmiyyətin sosial-siyasi və mədəni həyatında rolunun artmasını, xüsusilə də "açılmamış səhifələrin"aralanmasını və bir sıra faktların işıq üzü görməsini təmin etdi.

Bu gün onun memarı olduğu Azərbaycan torpağı neçə-neçə mühüm arxiv materiallarına, tarixi fakt və sübutlara ev sahibliyi edir. Elə bu qiymətli sənədlər içərisində Heydər Əliyevin irsini əks etdirən bir sıra mühüm arxiv materialları da yer alır. Normativ-hüquqi əsasını formalaşdırdığı, yeni imkanlar açdığı və bir gələcək təmin etdiyi arxivlər onun xatirələrini, həyatının ən maraqlı məqamlarını özündə cəmləşdirir. Bu gün 102 yaşlı Azərbaycan arxivləri bir liderin ömürgün yolunu, onun amallarını, əməllərini, əməklərini işıqlanıdırır. Gəlin bir də dahi şəxsiyyətə arxiv sənədləri əsasında nəzər salaq.

***Heydər Əliyev həyatı və fəaliyyəti arxiv sənədlərində.*** Heydər Əlirza oğlu Əliyev 100 il bundan öncə 1923-cü il may ayının 10-da Naxçıvan şəhərində dəmiryolçu ailəsində dünyaya gəlib. Atası Əlirza Əliyev dəmir yol işçisi, anası İzzət xanım isə evdar qadın idi. Heydər Əliyev 8 uşaqlı ailənin 4-cü övladı idi [7]. Anası İzzət xanım 1895-ci ildə Qərbi Azərbaycanın Zəngəzur mahalındakı Comərdli kəndində anadan olub. O, uca qamətli, əzəmətli, ağır təbiətli, həm də utancaq idi. Ermənilərin Zəngəzura hücumları nəticəsində, Naxçıvanın ətraf kəndlərinə -Qazançı, Cəhri, Milax pənah gətirirlər [6]. Bu qadın doğma Azərbaycana 3 alim akademik, 1 xalq rəssamı, 1 general və 2 elmlər namizədi bəxş edib [10]. Hətta sonralar qızı Şəfiqə Əliyeva "Mənim anam" kitabında anası haqqında xatirələrini bölüşür. Onun hər zaman çadralı, çox dindar biri olduğunu, çox səliqə-sahmanlı, əliaçıq olduğunu qeyd edib [6]. Hətta yazıların birində xəstəxanada anasının 1-ci, xalq şairi Səməd Vurğunun 2-ci palatada (1956-cı ilin mayı) müalicə aldığını yazan Şəfiqə xanım, xalq şairinin ölümünü anasına demədiklərini qeyd edir, çünki anası Səməd Vurğuna rəğbət bəsləyirdi və bu ona çox böyük təsir edərdi [4]. Ümumiyyətlə Əliyevlər ailəsi zəhmətkeş, elmə maraqlı, istedadlı fərdləri ilə seçilirdi. Xüsusilə Heydər Əliyev hələ uşaq yaşlarından öz davranışı, qabiliyyəti, rəvan

nitqi ilə seçilərmiş. Onun maraq dairəsi çox geniş olub, hələ Naxçıvan ibtidai məktəbində oxuyarkən məktən tamaşalarında rollar ifa etmişdir. Həmçinin teatr bacarığı, gözəl diksiyası, yüksək intellekti ilə birgə o çox gözəl rəsmlər çəkirdi və onlardan bir neçəsi bizim vaxtımıza qədər gəlib çatmışdır [8].



*Səməd Vurğunun“Vaqif”tamaşası*



*Əliyevlər ailəsi.*
*Soldan ikinci H.Əliyev*

Hər zaman öz yaşıdlarından dərin biliyi və istedadı ilə seçilən Heydər Əliyev Naxçıvan şəhər natamam orta məktəbini əla qiymətlərlə bitirmiş və 1938-1939-cu illərdə Naxçıvan Pedoqoji Texnikumunda təhsil almışdır [10]. Hansı ki, bu yer 1936-1937-ci il tədris ilində müəllim kadrların hazırlanmasında müstəsna rol oyanyıb. Həmin dövrün arxiv səndələrini araşdırarkən məlum olur ki, 1938-ci ildə hazırlıq şöbəsi ilə birlikdə 170 nəfər qəbul olub. 30 nəfəri hazırlıq şöbəsi üzrə təhsil alarkən, qalan 140 nəfər A, B, C, D kimi qruplara bölünüb və Heydər Əliyev “C”qrupunda təhsil alıb [11]. Hətta arxiv sənədlərindən onun qrup yoldaşlarının Həsən Tahirov, Abbas Əliyev, Mustafa Əhmədov, Pakizə Abbasova və neçəsinin adını görə bilərik. H.Əliyev Naxçıvan Pedoqoji Texnikumunu da əla qiymətlərlə başa vurmuşdur [11]. Bu da məlum idi ki, həmin dövrün ən yaxşı müəllimləri Tofiq Bektaşi, Murad Tutayuk, Əli Əliyev kimi müəllimlərdən dərs almışdır. Həmçinin onun 25 iyun 1939-cu ildə aldığı 2027 No-li attestatda da yüksək qiymət göstəriciləri öz əksini tapıb [3, s.2].


PROTOQOLU


AzSSR
XALQ MAARIF QOMISSARIATЬ
ATTESTAT

Heydər Əliyev burada oxuduğu illərdə tam təqaüdə layiq görülmüşdür. Həmçinin müəllimlərinin xatirində xüsusi bir yer tutmuşdur. Sonralar ona dil və ədəbiyyat dərsi tədris etmiş Lətif Hüseynzadə belə qeyd edirdi: “Heydər Əliyev məktəbdə ən savadlı, ən qabiliyyətli tələbələrdən biri idi. Texnikumda tez-tez ekskursiyalar təşkil olunurdu. Qayıdandan sonra o, bu ekskursiyalar zamanı gördüklərini çox gözəl təsvir və nəql edərdi. Maraqlı inşalar yazardı. Bəzi yerlərin çertyojunu, rəsmlərini məharətlə çəkirdi. Düzü, biz müəllimlər onun bu qabiliyyətinə heyran qalırdıq...” [11].

Heydər Əliyev müəllimlər arasında xüsusi hörmətə sahib idi. Sonralar texnikum yoldaşlarından olmuş Həsən Tahirov Heydər Əliyevdən bəhs edərkən deyirdi ki, o yeniyetmə olmasına baxmayaraq hər sözünü, hər hərəkətini bilən insan təsiri bağışlayırdı. Münaqişələri tezliklə və ədalətlə həll edərdi. Güclü yaddaşı və məntiqi ilə seçilərdi. Həmçinin dərslərə ciddi hazırlaşar, yoldaşlarına da kömək edərdi. Onun ən çox yadında qalmış xatirəsi isə ataları repressiya qurbanlarından biri oduğu üçün onlara texnikumda pulsuz yemək verməyi kəsdikləri vaxt Heydər Əliyev bu işə qarışmış və ertəsi gün məsələni həll etmişdi. Bu

onun müəllimlər arasındakı necə böyük hörmətə sahib olduğun bir daha göstərir. Həmçinin o, qeyd edir ki, hələ 13 yaşında olarkən müəllimlər Heydər Əliyevə "general" deyərmişlər [11]. Bu bəlkə də böyük liderin uşaqlığından bəri formalaşmış möhkəm iradə və böyük istedadının ilk işartıları idi. Təsadüfi deyildir ki, o texnikumu bitirərkən verilən xasiyyətnamədə "çalışqan və təmkinli" tələbə olduğunu qeyd edirlər. Beləliklə, Ulu öndərin özündə cəmləşdirdiyi bu xüsusiyyətlər hələ çox gənc yaşlarından özünü büruzə verib.

Heydər Əliyevin öncədən də qeyd etdiyim kimi teatra dərin marağı olub. Hələ 14 yaşında ikən Naxçıvanın teatr mühitinin daimi tamaşaçısına çevrilir. 1938-ci ildə Naxçıvan şəhər Pionerlər Evində təşkil olunan dram dərnəyinə üzv olur və fəaliyyəti dövründə "Qaralar ölkəsində" (K.Həsənov), "Qanlı döyüş" (İ.Həmzəyev), "Lənkəran xanının vəziri" (M.F.Axundov), "On min manatı kim uddu" (M.Ordubadi) kimi bir çox tamaşalarda rol ifa edir və son dərəcə bacarıqla çıxış edir [8]. Sonrakı illərdə də onun teatra olan marağı davam edir. 1939-cu ildə Heydər Əiyev Azərbaycan Sənaye İnstitunun (indiki ADNSU) memarlıq fakültəsinə daxil olur [1]. Bu illərdə teatrdan uzaq düşmək onun ürəyini sıxır və tezliklə teatra maraqlı gəncləri ətrafına yığaraq dram dərnəyi yaradır. Nəinki teatr, rəssamlığa da son dərəcə maraqlı olan Heydər Əliyev hələ uşaqlığından çəkdiyi rəsmləri dövrün rəssamlarına göstərib onlardan fikir alarmış və bu sənətin incəliklərini öyrənməyə çalışarmış [8]. Memarlıq fakültəsində təhsil alarkən rəssamlıqla daha dərindən məşğul olmuşdur.

Ulu öndərin incəsənətə olan sevgisi özünü həm də ədəbiyyatda göstərirdi. Bəlkə də o bu qədər geniş ədəbiyyat biliyinə malik olan nadir liderlərdən biri idi. Bu da onun məktəb illərindən mütaliə ilə məşğul olması və bır sıra tamaşalarda çıxış etməsindən irəli gəlirdi. Gökəmli dövlət xadimi Hüseyn Cavidin "İblis", Cəlil Məmmədquluzadənin "Ölülər", Səməd Vurğunun "Azərbaycan", Məhəmmədhüseyn Şəhriyarın "Heydərbabaya salam" və başqa bir sıra əsərlərə böyük önəm verib və onları yüksək qiymətləndirib [5]. Hətta 1997-ci ildə Azərbaycan yazıçılarının onuncu qurultayında Heydər Əliyev qeyd edir: "Mən orta məktəbdə Azərbaycan şairlərinin, yazıçılarının

bütün əsərlərini sevə-sevə oxumuşdum. Onlar mənə təsir edib, mən onlardan bəhrələnmişəm, mənəvi qida almışam” [5]. Bütün bunar deməyə əsas verir ki, Ulu öndərin sənətə və sənətkara sevgisi hər zaman göz qabağında olmuş, doğma dilinə çox etina ilə yanaşmış, respublika rəhbərləri arasında doğma dildə səlis danışığı, rəvan nitqi ilə seçilib. Həmin illərdə çox sevdiyi memarlıq fakültəsini II dünya müharibəsinin başlanması ucbatından bitirə bilməyib.

Arxiv sənədlərində göstərildiyi kimi, 15 oktyabr 1941-ci ildə Naxçıvan MSSR Daxili İşlər Xalq Komissarlığının Arxiv şöbəsi üzrə 80 nömrəli əmrə əsasən və Naxçıvan MSSR Daxili İşlər Xalq Komissarlığının razılığı ilə (baş leytenant, yoldaş Quliyev) Heydər Əlirza oğlu Əliyev həmin müəssisənin Mərkəzi Dövlət Arxivinə elmi işçi vəzifəsinə qəbul edilmişdir [11]. 6 iyun 1942-ci ildə Heydər Əliyev Mərkəzi Dövlət Arxivinin məxfi şöbəsinə müdir vəzifəsinə təyin olunmuşdur [11]. İdarəetmə qabiliyyəti, yüksək zəkası və rus dili biliyi sonrakı vaxtlarda onun irəliləməsinə kömək olur. Hələ arxiv sahəsində işlədiyi illərdə bu elmin sirlərinə dərindən bələd olur və həm I katib, həm də prezident kimi fəaliyyət göstərdiyi vaxtlarda bu sahənin inkişafına xüsusi qayğı və diqqət göstərir. Çünki Ümummilli lider çox yaxşı başa düşürdü ki, arxiv işi dövlətçilik baxımından mühüm əhəmiyyət kəsb etməklə, arxivlər milli irsimizin, milli mövcudluğumuzun dayağıdır. Heydər Əliyev bir müddət hərbi xidmətə çağırışla əlaqədar olaraq 3 iyun 1943-cü ildə tutduğu vəzifədən azad olunur və müvəqqəti olaraq Naxçıvan MSSR Xalq Komissarları Soveti ümumi şöbənin müdiri təyin edilir. 27 may 1944-cü ildə isə bu vəzifədən azad edilir və dövlət təhlükəsizliyi orqanlarında fəaliyyət göstərir [11]. Rus dilini yaxşı bildiyi üçün və çox məsuliyyətli olduğu üçün daim irəli doğru addımlayır [10]. Dövlət Təhlükəsizlik orqanlarında leytenant rütbəsində işə başlayır.Həmin illərdə Sankt-Peterburq və Moskva şəhərlərində xüsusi ali təhsil alır. 1944-1949-cu illərdə Naxçıvanda dövlət təhlükəsizliyi orqanlarında müxtəlif vəzifələrdə çalışır. Bunlar arasında əməliyyat müvəkkili, baş əməliyyat müvəkkili, şöbə müdiri kimi vəzifələr vardı. 1945-ci il 9 mayda “1941-1945-ci illər Böyük Vətən müharibəsində Almaniya üzərində qələbəyə gö-

rə" medalı ilə təltif olunmuşdur. 6 iyunda isə "1941-1945-ci illər Böyük Vətən müharibəsində rəşadətli əməyə görə" medalı ilətəltif edilir [1]. 1947-ci ildə Naxçıvan MSSR dövlət təhlükəsizliyi orqanında şöbə rəisi təyin edilmişdir. Arxiv məlumatlarına əsasən, 1948-ci il 22 fevralda "Sovet Ordusunun və Donanmasının 30 illiyi" yubiley medalı ilə, 1949-cu il 27 mayda isə "Əmək rəşadətinə görə" medalı ilə təltif edilir [1].

Əvvəlcədən də qeyd etdiyim kimi, 1949-1950-ci illərdə SSRİ Dövlət Təhlükəsizlik Komitəsinin Leninqraddakı (Sankt-Peterburq) rəhbər kadrların hazırlığı məktəbində təhsil almışdır [7]. 1950-ci il 25 avqust Azərbaycan SSR Təhlükəsizlik Komitəsinin 2-ci şöbəsində 6-cı bölmənin rəisi təyin edilmişdir [1].


ДИПЛОМ
№ 395531
ДИПЛОМ
№ 395531

Heydər Əliyev 1951-1957-ci illərdə Azərbaycan Dövlət Universitetində (indiki Bakı Dövlət Universiteti) tarix fakültəsinin qiyabi şöbəsində təhsil almışdır [10]. Bu illərdə də yetərincə yaxşı oxumuş, universiteti müvəffəqiyyətlə başa vurmuşdur. Arxiv materiallarından bəlli olur ki, 395.531 No-li diplomla 1957-ci il 27-iyun tarixli qərarla ona tarixçi adı verilmişdir [3]. Həmçinin, 1951-ci universitetə daxil olunanların siyahısı açıqlanır və burada da görürük ki, Ulu öndərin bütün qiymətləri əladır.

Heydər Əliyev 1953-cü ildə Dövlət Təhlükəsizlik Komitəsinin əks-kəşfiyyat şöbəsinin rəisi təyin edilmişdir. O ömrünün uzun bir hissəsini - 25 ilini (1944-1969-cu illər) dövlət təhlükəsizliyi orqanlarında çalışmışdır [8]. 8 noyabr 1954-cü ildə Zərifə Əziz qızı Əliyeva ilə ailə həyatı qurur. 12 oktyabr 1955-ci ildə qızları Sevil Əliyeva, 24 dekabr 1961-ci ildə oğulları İlham Əliyev dünyaya gəlir [1]. Heydər Əliyev uşaqları çox sevərdi, onlara daim qayğıkeş yanaşar, nəvaziş göstərərdi. Arxiv sənədlərindən əldə etdiyim fotoşəkillərdə də uşaqlar hər zaman Ulu öndərin yan-yörəsində olmuş, o da uşaqlara hər zaman mehriban yanaşmış, onları əzizləmişdir [2].



1957-ci il 18 dekabrda Heydər Əliyev "SSRİ Silahlı Qüvvələrinin 40 illiyi" yubileyi medalı ilə, 1960-cı ildə 15 aprel tarixində "Dövlət təhlükəsizliyi orqanının fəxri əməkdaşı" nişanı ilə təltif olunmuşdur [1]. Heydər Əliyev 1964-cü ildə Azərbaycan SSR Nazirlər Soveti yanında Dövlət Təhlükəsizliyi Komitəsi sədrinin müavini olmuş, 1965-ci il 31 mart tarixində ona polkovnik rütbəsi verilmişdir [11]. Bir müddət sədr müavini kimi fəaliyyət göstərdikdən sonra, 1967-ci il 22 iyunda Azərbaycan SSR Dövlət Təhlükəsizlik Komitəsinin sədri vəzifəsinə təyin olunmuş və 1969-cu il 14 iyula qədər, yəni Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi seçilənə qədər bu vəzifəni icra etmişdir. Nəhayət, 1967-ci il 30 oktyabr tarixində general-mayor vəzifəsinə yüksəlmişdir [11].

Heydər Əliyevin Azərbaycan tarixində həlledici rolu onun 1969-cu il 14 iyulda Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi vəzifəsinə seçilməsi ilə başlayır [3]. Bu illərdə imperiya siyasətinin sərtliyi, qəzlizliyi onun dəmir kimi möhkəm iradəsini qıra bilmədi. Bu vətənimizin gözəl günlərini özüylə gətirdi. Bu illərdə Azərbaycan günü-gündən çiçəklənir, inkişaf edirdi. Məhz bu illərdə bugünkü dövlət müstəqilliyimizin möhkəm təməli qoyuldu, kadrların milliləşdirilməsinə başlandı, milli ruh, azərbaycançılıq məfkurəsi yüksəldi və davamlı inkişaf yoluna qədəm qoydu. Bu elə bir dövr idi ki, ümumi Sovet məkanında durğunluq hiss edildiyi halda, Azərbaycanda bu illər öz məhsuldarlığı, inkişafı ilə yadda qalıb.

1969-1982-ci illərdə iqtisadiyyat sahəsində dirçəliş olur və ölkənin təbii sərvətlərindən düzgün istifdə olunmağa başlanır. Heydər Əliyevin gördüyü çoxsaylı işlər arxivin 1 saylı fondunda özünə yer tapır. Bunlar arasında həmin illərdə keçirilən XXVIII, XXIX, XXX qurultayların, 55 plenumun, 447 Büro və 101 Katiblik iclasının protokol materialları və stenoqramları, eləcə də, çoxsaylı zona müşavirələri, fəallar yığıncaqları, müxtəlif görüşlər, tədbirlərin sənədləri var idi [9, s.63]. O, hələ 1969-cu il 5 avqustda Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin plenumunda məruzə etmiş və bu nitqi ilə ölkənin gələcək perspektivlərinin əsasını qoymuşdur [1]. Heydər Əliyev xalq təsərrüfatını inkişaf etdirmək üçün: 1).1970-ci il iyulun 23-də "Azərbaycan SSR xalq təsərrüfatını inkişaf etdirmək tədbirləri haqqında", 2).1970-ci il iyulun 9-da "Azərbaycan SSR kənd təsərrüfatını daha da inkişaf etdirmək tədbirləri haqqında", 3).1975-ci il iyulun 9-da "Azərbaycan SSR-də kənd təsərrüfatı istehsalını daha da intensivləşdirmək tədbirləri haqqında", 4).1976-ci il iyulun 27-də "1976-1980-ci illərdə respublika sənayesinin ayrı-ayrı sahələrinin inkişaf etdirilməsinə dair Azərbaycan KP Mərkəzi Komitəsinin təkliflərinin nəzərdən keçirilməsi nəticələri barədə" və 5).1979-cu il fevralın 22-də "Azərbaycan SSR-də kənd təsərrüfatı istehsalını daha da ixtisaslaşdıraraq üzümçülüyü və şərəbçılığı inkişaf etdirmək tədbirləri haqqında" qərarların qəbul edilməsinə nail oldu [9]. Bununla da, mərkəzi büdcədən Azərbaycana ayrılan vəsait ayrılmalı idi və bu həmin illərdə respublikada 250-dən çox zavod, fabrik istifadəyə verilmiş, beləliklə 630.000 nəfərlik yeni iş yerləri açılmışdı.

Arxiv sənədlərindən anlaşılır ki, bu illərdə Xəzər dənizinin dərin akvatoriyalarında neft və qaz yataqlarının aşkar etmək üçün geoloji-kəşfiyyat işləri gücləndirilmiş, neft, neftqayırma və qaz sənayesinin əsaslı şəkildə qurulması başlanmışdır. Həmçinin kükürd, sintetik kauçuk və bir sıra kimyəvi maddələrin istehsal olunmasında böyük uğurlar qazanılır. Həmçinin arxiv sənədlərindən görünür ki, elektrotexnika, cihazqayırma, avtomatlaşdırma, dəzgahqayırma və bir sıra sahələr sırf bu dövrdə yarandı və inkişaf yoluna qədəm qoydu [9]. Ulu öndər 1969-cu il 24 dekabrda Azərbaycan KM MK-nın plenumun-

da Sov.İKP MK-nın 1969-cu il dekabr plenumunun yekunları və respublika partiya təşkilatının vəzifələri haqqında məruzə etmişdir [1].

Bu illərdə xüsusilə Bakı Məişət Kondisionerləri zavodunun yaranması haqda məlumatlar arxiv materiallarında öz əksini tapır. Araşdırma zamanı görürük ki, zavodun tikinti-quraşdırma işləri üçün əlavə 18 milyon ayrılmış, xaricdən 25 milyon manatlıq avadanlıqlar və yoxlama cihazları gətirilmiş, zavod qısa müddətdə tikilib 1975-ci ildə istifadəyə verilmişdi. "Azon", "Ulduz" cihazqayırma zavodları, Sumqayıt kompressor zavodunun işə düşməsilə bunlar sənayenin əsas fondlarınım 70 faizini yeniləşdirdi [9]. Hələ 1982-ci ildə Dərin Dəniz Özülləri zavodunun tikintisinə başlandı və 1,5 milyondan çox işçi bura cəlb edildi. Azərbaycan KP MK-nin 1982-ci il 12 yanvar tarixli iclasında (protokol No-41, 8-ci bənd) deyilir ki, yüksək səviyyəli kadrlar obyektlərə göndərilsin, işçilər üçün Sahil qəbəsində mənzil, ATS-lər tikilsin, Qaradağ dəmiryol stansiyası yenidən qurulsun. Arxiv sənədlərindən görünür ki, Abşeron və Bakının içməli su ilə təchizatını yaxşılaşdırmaq üçün 1971-ci il 2 fevral tarixli Büro iclasında tikintinin 1 avqusta qədər bitməsi qərarı qəbul edilir (protokol No-59, 5-ci bənd) [9]. Bu illərdə üzümçülüyün inkişafına xüsusi qayğı göstərilir, üzüm plantasiyaları 1985-ci ildə 1970-ci ildəkinə nisbətən 2 dəfə artaraq 268 min hektara çatır, kənd təsərrüfatının ümumi məhsul həcmi isə 2,6 dəfə çoxalır. Bütün bunlar ölkənin ümumi inkişafına, həmçinin əhalinin rifahının yaxşılaşmasına səbəb olur. 1972-ci ildə Şıx qəsəbəsində Xalqlar Dostluğu parkının əsası qoyulur və Heydər Əliyev sarayı tikilir. 1974-cü il 6 avqust tarixli (protokol No-100, 13-cü bənd) Azərbaycan KP MK-nin qərarı ilə respublikada kitab çapı genişlənir və 1976-1987-ci illərdə Azərbaycanda ilk dəfə "Azərbaycan Sovet Ensiklopediyası" nəşr olunur [9]. Hələ 1975-ci ildə Heydər Əliyevin təşəbbüsü ilə Azərbaycan KP MK-nin 18 iyun 1975-ci il tarixli Büro iclasında (protokol No-125, 3-cü bənd) Bakıda İnşaat-Mühəndislər İnstitunun yaradılması qərara alındı [9].

1974-cü ildə Azərbaycan KP MK-nin (13 fevral 1974-cü il) qərarı ilə Bakıda Zaqafqaziya respublikaları üçün neyrocərrahiyyə mərkəzinin təşkil olunması qərarı verildi [9]. 1971-ci ildə H.Əliyevin tə-

şəbbüsü ilə təşkil olunmuş C.Naxçıvanski hərbi təmayüllü internat məktəbinin 1976-ci 20 aprel qərarı ilə (protokol No5, 10-cu bənd) [9] fəaliyyətinin yaxşılaşdırılması haqqında qərarlar verildi. 1973-cü ildə Xankəndində APİ-nin filialı əasında Pedeqoji İnstitut açıldı. 1979-cu ildə Ağdam-Xankəndi dəmir yolu çəkildi [9].

Hüseyn Cavidin 90 illik yubileyi ilə əlaqədar olaraq 13 fevral 1974-cü il Büro iclasında (protokol No-87, bənd 14) bir sıra tədbirlərin həyata keçirilməsi qərarlaşdırılır. Şairin cənazəsi Q.Sibirdən gətirilib vətəndə dəfn olunmuş, Azərbaycan KP MK-nin 11 dekabr 1980-ci il Büro qərarı ilə Naxçıvanda memorial ev-muzeyi açılmışdır [9]. Arxiv sənədlərindən görünür ki, Sabit Rəhmana (1970 27 yanvar), Süleyman Rəhimova (1972 17 mart), Müslüm Maqomayevə (1972 24 may), Tahir Salahova (1972 24 noyabr), Mehdi Məmmədova (1974 19 mart), Rəşid Behbudova (1975 11 noyabr), Mikayıl Hüseynova (1975 31 may) fəxri adlar verilmişdir. 1974-cü il 12 apreldə Bakıda 7-ci Ümumittifaq kinofestivalı keçirildi [9]. 1976-cı il may ayının 13-15-də 4-cü Sovet, Asiya və Afrika xalqlarının həmrəylik konfransı işində Sovet İttifaqından 200, Asiya və Afrika ölkələrindən 25 və sosialist ölkələrindən 15 nümayəndə iştirak edirdi. Konfransda Heydər Əliyev təbrik nitqi ilə çıxış edib. 1978-ci ilin 2-11 sentyabrında Bakıda Asiya ölkələrinin müasir problemləri mövzusunda Sovet-ABŞ simpoziumu keçirildi [9].

***Nəticə.*** Ümumiyyətlə arxiv materialları əsasında Heydər Əliyevin həyat yoluna işıq tuta bilirik. Lakin elə materiallar vardır ki, ümumxalq əhəmiyyəti daşıyır. Bütün bunlar arasında çox önəmli yer tutanlardan biri də Ana dili haqqında konstitusiya qanunu idi. Heydər Əliyevin böyük əməyi və təşəbbüsü ilə 21 aprel 1978-ci ildə Azərbaycan SSRİ Konstitusiyasına “Azərbaycan SSR dövlət dili Azərbaycan dilidir” maddəsi qeyd olunur [1]. Bu Heydər Əliyevin düşünülmüş siyasətinin nəticəsi olmaqla Azərbaycan xalqı qarşısında ən böyük tarixi xidmətlərindən biridir. Beləliklə, Heydər Əliyev 1982-ci ilin dekabrında SSRİ Nazirlər Soveti sədrinin birinci müavini olanadək 1969-1982-ci illərdə müstəqil Azərbyacanın təməllərini qoymuş

və Azərbaycanın yeni inkişaf yoluna qədəm qoymasında müstəsna rol oynamışdır [10].

ƏDƏBİYYAT

1. Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əlirza oğlu Əliyevin həyat və faəliyyəyinin xronologiyası.Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin Prezident kitabxanası. Elektron sənədlər toplusu, s.2-5. - https://files.preslib.az/projects/heydaraliyev/xronologiya.pdf [30.04.2023].
2. Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin Prezident kitabxanası. Heydər Əliyev. Elektron sənədlər toplusu. Fotoalbom. - https://files.preslib.az/projects/heydaraliyev/photodocs.pdf [30.04.2023].
3. Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin Prezident kitabxanası. Heydər Əliyev. Elektron sənədlər toplusu. Fotosənəd, s.2, 5. - https://files.preslib.az/projects/heydaraliyev/photoalbum.pdf [30.04.2023].
4. Azərbaycanda arxiv işinin inkişafında Ümummili lider Heydər Əliyevin rolu. Azərbaycan Respublikası Milli Arxiv İdarəsi. 06.04.2023. - http://www.milliarxiv.gov.az/az/heyder-aliyev-milli-arxiv [30.04.2023].
5. Ədəbiyyatın Heydər Əliyev həyatında rolu / Eurasia Diary, Beynəlxalq Analitik İnformasiya Portalı, 12.12.2022. - https://ednews.net/az/news/culture/560171-edebiyyatin-heyder-eliyevin-heyatinda-rolu [30.04.2023].
6. Heydər Əliyevin anası haqqında maraqlı xatirələr / Modern.az İnformasiya Agentliyi, 10 may 2016. - https://modern.az/az/news/103132 [30.04.2023].
7. Heydər Əliyevin həyat yolu (infoqrafika) / AzVision.az, 10 may 2017. - https://azvision.az/news/117093/heyder-eliyevin-heyat-yolu-infoqrafika.html [30.04.2023].
8. Heydər Əliyevin uşaqlıq və gənclik illərinin təhlili. 8 may. - https://sesqazeti.az/news/politics/1056080.html [30.04.2023].

9. Siyasi sənədlər arxivi.1969-1982-ci il sənədləri, s.63, 66-68, 71-72, 74-75.
10. Heydər Əliyev - Tərcümeyi-hal / Ağcabədi Rayon Heydər Əliyev Mərkəzi.- https://haydaraliyevcenter.wordpress.com/heyder-eliyev/t%C9%99rcumeyi-hal/ [30.04.2023].
11. Aygün Həmzəyeva, Günel Hüseynova. Ulu öndər Heydər Əliyevin həyatının Naxçıvan dövrü - arxiv sənədlərinin dili ilə / "Şərq qapısı" qəzeti, 05.04.2023. - https://serqqapisi.gov.az/xeberler/ulu-onder-heyder-eliyevin-heyatinin-naxcivan-dovru-arxiv-senedlerinin-dili-ile [30.04.2023].
12. Mətanət Məmmədova. Arxivşünaslıq. Metodik vəsaiti. Bakı, 2015, BUN, 86 s.

**SAMA JAMALOVA**
*3rd year student of the Faculty of History*
*of Baku State University*

## LIFE AND ACTIVITY OF HAYDER ALIYEV IN ARCHIVE DOCUMENTS

Today, archives act as a guarantor of the protection of national heritage and national existence. They collect a number of materials such as audio recordings, photos, videos, and written documents. All these help us to look at the historical events and personalities of different periods and shed light on that period. There are some personalities that we can find information about in a number of archives. One of such people is the great leader It is Heydar Aliyev. It is the most important indicator of his invaluable services, illuminating his entire life path. Introduction. There are personalities who have contributed to the development of humanity.

*Keywords:* Heydar Aliyev, great leader, Azerbaijan archives, archival documents.

*Daxil olma tarixi*: 30.04.2023-cü il.
*Çapa imzalanma tarixi*: 05.05.2023-cü il.

**UOT 94(479.24); UOT 94**

**SƏRİYYƏ SADİQOVA**
*Azərbaycan Universitetinin*
*Azərbaycanın yeni və ən yeni tarixi ixtisası üzrə II kurs magistrantı*
**Sariyya.Sadigova@student.au.edu.az**

# XIX ƏSRİN ƏVVƏLLƏRİNDƏ AZƏRBAYCANDA BAŞ VERƏN HADİSƏLƏRƏ FRANSA VƏ İNGİLTƏRƏNİN MÜNASİBƏTİ

*Elmi rəhbər:*
tarix elmləri doktoru Anar İsgəndərov

*Təqdim edilən məqalədə XVIII əsrin sonu XIX əsrin əvvəlində Fransa imperiyası və İngiltərə dövlətinin Cənubi Qafqaza dair planları araşdırılmışdır. Azərbaycan torpaqları uğrunda müharibə çar Rusiyası və İran Qacarlar dövləti arasında olmasına baxmayaraq İngiltərə və Fransa imperiyası da Cənubi Qafqazda öz mövqeyini qoruyub saxlamaq, möhkəmlənmək üçün hər yola əl atırdı. Qacar şahı Fətəli şah əvvəlcə İngiltərənin, sonra isə Fransa imperiyasının gücündən yararlana biləcəyini düşünsə də, bütünlükdə müharibənin gedişatı və sonda imzalanan müqavilə tamamilə çar Rusiyasının xeyrinə oldu.*

*Açar sözlər*: Avropa dövlətlərinin maraqları, Qafqaz uğrunda mübarizə, sülh müzakirələri, beynəlxalq əlaqələr.

***Giriş.*** XVIII əsrin sonu XIX əsrin əvvəlindı bütün dünyada olduğu kimi Fransadada beynəlxalq dəyişikliklər baş verirdi. Fransada XIX əsrin sonlarında baş verən inqilabdan sonrakı konsulluq dövründə (1799-1804) və daha sonra I Napoleonun yaratmış olduğu imperiya dövründə (1804-1815) Fransa dövləti I Napoleon Bonapartın öndərliyi ilə yeni torpaqlar uğrunda müharibəyə başladı. Beynəlxalq aləmdə Fransa-İngiltərə və Fransa-Rusiya dövlətləri arasında münasibətlər xüsusi əhəmiyyət kəsb etməyə başladı. Fransa imperiyası əvvəla Avropada mövqeyini möhkəmlətmək arında isə İngiltərə dövlətinin Hindistandakı mövqeyini zərbə vurmağa çalışır və bu məqamda İran Qacarlar dövlətində öz mövqeyini möhkəmlətməyə çalışırdı. Bu

məqamda İngiltərə dövləti də Şərqdə müstəmləkə siyasəti yeridir və işğalı altında olan əraziləri əlində tutmağa çalışırdı [2, s.526].

1796-cı ilin iyul ayında I Napoleon Bonapartın səlahiyyətli nümayəndələri olan Olivye və Brüger Tehrana yola düşdü. I Napoleon səfirlərin qarşısına 1708-ci və 1715-ci ildə Fransa-Səfəvi arasında bağlanan müqavilələrin yenidən təsdiq edilməsinə nail olmaq vəzifəsi qoymuşdu. Eyni zamanda İran Qacarlar dövləti və çar Rusiyası arasında beynəlxalq əlaqələri pozmağa çalışırdılar. Lakin Olivye və Brügerin bu səyahəti kəşfiyyat xarakterli idi.

I Napoleonla yanaşı İngiltərə kralı da Qafqaza dair yeni planlar hazırlayırdı. Çar Rusiyasının Qafqaza dair işğal siyasətini yaxından izləyir və Cənubi Qafqazda İran Qacarlar dövlətinin fəaliyyətini artırmaq üçün silahlı yardımlar edirdi. Lakin İngiltərə dövlətinin Şərqə dair planları hiyləgər və təşəbbüskar xarakterli idi.

Xarici dövlətlərin hər biri Cənubi Qafqaza dair müxtəlif planlar qururdu. Xüsusilə çar Rusiyasının işğalçılıq siyasəti Qacar dövlətində vəziyyətin pisləşməsinə gətirib çıxarırdı. Çar Rusiyasının ordusu sayca Qacar dövlətinin ordusundan çox idi və güclü hərbi silahlara malik idi. Bu səbəbdən Qacar dövləti çar Rusiyası kimi güclü bir dövlətlə təkbaşına vuruşmağa qadir deyildi. Beləliklə, Fətəli şah XIX əsrin ilk illərində Avropanın ən güclü dövlətlərindən biri olan İngiltərə ilə diplomatik əlaqə yaratmağa başladı.

İngiltərə kralı 1800-cü ildə Tehrana elçi Con Malkomu göndərdi. Fətəli şah ilə Con Malkom arasında noyabr ayının 16-sı və 27-si görüş baş tutdu. Con Malkom əsasən ingilislərin xeyrinə ola biləcək ticarət müqaviləsi bağlamağa çalışırdı. Fransanın İran Qacarlar dövlətində möhkəmlənməsini istəməyən İngiltərə hökuməti diplomatik fəaliyyətini artıraraq İran Qacarlar dövləti ilə siyasi və ticarət müqavilələri imzalamağa qadir oldu. 1801-ci ildə İngiltərə və İran Qacarlar dövləti arasında iki fərqli müqavilə imzalandı. Müqavilələrdən biri siyasi xarakterli, digəri isə ticarət müqaviləsi oldu. İngiltərə dövləti Qacar dövləti ilə müqavilə imzalayaraq Qacar dövlətinin daxili, siyasi işlərinə qarışmaq kimi hüquqlar əldə etdi [4, s.8].

İngiltərə dövləti hər hansı bir dövlətin İran Qacarlar dövləti üzərinə yürüş edəcəyi təqdirdə Qacar dövlətinə hərbi və maliyyə yardımı etməli idi. Ticarət müqaviləsinə görə isə hər iki dövlətin tacirləri öz mallarını bir-birinin ərazisində azad daşımaq hüququ qazandı, ingilis tacirləri isə vergilərdən azad oldu. İngiltərə dövləti Qacarlarla müqavilə bağlamasına baxmayaraq, Qacar dövlətinə qarşı ikiüzlü siyasət yeridirdi. İngiltərə Qacarlarla bağlanan müqaviləyə əsasən Qacarların şərtlərə əməl etməsini tələb etsədə, özü bu şərtlərdən boyun qaçırırdı.

1800-cü ildə İngiltərə ilə Qacar dövlətinin müqavilə imzalamasının ardınca, 1801-ci ildə Fransa imperiyası ilə Osmanlı imperiyası arasında müqavilə imzalandı. Müqavilənin şərtlərinə əsasən, Fransa Misiri Osmanlıya qaytardı. Fransız gəmiləri üçün isə Osmanlı boğazları açıq elan edildi.

1804-cü ildə İran Qacarlar dövləti və çar Rusiyası arasında başlanan müharibədə İngiltərə hökuməti müqavilələrə əsasən, üzərinə götürdüyü öhdəlikləri yerinə yetirmədi. Bu vəziyyətdən istifadə edən İran Qacarlar dövləti Fransa imperiyası ilə əlaqələri yenidən yaxşılaşdırdı. Fətəli şah 1804-cü ilin sonlarında Fransa imperatoruna məktub yazdı. Həmin məktubu 1805-ci ilin yanvarında təhvil alan I Napoleon Bonapart əvvəlcə Romyeni sonra isə tərcüməçisi Amade Joberi Tehrana yola saldı.

I Napoleonun Fətəli şahla əlaqə yaratmaq istəməsi həm İngiltərə dövlətini, həm də çar Rusiyasını narahat edirdi. Bu səbəbdən hər iki dövlətin nümayəndələri ola biləcək Fransa və Qacar dostluğunu yaranmasına icazə verməк istəmirdi. Rusiya çarı İstanbuldakı səfirinə Amade Joberin Osmanlı sultanı III Səlimlə görüşməsinə mane olmağı tapşırsa da, buna müvəffəq olmadı. Ardınca Tehrana Qacar sarayına çatan Romyenin isə əsas vəzifəsi Cənubi Qafqazda Qacarların fəallığının artmasına köməklik göstərmək idi. I Napoleonun Qacarların fəallığını artırmaqda məqsədi isə Rusiyanın Avropadakı mövqeyini zəiflətmək idi. Bundan başqa Napoleon Fətəli şaha İngiltərə dövləti ilə 1800-cü ildə bağladığı müqavilələri ləğv edəcəyi təqdirdə Qa-

car dövlətinə Cənubi Qafqazda Rusiyaya qarşı vuruşa bilməsi üçün hərbi donanma və pul yardımı edəcəyinidə bildirdi [4, s.14].

1805-ci il sentiyabr ayının 30-da Fətəli şah I Napoleonun göndərdiyi elçi Romyen ilə görüşdü. Fətəli şah Romyenin müqavilə imzalamaq səlahiyyətinə malik olmadığını və elçi Romyenin əsas vəzifəsinin Fətəli şahla görüşüb, ölkənin mövcud vəziyyətindən xəbərdar olmaq olduğunu anladı. Romyen Fətəli şaha Fransa ilə müqavilə imzalayacağı təqdirdə Fransanın ruslara qarşı Qacar ordusuna hərbi yardım edəcəyini və buna qarşılıq isə Qacar dövlətinin Fars körfəzindəki limanlardan birinin Fransa gəmilərinin sərbəst üzməsi üçün açıq elan edilməsini tələb etdi.

Ölkənin mövcud vəziyyəti barədə məlumat toplayan Romyen Qacarların rus ordusuna qarşı məğlub olma səbəbini əsgərlərin müharibə qaydalarını yaxşı yiyələnməməsi ilə əlaqələndirdi. Tehranda səfərdə olan Romyenin ani ölümü nəticəsində Qacar dövləti ilə Fransa imperiyası arasında əlaqələr ani şəkildə kəsilmiş oldu. Cənubi Qafqaz cəbhəsində isə Qacar qoşunlarının vəziyyəti hələdə ağır qalmaqda idi və Cənubi Qafqazın artıq bir hissəsi çar Rusiyası tərəfindən işğal edilmişdi. Bundan sonra 1805-ci il dekabr ayında baş vermiş Austerlis döyüşündə Fransanın qələbə çalması ilə Osmanlı sultanı III Səlim I Napoleonu "Fransanın padişahı" və özünün isə "sadiq və ən yaxın dostu" elan etmişdi. Fransa bu faktdan Rusiyanın hərbi qüvvələrini parçalamaq və Osmanlı ilə müharibəyə sövq etmək məqsədi ilə istifadə etdi. I Napoleon çox tez bir zamanda Qacarlarla olan diplomatik əlaqələri yenidən qaydaya salaraq üstünlüyüdə ələ aldı. 1806-cı ildə I Napoleon öz tərcüməçisi Amade Joberi Tehrana Qacar sarayına göndərdi. İran Qacarlar dövləti ilə Fransa arasında danışıqların başlaması İngiltərə dövlətinin narazıçılığına səbəb oldu. Bağdadda olan ingilis səfiri Xarford Cons Qacar dövləti ilə Fransa imperiyası arasında müqavilə imzalanmasından ehtiyyat edərək, Fətəli şahın baş vəzirinə müraciət edib ona təminat verdi ki, İngiltərə 1801-ci ildə bağlanan müqavilənin şərtlərinə sadiq qalacaqdır [2, s.259].

Fransa imperiyası bütün vasitələrə əl ataraq Osmanlı imperiyasını da Rusiyaya qarşı qaldırmağa çalışırdı. Napoleonun 1806-cı ildə

İstanbula göndərdiyi səfir general Sebastian Osmanlı sultanı III Səlimə vədlər verərək, bəzi rus-türk müqavilələrini və yenicə imzalanmış müttəfiqlik haqqında müqaviləni təhrik yolu ilə pozmağa nail oldu. 1806-cı ilin sonlarında isə Osmanlı çar Rusiyasına qarşı müharibə elan etdi. Rus-türk müharibəsi davam edən zaman yəni, 1807-ci ilin əvvəllində I Napoleon Fətəli şaha məktub yazaraq, ona Rusiya ilə mübarizəni davam etdirməsini və Fətəli şaha Rusiyaya qarşı qələbə qazanaraq, Zaqafqaziyanı tutmağı və Xəzər dənizini rus donanmasına bağlamağı məsləhət görürdü. I Napoleon üç dövlətin yəni Fransa, İran Qacar və Osmanlı imperiyasının əbədi ittifaqını yaradaraq Avropada üstünlüyü ələ almaq istəyirdi.

1807-ci ilin yay aylarında Avropada beynəlxalq aləmdə bir sıra dəyişikliklər baş verdi. Çar Rusiyası ilə Fransa imperiyası arasında Tilzit sülh müqaviləsi və hücum-müdafiə ittifaqı haqqında gizli saziş imzalandı. Tilzit müqaviləsində I Napoleon Qacar dövləti və Osmanlı imperiyasının mənafeyini müdafiə etməyi təşkil etmədi. Tilzit müqaviləsinin ikinci gizli maddəsinə görə Fransa imperiyası Osmanlı və İran Qacarlar dövlətinin xarici siyasəti ilə bağlı məsələlərdə hər cür vasitəçilikdən imtina etməli idi. Lakin sonradan aydın oldu ki, Fransa imperiyası və çar Rusiyası arasında imzalanan Tilzit müqaviləsi məcburi müqavilədir.

Yaranmış mövcud şərait Fətəli şahı İngiltərə hökuməti ilə yaxınlaşmağa məcbur edirdi. İngiltərə hökuməti vəziyyətdən istifadə edərək, Tehrandakı Qacar sarayında möhkəmlənməyə çalışdı. 1809-cu ildə İngiltərə hökuməti və Qacar dövləti arasında müqavilə imzalandı. Bu müqaviləyə görə Qacarlar İngiltərə hökuməti ilə düşmən münasibətdə olan bütün ölkələrlə əlaqəni kəsməli idi. İngiltərə hökuməti isə bunun müqabilində İran Qacarlar dövlətinə Rusiya ilə müharibə zamanı hər il üçün 120 min funt-sterlinq məbləğində maliyyə yardımı etməli idi. Bununla yanaşı silah, hərbi ləvazimatlar, təlimçilər göndərəcəyinə və Qacar ordusunu daha da gücləndirəcəyinə dair söz verdi [1, s.240].

1812-ci ilin mart ayının ortalarında Fransa imperiyası ilə çar Rusiyası arasında əlaqələrin pozulması zamanı I Napoleona qarşı İn-

giltərə hökuməti və Rusiya arasında ittifaq yarandı. İngiltərə və Rusiya Fransa imperiyasına qarşı öz aralarında gizli müttəfiqlik müqaviləsi imzaladılar. Bu müqavilə 1809-cu ildə İngiltərə və Rusiya arasında imzalanmış müqaviləni də təsdiq edirdi. Yeni imzalanan müqaviləyə görə İngiltərə dövləti Xəzərdə gəmiqayırmanın təşkili, hərbi anbarların tikilməsi üçün mütəxəssislər qrupu ayırıb, lazımi hallarda hərbi gəmilərini Qacar dövlətinin körfəzinə götürməyi öhdəsinə götürdü. Bu gəmilərə körfəzin istənilən limanını tutmaq hüququ verildi.

1812-ci ilin yayında isə Fransa imperiyası ilə çar Rusiyası arasında əlaqələr tamamilə kəskinləşdi və müharibə başlanılması qaçınılmaz oldu. Fransa imperiyası ilə müharibəyə başlayan Rusiya İngiltərə dövləti ilə olan əlaqələrə diqqət yetirmədi. Bundan məharətlə istifadə edən İngiltərə dövləti 1812-ci il iyul ayının 8-də Rusiya imzaladığı müqaviləyə sadiq qalmadı və İran Qacarlar dövləti ilə əlaqələri yenidən yaxşılaşdırmağa başladı. Beləliklə, Qacar şəhzadəsi Abbas Mirzə rusların bütün qüvvələrinin Fransa imperiyasına yönəlməsi şəraitində öz ordusunu Cənubi Qafqaza hücuma keçmək üçün hazırlamağa başladı. Lakin, məğlub olan Qacar şəhzadəsi Abbas Mirzə geri çəkilərək çar Rusiyası ilə Rusiya dövlətinin xeyrinə hazırlanmış olan sülh müqaviləsini imzalamağa məcbur oldu.

1813-cü ilin sentiyabr ayında ingilis səfiri Qor Uzeley Qacar dövləti ilə Rusiya arasında sülh müqaviləsi bağlanmasında vasitəçilik etdi. Qor Uzeley general Rtişşevə məktub göndərərək, Qacar sarayının Rusiyanın bütün təkliflərinə razı olacağını bildirdi. Mirzə Əbülhəsən xanın isə sentiyabr ayının sonlarında Gülüstana çatacağını qeyd etdi. Rusiya ilə sülh müzakirələrinin aparılması üçün səlahiyyətli şəxs Mirzə Əbülhəsən xan seçildi və o Gülüstana doğru yola çıxdı. Gülüstan kəndində 1813-cü il oktiyabr ayının 12-də Rusiya ilə İran Qacarlar dövləti arasında Gülüstan müqaviləsi imzalandı [3, s.425].

***Nəticə.*** Azərbaycan torpaqları uğrunda müharibə çar Rusiyası və İran Qacarlar dövləti arasında olmasına baxmayaraq, İngiltərə və Fransa imperiyası da Cənubi Qafqazda öz mövqelərini qoruyub saxlamağa, möhkəmlənməyə çalışırdılar. Qacar şahı Fətəli şah əvvəlcə İngiltərənin, sonra isə Fransa imperiyasının gücündən yararlana bilə-

cəyini düşünsə də, bütünlükdə müharibənin gedişatı və sonda imzalanan müqavilə tamamilə çar Rusiyasının xeyrinə oldu.

ƏDƏBİYYAT

1. Əliyev Məhəmməd. Şimali Azərbaycanın Rusiya tərəfindən işğalının tarixşünaslığı. Bakı "Adiloğlu", 2001, 316 s.
2. Həsən Qəniyev. Azərbaycan tarixi (ən qədim zamanlardan – XXI əsrin ilk onilliklərinədək). Bakı, "Elm və Təhsil", 2019, 499 s.
3. Mahmudov Yaqub, Şükürov Kərim. Azərbaycan beynəlxalq münasibətlər və diplomatiya tarixi (1639-1828). Dörd clddə. I Cild. Bakı, AMEA Tİ, 2009, 512 c.
4. Süleymanov Mehman. Gülüstan müqaviləsi. I hissə. Bakı: "Elm və Təhsil", 2014, 624 s.

**SARİYYA SADIGOVA**
*Master student of Azerbaijan University*

## THE ATTİTUDE OF FRANCE AND ENGLAND TO THE EVENTS İN AZERBAİJAN AT THE BEGİNNİNG OF THE XIX CENTURY

The article presents the plans of the French Empire and the British state in relation to the South Caucasus in the late XVIII-early XIX century. Despite the fact that the war for Azerbaijani lands was waged between tsarist Russia and the Iranian state of Qajars, England and the French Empire tried in every way to preserve and strengthen their positions in the South Caucasus. Although the Qajar Shah Fatali Shah at first thought that he would be able to use the power of England, and then of the French Empire, the course of the war as a whole and the treaty signed at the end benefited tsarist Russia.

*Keywords:* interests of European states, struggle for the Caucasus, peace negotiations, international relations.

*Daxil olma tarixi*: 28.04.2023-cü il.
*Çapa imzalanma tarixi*: 05.05.2023-cü il.

**UOT 94(479.24); UOT 930 ŞƏHRİYAR SƏMƏNDƏROV**
*Bakı Dövlət Universiteti Tarix fakültəsinin IV kurs tələbəsi*
**Wehriyar2533@gmail.com**

# ŞAMAXI XANLIĞININ TARİXİNİN ÖYRƏNİLMƏSİ SƏVİYYƏSİ HAQQINDA

*Elmi rəhbər:*
tarix üzrə fəlsəfə doktoru Sevinc Qasımova

*Azərbaycanın dövlətçilik tarixinin kiçik bir dövrünü əhatə etməsinə baxmayaraq, "xanlıqlar" dövrü özünəməxsus xüsusiyyətləri ilə yadda qalıb. Bu dövr dövlətçilik ənənələrimizin bərpası, kiçik dövlətlər olan xanlıqların öz aralarında və qonşu dövlətlərlə siyasi mübarizəsi ilə səciyyələnir. Məqalədə Şamaxı xanlığının tarixinə həsr olunmuş rus və Azərbaycan tarixçilərinin, eləcə də mövzu ilə bağlı tədqiqat işlərinin tarixşünaslıq nöqteyi-nəzərindən məntiqi təhlili aparılıb.*

*Açar sözlər*: Şamaxı xanlığı, xanlıqlar, Rusiya.

***Giriş***. Mövzunu araşdırmaqda məqsədimiz Şamaxı xanlığının tarixini, onun iqtisadi-sosial vəziyyətini, inzibati quruluşunu, qonşu dövlətlərlə olan siyasi əlaqələrini daha ətraflı öyrənmək və ən əsası bizim tarixşünaslıqda yetərincə öyrənilməyən bir mövzu olduğu üçün bu mövzuda aparılan tədqiqatlarla yaxından tanış olmaq, müqayisəli tədqiqat metodundan istifadə edərək xanlığın tarixini daha dürüst bir şəkildə təqdim etməkdir.

XVIII yüzilliyin II yarısı Azərbaycan tarixində müstəqil xanlıqlar dövrü olmuşdur. Həmin dövrdə Azərbaycan dövləti tarix səhnəsində vahid şəkildə deyil, ayrı-ayrı feodal dövlətləri – xanlıqlar formasında daxil olsa da, müəyyən dövr üçün dövlətçilik anlamını özündə saxlamışdır. Bu dövrü öyrənmək üçün hər bir xanlığın tarixinin araşdırılması zərurəti artıq reallaşmış və bu istiqamətdə müasir tarixçilərimiz tərəfindən xeyli iş görülmüş, xüsusi monoqrafiyalar yazılmışdır. Bununla belə, XVIII yüzilliyin II yarısında Azərbaycan xanlıqlarının, o cümlədən Şamaxı xanlığının yaranması, iqtisadi həyatı, əsasən də onun qonşu dövlətlərlə münasibətlərinin tədqiqi bu

gün də öz aktuallığı ilə qarşımızda dayanan ciddi problemlərdəndir. Şamaxı xanlığının tarixinə indiyə kimi kompleks şəkildə müraciət edilməməsi bu problemin aktuallığını daha da zəruri edir. Doğrudur, bu problemin həllinə əvvəlki dövrlərdə də səy göstərilmiş, sovet dövrünün həm də Azərbaycan tarixşünaslığında Şamaxı xanlığının yaranması, xanlıqda ikihakimiyyətliliyin mövcud olması kimi məsələlərə, qonşu xanlıqlar və dövlətlərlə münasibətlərinə ayrı-ayrı tədqiqat əsərlərində cüzi də olsa toxunulmuşdur. Lakin həmin əsərlərdə konkret olaraq bu problemin həllinə cavab tapmaq qarşıya məqsəd qoyulmamış və xanlığın yaranması, əsasən də xanlıqda mövcud olan ikihakimiyyətlilik məsələsinə, Şamaxı xanlığının qonşu dövlətlərlə münasibətlərinə birtərəfli şəkildə yanaşılmış, əsasən Osmanlı imperiyası ilə olan siyasi münasibətləri isə kölgədə qalmışdır. Bundan əlavə, bu əsərlərdə dövrün tələbinə uyğun olaraq xanlığın Rusiya ilə münasibətləri tarixinə toxunarkən bitərəfliyə yol verilmiş, digər Azərbaycan xanlıqları kimi Şamaxı xanlığının da Rusiya təmayüllü olması və bu imperiyanın tabeliyinə "könüllü" şəkildə keçməsi kimi səhv yanaşma mövcud olmuşdur. Əldə olunan yeni arxiv materialları qarşıya qoyduğumuz problemin həllini yenidən aktuallaşdırır və Şamaxı xanlığının yaranmasında ikihakimiyyətliyin mövcud olması məsələsinin daha dolğun işıqlandırılmasında, xanlığın iki adla - Şamaxı və yaxud Şirvan adlandırılmasında, onun qonşu dövlətlərlə münasibətlərində yol verilmiş birtərəfli yanaşmanın, ən əsası isə elmi boşluğun aradan qaldırılmasının əhəmiyyətini zaman müstəvisində daha da artırır.

***Şamaxı xanlığının tarixi XIX-XX əsrin əvvəllərinə aid tədqiqatlarda.*** Mövzuya aid olan mənbələrə həmçinin Azərbaycan xanlıqlarının Rusiya və Qacar dövləti arasında bölüşdürülməsindən sonra işğal olunmuş yeni torpaqların tarixini, iqtisadiyyatını və təsərrüfatını öyrənmək üçün yazılmış yerli və rus tədqiqatçıların əsərləri aiddir. Bunlar içərisində qədim dövrdən başlamış XIX yüzilliyin əvvəlinədək Azərbaycan tarixini tam şəkildə elmi əsaslarla işıqlandıran A.Bakıxanovun 1841-ci ildə yazıb başa çatdırdığı "Gülüstan-i İrəm" əsərini xüsusi olaraq qeyd etmək lazımdır. Əsərin beşinci fəslində Nadir şahın ölümündən "Gülüstan" sülhünə qədər olan hadisələr: Azərbay-

can xanlıqlarının təşəkkülünün qısa tarixi, xanlıqlar arasında gedən aramsız çəkişmələr, o cümlədən Şamaxı xanlığının yaranması, Quba və Şəki xanları arasında bölüşdürülməsi, hakimiyyətdən uzaqlaşdırılan Şamaxı xanlarının qubalı Fətəli xana qarşı apardığı siyasi mübarizə, eləcə də Ağa Məhəmməd şah Qacarın Azərbaycanın şimal torpaqlarına, o cümlədən Şamaxıya hücumu və xanlıqların Rusiya tərəfindən istilası məsələləri yığcam şəkildə öz əksini tapmışdır. Şamaxı xanlığının iqtisadiyyatını və təsərrüfatını, inzibati-idarə quruluşunu öyrənmək üçün 1819-cu ildə tərtib edilərək 1867-ci ildə isə nəşr olunmuş "Şirvan əyalətinin təsviri"adlı sənədlər toplusunu qeyd etməmək mümkün deyil [13, s.247]. Əsərdə bilavasitə Şamaxı xanlığında daxili ticarətin inkişafını, xanların xeyrinə ödənilən vergilərin, ümumiyyətlə, sənətkarlardan alınan vergi növlərinin araşdırılmasında mühüm mənbədir.

Şamaxı xanlığının qonşu xanlıqlarla və dövlətlərlə münasibətləri XIX əsr rus şərqşünası Boris Dornun Şirvanın tarixinə həsr etdiyi əsərində bəzi ziddiyyətli məqamların mövcud olmasına baxmayaraq, Şamaxı xanlığının Quba və Lənkəran xanlıqları ilə münasibətləri, Mustafa xanın Rusiyaya münasibəti kimi siyasi məsələlər açıqlanmışdır. B.Dornun verdiyi məlumata görə, Nadir şahın 1734-cü ildə Yeni Şamaxıya hakim təyin etdiyi Hacı Məhəmmədəli Zərnəvaini elə həmin dövrdən buranın müstəqil hakimi olmuşdu. B.Dorn yanlış olaraq Məhəmmədsəid xanın 1748-ci ildə Köhnə Şamaxıda Kərim xan Zənd tərəfindən xanlıq taxtına çıxarılmasını göstərir. Zəndilər vaxtilə Nadir şah osmanlıları Qərbi İrandan çıxardıqdan sonra ona tabe olmaqdan imtina edirlər. Nadir şahın təqiblərinə məruz qalmış Zəndilər onun ölümündən sonra İranda müxtəlif feodal qrupları ilə hakimiyyət üstündə mübarizəyə qoşulur. Onların nümayəndəsi Kərim xan Zənd isə yalnız 1752-ci ildə Mərkəzi və Qərbi İranda rəqiblərini məğlub edir və burada hakimliyə sahib olur [4, s.131]. Dornun verdiyi səhv mülahizənin əksinə olaraq, buradan belə nəticə çıxır ki, 50-ci illərdə İranda hələ öz mövqeyini tam möhkəmləndirməyən, özünü şah yox, vəkil adlandıran Kərim xan Zənd 1748-ci ildə Şimali Azərbaycanda böyük nüfuz üstünlüyünə malik ola bilməzdi və Şamaxı xanlığına da xan təyin edə bilməzdi. Bu məsələyə toxunan F.Əliyev yazırdı ki,

Kərim xan şiələrdən ehtiyat etdiyinə görə ömrünün axırına kimi “vəkil” titulu ilə məhdudlaşıb, özünü şah elan edə bilməmişdir [2, s.120]. Belə yanlış fikirlərə yeni faktlar əsasında aydınlıq gətirməklə, Nadir şahın ölümündən sonra Şimali Azərbaycanın İranın təsir dairəsində olmadığını bir daha sübut etmiş olarıq.

Mövzunun tədqiqi zamanı, həmçinin çap olunmuş mənbələrdən – xüsusilə çoxhəcmliliyi və elmi əhəmiyyəti ilə fərqlənən Qafqaz Arxeoqrafiya Komissiyasının (QAKA) topladığı 12 cildlik sənədlər toplusundan istifadə edilmişdir. A.Berjenin redaktəsi ilə hazırlanaraq Tiflisdə çap olunan bu topluda rəsmi səciyyə daşıyan sənədlərlə (Qafqazın baş komandan və hakimlərinin hesabatları, raportları, məktub və reskriptlər və s.) yanaşı, statistik materiallar (vergi siyahıları və cədvəlləri, gəlir-çıxar sənədləri və s) da mövcuddur. QAKA-larda mövcud olan sənədlərə əsasən, Şamaxı xanlığının XVIII yüzilliyin sonu - XIX yüzilliyin əvvəlləri tarixinə dair məlumatları müqayisə etmək, dəqiqləşdirmək, bir sözlə, tənqidi süzgəcdən keçirmək mümkün olmuşdur. Mustafa xanın Rusiyanın Qafqazdakı ali baş komandanları olan Qudoviçə, Sisianova və başqalarına yazdığı məktubların da daxil olduğu həmin sənədlərdə, həmçinin Şamaxı xanlığının tarixinin bu və ya digər məsələləri ilə bağlı suallara cavab tapmaq mümkündür. Lakin bu toplunun böyük elmi əhəmiyyəti ilə yanaşı, onun tendensiyalı səciyyəsini də qeyd etmək lazımdır. Həmin sənədlər böyük elmi əhəmiyyətə malik olması ilə fərqlənsə də, yanlış fikirlərdən, qeyri-dəqiq məlumatlardan da xali deyildir. Dövrün tələbinə uyğun olaraq tərtib olunan sənədlərdə şamaxılı Mustafa xan İrana meylli hakim kimi təqdim olunur. Bununla da, Rusiyanın bölgədəki işğalçılıq siyasəti ört-basdır edilir.

Digər bir mənbə 1828-1836-cı illərdə Cənubi Qafqazın iqtisadi həyatının öyrənilməsinin nəticəsi kimi Sankt-Peterburqda Leqkobıtovun redaktəsi ilə çap edilən dördcildlik “Rusiyanın Qafqazdakı ərazilərin statistik, etnoqrafik, topoqrafik və maliyyə münasibətlərinin icmalı” toplusudur. İlk növbədə Azərbaycanın bir müstəmləkə kimi metropoliya üçün əhəmiyyəti məsələsinin, iqtisadi sərvətlərin mənimsənilməsi yollarının öyrənilməsi baxımından böyük əhəmiyyət

kəsb edən əsərin ikinci və üçüncü cildlərində Şamaxı xanlığının tarixinə dair bəzi məlumatları əldə etmək mümkündür. Qafqaz ölkələri haqqında ilk ümumi statistik məlumatlar verən bu əsərin üçüncü cildində Şirvan regionu ilə Şamaxı xanlığı çox düzgün olaraq bir-birindən fərqləndirilir və Muğan düzünün bir hissəsi də daxil olmaqla xanlığın ərazisinin 14.500 kv. verstə çatdığı göstərilir.

Eyni fərqləndirici cəhəti XVIII yüzilliyin sonu – XIX yüzilliyin əvvəllərində Azərbaycanın şimal xanlıqlarının siyasi və sosial-iqtisadi həyatından bəhs edən S. Bronevskinin əsərində də görmək olar (S. Bronevski 1796-cı ildə rus qoşununun Azərbaycana yürüşündə iştirak etmiş, 1802-1808-ci illərdə Qafqazda hərbi qulluğunu davam etdirmiş, şəxsən iştirakçısı olduğu və gördüyü hadisələri həmin əsərində təsvir etmişdir [8, s.126]. Müəllif Şamaxı xanlığının sərhədlərini şimalda Quba xanlığı, şərqdə Bakı xanlığı, cənubda Muğan düzü və Qarabağ xanlığı ilə, qərbdə isə Göyçay çayı ilə hüdudlandırır [14, s.265]. Lakin onun səhvi onda idi ki, Dağıstan tərəfdən xanlığının sərhəddinin Rubas çayına qədər uzandığını göstərdiyi halda, həm də Samur çayını Quba xanlığının sərhədi kimi vermişdir. Rubas çayı isə məlumdur ki, Dərbənddən axır. Şamaxı xanlığının tarixinə dair xeyli maraqlı məlumatlar verən S.Qmelin də, həmçinin göstərir ki, hələ Nadir şah dövründə Şamaxı şəhərinin ətrafındakı kəndlər, Ağsa, qərbdən Göyçay çayına, şimaldan Altıağac və şərqdən Navahı kəndinə qədər olan ərazilər Sərkərlər nəslindən olan Allahverdi bəyə məxsus olmuşdur ki, bu ərazi də bütün Şirvan adlanan regionu yox, Şamaxı xanlığının sərhədlərini əhatə edir [11, s.167]. S.Qmelin, eyni zamanda xanlığın Quba xanlığı ilə siyasi əlaqələrini açıqlamışdır. Xanlığın Təbriz xanlığı ilə ticarət əlaqələrindən bəhs edən müəllif Şamaxı xanı Məhəmmədsəid xanın dövründə Təbrizdən buraya 100 fabrik (manufaktura) sahibinin – sənətkarın köçdüyünü bildirir. Qubalı Fətəli xan Şamaxı xanlığını Şimali-Şərqi Azərbaycan torpaqlarına birləşdirdikdən sonra (1768-ci il) həmin sənətkarlar yenidən Təbrizə qayıdırlar.

1796-cı il Rusiya qoşunlarının Cənubi Qafqaza yürüşünün iştirakçısı olan qafqazşünas – akademik P.Q.Butkovun üç cildlik əsəri-

nin ikinci cildində Şamaxı xanlığının siyasi tarixinə dair zəngin və rəngarəng məlumatları daha çox izləmək mümkündür. Lakin digər qafqazşünaslar kimi P.Q.Butkov da öz əsərində hadisələrin izahına birtərəfli yanaşmış, hər şeydən əvvəl, xidmətində olduğu imperiyanın maraqlarını müdafiə etmişdir. Şamaxı xanı Mustafa xanın Rusiyaya münasibəti "ikimənalı" təqdim edilmişdir. 1796-cı ildə V. Zubova qarşı Azərbaycan xanlarının təşkil etdiyi sui-qəsddə əsas rol oynayan Mustafa xanın Rusiyaya münasibətində onun sədaqət andı içməsi çox inandırıcı şəkildə verilmişdir ki, bu da qətiyyən düzgün deyildir. Rusiyaya tabe olmaq istəməyən xan, əslində imperatriçaya sadiq qalacağına heç bir rəsmi sənədlə razılığını bildirməmiş, bu zaman xanın sözlə verdiyi "vəd" isə diplomatik manevrdən başqa bir şey deyildir.

***Şamaxı xanlığının tarixi sovet dövrü və müstəqilliyin bərpasından sonrakı dövr Azərbaycan tarixşünaslığında.*** Azərbaycanda müstəqil xanlıqlar dövrü tarxinin öyrənilməsi, xanlıqların ictimai-iqtisadi və siyasi həyatının tədqiqi məsələlərinə istər sovet dönəmi tarixşünaslığında, istərsə də müstəqillik bərpa olunduqdan sonrakı tarixşünaslığımızda da xeyli iş görülmüşdür. Xanlıqların yaranma tarixi, onların inzibati, sənətkarlıq, aqrar quruluşu, sosial-iqtisadi inkişafı siyasi tarixi və ətraf xanlıqlar və dövlətlərlə geniş əlaqələrinə dair xüsusi monoqrafiyalar yazılmışdır. Bu tədqiqat işləri içərisində sovet dövrü H.Abdullayevin, F.Əliyevin, H.Dəlilinin və başqalarının əsərlərini göstərə bilərik.

Biz mövzunun öyrənilməsi səviyyəsindən bəhs edərkən Azərbaycan sovet dövrü tədqiqatçılarından Ə.Cəfərovun dissertasiyasını da mütləq qeyd etməliyik. Ə.Cəfərov dövrün tələblərinə uyğun olaraq qeyd etdiyimiz digər müəlliflər kimi burda Rusiyaya birləşmə meylinin dərin kök salması fikrini əsaslandırmağa çalışmış və dissertasiyada əsas diqqəti Şirvan əyalətinin yaradılmasından sonra "dağıdılmış Şamaxı şəhərinin təməlinin qoyulmasına" və Rusiya təbəəliyində daha da inkişaf etməsinə yönəltmişdir. Doğrudur kommunist ideologiyasının tələblərinə uyğun olaraq yazmağa məcbur olmuşdur. Ancaq, tədqiqat işində şamaxılı Mustafa xanın Çarizmə qarşı apardığı mübarizə tarixini izləmək mümkündür.

Digər sovet dövrü Azərbaycan tarixinin tədqiqatçılarından olan H.B.Abdullayev zəngin arxiv materialları əsasında yazdığı əsərlərində əsas diqqətini Quba xanlığı ilə Rusiya münasibətlərinin araşdırılmasına yönəltdiyinə görə digər xanlıqlar nəzərdən yayındırılmışdır. Şamaxı xanlığı müəyyən zamanlarda Quba xanlığının istilası altında olduğundan müəllifin digər əsərində Şamaxı xanlığının Quba xanlığı ilə siyasi-iqtisadi münasibətlərinə müəyyən dərəcədə aydınlıq gətirilmişdir. Müəllif Şamaxı xanlığı ilə münaqişə ərəfəsində Quba xanlığının böyük hərbi hazırlıq işləri görməsini təqdim edir və burdan görünür ki, Şamaxı xanlığı heç də asan rəqib olmamışdır. Əlavə olaraq müəllif 1758-ci ildə Ağa Rəzi bəyin Bərmək (Qubada) mahalına yürüşü məğlubiyyətlə nəticələnsə də həmin dövrdə Quba xanlığının Şamaxını tabe edəcək vəziyyətdə olmadığını bildirir [1, s.19].

Şamaxı xanlığının tarixini tədqiq edən müəlliflərdən biri olan A.Fituni də Şamaxı xanlarının siyasi əlaqələrini geniş şəkildə təhlil etmişdir. Xanlığın siyasi həyatında mühüm rol oynayan Fitdağ qalasının əhəmiyyətindən bəhs edən müəllif xanlığın fars və rus ordularına qarşı apardığı mübarizə zamanı Mustafa xanın bu qalada müdafiə olunduğu göstərir. A.Fituni qeyd edir ki, 1796-cı ildə ruslar xanlığın ərazisinə daxil olarkən Mustafa xan ilk olaraq Fitdağda möhkəmlənsə də, vəziyyətin çətinliyini görüb İrana qaçmağa cəhd edir, lakin bütün yollar bağlandığından o, Qarabağa getməyi planlaşdırır [15, s.98]. Müəllifin yanlış fikirlərinə rəğmən deyə bilərik ki, Ağa Məhəmməd şah Qarabağa təzə rədd cavabı verən Mustafa xanın İrana qaçmağa cəhd etməsi tarixi reallıqdan xeyli kənardır. Çünki müəllif eşitdiklərinə əsaslandığına görə məlumatı verərkən heç bir mənbəyə istinad etmir. Azərbaycan xanlıqlar zamanının tədqiqatçılarından olan F.Əliyevin də xidmətləri də danılmazdır. Tədqiqatlarında, xüsusilə Azərbaycan şəhərlərinin inkişaf xüsusiyyətlərini araşdıran tədqiqatçı, həm də Şamaxı şəhərinin sənətkarlıq və ticarət mərkəzi kimi təhlilini vermişdir [3, s.136].

Digər tədqiqatçı F.Ağamalı tarixşünaslığımızda ilk dəfə olaraq Azərbaycan xanlıqlarının sosial-iqtisadi vəziyyətini mənbələr hesabına ətraflı tədqiq etmişdir. Şamaxı xanlığının tarixinin çoxsaylı məsə-

lələri, xüsusən xanlığın İran və Rusiya ilə münasibətləri G.Məmmədovanın tədqiqatında əks olunmuşdur. Tədqiqatçı XVIII yüzilliyin 60-cı illərində Şamaxı xanlığının Rusiya ilə ticarətdə böyük rol oynadığını əsas plana çəkməklə bərabər xanlığın siyasi həyatına da geniş yer verir. Əsərdə 1757-ci ildə Məhəmmədhəsən xan Qacarın Azərbaycana yürüşü vaxtı Quba, Qarabağ və Bakı xanlarının Qacar təhlükəsinə qarşı birləşməsi zamanı Şamaxı xanının Hacı Məhəmmədəli xanın bu ittifaqda yer aldığı göstərilir. Müəllif haqlı olaraq qeyd edir ki, İran (Persiya) XVIII yüzilliyin 60-cı illərində şimal xanlıqlarını silah gücünə tabe edəcək qüvvəyə malik deyildi [16, s.128]. Tədqiqatçının digər əsəri V.A.Zubovun 1796-cı ildə Azərbaycana yürüşünə həsr olunub. Əsər yeni konsepsiya əsasında yazılmışdır və burda sübut edilmişdir ki, rus işğalına məruz qalmış Azərbaycan xanlıqlarından heç biri, o cümlədən Şamaxı öz hakimiyyətini Çar Rusiyasına güzəştə getmək istəyində deyildi.

C.Mustafayev öz tədqiqat əsərində Azərbaycan xanlıqlarının çarizmlə siyasi iqtisadi əlaqələrini təhlil etmiş, Şamaxı xanlığının Rusiya ilə münasibətlərinə obyektiv müstəvidən yanaşaraq dövriyyəyə qiymətli materialları cəlb etmişdir. Müəllif Fitdağ qalasının xanlığın siyasi həyatında oynadığı fərqli rolu qeyd etmişdir. C.Mustafayevin digər bir əsərində isə xanlıqlar dövründə Şamaxı xanlığında sənətkarlığın inkişafına və təsnif edilməsinə, sənətkarlardan alınan vergilərin miqdarına və növlərinə və s. məsələlərə xüsusi diqqət yetirilmişdir [5, s.276]. Quba xanlığının tərkibində olamsına baxmayaraq Şamaxı xanlığı ilə oxşarlıq təşkil edən Bakı xanlığının tarixinə həsr olunmuş M.İsgəndərovanın monoqrafiyası çoxsaylı mənbələrə istinadən yazılmışdır. Əsərdə Bakı xanlığının Şamaxı xanlığı ilə mövcud olan iqtisadi ticarət əlaqələrinə toxunulmuşdur.

Uzun zaman Sovet tarixşünaslığında Azərbaycan xanlıqlarının qonşu dövlətlərlə, əsasən də Osmanlı ilə qarşılıqlı münasibətlərinə birtərəfli və ziddiyyətli şəkildə yanaşma mövcud olmuşdur. Bu baxımdan ilk dəfə G.Nəcəflinin XVIII yüzilliyin II yarısında Azərbaycan xanlıqlarının Osmanlı dövləti ilə siyasi münasibətlərinə həsr olunan monoqrafiyasında xanlıqların qonşu dövlətlərlə əlaqələrinə onla-

rın öz müstəqilliyini qorumaq siyasəti kimi baxılmış və qismən də olsa Şamaxı xanlığının Osmanlı dövləti ilə əlaqələrinə toxunulmuşdur.

Azərbaycan xanlıqlarının, o cümlədən Şamaxı xanlığının Osmanlı dövləti ilə münasibətlərinə xronoloji baxımdan geniş aspektdə professor T.Mustafazadə özünün "XVIII yüzillik - XIX yüzilliyin əvvəllərində Osmanlı-Azərbaycan münasibətləri" əsərində toxunmuşdur. Adı çəkilən dövrdə Osmanlı Azərbaycan münasibətlərini tədqiq edərkən haqlı olaraq Şamaxı xanının Ağası xanın Osmanlı ilə ittifaq qurulmasına meyil etməsinin səbəbini Çarizmə deyil, qubalı Fətəli xana qarşı mübarizəni davam etdirmək niyyətində olması kimi şərh edir [6, s.368]. Doğrudan da qeyd edilən dövrdə çar Rusiyasının Şamaxı xanlığına, o cümlədən Azərbaycanın şimal xanlıqlarına real hücum təhlükəsi gözlənilmirdi. Prof.T.Mustafazadənin Quba xanlığının siyasi tarixinə həsr etdiyi digər bir tədqiqat əsərində qubalı Fətəli xanın Azərbaycan torpaqlarını (şimal-şərq hissəsi) birləşdirməsi fonunda Şamaxı xanının xanlığın müstəqilliyini saxlamaq üçün apardığı mübarizə; Quba xanına xərac verməkdən boyun qaçıran Şamaxı xanlığı ilə Quba xanlığı arasında 4 illik (1765-1769) müharibə tarixi yeni qaynaqlardan yararlanaraq işıqlandırmışdır [7, s.455].

XIX əsrin əvvəllərində Azərbaycanın Arazın şimalındakı xanlıqlarının çarizmə qarşı azadlıq mübarizəsi və Azərbaycan torpaqlarının iki yerə bölüşdürülməsi tarixçi V.Umudlunun əsərində yeni baxış açısından, obyektiv şəkildə araşdırılmışdır. Şimali Azərbaycanın şimalında yerləşən xanlıqların sərhədləri haqqında yanlış sayılan fikri təkrar etməsinə baxmayaraq Şamaxı xanlığının Rusiyanın Şimali Azərbaycanı işğal etdiyi zaman müqavimət göstərməsini obyektiv müstəvidən işıqlandırmışdır [10, s.183].

Xanlıqlar dövrünün aqrar münasibətlərinin araşdırılmasında M.Abdullayevin "Xanlıqlar və rus müstəmləkəçiliyi dövründə şimali Azərbaycanda aqrar münasibətlər (XIX əsrin 40-cı illərinə qədər) adlı tədqiqat əsərini xüsusilə qeyd etməliyik. Əsərdə Azərbaycanın şimaldakı xanlıqlarına, o cümlədən Şamaxı xanlığına aid torpaq mülkiyyət formalarına diqqət yetirilmiş,vergi ödəyən əhali haqqında dəqiq statistik məlumatlara daha çox yer verilmişdir.

XVIII yüzilliyin II yarısı - XIX yüzilliyin 20-ci illərində Şamaxı xanlığı və onun digər dövlətlərlə münasibətləri ilk dəfə, kompleks şəkildə tədqiqata N.Bayramova tərəfindən cəlb edilmişdir. N.Bayramovanın monoqrafiyası Şamaxı xanlığının tarixini dövrün qaynaqları əsasında hərtərəfli araşdırılması baxımından mühüm elmi əhəmiyyət kəsb edir. Monoqrafiya giriş, 4 fəsil və nəticə hissələrindən ibarətdir. Giriş hissədə N.Bayramova Şamaxı xanlığının tarixşünaslıq məsələlərinə toxunur və burda Sovet dövrü Rus və Azərbaycan tədqiqatçılarının əsərlərinin qısa təhlilini verir. Ardınca müəllif müstəqillik dönəmi Azərbaycan tarixşünaslığına diqqət ayırır və son olaraq Azərbaycan tarixşünaslığında bu mövzu ilə əlaqədar boşluğu vurğulayır. "Şamaxı xanlığı" əsəri özlüyündə yeni elmi yenilikləri özündə ehtiva edir. Belə ki, müəllif ilk olaraq Şamaxı xanlığının yaranması və ikihakimiyyətlilik məsələsinə ilkin qaynaqlardan istifadə edərək aydınlıq gətirmiş, Kərim xan Zəndlə xanlığın yaranmasının heç bir əlaqəsinin olmamasını ilkin mənbələr hesabına təkzib etmişdir. İkinci, ən mühüm töhfə isə Şamaxı xanlığının inzibati-idarə quruluşunun aydınlaşdırılması və xanlığın mahallarının sayının dəqiqləşdirilməsidir. Bundan başqa müəllif xanlığın qonşu Dağıstan hakimləri ilə qarşılıqlı münasibətlərini ilk dəfə elmi ədəbiyyata gətirmişdir. Digər bir mühüm nailiyyət isə ilkin mənbələrə əsaslanaraq Şamaxı xanlığının Osmanlı imperiyası ilə qarşılıqlı əlaqələrinin aydınlaşdırılmasıdır. Monoqrafiyada xanlığın Çar Rusiyası tərəfindən işğal edilməsindən sonra Mustafa xanın tutduğu mövqe və yeritdiyi siyasətin də əsas prinsipləri qeyd edilmiş və elmi cəhətdən əsaslandırılmışdır. Müəllif mənbələrdən istifadə edərək Şamaxı xanlarının şəcərəsini dəqiqləşdirməyə müvəffəq olmuş və onu tərtib etmişdir. Digər mühüm elmi nailiyyət isə xanlığın inzibati xəritəsinin tərtib edilməsidir.

Müəllif "Şamaxı xanlığı" və "Şirvan xanlığı" adlanmasına aydınlıq gətirir və "Şirvan xanlığı" ifafəsinin doğru olmadığını göstərir və yazır: "Şamaxı xanlığı"nın "Şirvan xanlığı" kimi adlandırılması düzgün deyil və eyni zamanda Şirvan bölgəsində mövcud olan digər xanlıqların tarixinin kölgədə qalması deməkdir" [1, s.29]. Bundan başqa N.Bayramova ikihakimiyyətliliyin sona çatması məsələsinə də

toxunur və burada Hacı Məhəmmədəli xanın hakimiyyətdən devrilməsi məsələsini geniş şəkildə, bir çox tədqiqatçıların əsərlərinin müqayisəsi əsasında təhlil etmişdir. Əlavə olaraq, Nailə xanım ilk dəfə olaraq mahalların sərhədlərini göstərmişdir. Ən böyük mahalın Salyan olduğunu (24 kənddən ibarət) və Mustafa xanın xüsusi mülkiyyətində olduğunu qeyd edir və ardınca əsas kəndləri sadalayır: Arbatan, Marışlı, Salyan, Bayat ,Sarvan, Qızılağac, Rudbar mahalı, Muğan, Xançobanı, Lahıc, Qarabağlar, Qoşun, Qəbiristan (bu mahal Pirsaat çayının hər iki tərəfində Şamaxıdan şərq və şimal-şərq istiqamətdə yerləşirdi), Bölükət, Əkərət, Sərdərin və Elat mahallarını kəndləri ilə birlikdə qeyd etmişdir [1, s.41].

Monoqrafiyada rus işğalından sonra 1820-ci il siyahıyaalmasının materialları göstərilir. Digər diqqət yetirilən məsələ isə iqtisadi-sosial vəziyyətdir. Belə ki, tədqiqatçı vergi növlərini və mülkiyyət formalarını qaynaqlar əsasında göstərir. N.Bayramova qonşu xanlıqlarla münasibətləri tarixini 2 xronoloji dövrə bölür:

1. Xanlığın yaranmasından qubalı Fətəli xanın ölümünə qədərki mərhələ; bu zaman kəsiyində xanlıq, əsasən Fətəli xan tərəfindən Quba xanlığına birləşdirildiyi üçün Dağıstan hakimləri ilə münasibətlər Fətəli xan Qubalının birləşdirmə siyasətinə qarşı olmuşdu.

2. Şamaxı xanı Mustafa xanın hakimiyyəti zamanında yaranan mərhələ. Bu dövrdə Şamaxı xanlığının Dağıstan hakimləri ilə münasibətləri müstəqil xarakter daşımışdır. Müəllif ittifaqın yaranmasını doğuran səbəbləri də verir: “1757-ci ildə Dərbəndin Quba xanlığı tərəfindən ələ keçirilməsi Dağıstan hakimlərini narahat etməyə bilməzdi” [1, s.85]. III fəslin 2-ci hissəsi isə yuxarıda qeyd etdiyimiz kimi Osmanlı ilə münasibətlərə həsr edilmişdir. Bu dövrdə xanlığın Osmanlı dövləti ilə əlaqələri haqqında ən çox rus mənbələri məlumat verir. Bu isə təbii ki, zamanın beynəlxalq vəziyyəti ilə birbaşa bağlı idi. 1768-1774-cü illərdəki Rusiya-Osmanlı müharibəsinin gedişində hər iki dövlət Azərbaycan xanlıqlarını öz tərəfinə çəkməyə çalışmışdı. Qonşu dövlətlərlə münasibətdə ən gərgin xarakter Rusiya ilə əlaqələrdə özünü göstərirdi [1, s.111-112].

N.Bayramova göstərir ki, əldə edilmiş razılığa əsasən, Səlim xan P.D.Sisianovun göstərişi ilə Mustafa xanı əmin etməli idi ki, Rusiyanın "himayəsində "heç kim heç nəyi ondan ala bilməz. Müəllif qeyd edir ki, burda Şəki xanı Səlim xanın da öz məqsədi var idi. Hətta Sisianova bir neçə dəfə xahiş də etmişdi ki, Məhəmmədhəsən və Musxanı hakimiyyətdən devirməyə kömək etsin [1, s.117]. N.Bayramova Şamaxı xanlığı ilə bağlanmış 1805-ci il müqaviləsinin Sisianov tərəfindən göndərilən tələblərini və sonradan müqavilənin bağlanmasını göstərir. Müəllif ardınca 1820-ci il hadisələrini bizə çatdırır və xanlığın ləğvindən sonra davam edən mübarizəni qeyd edir [1, s.125-126]. Bizim Nailə Bayramovanın "Şamaxı xanlığı" monoqrafiyasına geniş yer verməyimizin əsas səbəbi monoqrafiyanın Azərbaycan tarixşünaslığında Şamaxı xanlığı tarixinə ilk dəfə olaraq kompleks yanaşıldığı və xanlığın bütün həyatını əks etdirən tədqiqat işi olması ilə bərabər çoxlu sayda mötəbər mənbələrdən istifadə edilməsidir.

***Nəticə.*** XVIII yüzilliyin 40-cı illərinin sonlarında Nadir şahın ölümündən sonra Azərbaycanda baş verən hadisələrlə əlaqədar olaraq Şamaxı xanlığının meydana gəlməsi tarixi gerçəkliyin obyektiv təzahürü idi. Xanlıqda 1763-cü ilə qədər ikihakimiyyətliliyin mövcud olması onu digər xanlıqlardan fərləndirən əlamətlərdən biri idi ki, biz yuxarıda bu məsələ haqqında müəlliflərin bizə çatdırdığı məlumatlara istinad etmişik. Ümumiyyətlə, Şamaxı xanlığının tarixi uzun və diqqətli tədqiqat işlərinin aparılmasına ehtiyac duyur. Sovet dövrü xanlığın tarixinə birmənalı yanaşıldığını bilirik. Rus və Azərbaycan tarixçiləri bu məsələyə birbaşa toxunmamış, digər siyasi-tarixi məsələlər fonunda vermişlər. Buna görə də günümüzdə bu məsələ ilə bağlı çoxsaylı tədqiqat işlərinə rast gəlmək çətindir. Müstəqilliyimizin bərpasından sonrakı dövr tarixşünaslığımızda da xanlığın tarixi birbaşa tədqiqata cəlb edilməmiş, yalnız digər siyasi-iqtisadi məsələlərlə bağlı bu və ya başqa Azərbaycan xanlıqlarına həsr olunmuş tədqiqat əsərlərində göstərilmişdir. Xanlığın tarixini ilk dəfə kompleks şəkildə Nailə Bayramova öz tədqiqatına cəlb etmiş və ilk dəfə olaraq Şamaxı xanlığının bütün həyatını öz monoqrafiyasında işıqlandırmışdır. Monoqrafiyanın böyük əhəmiyyəti ondan ibarətdir ki, bu vaxta qədər

heç bir tədqiqatçı kompleks şəkildə, dövrün qaynaqları əsasında Şamaxı xanlığının tarixini bu qədər dərindən araşdırmayıb. Tarixşünaslığımızın qarşısında duran problemlərdən olan Şamaxı xanlığı Şirvanşahların yadigarı olaraq bu gün üçün də müəyyən məsələlərin araşdırılması üçün vacib tədqiqat obyektidir.

ƏDƏBİYYAT

1. Bayramova N. Şamaxı xanlığı. Bakı, Təhsil, 2009, 396 s.
2. Əliyev F., Həsənov Ü. İrəvan xanlığı. Bakı, Azərnəşr, 1997, 172 s.
3. Əliyev F.M Şimali Azərbaycan şəhərləri. Bakı, Azərbaycan SSR Elmlər Akademiyası, 1960, 134 s.
4. Nəcəfli G. Azərbaycan xanlıqlarının Osmanlı dövləti ilə siyasi əlaqələri (XVIII əsrin II yarısı). Bakı, Nurlan, 2002, 132 s.
5. Mustafayev C. Xanlıqlar dövründə Azərbaycanda sənətkarlıq. Bakı, Elm, 2002, 340 c.
6. Mustafazadə T. XVIII yüzillik - XIX yüzilliyin əvvəllərində Osmanlı-Azərbaycan münasibətləri. Bakı, Elm, 2002, 372 s.
7. Musazadə T.T. Quba xanlığı. Bakı, Elm, 2005, 480 s.
8. Qarayev E. Azərbaycan XVIII əsr rus və Qərbi Avropa səyyahlarının təsvirində. Bakı, ADPU-nun mətbəəsi, 2005, 160 s.
9. Osmanlı Devleti ile Azerbaycan Türk Hanlıkları Arasındakı Münasibetlere Dair Arşiv Belgeleri (1575-1918). TC Başbakanlık Devlet Arşivleri Genel Müdürlüğü. Ankara, 1993, 261 s. - https://www.devletarsivleri.gov.tr/cdn/file/download?fileId=35 [03.04.2023].
10. Umudlu V. Şimali Azərbaycanın çar Rusiyası tərəfindən işğalı və müstəmləkəçilik əleyhinə mübarizə (1801-1828). Bakı, Elm, 2004, 180 s.
11. Иоаннисян А.Р. Россия и армянское освободительное движения в 80-х годах XVIII столетия. Ереван, Изд-во АН АрмССР, 1947, 193 [1] с.
12. Дубровник Н.Ф. Поход графа В.А.Зубова в Персии в 1796 году., lV. 495 с.

13. Описание Ширванской провинции, составленное в 1820 году, по распоряжению главноуправляющего в Грузии Ермолова, генерал-майором Князем Мадатовым и действительным статским советником Могилевским. Тифлис: [б.и.], 1867, 287 с.: табл., 36 см. - http://web2.anl.az:81/read/page.php?bibid=vtls000045161 [03.04.2023].
14. Броневский С.Б. Новейшие географические и исторические известия о Кавказе. Ч.II. М., Тип.: С.Селивановского, 1823, 485 с. - https://runivers.ru/lib/book3109/ [03.04.2023].
15. Энциклопедический словарь. Том XVII. СПб., 1899, 387 с.
16. Мамедова Г. Русские консулы об Азербайджане. Баку, Элм, 1989, 128 с.

**SHAHRİYAR SAMANDAROV**
*4th year student of History Faculty of Baku State University*

## ABOUT THE LEVEL OF LEARNING OF THE HISTORY OF THE SHAMAKHI KHANATE

Despite covering a small period of the history of Azerbaijan's statehood, the era of "khanates" is remembered for its specific characteristics. This period is characterized by the restoration of our statehood traditions and the political struggle of the khanates, which are small states, among themselves and with neighboring states. In this article, a logical analysis of Russian and Azerbaijani historians dedicated to the history of the Shamakhi Khanate, as well as the research works on the subject, was carried out from the point of view of historiography, and analyzes of the problem posed in various research works were given.

*Key words*: Shamakhi khanate, khanates, Russia.

*Daxil olma tarixi*: 03.04.2023-cü il.
*Çapa imzalanma tarixi*: 05.05.2023-cü il.

**UOT 94**

**TƏRLAN TAHİRZADƏ**
*Bakı Dövlət Universitetinin SABAH Qrupları*
*Tarix müəllimliyi ixtisası üzrə IV kurs tələbəsi*
**terlantahirzade1802@gmail.com**

# EKSSENTRİK ŞƏXSİYYƏT VƏ LİDER – MÜƏMMƏR ƏL-QƏDDAFİ

*Elmi rəhbər:*
tarix üzrə fəlsəfə doktoru İqbal Ağayev

*Liviya lideri Müəmmər əl-Qəddafi XXI əsrin haqqında çox danışılan tarixi şəxsiyyətlərindən biridir. Onun həyatı, ölkəni idarə etmək üçün göstərdiyi təşəbbüs, fəal xarici siyasəti, terror aktları Qərb və İslam dünyasında müxtəlif cür emosiyalar doğurmuşdur. Müəmmər əl-Qəddafi Qərb və sosialist ölkələri, transformasiyalar və İslam ənənələri arasında tarazlıq qurmuş, güclü sosial subsidiyalar sistemi təşkil etməklə Liviya xalqının həyat səviyyəsini xeyli yüksəltmişdir. Müəmmər əl-Qəddafi dövlət quruluşu ilə bağlı fikirlərini "Yaşıl kitab"da ümumiləşdirmişdir.*

*Hazırki məqalədə Müəmmər əl-Qəddafi şəxsiyyətinə fərqli rakurslardan yanaşmaqla əldə olunmuş materiallar əsasında onun haqqında yazılmış ziddiyyətli fikirlərə aydınlıq gətirilməsinə cəhd edilmişdir.*

*Açar sözlər:* Müəmmər əl-Qəddafi, "Yaşıl kitab", Böyük sosialist xalqın Liviya Ərəb Cəmahiriyyəsi.

***Giriş***. Müəmmər əl-Qəddafinin hakimiyyəti dövrü, şübhəsiz ki, həm müsbət, həm də mənfi cəhətləri özündə cəmləşdirmişdir. Liviya xalqı o dövrdəki maddi rifahının yüksəlişini Müəmmər əl-Qəddafiyə borcludur. İnqilabi yolla hakimiyyətə gəlməsinə baxmayaraq, Qəddafi Liviyanı islahatları ilə modernləşdirmiş və onu Şimali Afrikanın iqtisadi cəhətdən ən inkişaf etmiş ölkələrindən birinə çevirmişdir. Qəddafi ilk növbədə ölkədə Qərb təsirindən qurtulmaq üçün addımlar atmışdır. Fikrimizcə, M.Qəddafinin ölümünün də əsas səbəbləri bununla bağlı olmuşdur. Qəddafi dövrü üçün vurğulanması lazım olan digər məsələ beynəlxalq terrora verilən dəstəkdir. Beynəlxalq

terrorizmə verilən dəstək Qəddafinin zehniyyətində imperializmlə mübarizə üsulu olmuşdur. Qeyd olunmalıdır ki, Qəddafi dövründə Liviyanın rəsmi adı Böyük Sosialist Xalq Liviya Ərəb Cəmahiriyyəsi olmuşdur.



***Müəmmər əl-Qəddafinin həyatı.*** 1942-ci ildə Liviyada dünyanın siyasi proseslərinə əhəmiyyətli dərəcədə dəyişiklik gətirəcək bədəvi qəbiləsinin yeni nümayəndəsi dünyaya gəlmiş, gənc yaşlarından etibarən özünü siyasi aləmə ataraq məhsuldar torpaqlar axtarışına başlamışdır. Sirt, Səbha və Misurat şəhərlərində dərin biliklərə sahiblənən Qəddafi 1956-cı ildə baş verən Süveyş böhranı zamanı anti-İsrail əleyhinə aksiyalarda iştirak etmişdir. Liviya torpaqlarına Qərb qüvvələri nəzarət etmək üçün mübarizə aparmışdır (1). Qəddafi siyasi planlarını həyata keçirmək üçün 1963-cü ilin oktyabrında Benqazi Hərbi Akademiyasına daxil olmuş və hərəkatın digər üzvlərini də oraya qoşulmağa razı salmışdır. O, bu adamlarla və iman gətirmiş digər hərbi qulluqçularla birlikdə 1964-cü ildə ciddi kollegial qaydada təşkil edilmiş Azad İttifaq Zabitlərinin mərkəzi komitəsini yaratmışdır. Həmin dövrdə Qəddafi üç il müddətinə Benqazi Universitetində tarix fakültəsi üzrə kurslarda iştirak edərək qeydiyyatdan keçmişdir (2). Təkcə Şərq şəhərlərində aldığı biliklərlə qane olmayan Müəmmər Qəddafi 1966-cı ildə İngiltərədə hərbi təlimlərdə iştirak edərək kapitan rütbəsi ilə öz vətəninə geri dönmüşdür (3). Onun belə əzmkar mübarizəsi öz bəhrəsini verir. Belə ki, 1967-ci ildə Liviya kralı I İdrisin göstərişi olmadan könüllü şəkildə Misir prezidentinə müharibə zamanı kömək dəstəsi göndərmiş və onun bu addımı Ərəb dünyasında rəğbət hissi ilə qarşılanmış və nüfuzunu artırmışdır. 1969-cu ildə 3 dəfə çevrilişə cəhd göstərsə də, yalnız onlardan biri uğurlu olur və həmin il sentyabrın 1-də Qəddafi qüvvələri Tripoli və Benqazidə mühüm yerlərə nəzarəti ələ keçirərək Liviya Ərəb Respublikasının yaradıldığını elan edirlər (1).

***Müəmmər Qəddafinin daxili siyasəti.*** 1970-ci ildə Liviya Ərəb Respublikasının idarəçiliyi üçün səsvermə keçirildi. Müəmmər Qəd-

dafi ölkənin baş və Müdafiə naziri ilə yanaşı, eyni zamanda Liviya Hərbi Qüvvələrinin Baş komandanı seçilir. Hakimiyyətə gələr-gəlməz Qəddafi ölkədə fəaliyyət göstərən bankları və neft şirkətlərini milliləşdirmək qərarına gəlir. O, eləcə də xarici hərbi qüvvələri ölkədən çıxarır. Müəmmər Qəddafi İtaliyalıları (20 min) Liviyadan qovur. O 2004-cü ildə İtaliyanın baş naziri ilə görüşür və bu hadisəni aradan qaldıracağı barədə söz verir. 2009-cu ildə İtaliyalılarla görüşsə də, Qəddafi verdiyi sözə əməl etməmişdir (3).

Müəmmər Qəddafinin dövründə əhalinin bütün təbəqələri üçün əlverişli şərait yaradılmışdı. Qəddafinin hakimiyyəti illərində təhsil və səhiyyə işinə xüsusi dəyər verilirdi. Onun dövründə nəinki Liviyada, eləcə də Afrika dünyasında ən yaxşı səhiyyə sistemi qurulmuşdu. Səhiyyə və təhsil tamamilə pulsuz idi. Əgər ölkə vətəndaşları ölkə daxilində istədikləri təhsil və ya səhiyyə xidməti ala bilmirdilərsə xaricə onlara bu xidmət üçün əlavə vəsait ödənilirdi. Qəddafi hakimiyyətə gələnə qədər əhalinin cəmi 25% savadlı idisə, Qəddafinin dövründə bu rəqəm 87%-ə çatmışdı (4).

Afrika ölkələrində olan ən böyük problemlərdən biri də suvarma sistemi hesab edilirdi. Məhz Müəmmər Qəddafinin hakimiyyəti dövründə Liviyada dünyanın ən böyük suvarma sistemi yaradılmışdı. Kənd təsərrüfatı sahəsində böyük işlər görüldü. Fermerlərə öz təsərrüfatını qurmaq üçün heç bir vergi ödəmədən onlara torpaq sahəsi, mal-qara və digər lazımi avadanlıqlar verilirdi. Əhalinin istifadəsi üçün ucuz benzin satılırdı. Dünya ölkələrinin problemli məsələlərindən biri onların dünya bankına olan borcu hesab edilirdisə, Liviya istisnalıq təşkil edirdi. Liviya hətta dövlətə məxsus banka sahib yeganə dövlət idi. Afrika ölkələri ilə sıx əlaqəyə sahib olan Müəmmər Qəddafi Afrika ölkələri üçün "Qızıl dinar" adlı pul dövriyyəyə buraxmışdı (4). Müəmmər Qəddafi qərb ölkələri və NATO-ya qarşı Afrika ölkələri ilə sıx əlaqə bağladığı üçün NATO-nun hərbi bazalarını bağlamışdı.

Bildiyimiz kimi, hər bir ölkənin iqtisadiyyatının əsas hissəsini onun vergisi formalaşdırır. Lakin burada böyük vergi və eləcədə rüşvət qadağan edilmişdi. Onun İslami dəyərlərə verdiyi üstünlüyü ölkə

ərazisində spirtli içkilərin satışı və istifadəsinin qadağan etməsi ilə də özünü biruzə verirdi. Tarix boyu dünyanın müxtəlif yerlərində müxtəlif təzyiqlərə məruz qalan və sıxılan zəncilər Müəmmər Qəddafinin dövründə insan hüquqları əldə ediblər (3). Qəddafi neftin siyasi gücünü çox yaxşı bilirdi. Onun rejimi ölkənin əsas gəlir mənbəyi olan neft gəlirlərinin bölgüsündə inhisarı özündə saxlayırdı. Bir vaxtlar Britaniya Baş naziri Toni Bleyr (Tony Blair) tərəfindən "cəsarətli", ABŞ prezidentliyə namizəd Con Makkeyn (John McCain) tərəfindən "maraqlı adam" adlandırılan, görüşlərdə Qərb liderləri tərəfindən qucaqlanan Qəddafi cəmi bir neçə ayın içində "şeytan"a çevrilmiş, tiran adlandırılmış, qəddarcasına öldürülməsi hər kəs tərəfindən rəğbətlə qarşılanmışdır

***Müəmmər Qəddafinin xarici siyasəti.*** 1969-cu il çevrilişi ilə hakimiyyətə gələn Qəddafi dövründə Liviya ərəb dünyasının ən aktiv xarici siyasət həyata keçirən ölkəsi oldu. O, ilk 20 ildə Ərəb Birliyi ideyasını bütün ərəb coğrafiyasında həyata keçirməyə çalışdı. 1970-ci ildə Liviya, Misir və Suriya arasında aparılan danışıqlar nəticəsində bura "ərəb" adı verildi. "Ərəb Respublikaları Federasiyası" olaraq müəyyənləşdirilən birləşmənin həyata keçirildiyi açıqlansa da, bu bir fikir olaraq qaldı və heç vaxt həyata keçirilə bilmədi. Sonrakı illərdə Tunis, Mərakeş, Çad və yenidən Suriya ilə birləşmə səyləri də nəticəsiz qaldı (5, s.71). İstifadə etdiyi üsul, ideologiya və məqsəddən asılı olmayaraq, Qəddafi Avropadan Amerikaya, Yaxın Şərqdən Afrikaya qədər böyük bir ərazidə bir çox qrup və hərəkata hərbi və maliyyə dəstəyi verdi (6, s.28). Qəddafi "Qara Sentyabr" və "Əbu Nidal" kimi radikal terror təşkilatlarına, həmçinin Yasir Ərəfatın rəhbərlik etdiyi "Fəth", Corc Habaşın rəhbərlik etdiyi Fələstin Qurtuluş Xalq Cəbhəsi, Qırmızı Briqadalar, Qırmızı Ordu və İRA (İrlandiya Respublika Ordusu) kimi təşkilatlara maliyyə, hərbi və maddi-texniki dəstəyi təmin etmişdir (5, s.72). Lakin 80-ci illər Qəddafinin xarici siyasətdə nüfuzunu itirdiyi illər kimi tarixə düşdü. Qəddafi rejimi xarici siyasətdə uğurlarını göstərə bilmədi və dünyanın 80-ci illərinin ən mübahisəli rejimi kimi görünürdü. Qəddafinin Qərb dünyası ilə gərgin münasibətləri ilə beynəlxalq arenada terror dövləti olmaqda

ittiham olunurdu (7, s.58). 1979-cu ildə ABŞ-ın Tehrandakı səfirliyi tutulmuş və Liviya səfirliyi yandırılmışdır. Liviyanın Çadı hərbi yardım olaraq işğalı ilə başlayan prosesdə ABŞ Liviyaya hərbi müdaxilə etmiş, bunun müqabilində beynəlxalq terror təşkilatları vasitəsilə Qəddafiyə qarşı bir sıra aksiyaları maliyyələşdirmişdir (5, s.72-73).

Qəddafinin dəstəklədiyi terror qrupları və səbəblərinin təhlili aydın bir ideoloji model ortaya qoymur. Onun HƏMAS (Fələstinin azad edilməsi), İrlandiya Respublika Ordusu (İrlandiyanın müstəqilliyi) və Qırmızı Briqadalar (Marksist üsyan) kimi müxtəlif qruplara ayrı-seçkilik etmədən sponsorluq etməsi onu göstərir ki, o, terroru inqilabı irəlilətmək üçün bir vasitə kimi deyil, əksinə İsrail və Qərb demokratiyalarına qarşı bir silah kimi istifadə etmişdir (8, s.14-15). Qırılma nöqtəsi olan 5 aprel 1986-cı ildə Qərbi Berlində Amerika əsgərlərinin hədəf alındığı La Belle Disko hücumu həyata keçirildi və bu hadisəyə cavab olaraq ABŞ Tripoli və Benqazi şəhərlərini bombaladı (5, s.72-73). Qəddafi bu hücuma cavab olaraq 21 dekabr 1988-ci ildə London - Nyu-York reysini yerinə yetirən Pan-Am Airlines sərnişin təyyarəsinin Lokerbi yaxınlığında vurulmasını təhrik edərək cavab verdi. Araşdırma nəticəsində bu hadisənin bombalı hücum olduğu təsdiq edildi və üç illik araşdırmadan sonra kəşfiyyat xidmətləri hücumun məsuliyyətinin "Liviya Xarici Kəşfiyyat Xidməti"nə aid olduğunu bildirdi (7). ABŞ və İngiltərə mühakimə olunmaq üçün hadisənin səbəbkarı olduğu müəyyən edilən iki Liviya vətəndaşının ekstradisiyasını tələb etsə də, Qəddafi bu tələbi rədd etdi. Qəddafi hər zaman olduğu kimi hər iki qərarı qəbul etmədi və 1993-cü ildə tətbiq edilən embarqonun əhatəsi genişləndi (9, s.107). BMT tarixində ilk dəfə olaraq bir ölkə bu qətnamə ilə beynəlxalq terrorizmi birbaşa dəstəkləməkdə ittiham olundu. Müsəlman ölkələri, xüsusilə ərəb dünyası Liviya ilə əlaqələrini dayandıraraq BMT-nin qərarlarına əməl edəcəklərini bəyan etdilər (7, s.59).

Qəddafinin 11 sentyabr terror aktlarını pisləməsi və ABŞ-ın Əfqanıstana müdaxiləsinə dəstək verməsi ABŞ ilə Cəmahiriyyə arasında yaxınlaşmanı artırdı və nəticədə ABŞ-ın tətbiq etdiyi birtərəfli

embarqo ləğv edildi (10, s.31). 1996-cı ildə dünya üzrə terrorizmlə bağlı Avstraliyalıların araşdırması göstərir ki, Liviya ilə əlaqəli terror qrupları 20 ay ərzində daha az fəal olublar. Davam edən terror fəaliyyəti yüksək və orta şiddətli aktlardan uzaqlaşaraq, hərbi qüvvənin qarşısının alınmasında müəyyən əhəmiyyət kəsb edə biləcəyini sübut edən aşağı şiddətli aktlara keçdi. Qəddafi və nazirləri qərbli jurnalistlərə müsahibələrində israr edirlər ki, əgər liviyalılar terror aktlarında iştirak ediblərsə, onlar Liviya siyasətini həyata keçirməyiblər. "Bu, Qəddafinin 1970-1980-ci illərdə terrorçuların qəhrəman və şəhid kimi ucaldıldığı ictimai ritorikası ilə kəskin şəkildə ziddiyyət təşkil edir. Qəddafi inqilabi qeyrətinə görə yüksək qiymət ödədi. Onun Liviya hüdudlarından kənarda faktiki olaraq heç bir dostu və müttəfiqi yoxdur. Onun terrora dəstəyi, İnqilabı inkişaf etdirmək və siyasi nüfuzunu artırmaq əvəzinə, Liviyanın təcridini artırdı, iqtisadiyyatı şikəst vəziyyətə saldı və daxili müxalifət qruplarını cəsarətləndirdi (8, s.14-15).

Böyük ərəb dünyasında Qəddafinin Fələstin probleminin zorakılıqla həll edilməsində israr etməsi Liviyanı Səudiyyə Ərəbistanı, İordaniya və Körfəz ölkələri hökumətlərindən uzaqlaşdırdı; İran-İraq müharibəsi zamanı Liviyanın İrana dəstəyi hətta Səddam Hüseyni də Qəddafiyə qarşı çevirdi. BMT-nin sanksiyaları ilə əlaqədar Qəddafi xarici siyasət səylərini yenidən müəyyənləşdirməyə çalışıb. Görünən odur ki, hələlik pan-ərəbizmdən imtina edərək və "panafrikanizmi" qəbul edərək, o, Cənubi Afrika prezidenti Nelson Mandela ilə əlaqə saxlayıb və Konqo, Sierra Leone, Eritreya, Liberiya və Sudandakı münaqişələrdə vasitəçilik etməyə cəhd edib. 1998 OAU (ABT) sammitində, Afrika liderləri BMT-nin Liviyaya qarşı hava embarqosuna məhəl qoymayacaqlarını bəyan etdilər. Minnətdarlıq olaraq, Liviya embarqonu pozan hər səfərə görə Afrika sta başçılarını böyük pul hədiyyələri ilə mükafatlandırdı. Onun 40-dan çox radikal hökumətdən əlavə 50-yə yaxın terror təşkilatı və təxribatçı qrupları dəstəklədiyi bildirilmişdi (8, s.14-15).

***"Yaşıl kitab"***. Müəmmər Qəddafi 1970-ci ildə Liviyanı daha çox inkişaf və çiçəkləndirmək üçün yeni, özünə xas inkişaf strategi-

yasını müəyyənləşdirərək onu “Yaşıl kitab”da əks etdirdi. 1975-ci ildə XX əsrin “Qurani-Kərimi” adlanan kitabın bir hissəsi nəşr olundu. Kitab dərhal (Qəddafinin itaətkar təbliğat aparatı tərəfindən) dövlətin “əsas ideoloji sənədi” elan edildi (11). Kitab üç hissədən və bölmələrdən ibarətdir. Qəddafi, ümumiyyətlə hakimiyyət mexanizmini, seçkiləri, parlamenti, siyasi partiyaları, bir sözlə, demokratiyanın bütün alətlərini rədd edir və onları xalqı aldatmaq üçün hazırlanmış alətlər kimi görür. Qəddafi dünyada bütün siyasi sistemlərin eyni məqsədə, yəni diktaturaya xidmət etdiyini, demokratiyanın tanınmış təsisat və təcrübələrinin bu məqsədlə hərəkət etdiyini və bunun alternativlər arasında güc mübarizəsinin məhsulu olduğunu bildirmişdir (5, s.67-68). Bu kitabda cəmiyyətdə baş verən bütün sosial, ictimai, iqtisadi, mədəni, demokratik aspektlərə toxunmuşdur (12, s.59). “Yaşıl kitab” Qəddafinin əsasını qoyduğu üçüncü universal nəzəriyyənin kitabçası idi (13, s.7-22).

***M.Qəddafinin qətli***. Hakimiyyətə gəlişi kimi, Müəmmər Qəddafinin hakimiyyətdən salınması və qətli də bugün maraq doğuran məsələlərdən biri hesab edilir. Bəlkə də Qəddafiyə qarşı başlanan etirazlar zamanı dinc etirazçılara qarşı açılan atəşlər və onların həbs edilməsi gələcək hadisələrin alovlanması üçün qığılcım idi. Baş verən ziddiyyətli hadisəni bəhanə edərək Liviyaya daxil olan NATO hərbi qüvvələri Müəmmər Qəddafinin sonunun gəldiyini bildirirdi (14). Martın 19-da NATO-nun rəhbərliyi ilə Qərb dövlətləri Qəddafi rejiminin mülki vətəndaşları qətlə yetirməsini bəhanə edərək “Sübh səyahəti” adlandırdıqları hava və dəniz əməliyyatına başladılar. Martın 20-də dənizdən və havadan hücumlar sona çatdıqda, rejim qüvvələri ağır yaralandı. Həmin gün Qəddafi atəşkəs elan etdi. NATO əməliyyatından sonra dissidentlər daha da güclənərək ABŞ-ın təşəbbüsü ilə fevralın 27-də “Milli Keçid Şurası”nda birləşdilər. Şuraya bir müddət ədliyyə naziri vəzifəsini icra edən Mustafa Əbdül Cəlil təyin edildi. Şuranın yaradılmasına səbəb Qəzzafi rejiminin devrilməsini təmin etmək idi. Şura qoşunlarına qarşı ağır silahlarından istifadə edə bilməyən rejim qüvvələri aprelin 30-na kimi demək olar ki, bütün mövqelərini itirdi. Həmin tarixdə Qəddafi ümumi atəşkəs

və danışıqlara çağırdı, lakin heç bir cavab verilmədi. Avqust ayına qədər davam edən qarşıdurmalar, nəhayət, 28 avqust 2011-ci ildə Tripolinin süqutu ilə başa çatdı. Müharibə bitəndən 20 oktyabr 2011-ci ilə qədər Qəddafi ölkənin hər yerində axtarışa verilmişdi. Onun haqqında bir çox fərziyyələrə baxmayaraq, həmin tarixdə Sirt şəhəri yaxınlığında gizləndiyi suvarma kanalında müxaliflər tərəfindən diri-diri əsir düşsə də, öldürülmüşdür. Beləliklə, Liviya tarixində bir dövr başa çatdı. Qəddafinin devrilməsi ilə Liviya onilliklər boyu davam edən zülmdən xilas oldu, lakin ərəb baharından uğurla çıxa bilmədi (7, s.65).

***Nəticə.*** Qeyd etdiyimiz bütün faktları nəzərə alaraq, Müəmmər Qəddafinin zəif siyasətçi, lider, diktator olmadığını açıq-aşkar görə bilərik. Müəmmər Qəddafinin xarici siyasətində ən nəzərə çarpan cəhət onun xarici hərbi birləşmələrə maliyyə vəsaiti yatırmağı idi. Beynəlxalq terrrorizmə verilən dəstəkdə Qəddafi özünü haqlı sanırdı. Lakin dünyada geniş regionları əhatə edən hərəkatlara maliyyə və hərbi dəstək verməsi Qəddafinin ən böyük səhvlərindən biri idi. Uğurla davam edən Qəddafi siyasəti 80-ci illərdə iflasa doğru yuvarlandı. Qərb dövlətləri ilə gərgin xarici siyasət yürüdən siyasətçini terrorçu kimi ittiham edərək onun dövlətini terror dövləti adlandırırdılar. Öz dövrünün mürəkkəb siyasi cərəyanları çərçivəsində və 42 illik hakimiyyəti dövründə daima Liviya xalqı üçün əlindən gələni əsirgəməyən lider gələcəkdə baş verə biləcək proseslər barədə də proqnoz vermişdir. Bugünkü Liviya onun proqnozlarının sübutudur. XX əsrdə şərq ölkəsində yaratdığı mühit məhz bizə XXI əsr qərb ölkələrini xatırladır. Bəlkə də Qəddafiyə qarşı hazırlanan təxribat bundan dolayı irəli gəlirdi. Afrika ölkələri birliyi yaratmaq və dünyanın nəhəng güclərinə qarşı mübarizə aparmaq lider haqqında müsbət fikirlər doğurur. Məhz onun hakimiyyəti illərində çiçəklənən və öz dövrünün ən yaxşı yaşayış tərzinə sahib olan xalqın öz əlləri ilə onu hakimiyyətdən salması elə xalqın məhvi demək idi. Qatı dini biliklərə sahib olan Müəmmər Qəddafi özünə xas yürütdüyü siyasətdə Liviya ilə yanaşı dünyada baş verən bütün qlobal problemləri dərindən dərk edərək çıxış yolu tapmaqda idi. Liviya xalqı xarici qüvvələrin təsirinə düşərək

öz həyatları ilə yanaşı gələcək nəsilləri üçün də acınacaqlı həyat bəxş etdilər. Terror aktlarını dəstəkləyən, diktator, tiran kimi dünyaya qarşı gələn Qəddafi Afrika ölkələri ilə sıx əlaqə saxlamağına baxmayaraq sonu heçdə uğurlu olmadı. Liviya üçün onun həyata keçirdiyi siyasi planları, həyatı, qətli haqqında danışarkən onun ziddiyyətli bir şəxsiyyət olduğu qənaətinə gəlmək olar. Müəmmər Qəddafinin sonu da məhz çiçəklənən Liviyanın sonu oldu. Qərbin dəstəklədiyi bir gücün, sabah həmin Qərb tərəfindən tənqid və təhqir olunması, taxtından endirilməsi heç kəsdə təəccüb doğurmadı. Hər sonun əvvəli olduğu kimi, hər əvvəlin də bir sonu olur.

## ƏDƏBİYYAT

1. Sarah Roller. 10 Facts About Colonel Muammar Gaddafi / History Hit, 04 Nov 2021. - https://www.historyhit.com/facts-about-colonel-muammar-gaddafi/ [02.04.2023].
2. Your dictionary. Muammar Al-Gaddafi. - https://biography.yourdictionary.com/muammar-al-gaddafi [02.04.23].
3. İslamazeri. Müəmmər Qəddafi kimdir? - http://www.islamazeri.com/kimkimdir/muemmer-qeddafi-kimdir--36387.html [02.04.23].
4. Qəddafi haqqında bilmədiyimiz - 10 Fakt / Eurasia Diary, Beynəlxalq Analitik İnformasiya Portalı, 04.01.2027. - http://ednews.net/az/news/world/96524-qeddafi-haqqinda-bilmediyimiz [02.04.2023].
5. Gürkan Doğan, Bülent Durgun. Arap Baharı ve Libya: Tarihsel Süreç ve Demokratikleşme Kavramı Çerçevesinde Bir Değerlendirme // Süleyman Demirel Üniversitesi Sosyal Bilimler Enstitüsü Dergisi, Yıl: 2012/1, Sayı: 15, s.61-90. - https://dergipark.org.tr/tr/download/article-file/215801 [02.04.2023].
6. Batı ve Kaddafi Makasında Libya / SETA (Siyaset Ekonomi ve Toplum Araştırma Vakfı) Rapor, No:3, Mayıs 2011, 52 s. - http://file.setav.org/Files/Pdf/20121126135254_seta-bati_ve_kaddafi_makasinda_libya.pdf [02.04.2023].

7. Cantürk Caner, Betül Şengül. Devrimler, Kaos ve İstikrar Arayışları içinde Libya: Tarihsel ve Yapısal Bir Analiz // Uluslararası Afro-Avrasya araştırmaları Dergisi, Sayı:6, 2018-2, s.45-70. - https://dergipark.org.tr/tr/download/article-file/507937 [02.04.2023].
8. Craig R.Black, Commander, U.S.Navy. Deterring Libya the strategic Culture of Muammar Qaddafi. Counterproliferation Paper No.8, USAF Counterproliferation Center Air War College, October 2000, 30 p. - https://apps.dtic.mil/sti/pdfs/ADA446174.pdf [02.04.2023].
9. Kusoglu Baran. Libya Arap Baharına NATO Katkısı // Yasama Dergisi, Yıl: 2012, Sayı:22, s.99-118. - https://www.academia.edu/resource/work/35960377 [02.04.2023].
10. Baltalı Mehmet Ercan. Libya'da Kaddafi Dönemi: Yönetim Tarzı ve Yarattığı Sorunlar. Yayınlanmış Yüksek lisan tezi. Malatya, İnönü Üniversitesi, 2019, 90 s. - http://abakus.inonu.edu.tr/xmlui/handle/11616/14996 [02.04.2023].
11. Müəmmər Qəddafi - tərcümeyi-halı, məlumatı, şəxsi həyatı. Müəmmər Qəddafi: tərcümeyi-halı, ailəsi, şəxsi həyatı, fotoşəkili Qəddafi Müəmmarın tərcümeyi-halı qısaca. - https://m-eng.ru/az/cesspool/muammar-kaddafi---biografiya-informaciya-lichnaya-zhizn-muammar-kaddafi.html [02.04.2023].
12. The Green Book. Muammar al-Gaddafi, 106 p. - https://www.academia.edu/resource/work/39235362 [02.04.2023].
13. Muammer El Kaddafi. Yeşil kitap. Libya Halk Bürosu Yayınları, 1979.
14. Death of a Dictator. Bloody Vengeance in Sirte. / Human Rights Watch, October 16, 2012. - https://www.hrw.org/report/2012/10/16/death-dictator/bloody-vengeance-sirte. [02.04.2023].
15. Neslihan Kibar Önder. Kaddafi Dönemi Libya İç ve Dış Siyaseti: Libya Arap Baharında Türkiye Politikası // Journal of Social Sciences and Humanities, s.136-148. - https://dergipark.org.tr/tr/download/article-file/1663802 [02.04.2023].

**TARLAN TAHIRZADA**
*Baku State University SABAH Groups*
*4th year student of the speciality of History teacher*

# ECCENTRİC PERSONALİTY AND LEADER – MUAMMAR AL-GADDAFİ

Libyan leader Muammar al-Gaddafi is one of the most talked about historical figures of the XXI century. His life, initiative to rule the country, active foreign policy, terrorist acts have caused various emotions in the Western and Islamic world. and established a balance between Islamic traditions and a strong social subsidy system that significantly improved the living standards of the Libyan people. Muammar al-Gaddafi summarized his views on statehood in the Green Book.

*Key words:* Muammar al-Gaddafi, “Green book”, Libyan Arab Jamahiriya of the Great Socialist People.

*Daxil olma tarixi*: 02.04.2023-cü il.
*Çapa imzalanma tarixi*: 05.05.2023-cü il.

**UOT 94(479.24)**

**ÜMİD MİKAYILOV**
*Bakı Dövlət Universitetinin SABAH qrupları*
*Tarix müəllimliyi ixtisası üzrə II kurs tələbəsi*
**umidmikail@gmail.com**

# İSLAM VƏ TÜRK DÜNYASINI BİRLƏŞDİRMƏK YOLUNDA NADİR ŞAHIN DİNİ İSLAHATI

*Elmi rəhbər:*
Tarix üzrə fəlsəfə doktoru Arzu Məmmədova

*Şərqin Son Fatehi adını almış Nadir Şah Əfşar yalnız peşəkar sərkərdə, dövlət başçısı olmamış, öz uzaqgörən siyasəti ilə həm dünyəvi həm dini məsələləri nizama salmağa çalışmış və bu yolda böyük xidmətləri olmuşdur. Səfəvilərin keçmiş qüdrətini bərpa etməklə yetinməmiş Nadir Şah Əfşar yeni hədəflər seçmiş, hətta əvvəki Səfəvi sərhədlərini böyütmüşdür. Araşdırmada Nadir Şah Əfşarın dini baxışları və dini islahatında müəyyən məsələlərə toxunulacaq, onun iki islam məzhəbini birləşdirməkdə əsas məqsədinin nə olduğu, hansı səbəblərə görə Nadir şahın bu islahatı keçirmək zərurəti duyması, bu şəxsiyyətin öz dini baxışlarının necə olması, islahat zamanı Nadir şahın nə qədər qətiyyətli olması və başqa suallara cavab tapmağa çalışacağıq.*

*Açar sözlər:* Nadir şahın dini islahatı, cəfərilik, sünnəlik, İmam Cəfər Sadiq.

***Giriş.*** Nadirin mənsub olduğu əfşarlar (avşarlar) türk mənşəli idilər. Fəzullah Rəşidəddin əfşarları "düzənlikdə yaşayan türk xalqı" adlandırır (5, s.28). Əfşarların türk olması dəfələrlə tarixdə təsdiqini tapmışdır. İnglis tarixçi Lokkart bu barədə yazır: "*Şah İsmayıl öz böyük ordusunu əsasən əfşarlardan və digər 6 türk tayfalarından, məhz Şamlu, Rumlu, Ustaclu, Təkəlu, Zülqədər və Qacar tayfalarından toplayırdı"* (5, s.29). Tarixçi Mirzə Mehdi Tarixi Nadiri əsərində Nadirin əfşarların Qırıqlu yaxud Qırıxlu budağından olduğunu göstərir (5, s.29).

Nadirin atası İmamqulu kasıb idi, heç bir mənsəb və vəzifə sahibi deyildi. Bu nüansı ona görə diqqətə almaq lazımdır ki, onun bütün uğurları onun öz adı ilə bağlıdır. Öz hərbi bacarığı və cəsarətinə inanan Nadir atasının yolundan getmək istəmir və Əbivərd hakimi olan Babaəli bəyin yanında xidmətə başlayır. Hərbi bacarığı ilə tezliklə Babaəli bəyin diqqətini cəlb edən Nadir nəticədə onun qızı ilə evlənir. Nadirin övladları Rzaqulu, Murtuzaqulu və İmamqulu idi. Ona həsr edilən ən sanballı əsərlərdən sayılan Lourens Lokkartın "Nadir Şah" monoqrafiyasında Lokkart Nadirin övladlarının adlarına diqqət etmiş, məhz bu səbəbdən Nadirin və ailəsinin şiə məzhəbindən olması qənaətinə gəlmişdir.

Babaəli bəyin ölümündən sonra onun bütün mirası Nadirə qalır ki, buda onun nüfuzunu daha da qaldırır. Artıq bu dövrdən sonra Nadir feodal hakimiyyət mübarizəsinə qoşulur. Əvvəlcə Məlik Mahmudla ittifaqda olub birgə hərəkət etsə də, sonralar Məlik Mahmudun ən böyük düşmənlərindən birinə çevrilir. Müəyyən vaxtdan sonra Nadirin hərbi uğurları cihana səs salır və 1726-cı ildə Şah Təhmasib öz nümayəndəsi – Həsənəli bəyi Nadirin yanına göndərir (5, s.37). Elə ilk görüşdəcə Həsənəli Şahın rəsmi nümayəndəsi kimi onu Əbivərd şəhərinə başçı təyin edir və Nadiri Təhmasibin yanına dəvət edir. O şahla görüşdükdə vəziyyətin necə olduğunu və ən böyük rəqibinin Fətəli xan Qacar olduğunu anlayır. Saraydakı bürokratik vəziyyət çox qəliz idi. Təhmasibin yanındakı "vəzir-əyan toplusu" nə Nadirin, nə də Fətəli xanın Şaha təsir etməsinə, eləcə də Şahın onlara inanıb güvənməsinə imkan vermirdi. Nadir Lokkartın təbiriycə desək, "gah o yana, gah da bu yana əyilən, yel qovandan başqa bir şey olmayan Təhmasibə bel bağlaya bilməzdi". Tez bir zamanda Nadirlə Fətəli xan arasında gərginlik böyüdü və məğlub olan tərəf Fətəli xan Qacar oldu. 1726-cı ildə Nadir Məşhədi geri qaytardı (5, s.41). Nadirin bu uğurundan qıcıqlanan "vəzir-əyan toplusu" Nadiri şahın gözündə ləkələməyə nail oldular, onun əslində bir satqın olduğunu Təhmasibə inandırdılar. Buna görə Təhmasib namələr paylatdırıb bildirdi ki, heç kəs Nadirə tabe olmasın (5, s.42). Bunu görən Nadir şahın olduğu Xəbuşanı tez zamanda mühasirəyə alıb, Təhmasib tərəfindən

vuruşan kürdləri məğlub etdi və şahla sülh bağladı. Nadirlə Təhmasib arasında bu tipli iğtişaşlar 1732-ci ilə qədər davam etdi. 1732-ci ildən 1736-cı ilə qədər Nadir dövləti körpə Abbasın adı ilə idarə etdi.

III Abbasın ölümü ilə Nadir xanın taxta olan iddiaları artdı. Qurultayın Muğanda – Azərbaycanda keçirilməsi məhz onun vətənə, tük soy kökünə verdiyi dəyərdən irəli gələ bilərdi. Sovet metodologiyasından çıxış edən tarixçilərdən fərqli olaraq, Abbasqulu Ağa Bakıxanov Gülüstani-İrəm əsərində Nadirin Muğan qurultayında qanuni olaraq seçildiyini yazır. Ümumiyyətlə Abbasqulu ağa Bakıxanov Nadir şahı ehtram və hörmətlə yada salmış, onu Səfəvilərin davamçısı olaraq qəbul etmiş və ən əsası isə Osmanlı və İran əhalisi arasında olan sünni-şiə davasını aradan qaldırmaq cəhdini çox yüksək qiymətləndirmişdir (4, s.35).

***Bəs Nadir şah şəxsiyyətinin özü hansı məzhəbdən idi?*** Nadir şahın hansı məzhəbdən olması yaxud hər hansı bir məzhəbə meyil etməsi barədə konkret fakt yoxdur. Qərb araşdırmaçıları onun sünni məzhəbindən olduğunu müdafiə edir. Lourens Lokkart onun şiə məzhəbindən olmasına şübhə ilə yanaşır. Nadir şahın hansı məzhəbdən olması sualı barəsində Ədalət Tahirzadə Nadir Şah Əfşar tərcümeyi-oçerkində yazır ***"Şah elə ilk gündən din işlərinə ciddi diqqət yetirməyə məcbur oldu. Belə ki, sünni Nadir şiə dövlətində şah olmaq üçün şiəliyi qəbul etmişdir".*** Nəticə etibarı ilə Nadir şah tolerant dövlət başçısı olub, hər iki məzhəbə hörmətlə yanaşmışdır. Mənbələrdə göstərildiyi kimi, Nadir şah şiə müqəddəslərinin ziyarətgahlarını dəfələrlə təmir etdirmişdir. Və yaxud İmam Rza məqbərəsinin yerləşdiyi Məşhəd şəhərinin paytaxt olması buna nümunə ola bilər. Beləliklə, Nadir şah şəxsiyyəti heç bir məzhəbə meyl etmir, şiəlik və sünnilik arasındakı qarşıdurmanı aradan qaldırmağa çalışırdı.

Muğan qurultayında Nadirin şahlığa olan namizədliyi 4 gün müzakirə olundu. Nadir isə şah seçiləcəyi təqdirdə bəzi şərtlər irəli sürdü. Şərtlərdən birisi vardır ki, bu məqalənin mövzusu onunla bağlıdır. Nadirin irəli sürdüyü şərtlər aşağıdakılardır:

1. Əgər onlar Nadirin şahlığını istəyirlərsə, onun sərt hakimiyyətini qəbul etməlidirlər;

2. Şah Təhmasibi və onun övladlarını varis olaraq qəbul etməməlidirlər;

3. Nadirdən sonra taxt-taca onun övladları, yaxud nümayəndələrindən biri seçilə bilərdi;

4. **Onlar şiə məzhəbinin yerinə cəfəri məzhəbini qəbul etməlidir.**

Bu fakt Nadirin hələ şahlığ taxtına oturmadan bu problemin həllini tapmağa çalışmasını göstərir.

Öncə bunu qeyd etmək lazımdır ki, bu dövrdə baş verən Əfşar-Osmanlı müharibələri zamanında Nadir şah müharibəyə meyilli olmamış, onlara qarşı mübarizədə Avropa dövlətləri ilə ittifaqa maraq göstərməmişdir. 1736-cı ildə Rusiya Osmanlı ilə müharibəyə başladı və ruslar bu zaman Nadiri Osmanlı ilə müharibəyə çox təhrik etsələr də, Nadir şah buna razı olmur. Roma Papası Nadir şaha ünvanladığı məktublarda yalnız imperiya ərazisindəki katoliklərin vəziyyəti ilə bağlı müraciətlə kifayətlənirdi. IV Benediktin Nadir şaha ünvanladığı 1742-ci il 30 iyun tarixli məktubda yazılır:

*Məşhur və çox güclü Persiya kralı Nadir şaha. Bizə valehedici xəbərlər çatdı ki, sizin yenilməz gücü vəhərbi bacarığı olan ordunuz sizin böyüklüyünüz sayəsində qəddar türk ordusunu darmadağın etmiş, mülayimlik üsul və vasitələri ilə idarə etdiyiniz xalqınızın sadiqliyi və itaətkarlığı nəticəsində qələbə qazanmısınız. Bu hadisə baş verərkən biz həqiqətən olduqca sevindik. Düşünürük ki, o düşmənlər sizin tərəfinizdən əzildi ki, onlar eyni dərəcdə ən çox xristian və farslara düşmənçilik edir, bizi narahat edirlər. Amma eyni zamanda, dəqiqliklə sizin qanunlarınızla yaşayan katoliklər bütövlüklə sizin yayılmış hakimiyyətinizə uyğun olacaq mövcud şərtləri layiqli yerinə yetirəcəklər. Odur ki, biz Əlahəzrəti məlumatlandırmaq qərarına gəldik ki, etdiyiniz uğurlu və fərasətli əməllərinizi öyrənəndə biz tərəfdən sevinc yaşandı. Biz sizin tərəfinizdəyik və uğurlarınızı alqışlayırıq. Siz daha həvəslə imperiyanızın bizim dinimizdə olan vədəndaşlarına şahlıq mərhəmətinizi göstərəcəksiniz. Əmin olmağınız lazımdır ki, onlar sizin şöhrətinizə sevinirlər. Sizin xeyirxahlığınız, diqqətiniz sayəsində hətta daha çox xristian dininin hökmlərinə itaətdə sadiq qa-*

*lırlar. Biz hesab edirik ki, siz tamamilə bununla inamlısız.* ***Daha qətiyyətlə sizin xeyirxahlığınıza güvənərək xahiş edirik, Gürcüstan krallığındakı katolik dini inancında olanlara dini təlimləri öyrətmək üçün göndərdiyimiz Kapuçin missioner qardaşları indiyə qədər bütün vergilərdən azad idilər, amma indi ağır şəkildə boğza qədər yüklənmişlər. Belə ki, öz lazımi ləvazimatlarına pul ödəyə bilmirlər. Səxavətiniz sayəsində dərdlərinə şərik olasız.*** *Onlar insan mükafatını düşünmədən yalnız zatən xalqına xeyir qazandırmaq niyyəti ilə, əbədi xoşbəxtlik üçün əmin yolu arzusunda olanlara göstərmək üçün özlərini təhlükədə qoyaraq öz ölkələrini tərk etdilər. Onlardan mərhəmətinizi əsirgəməyin. Xeyriyyəçilikdən daha möhtəşəm bir şey yoxdur. Biz şübhə etmirik ki, Siz kapuçinlərə, onların monastrlarına lütfkar olacaqsız, onlar Tiflisdə, Qoridə və Gəncədə bütün vergilərdən azad olacaq və bəraət alacaqlar* (6, s.224).

***İslahata qədər bölgədəki dini vəziyyət necə idi?*** Dini islahata qədər bölgədəki şiə tərəfi daha radikal olub, sünnilərə ifrat dərəcədə nifrət və kin bəsləyirdilər. Ədalət Tahirzadə yazır: ***"Bu zaman şiələr sünnilərə hətta xaçpərəslərdən də artıq nifrət bəsləyir, onlara hədsiz düşmənçiliklə yanaşır, ilk üç rəşidi xəlifəsi Əbubəkr, Ömər, Osmana söyürdülər"*** (11, s.19).

Bölgədəki vəziyyəti dəyərləndirərkən Səfəvilər dövlətindəki dini vəziyyəti diqqətə almaq lazımdır. Çünki 2 əsr boyunca şiəlik dini ideologiyası bölgəyə hakim olmuşdur.

Beləliklə, Səfəvilər şiəlik yaxud qızılbaşlıq dini ideologiyasını həddən artıq şişirdərək İslam aləmində - Yaxın Şərq coğrafiyasında mövcud olan parçalanmanı bir qədər də dərinləşdirmiş oldular. Bununla bağlı Nadir şah xüsusi bir fərman vermişdir. 2001-ci ildə Türkiyədə çap olunmuş "Türk xaqanları və sultanları" kitabında bu fərmanın mətni verilmişdir:

*"Öncə Allah-Taalaya sığınıram. Bilin ki, Şah İsmayıl Səfəvi 1501-ci ildə ortaya çıxdı. Cahil xalqdan bir qismini yanına topladı. Bu yalançı dünyanı və nəfsinin istəklərini ələ keçirmək üçün müsəlmanlar arasında fitnə-fəsad soxdu. Əhli-beyti sevməyi, Rafiliyi sevməyi ortaya çıxardı. Beləcə, Müsəlmanlar arsında böyük bir düşmən-*

*çilik gətirdi. Münafiqliyə və düşmənçiliyə səbəb oldu. Elə oldu ki, kafirlər rahat və qorxusuz yaşayır, müsəlmanlar isə bir-birini yeyir, bir-birinin qanlarını, namuslarını tələf edir"* (3, s.72).

Nadir şahın dini islahatı haqqında danışarkən onun özünün dinə, islama olan münasibətini mütləq qiymətləndirmək lazımdır. Müəyyən anlamda ola bilsin ki, onun bu islahatı – dini dövlətdən ayırması, ruhanilərin torpaqlarının müsadirə edilməsi oxucuda elə təəssürat yarada bilər ki, Nadir şah dinə, islama qarşıdır. Amma bu qətiyyən belə olmamışdır. Nadir şah öz dövlətində dinə olan münasibəti dəyişmiş olmaqla Allahına, peyğəmbərinə tapınan bir şəxs idi. Elə yuxarıda göstərilən fərmanda Nadir şahın fərmana allahın adı ilə başlaması buna nümunə ola bilər.

Beləliklə, Nadir şah Əfşar imperiyası dünyəvi bir ölkədir. Din dövlətdən ayrı olmuş, Səfəvilərdə olduğu kimi dindən ideologiya kimi istifadə edilməmişdir. Bunu da qeyd etmək lazımdır ki, Nadir şahın dini islahatı yalnız islam dini ilə kifayətlənməmişdir. Nadir şah öz ölkəsinin böyük coğrafiyaya hakim olduğunu bilirdi və bu səbəbdən multikultural dəyərlərə sadiq qalmış, digər səmavi dinlərin inkişafı üçün addımlar atmışdır.

***Nadir şah bu islahatın keçirilməsində nə qədər qətiyyətli oldu?*** Bu suala cavab tapmaq üçün bir neçə mənbəyə müraciət edək. M.Kazımın "Alam-araye-Nadiri" əsərində qeyd olunur ki, Nadir şah Muğan qurultayı zamanı şah seçiləcəyi təqdirdə bəzi şərtlər irəli sürür. Bu şərtlərdən biri şiə məzhəbinin əvəzinə cəfəri məzhəbinin qəbul etmənin həyata keçirilməsi idi. Bu fakt Nadirin hələ o vaxt bu məsələyə nə qədər həssas və ciddi yanaşmasını göstərir. Bu sualın araşdırılması üçün I Mahmud - Nadir şah arasındakı namə yazışmalarına xüsusi diqqət etmək lazımdır. Nadir şahın I Mahmuda ünvanladığı son namədə deyilir:

***Əgər Osmanlı sultanı cəfəri məzhəbini qanuni beşinci məzhəb kimi tanısa, bunun qarşılığında hətta dədə babalarımızdan bizə miras qalan İraq, yaxud Azərbaycan məmləkətlərindən birini onlara bağışlamağa hazırdır*** (1, s.4).

***İslahat prossesi.*** Nadir Şahın bu islahatı paralel olaraq həm dövlət daxilində həm də dövlət xaricində Osmanlılarla danışıqlar və müharibələr aparmaqla gedirdi. Demək olar, bütün tədqiqatçılar burada həmfikirdilər ki, Nadir taxta çıxan gündən etibarən əslində dini islahata başlamışdı.

Hələ Nadir taxta çıxma ərəfələrində olanda 5 maddədən ibarət şərtləri hazırladır. Bu şərtlər aşağıdakılardır

*1. Səfəvilər özlərinin əvvəlki təriqətlərindən qəti şəkildə əl çəkirlər, onların seçdiyi sünni təriqəti isə cəfərilik kimi tanınan beşinci məzhəb formasında qəbul olunmalıdır;*

*2. Mövud olan dörd təriqətdən hər birinin Kəbədə ona məxsus sütunu olduğundan İmam Cəfər üçün də beşini sütun təmin olunmalıdır;*

*3. Səfəvi ziyarətçilərinin başçısının mövqeyi Suriya əmirlərinin və Misir zəvvarlarının mövqeyi ilə eyniləşdirilməlidir, eyni zamanda Səfəvi zəvvarlarına Məkkəni ziyarətə icazə verilməlidir;*

*4. Hər iki tərəf əsirləri azad etməlidir və onların heç birinin satılmasına yaxud alınmasına imkan verilməməlidir;*

*5. Hər bir ölkə digər ölkənin sarayında öz nümayəndəsinə malik olmalıdır.*

Lokkart qeyd edir ki, Nadir bu şərtlərlə Əli paşanı və elçi təyin etdiyi Əbdül Baqi xanı İstanbula yola salır. Lakin bəzi şərtlər (xüsusulə cəfərilik məsələsi) Osmanlılar tərəfindən çox böyük narazılıqla qarşılanılır. Beləki səfər zamanı əsirlərin dəyişdirilməsi, diplomatik nümayəndəliklərin açılması, İran tərəfdən zəvvar başçısının təyin edilməsi kimi məsələlərdə razılıq əldə olundu. Lakin cəfərilik məsələsinə yenidən baxılması üçün Osmanlı tərəfi İrana yola düşdü. Osmanlı heyəti 1738-i il mayın 19-da Nadir Şahla görüşüb ona sultanın məktubunu verdilər. Məktubda Sultan aydın şəkildə ilk iki maddənin qəbul olunmayacağına görə təəssüfünü bildirirdi. Nadir isə müqavilənin əsas hissəsinin elə bu iki maddə olduğunu bildirir və bu dəfə Əlimərdan xan Şamlunu Osmanlı dövlətinə elçi kimi göndərir.

1741-i ildə Nadir öz elçisi Hacı xanı İstanbula göndərir, Sultan bir daha qeyri-müəyyən cavabıyla bərabər elçiləri Nazif Əfəndi və

Münif Əfəndini Nadirin yanına göndərir. Bu zaman Nadir elçilərlə müəyyən dərəcədə təhdidvari danışır. 1743-cü ildə Sultanın başqa bir məktubu Nadirə çatır. Məktubda Sultan cəfərilik məsələsinin qeyri-mümkünlüyünü bir daha qeyd edirdi. Nadir isə bu dəfə öz yenilməz ordusu ilə hücum edəcəyini Sultana bildirdi.

1743-cü ildə Nadir Osmanlılara qarşı müharibəyə başlasa da, Sam Mirzə və Səfi Mirzə üsyanlarının başlaması, habelə Çin kralının qoşun yığıb Əfşarlar üzərinə hücuma keçməyə başlaması səbəblərinə görə müharibəni davam etmir. Bu səbəblərə görə Nadir sülh bağlamağa tələsir. Bağdad paşası Əhməd paşa ilə görüşdən sonra o, İmam Musa və bir sıra şiə müqəddəslərinin məqbərələrini ziyarət etdi, Kərbəlaya gəldikdə onun arvadı Raziyə Bəyim səcdəgahın təmiri üçün 20.000 nadiriyyə verdi. May ayında Nadir şah Nəcəfə gəldi.Və burada cəfərilik məsələsini kökdən həll etmək üçüm böyük bir toplantı çağırdı. ***Nəcəfdəki bu görüşmələrin həm dini həm tarixi mahiyyəti çox böyükdür. Bu sənəd çox mühüm idi, zira bu sənəddə Səfəvilər və İsmayılın din siyasəti töhmətlənir, rəşidi xəlifələrinin qanuniliyi vurğulanır, habelə İranın rəsmi məzhəbinin cəfərilik olduğu bildirilirdi.*** Amma bütün bunlara baxmayaraq bu illər ərzində İran və Osmanlı arasında həmişə qeyri-müəyyənliyin olması da deyilməlidir.

Müqavilə mətni Əhməd paşanın kəndxudası tərəfindən İstanbula çatdırıldı, amma yenə də onlar bunu təstiq etmədilər, həmçinin tələsik bəyanat da vermədilər. 1745-1746-cı illərdə növbəti və sonuncu Əfşar-Osmanlı müharibəsi oldu. İranın müxtəlif bölgələrindəki başlanan üsyanlar səbəbindən Nadir sülh bağlamağa məcbur oldu. 1746-cı il sentyabrın 4-də imzalan müqavilə ilə uzun sürən fikir ayrılığına rəsmən son qoyuldu. Bu müqavilə girişdən, 3 maddədən və əlavə hissədən ibarət idi.

*Giriş hissəsində iki dövlət arasındakı sərhəd 1639-cu il Qəsri-Şirin müqaviləsindəki kimi tənzimlənir.*

*I Maddə - Osmanlı İran zəvvarlarnın sərbəst şəkildə Məkkəyə gedib gəlməsinə imkan yaradır;*

*II Maddə - Hər 3 ildən bir elçilərin mübadiləsi baş verməli idi;*

*III Maddə - Hər iki dövlət əsirləri azad etməli idi;*

*Əlavə hissə - Burada bir daha İran əhalisinin Səfəvilər dövründə tətbiq edilən nalayiq baxışlardan imtina etdiyi, ilk üç xəlifəyə hörmət bəslədiyi qeyd olunur. Həmçinin, zəvvarların sərbəst şəkildə Məkkə və Mədinəyə gedib gəlməsinə Osmanlı tərəfi razılıq verir.*

Müqaviləni Osmanlı sultanı Mahmudun adından Bağdad və Bəsrə hakimi Əhməd paşa, İrandakı keçmiş səfir Nazif Əfəndi və Nadir Şah adından Həsən Əli xan imzalamışdılar (6, s.149).

Bir hökmdar kimi bir çox ilklərə imza atan Nadirin dini dövlətdən ayırması, ruhaniləri dövlət aparatından çıxarıb məscidlərə geri göndərməsi olduqca təqdirə layiq addımdır. Qəzvində olarkən Muğan qurultayında verdiyi fərmanların icrasına başladı və bir sıra Səfəvi ənənələrinə bağlı ifadələrin işladilməsini qadağan etdi. Məsələn, o, "Əli Allahın dostudur" və "Qoy bütün taleyimizin ağası olan hökmdar əbədi yaşasın" tipli ifadələrin işlədilməsinə son qoydu (5, s 153). Zira Nadir şah fani insanın ideallaşdırılmasına qarşı çıxırdı.

***Nəticə.*** Nadir şahın dini islahatı yalnız daxili məsələləri nizamlamaq məqsədi daşımırdı. Məktublaşmalardan göründüyü kimi o, soyu bir olan türk toplumlarının dini cəhətdən bir olmasını istəyirdi, zira din birləşdirici xüsusiyyətlərə malik idi. Nəticə etibarı ilə Nadirin islahatı yarımçıq qaldı, eləcə də İslam və Türk dünyasının birləşdirilməsi cəhd olaraq hesab olunmalıdır. İslam dünyasının birləşdirilməsinə dair Lourens Lokkart yazır: ***"Güman ki, Nadirin əsl məqsədi bütün müsəlman dünyasını birləşdirmək, özü isə həmin dövlətin başında durmaq idi"*** (5, s.143). Hal-hazırda Yaxın Şərqdəki situasiyaya nəzər saldıqda yenə eyni problemlərin şahidi olmaqla yanaşı, Nadir şahın əslində necə önəmli bir məsələni əsrlər öncə görməsi və həll etməyə çalışması çox qiymətlidir. Özünü İslam bayraqdarı sayan ölkənin dindən bir siyasi güc olaraq istifadə etməsi, məzhəb problemlərinə görə İraq, Suriya, Yəmən və başqa yerlərdə on minlərin, yüzminlərin qanını tökməsi bizi bir daha düşünməyə vadar edir.

## ƏDƏBİYYAT

1. I Mahmud-Nadir şah mektuplaşmaları, Bion Matbaacılık, İstanbul 2014, 367 s. -

https://www.devletarsivleri.gov.tr/varliklar/dosyalar/eskisiteden/yayinlar/osmanli-arsivi-yayinlar/136_NAME_3_19012015.kpdf.pdf [30.04.2023].
2. Baxşəliyev Samir. Nadir şah Əfşarın dini baxışları // Tarix, İnsan və Cəmiyyət, 2021, 1(31), s.22-32. - http://www.anl.az/down/meqale/adpu-tic/2021/1/793196(meqale).pdf [30.04.2023].
3. Cahangir Hüseyn Əfşar. Azərbaycan Nadir Əfşar dövləti. Bakı, [n/y], 2014, 256 s. - https://turuz.com/storage/Turkologi/2016/1514-Azerbaycan-Nadir_Afshar_Dovleti-Cahangir_Huseyn_Afshar-Baki-2014-257s.pdf [30.04.2023].
4. Ələkbərov Faiq (Qəzənfəroğlu). Nadir şah Əfşarın Türk Birliyi ideyası // Qarapapaqlar, 2015, Oktyabr, №10 (98), s.34-39. - https://www.elibrary.az/docs/jurnal/jrn2016_368.pdf [30.04.2023].
5. Lockhart L. Nadir şah, Bakı, Qanun nəşriyyatı, 2018, 456 s.
6. Mahmudov Y., Şükürov K. Azərbaycan: beynəlxalq münasibətlər və diplomatiya tarixi: dövlətlərarası müqavilələr və digər xarici siyasət aktları. I cild. Bakı, AMEA Tİ, 2009, 512 s. - https://www.ebooks.az/book_KHjU06Jp.html [30.04.2023].
7. Melikzade Sevinc. Nadir Şah Əfşar "Karmelitlərin Xronikası"nda // Akademik Tarih ve Düşünce Dergisi, Yıl: 2019, Cilt: 6, Sayı: 5 – Prof. Dr. Yagub Mahmudov 80. Yıl Armağanı Özel Sayısı, s.210-230. - https://dergipark.org.tr/tr/download/article-file/970714 [30.04.2023].
8. Məmmədov Ceyhun. XIV-XVI əsrlərdə Azərbaycanda dövlət-din münasibətlərinin təkamülü: Səfəvilər dövlətinin şiəlik ideologiyası // Din Araşdırmaları jurnalı, №2 (7) Dekabr 2021, s.141-156. - https://isamveri.org/pdfdrg/D04374/2021_7/2021_7_MEMMEDOVAC.pdf [30.04.2023].
9. Süleymanov M.S. Nadir Şah. Tehran, 2010,741 s.
10. Süleymanova X.S. Xətti-Hümayunlar XVIII əsr Azərbaycan tarixini öyrənmək üçün mənbə kimi. Tarix üzrə fəlsəfə d-ru e. dər. al. üçün təq. ol. dis. Bakı, 2017, 167 s. - https://www.millikitabxana.az/dissertations/tarix [30.04.2023].

11. Tahirzadə Ə. Nadir Şah Əfşar (Tərcümeyi-hal oçerki). Bakı, "Kür" nəşriyyatı, 2002, 40 s. - http://www.anl.az/el/t/te_nshe.pdf [30.04.2023].

**UMID MIKAYILOV**
*SABAH groups of Baku State University*
*Second year student majoring in history teaching*

## ON THE WAY TO UNITE THE ISLAMIC AND TURKISH WORLDS - NADIR SHAH'S RELIGIOUS REFORM

Nadir Shah Afshar, known as the Last Conqueror of the East, was not only a skillful commander and ruler, but also a person who tried to handle both secular and religious issues and made great contributions along the way owing to his visionary policy. Nadir Shah Afshar, who wasn't content with restoring the former power of the Safavids, defined new goals; moreover, he expanded the borders of the Safavid State. In the research, certain issues will be touched upon in Nadir Shah Afshar's religious views and religious reform, what was his main goal in uniting the two Islamic sects, for what reasons Nadir Shah felt the need to carry out this reform, what were the religious views of this personality, how determined was Nadir Shah during the reform and we will try to find answers to other questions.

*Keywords:* Nadir Shah's religious reform, Jafarism, Sunnism, Imam Jafar Sadiq.

*Daxil olma tarixi*: 30.04.2023-cü il.
*Çapa imzalanma tarixi*: 05.05.2023-cü il.

**UOT 327**

**ЗИАД КЯЗИМОВ**
*Магистрант I курса кафедры*
*«Дипломатии и современных интеграционных процессов»*
*Бакинского Государственного Университета*
**kazimovziyad@gmail.com**

# ТЕОРЕТИКО-МЕТОДОЛОГИЧЕСКИЕ АСПЕКТЫ ИНТЕЛЛЕКТУАЛЬНОЙ МИГРАЦИИ

*Научный руководитель*:
доктор философии по историческим наукам Эмин ГАДЖИНСКИЙ

*В статье рассматриваются причины и социально-экономические последствия международной интеллектуальной миграции в современных условиях. Рассмотрены различные теоретико-методологические подходы к изучению этого процесса. Выявлены основные концептуальные направления его регулирования и обобщен мировой опыт его реализации в ряде развитых, развивающихся и стран с переходной экономикой.*

*Ключевые слова:* международная интеллектуальная миграция, «утечка умов», интеллектуальный капитал, страны-доноры.

***Введение.*** Преобладающей тенденцией в современных международных отношениях становится процесс глобализации, являющийся естественным шагом исторического-развития человечества и представляющий собой, эволюционный процесс, развития мировой экономики, и международных отношений, результатом которого является все возрастающее влияние на экономику, политику, социальные системы отдельных стран различных факторов международного значения: экономических и политических связей, технического, информационного и культурного обмена, в том числе миграционных процессов.

Миграция населения и трудовых ресурсов в конце XX – начале XXI века, в рамках которой значительное место занимает миграция высококвалифицированных специалистов, показала

возросшее значение научного потенциала в социально-экономическом развитии международного сообщества. По существу, на рубеже веков сформировалось глобальное явление межгосударственной интеллектуальной миграции, в котором интеллектуальный труд является важнейшим фактором и ресурсом устойчивого развития и безопасности страны.

Миграция населения (от лат. migratio) – означает переселение, перемещение [11]. Однако современное значение этого термина значительно шире. Его применяют как для обозначения социально-экономических явлений, так и социально-политических, неоднозначных по своему характеру, последствиям и обуславливающим факторам. Миграцию определяют как мобильность (лат. mobilis) или в русском аналоге – подвижность, она же – движение, перемещение, переселение, перераспределение и т.д.

Миграция населения – общественное явление. Население представляет собой не только совокупность людей, но и специфическую систему общественных связей и отношений, выступая в качестве подсистемы «общество» [16, с.101].

Миграция как особый феномен рассматривается с самых разных точек зрения – экономической, социальной, исторической, культурной, демографической, этнической. Кроме того, миграционные потоки, различаясь между собой не только количеством, но и качеством, способны изменять как отдающее, так и принимающее общество.

Таким образом, характерной чертой миграции является множественность ее функций. Известный российский исследователь проблем миграций В.И. Переведенцев подчеркивал в связи с этим, что «миграция населения стала одним из наиболее характерных признаков современного общества, его неотъемлемой чертой, его необходимым элементом; она выполняет громадной важности общественные функции: не только перераспределения трудовых ресурсов, но и трансляции культуры» [14, с.227].

Многоаспектность миграционных процессов обусловило появление различных трактовок понятия миграции населения. В

современной теории политической науки сложилось два подхода к определению миграции – в широком и узком смысле слова. В широком смысле под миграцией понимается любая форма территориальной мобильности населения безотносительно к ее регулярности, цели и продолжительности [13, с.6].

Согласно трактовке Л.Л. Рыбаковского, миграция как процесс представляет «множество событий, влекущих за собой смену места жительства», и является массовым в количественном соотношении процессом [17, с.15].

Социальными субъектами миграционных процессов являются: мигрант - лицо, совершающее территориальное передвижение со сменой постоянного места жительства и работы навсегда или на определенный срок, и мигранты - социальные группы, совершающие миграционное движение [15, с.49].

Таким образом, миграция как социальный процесс - это движение, перемещение людей, результатом которого являются изменения в положении социальных групп, отдельных индивидов (территориальном, социальном, экономическом и т.д.), в человеческих отношениях (адаптация, дезадаптация, ассимиляция и т.д.), то есть в социальной структуре принимающего и отдающего общества. Миграция, как любой социальный процесс может характеризовать следующие изменения: во-первых, в структуре личности (формирование установок, ценностных ориентаций или мотивации поведения); во-вторых, во взаимодействии нескольких индивидов (общение, личностные конфликты); в-третьих, внутри- и между групповое взаимодействие (адаптация, сплочение, совместная работа).

В соответствии с общепринятой типологией миграционных процессов, первым признаком миграции считается время пребывания в месте вселения (новом месте жительства или приложения труда). В соответствии с этим критерием к основным видам миграции относят – постоянную (безвозвратную) и временную (возвратную).

Второй признак – географический или пространственный – позволяет выделить два типа – внешние и внутренние. Критерием является пересечение любых административных или государственных границ. Переселение населения между странами и континентами – это внешняя (международная) миграция. В демографическом энциклопедическом словаре отмечается: «международная миграция населения, внешняя или межгосударственная миграция есть перемещение людей через государственные границы, связанное главным образом с изменением их постоянного места жительства» [4, с.243].

Международная миграция населения представляет собой территориальные передвижения людей через государственные границы, связанные с изменением постоянного места жительства и гражданства, обусловленным различными факторами (семейными, национальными, политическими и др.), или с пребыванием в стране- въезда, имеющем долгосрочный (более 1 года), сезонный характер, а также с эпизодическими поездками на работу, отдых, лечение и тому подобное.

Главными отличительными признаками международной миграции населения по сравнению с внутренней миграцией являются государственная граница, ее пересечение и соответствующий государственный контроль, как за фактом самого передвижения через границу, так и за последующим пребыванием в стране-въезда, особенно в связи с трудоустройством и поступлением на учёбу или стажировку. Международная миграция населения подразделяется на две основные разновидности – межконтинентальные и внутриконтинентальные миграции. Миграционный поток, идущий из страны, носит название эмиграция, приток населения в страну – иммиграция. Соответственно лица, прибывающие в страну, называются иммигрантами, а покидающие ее – эмигрантами.

Третий признак – цели миграции, которые подразделяют миграционные потоки на экономические (трудовая, коммерческая миграция), учебные и т.д.

Прежде, чем мы приступим к раскрытию понятия интеллектуальная миграция, считаем, что будет вполне уместным остановиться на таком важном миграционном процессе, как «международная трудовая миграция» [7, с.544].

Интеллектуальная миграция является одной из разновидностей международной трудовой миграции. Международная интеллектуальная миграция как явление сформировалась на позднем этапе развития международной трудовой миграции, Термин «интеллектуальная миграция» или «утечка умов» ("brain drain") появился в 60-е гг. XX века в связи с массовым переездом ученых и инженерно-технических работников, имеющих высокую квалификацию и обладающих исключительными профессиональными навыками, из Великобритании в США [3, с.161]. Целью такого перемещения являлся поиск нового места применения их профессиональной квалификации и интеллектуальных возможностей, приносящего желаемый доход и социальный статус. При этом на современном этапе развития общества работник становится интересен не как носитель способности к малоквалифицированному, монотонному труду, а как обладатель уникальных интеллектуальных способностей, являющихся результатом обучения и творческого поиска [2, с.6].

Международная интеллектуальная миграция имеет сложную структуру, идет процесс ее дифференциации по профессиональным признакам, уровню квалификации с выделением потоков обладателей интеллектуального капитала. С данных позиций правомерно выделение категории «международная интеллектуальная миграция» как формы движения интеллектуального капитала [2, с.8]. Увеличение ее объемов и интенсивности является сегодня одной из особенностей миграционных трудовых потоков.

Расширенное понимание понятия «интеллектуальная миграция, включает миграцию не только научно-технических специалистов, но и творческой интеллигенции, а наиболее широкая трактовка подразумевает весь комплекс миграционных потоков

квалифицированных кадров, более одного года работающих за рубежом.

Миграция населения воздействует на общественное развитие посредством осуществления своих функций – тех конкретных ролей, которые играют миграции населения в жизнедеятельности общества. Функции интеллектуальной миграции населения неоднозначны. С одной стороны, они представляются как независимые от типа социально-экономической системы и особенностей отдельных обществ. А с другой – как функции, характер которых определяется социально-экономическими условиями конкретных обществ. Первые – общие функции миграции населения, вторые – специфические функции миграции населения той или иной общественно-экономической формации [5, с.76].

Стимулирующие факторы эмиграции могут быть подразделены на две основные группы: «притягивающие» (pull) факторы, в которых суммируется сила открывающихся возможностей, и «выталкивающие» (push) факторы, или бремя ожидаемых трудностей. И в той, и в другой группе присутствуют экономические и неэкономические факторы. Так, в отношении стран Восточной Европы было отмечено, что «из-за ухудшения условий исследовательской работы и серьезных социально-экономических проблем, которые оказывают сильное влияние на творческую работу, большинство ученых покидают свои страны не вследствие профессиональных, а чисто экономических причин». В развивающихся странах одним из главных выталкивающих факторов является отсутствие в них «критической массы» интеллектуального труда, научная изоляция местных ученых.

«Утечка умов» (миграция «высококвалифицированных кадров») (“brain drain”) является особым видом межгосударственной миграции населения, охватывающим интеллектуальную национальную элиту. Выражение «утечка мозгов» (Brain Drain) появилось в начале 1950-х годов. Подобным образом в Великобритании описали процесс массового переезда английских ученых в США [10, с.42].

При рассмотрении этого вида миграции, как и миграций населения вообще, выделяются специфичные условия миграции, ее факторы, причины и последствия.

Среди структурных факторов миграции исключительно важное значение приобретают этнические и профессиональные факторы, во многом обуславливающие как структуру миграционных потоков, так и уровень миграционной подвижности отдельных контингентов населения.

Среди стимулирующих факторов основными являются экономические факторы.

Среди причин миграций (т.е. особой формы отношений между объективными факторами и субъективными потребностями) новое качество приобретают два важнейших регулятора миграционного поведения – среда и социальные нормы. В плоскости миграционного поведения – противоречия между уровнем развития личности, ее потребностями и условиями их удовлетворения являются основной причиной миграции.

В современной научной литературе существует множество подходов к исследованию миграции. Среди них, наиболее обоснованными и разработанными в научном плане, можно считать, во-первых, изучение миграции как социального процесса; во-вторых, исследование миграции как социального феномена (в трактовках некоторых ученых - явления); в-третьих, рассмотрение миграции как социального института [1, с.70].

Известный российский учёный М.М.Лебедева рассматривая процесс интеллектуальной миграции на сопоставляет процессы оттока сельского населения в города и утечки квалифицированных специалистов в развитые страны. Она разграничивает интеллектуальную миграцию в узком (миграцию научно-технических специалистов и творческой интеллигенции) и в широком понимании (миграционные потоки квалифицированных кадров, более одного года работающих за рубежом) [8, с.53].

Ряд исследователей под интеллектуальной миграцией понимают интеллектуальную эмиграцию (отъезд из страны) науч-

но-технических и других высококвалифицированных специалистов на постоянное (как правило, с изменением гражданства) или на временное (на длительный срок) проживание; своеобразный вид международной миграции [12, с.41].

В конце 80-х годов XX века в теорию международных отношений был введён научный оборот – термин «циркуляция умов». Под ним подразумевались циклические перемещения специалистов за границу для обучения и работы, последующим возвращением на родину и повышением профессионального статуса за счет новых компетенций, приобретенных во время пребывания за рубежом. Признавая, в целом, что страна-донор ухудшает в связи с интеллектуальной эмиграцией свое текущее положение, сторонники идеи «циркуляции умов» обращают внимание на потенциал повышения конкурентоспособности в будущем, особенно в случае, если удастся развернуть адекватные программы, стимулирующие реэмиграцию специалистов из-за рубежа [6, с.36].

***Выводы.*** Подводя итоги сказанному, выше отметим, что в настоящее время понятие «интеллектуальная миграция» характеризует главным образом процессы выезда ученых и квалифицированных кадров для работы за пределами своей страны. Но единого содержательного определение феномена интеллектуальной миграции в научной среде не существует. Исследователи обычно включают в него трансграничные перемещения научно-технических специалистов, иногда причисляя к мигрантам также творческую интеллигенцию и студентов, получающих образование за рубежом. Наиболее широкая трактовка подразумевает под интеллектуальными мигрантами всех получивших профессиональную квалификацию лиц, находящихся за рубежом более одного года.

Таким образом, процессы интеллектуальной эмиграции являются сложным социально-экономическим явлением, испытывающим воздействие ряда противоречивых тенденций и, в свою очередь, оказывающим неоднозначное воздействие на сферу науки в стране.

## ЛИТЕРАТУРА

1. Бабаева П.А. Миграция, как социальный институт //Теория и практика сервиса: Экономика, социальная сфера, технологии, 2012, №4(14), с.68-73.
2. Бондарь А.В., Корнеевец И.В. Человеческий капитал – ключевой ресурс постиндустриального общества // Вестник. Белорусского экономического университета, 2006, №1, с.5-11.
3. Воронина Н.А. Интеллектуальная миграция: зарубежный и российский опыт регулирования // Труды Института государства и права РАН, 2018. Том 13, №6, с.158-183.
4. Демографический энциклопедический словарь. Москва, Советская энциклопедия, 1985, с.243.
5. Должикова В.Ю. Интеллектуальный капитал и интеллектуальная миграция в условиях глобализации. М., Проспект, 2017, 76 с.
6. Интеллектуальная миграция в современном мире: учебное пособие. Москва, МГИМО –Университет, 2014, 253 с.
7. Колисницина М.И., Суворова И.К. Международная трудовая миграция: теоретические основы и политика регулирования // Экономический журнал Высшей школы экономики, 2005, №4,- с.543-565.
8. Леденева В. Миграция российских специалистов – сдерживающий фактор социально-экономического развития // Альманах «Этнодиалоги», 2011, № 1, с 53-60.
9. Массей Д. Синтетическая теория международной миграции / Мир в зеркале международной миграции: Научная серия: международная миграция населения: Россия и современный мир. Вып. 10 / Гл.ред. В.А.Ионцев. М., МАКС Пресс, 2002, с.132-148.
10. Митин Д.Н. Интеллектуальная миграция: сущность, последствия и пути решения // Вестник Российского университета Дружбы народов. Серия Политология, 2011, №1, с.41-47.
11. Рыбаковский Л.Л. Миграция населения (вопросы теории) миграция населения: понятие, сущность особенности. Москва, Издательство Юрайт, 2023, 480 с.

12. Митин Д.Н. Интеллектуальная миграция: сущность, последствия и пути решения // Вестник Российского университета дружбы народов, серия политология, 2011, №1, с.41-47.
13. Ноздрина Н.Н. Применение методов системного анализа при изучении миграции населения: М: ВНИИСИ, 1978, с.6.
14. Переведенцев В. И. Методы изучения миграции населения. Москва, Наука, 1975, с.231.
15. Петров В.Н. Этнические миграции в современной России: детерминанты и типология // Социологические исследования. 2009, №10, с.48-57.
16. Рыбаковский Л.Л. Методологические вопросы прогнозирования населения. Москва, Стастика, 1978, 208 с.
17. Рыбаковский Л.Л. Миграция населения: Вып.5: Стадии миграционного процесса. М.: Мин. по делам федерации, национальной и миграционной политики РФ, 2001, 159 с.

**ZIAD KAZIMOV**
*Master of the 1st year of the Department of Diplomacy and modern integration processes" of Baku State University*

## THEORETICAL AND METHODOLOGICAL ASPECTS OF INTELLECTUAL MIGRATION

The article examines the causes and socio-economic consequences of international intellectual migration in modern conditions. Various theoretical and methodological approaches to the study of this process are considered. The main conceptual directions of its regulation are identified and the world experience of its implementation in some developed, developing and countries with transitive economies is summarized.

*Keywords:* international intellectual migration, brain drain, intellectual capital, donor countries.

*Daxil olma tarixi*: 30.04.2023-cü il.
*Çapa imzalanma tarixi*: 05.05.2023-cü il.

***Çapa hazırlayan:*** **Lamiyə Ruintən**

Çapa imzalanmışdır: 05.05.2023.
Kağız formatı: 60x84 1/16 Həcmi: ç.v. Sayı: 100

"Elm və təhsil nəşriyyatı"nın mətbəəsində hazır pozitivlərdən çap olunmuşdur